AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## VIII KİTAB

BAKI – 2019

**Layihənin rəhbəri:** **Muxtar KAZIMOĞLU-İMANOV**
AMEA-nın həqiqi üzvü

**Tərtib edən:** f.ü.f.d., dosent **Mətanət MAŞALLAH qızı (ABBASOVA)**

**Mətnləri transliterasiya edənlər:** f.ü.f.d., **Qiymət MƏHƏRRƏMLİ**
**Səbuhi BƏDƏLOV**

**Redaktoru:** **Lalə BƏDİROVA**

**Güney Azərbaycan folkloru, VIII kitab.** Bakı, Elm və təhsil, 2019, - 408 səh.

Kitaba Güney Azərbaycanın müxtəlif bölgələrindən toplanmış folklor örnəkləri daxil edilmişdir.

folklor.az

G $\frac{4603000000}{N-098-2019}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2019

# ÖN SÖZ

Güney Azərbaycan folklorunun toplanması, sistemləşdirilməsi istiqamətində hazırlanıb təqdim olunan növbəti VIII kitabda Təbriz, Xoy, Qaradağ, Ərdəbil və s. bölgə və ərazilərdən toplanan folklor nümunələrinə geniş yer verilmişdir. Əvvəlki kitablarımızda olduğu kimi, ənənəvi formada bu cildə də bayatılar, uşaq folkloru, atalar sözləri və məsəllər, deyimlər, nağıllar, lətifələr, türkəçarə-xalq təbabəti və s. müxtəlif janrlı mətnlər daxil edilmişdir.

Qeyd edək ki, Güney folklor mühitinin öyrənilməsi bir daha göstərir ki, Quzey və Güney folklorunun müxtəlif ədəbi və siyasi məkanlarda inkişafı onun şifahi ədəbiyyatına da öz ciddi təsirini göstərmişdir. Sözsüz ki, burada söhbət təkcə dialekt və şivə xüsusiyyətlərindəki fərqlərdən deyil, həm də repertuar, mətn versiya və variantlarından gedir. Mövcud fərqliliklərə baxmayaraq, bütün hallarda bu iki siyasi məkanın folklor dəyərləri eyni kök və milli düşüncəyə bağlıdır. Xalq ruhundan qidalanan folklor örnəkləri bütün hallarda hər cür ideoloji təsirləri rədd edərək, milli mənafeyə bağlı, milli məfkurə üzərində yaradılmışdır.

Kitabda təqdim olunan müxtəlif başlıqlı janrlar haqqında fikir söyləmək imkanı olmadığından, bəzi vacib məsələləri qeyd etmək istərdik.

Güney folklorunun araşdırılması belə bir faktı vurğulamağa əsas verir ki, xalq uzun illər müxtəlif siyasi-sosial hadisələrin məngənəsində qalmasına baxmayaraq, ata-baba sözlərinin toplanılması, bu hikmətli sözlərin köklərinin öyrənilməsində həmişə maraqlı olmuşdur. Təcrübə göstərir ki, Güneydə atalar sözləri və məsəllərin fars dilində yazıya alınması zaman-zaman bu mətnlərin Azərbaycan dili ilə qarşılıqlı şəkildə tərtibi, nəhayətkonkret olaraq ana dilində çapa hazırlanmasına qədər tarixi bir yol keçmişdir.

Cənubi Azərbaycanda atalar sözləri ilə bağlı çap olunan ilk kitablar sırasında "Vətən Dili Türkü Məsəllər" (Mahmudoğlu Əliqulu Vaiz Dehhargani, Məşhəd Əsədağa (Daşbasma atelyesi), 1294, 68 s. ), 2500 atalar sözünü ehtiva edən "Əmsal Hikem Deyər Zebanı Məhəllini Azərbaycan" (Əli Əsgar Müctəhidi, Təbriz, 1332, 286 s. ), 3000 atalar sözlərindən ibarət olan" Ata-

lar sözü" (Yaqub Qüds, Tehran, Nəşri-Novid, 1359), "Atalar sözü, ağlın gözü" (Dr. Hüseyn Feyzullahi Vahid, Təbriz, 1366, 109 s. ), "Ata-babalar deyiblər" (Əli Zeferxah, Təbriz, 1370, 74 s. ), "Zərbol-məsəllər" (Zöhrə Xanım Vəfayı. Təbriz, 1374, 215 s. ), "Yurdumun dəyərli sözləri" (Ferəngiz Xanım Hacı Settari, 1382) və s. xüsusi yer tutur. Qeyd edək ki, bu kitabların tərtibatında atalar sözləri həm də farsca tərcümələri ilə birlikdə verilmişdir. Bundan başqa, Güneyin bu və ya digər konkret bölgədəki tayfalarını əhatə edən atalar sözləri və məsəllərinin toplanılması işinə də təşəbbüs göstərilmişdir. Əsadullah Mərdəni Rəhmi Firuzabadın yerli zərbül-məsəlləri, qaşqay türklərinin atalar sözlərinin toplanılması işi üzərində çalışmışdır. Müxtəlif bölgə materiallarının toplanılmasında xüsusi olaraq "El bilimi və ədəbiyyatı" dərgisinin fəaliyyəti təqdirəlayiqdir. Belə ki, dərgidə çap olunan nümunələr Ərdəbil, Zəngan, Xalxal, Qaradağ, Təbriz, Xoy və s. yerli atalar sözü və məsəllərinin toplanılmasında həm də müqayisələr aparılmasına imkan yaradır.

Toplanan atalar sözləri və məsəllərin yaranması tarixi və köklərinin öyrənilməsi işinə də Güneydə ayrıca maraq göstərilmişdir. Cənubi Azərbaycanın şair və yazıçılarından olan Razılıq Gaffari, Behruz İmani, Behruz Həqqi, Həsən M. Cəfərzadə tərəfindən bu nümunələrin mənşəyi, atalar sözlərinin qaynaqlarını müəyyən edən müxtəlif hadisələrin tarixi, mifoloji kökləri araşdırılmışdır. Qeyd edək ki, kitabda təqdim olunan lətifə mətnlərinin əksəriyyəti Həsən M. Cəfərzadənin "Ataların hikmətli sözləri və kökləri" ("Şərif" nəşriyyatı, Tehran, 2013) araşdırmasından götürülmüşdür. Həsən Cəfərzadənin bir araya gətirdiyi bu mətnlərin əksəriyyəti bu gün xalq arasında mətn strukturu, təhkiyə quruluşu etibarilə lətifələrin janr xüsusiyyətlərində özünü göstərir. Bu baxımdan, el deyimi – sabit frazeoloji vahidə çevrilən mətnlərin janrı lətifələrə uyğun olduğu üçün biz bu nümunələri "lətifələr" başlığı altında verilən mətnlərə daxil etmişik.

Azərbaycan folklorunun ən geniş yayılmış janrlarından biri də mövzu özəllikləri, yayılma arealının çoxşaxəliliyi, satira və yumor çalarlarının zənginliyi ilə seçilən lətifələrdir. Müstəqil

janr olaraq lətifələr etnik-mədəni sistem daxilində zamanla böyük bir tarixi dövrdən başlayaraq inkişaf etmiş və müasir günümüzə qədər gəlib çıxmışdır. Xalqın gülüş mədəniyyətinin ifadəsində lətifələr müxtəlif zaman və məkan, tarixi şəxsiyyətlər, ayrı-ayrı bölgələrdə baməzəliyi ilə seçilən insanlar tərəfindən yaradılmış, ağızdan-ağıza, eldən-elə variantlılıq qazanaraq keçmiş və janrdaxili əlaqədə formalaşmışdır. Azərbaycan lətifələrinin regional baxımdan Quzey folklor mühitində yaranan mövzu genişliyi, zəngin obrazlar sistemi və poetik özünəməxsusluğu uyğun formada Güney folklorunda da eyni kökdən gələn qaynaqlara bağlıdır. Bütövlükdə, ümumazərbaycan kontekstində lətifə janrının formalaşmasını şərtləndirən amillər, onların inkişaf mexanizminin xüsusiyyətləri ümumi düşüncə, köklərə bağlı olaraq yaranmışdır. Lakin qeyd etmək lazımdır ki, istər şifahi, istərsə də yazılı ədəbiyyatın yaranma və inkişaf tendensiyası həm də bu mədəniyyətin qol-qanad atdığı ictimai-siyasi mühit və tarixi dövrün kontekstində formalaşır. Bu baxımdan, şifahi xalq ədəbiyyatının digər janrlarında olduğu kimi, lətifələrin mövzu, ideya özəlliyi Güney folklor mühitində bir çox cəhətdən orijinallıq kəsb edir. Əvvəlki cildlərimizdə təqdim edilən bölgə lətifələrindən fərqli olaraq, kitabda Təbriz folklor mühitindən Təbrizin tanınmış şəxsləri, baməzə insanları – dübbələrinin dilindən söylənilib xalq arasında yayılan lətifə, məzəli söhbətlərə ayrıca yer vermişik. Güney folklorundan Təbriz məhəlli lətifələri daha çox Hakim Əli, Əbaçı oğlu, Nəsirzadə, Sarı Qulu, Hüseyn Fışkaçı, Kərbəlayi İsmayıl əmi və s. şəxslərin adı ilə bağlanmış və xalq arasında yayılmışdır. "Təbriz lətifələrini neçə böyük qrupa bölmək olar. Bunlardan tanınmış dübbələr, yaxud da ədəbi-ictimai şəxslərə mənsub lətifələr, tarixişəxslərə aid lətifələr və nəhayət adi və məişət lətifələrindən ad aparmaq olar. Təbriz əhalisi qədim zamanlardan iti zəka və hazırcavablığı ilə məşhur olmuşlar. Şəhərdə həmişə bir para dübbələr var imiş ki, müxtəlif şadlıq məclislərinə gedib, camaata məzəli sözlər və əhvalat danışıb gülmüşlər. Məsələn: Məstecabüldole, Əsgər Qilifti və ... Ondan əlavə bir çox adi şəxslər, ya da hətta ictimai xadimlər və ədiblər

və sənətkarlar da var ki, onlar da güclü tənzər qabiliyyətinə malik olmuşlar. O cümlədən, son illərdə Hakim Əli, Əbaçı oğlu Nəsirzadə, Mirbağır Hacızadə ... ad aparmaq olar”[1].

Adları çəkilən şəxslərin bir çoxu Təbrizin sosial-siyasi cəmiyyəti və məişətində tanınıb, seçilən insanlardan olmuşdur. Bunlardan Mirzə Həsən Nasirzadə Təbrizin vaiz və xətiblərindən biri olmuş, bu şəhərdə dünyasını dəyişsə də, Maralanda dəfn edilmişdir. Həsən ağa Azərbaycanda aşıq kimi tanınmış, Mirbağır Hacızadə aktyor olaraq fəaliyyət göstərmiş, Şükür oğlu Abdi isə Təbrizin Sərxab məhəlləsində yaşayaraq məzəli söhbətləri ilə seçilmişdir. Təbriz folklorunda Mirbağır Hacızadədən “Alan kimdi?”, “Əbaçı oğlundan vergi”, “Məni üzdən apar”, Mirzə Həsən Nasirzadədən “Qurd”, “O yana döndər məni”, “Bəli”, Sarı Quluxandan “Oğul” və s. adlı lətifələri bu şəxslərin müəyyən hadisə və vəziyyətlərə münasibəti zəminində yaranmış, məzəli əhvalatlara çevrilmişdir. Bu qrup lətifə mətnlərinə də təqdim etdiyimiz kitabda yer verilmişdir.

Təbriz lətifə mətnlərinin janrdaxili əlaqədə formalaşması struktur etibarilə gülməcələrin fərqli ifadə şəkillərini də müəyyənləşdirir. Dialektoloji məzmunda “ələ salmaq”, “oyuna gətirmək”, “ələ salıb gülmək” mənasında işlənən “sarımaq” ifadəsinə bağlı Təbriz folklorunda lətifələrin xüsusi formaları da yaradılmışdır. Daha çox iki misrada, qafiyə üzərində qurulan bu deyimlər lətifə qrupunda məzəli deyimlər – sarmalar, sarımalar şəklində işlədilməkdədir. Mətn təhkiyəsinə uyğun olaraq sarımalarda hadisə, prosesin real görüntü və məzmunu arxa planda saxlanılır, dolayı yolla, yumor üzərində fikrə yanaşmalar təlqin olunur. Eyni zamanda, məzəli fikirlər bir çox hallarda şeir texnikasına bağlı misralararası qafiyəlilikdə təqdim edilir. Sarımalar gülüş doğuran xüsusiyyətlərə malik olmaqla lətifələrə daha çox yaxındır, eyni zamanda digər el deyimləri ilə ortaqlıq təşkil edir: “... Doğrudur, sarımalar da deyimlər kimi qalib söz sayılıb, həm də sözgəlişi deyilir, amma deyimləri sarımalardan ayıran özəllik ondan ibarətdir ki, biz deyimləri əsasən öz sözümüzə qüvvət

[1] Əli Rəza Sərrafi. Təbriz lətifələri. “Azərbaycan El bilimi”, 54-55-say, səh. 6

olaraq qullanırıq. Halbuki, sarımaları özgə sözünün arasında bir müsbət, ya mənfi atmaca – söz kimi deyirik. Burada sözə qüvvət vermək deyil, əksinə əsas sözü tərs yola yönləndirərək, ciddi sözün arasında qeyri-ciddi "gülüş pəncərəsi" açmaq qəsd edirlər"[2]. Qeyd edək ki, bu qrup deyim, məzəli ifadələr Təbriz folklorunda Əli Rəza Sərrafi tərəfindən toplanılmışdır:

– Görəsən, filankəs niyə öldü?
– Çoxdan idi ölmürdü.

* * *

– Sən urussan?
– Yox, urus mənim qardaşımdı.

* * *

– Sən orucu tutanda neynəssən?
– Vallah, mən orucu tutmax həmin yeyir və s.

Dialoq üzərində qurulan bu qrup məzəli deyimlərin bir çoxu sualla yanaşı, məlumatlar əsasında da yaradılmışdır:

– Çox yedin ha!
– Mən hələ nəmənə yedim ki, yeyən o rəhmətdix təkin olar.

* * *

– Bir az kefsizəm, sizə gəlmərəm.
– Olmasa, keflən gə da!

* * *

– Buyur bir çay içax.
– Çox sağ ol, ilə indi çay qırağınan gəlirəm.

* * *

– Mənim bir dana bağım var.
– Hə mənim də iki dana tuman bağım var.

Qeyd edək ki, məzəli deyim və ifadələrin bu şəkildə işlədilməsi ənənəsinə Molla Nəsrəddinin adına bağlı lətifə mətnlərində də rast gəlirik:

– Molla, filankəsin evində qonaqlıqdı.

---

[2] Əli Rəza Sərrafi. Sarımalar. "Azərbaycan El bilimi", 54-55-say, səh. 23

Deyir:
– Mənə nə?
Deyir:
– Molla, səni də çağırıblar.
Deyir:
– Sənə nə?

Təbriz folklor mühitindən nəzərdən keçirdiyimiz lətifə mətnləri belə bir fikri söyləməyə əsas verir ki, bu nümunələr janr etibarilə öz tarixi, etnik köklərinə möhkəm bağlı olmaqla inkişaf etmiş, fərqli siyasi-sosial şərtlərdə belə ilkin ənənə və təcrübəsindən uzaq düşməmişdir. Bu gün Təbriz folklor mühitində geniş işləklik qazanmış – "Hələ harasın görmüsən?", "Mən də qoşullanı qaçaram", "Ya gərək kərə verəsiz, ya gərək ərə verəsiz", "Eşşək qaziyəsi", "Əgər bu pişikdi, ət hanı, əgər bu ətdir, bəs pişik hanı?", "Xan məni dindirdi", "Haralısan" və s. lətifələr demək olar ki, yarandığı dövrdən süjet sabitliyini qorumuş, Quzey və Güney mühitlərində olduğu kimi saxlanılmışdır. Bununla yanaşı, Təbriz məhəlli lətifələrindən "Özü tutsun, özü yesin", "Arvad yığışdır, burdan gedax", "Zəncəfil", "Hacı sürtəcağam", "Bostan olub", "Sən də ... " və s. konkret şəxslərlə bağlı mətnlər həm də orijinal xüsusiyyətlər daşımaqdadır.

Güney folklorunda xalq nağılları, bu mətnlərin çoxsaylı variantları da geniş yayılmışdır. Qeyd edək ki, Güney folklorunda digər janrlara nisbətən nağıl mətnlərinin toplanılması işinə xüsusi diqqət yetirilmiş, Xoy, Maku, Qaradağ, Təbriz, Sərab və s. şəhər, mahallara bağlı nağıllar toplanılaraq bir araya gətirilmişdir. Toplama mətnləri paralel olaraq ayrıca kitablar şəklində də çap olunmuşdur. Xoy bölgəsi nağıllarının toplanılması üzərində çalışan Furuğ Xızırlı Güneydə nağılların toplanılması və çap işini aşağıdakı toplular əsasında dəyərləndirmişdir:

– Azərbaycan nağılları (Səməd Behrəngi)
– Xoy nağılları (Zihəq)
– Əfsanəhayi-Azərbaycan (Əhməd Azər Əfşar)
– Aşiq dev (Həbib Sahər)
– Çap olunmamış nağıllar (Behruz İmani, Əkbər Rəhimzad Fərci)

– Azərbaycan nağılları (Köçürən: Əli Əbadi)
– Nağıllar (Sirus Əli Əkbərzadə, Həsən Səphərfər)
– Əfsanəhayi-Azərbaycan (İbrahim Darabi). [3]

Adları çəkilən kitab nəşrlərindən göründüyü kimi, çap olunan vəsaitlər bilavasitə toplu halında nağıl mətnlərini əhatə edir. Lakin onu da əlavə etmək lazımdır ki, konkret nağıl mətnlərinin bir arada yer aldığı bu kitablarla yanaşı, müxtəlif janrlı folklor mətnlərinin birlikdə çap olunduğu müntəxəbatlarda da nağıllara ayrıca yer verilmişdir[4].

Güney mühitində nağıl mətnlərinin toplanılması ilk dövrlərdə ana dilinin yasaq olunduğu bir zamanda xüsusi folklor araşdırma mərkəzləri tərəfindən idarə olunmamış və toplama işi bu və ya digər ziyalıların öz təşəbbüsləri hesabına aparılmışdır. "Çap olunmamış nağıllar" kitabının toplayıcılarından olan Behruz İmani İranda Azərbaycan nağıllarının bir araya gəlməsindəki çətinliklərdən danışarkən bu mətnləri Sərab mahalından qohum-əqrabadan dinləməklə, yaylaq və qışlaqdakı köçəri ellərdən qələmə aldığını bildirmişdir.

Bu işi şərəflə yerinə yetirən Səməd Behrəngi və Behruz Dehqaninin adı da Güney mədəniyyətində xüsusi hörmətlə çəkilir.

Güney folklorunda son dövrdə çap olunan kitablar sırasında Qənbər Seyfinin Qaradağ mahalından topladığı "Azərbaycan nağılları" və Susən Nəvadeyi Rəzinin toplayıcılığında təqdim etdiyi "Ənnəmlə mən" kitabları xüsusi yer tutur[5].

Qənbər Seyfinin toplayıcılığında təqdim olunan ilk kitabda 91 nağıl mətni qeydə alınmış və bu mətnlərin söyləyiciləri haqqında da əlavə məlumatlar verilmişdir. İkinci kitab isə Təbrizli Susən xanım Nəvadeyi Rəzinin anası İsmət xanımdan (İsmət xanım Nəvadeyi Rəzi) qələmə aldığı folklor örnəkləri əsasında hazırlanmışdır. Xatırladaq ki, toplama materialları kitab şəklində

---

[3] Azərbaycan nağılları. (hazırlayan: Furuğ Xızırlı (Xoy), Təbriz, 2013, s. 9

[4] Əli Zəfərxahın "El biligi sərvətimiz" (1382), "Folklor xəzinəsi" (1349); Mir Hidayət Hesarinin "Seyri dər folklor Azərbaycan bər əsas munuqrafi məntəq-e Yekanat" (Tehran, 1969) və s. kitabları).

[5] Azərbaycan nağılları. (Toplayıb, hazırlayan: Qənbər Seyfi). Araz yayın evi, Tehran, 1397; Ənnəmlə mən (Toplayıb, hazırlayan: S. Nəvadeyi Rəzi). Tehran, 1393.

yeni işıq üzü görməsinə baxmayaraq, Güneyli soydaşlarımızın illər öncə təqdim etdikləri bu mətnlərin bir çoxu Güney seriyasından kitablarımıza salınmışdır. Xüsusilə, Güney folklorunun davamlı toplayıcılarından olan Qənbər Seyfinin nağıl mətnləri “Xudafərin” jurnalının redaktoru hörmətli Hüseyn Şərqidərəcək (Soytürk) tərəfindən toplandığı sırada bizə təqdim olunmuşdur. Ənənəmizə sadiq qalaraq, kitaba Qənbər Seyfinin toplayıcılığından da nağıl mətnlərini daxil etmişik.

Yeri gəlmişkən qeyd edək ki, bizə təqdim olunan toplama materiallarının çoxluğu hələ bu nümunələrin qeyd-şərtsiz kitablarda yer almasıyla yekunlaşmır, qeydə alınan mətnlər hansı mənbə və qaynaqlardan alınması, konkret informator, yaxud nağıl kitablarından əldə edilməsi, nə dərəcədə ümumazərbaycan xalq nağıllarının motiv, təhkiyə, forma və şəkilləri, dialekt və şivələrinə bağlılığı və s. baxımından araşdırılmasını tələb edir. Məhz bu istiqamətdə apardığımız təcrübə, işə dayanaraq Güney nağıllarının seçilməsi diqqət mərkəzində dayanır. Bu istiqamətdə mətnlərin orijinal variantlarının əldə edilməsinə daha çox cəhd göstərərək, nağılların digər ölkələrdə toplanılması və tədqiqi işi də tərəfimizdən nəzərə alınmışdır. Araşdırmalar göstərir ki, son dövr tədqiqatları istisna olmaqla, Güneydə Azərbaycan xalq nağıllarının toplanılması işi nə qədər geniş, operativ şəkildə aparılsa da, bu nümunələrin nəzəri baxımdan tədqiqatlara cəlb olunması işi nisbətən diqqətdən kənarda saxlanılmışdır. Maraqlı cəhətsə budur ki, bir sıra bölgə materialları – Ərdəbil və Xoy ərazisi nağılları İranda deyil, məhz Türkiyədə tədqiqatların mövzusuna çevrilmişdir.

Dr. Sultan Tulunun “Xorasandan məsəllər və xalq hekayələri” kitabında (Ürün yayınları, 2005) Xorasan türkləri, nağılların üslubu haqqında məlumat verilmiş, ayrıca 20 nağıl mətni qələmə alınmışdır. Kitabın sonunda nağılların söyləyiciləri, eləcə də mətnlərin Türkmən və Anadolu variantları haqqında da qısa informasiya verilmişdir.

“Güney Azərbaycan Ərdəbil bölgəsindəki türk halk masalları” isə 2008-ci ildə Ege Universitetindən Gülkan Gülmez tərəfindən tədqiqata cəlb olunmuşdur. Araşdırmada ilk bölmədə ma-

sal-nağılların qavranılması, özəllikləri haqqında məlumat verilmiş, nağıl-dastan, nağıl-əfsanə, nağıl-hekayə qarşılaşmalarında oxşar və fərqli cəhətlər nəzəri baxımdan öyrənilmişdir. Güney Azərbaycan, Ərdəbillə bağlı Xalxal elinin türk tarixindəki yeri, eləcə də Güney Azərbaycanda folklor irsi üzərində aparılan çalışmalar haqqında da məlumat verilmişdir. Tədqiqata bütövlükdə 33 nağıl mətni dialekt üzərində cəlb edilmişdir. Sonuncu tədqiqatda toplanan nağıl mətnləri informatorları haqqında tam məlumat, tamamilə dialekt-şivə xüsusiyyətlərində, söyləyicinin haşiyələri də toxunulmadan yazıya alınan orijinal mətnlərdir. Nağıl mətnlərinin orijinallığı, eləcə də Quzey nağılları ilə orijinal variantlılığını nəzərə alaraq toplama-tədqiqatdan bir neçə nağıl mətnini də xüsusi olaraq kitaba daxil etmişik.

Sözsüz ki, 30-35 milyonluq bir xalqın folklorunu qısa bir müddət ərzində toplayıb, araşdırmaq mümkün deyildir. Bu çətin, eləcə də tarixi bir işin həyata keçməsi üçün bizim böyük zamana və ən əsası toplama işlərinin yerindəcə aparılmasına ehtiyacımız vardır.

Güney Azərbaycan seriyasından təqdim etdiyimiz növbəti kitab da güman edirik ki, geniş təbliğ olunmayan bölgə materialları ilə folklorumuzun illərdir müstəqil şəkildə öyrənilməyən zəngin xəzinəsinə işıq salacaq və yeni-yeni tədqiqatların aparılmasına təkan verəcəkdir.

***Mətanət Maşallah qızı Abbasova***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***

# UŞAQ FOLKLORU

## NAZLAMALAR

Əzizim yarasına,
Qaşların qarasına.
Qaynanan qurban olsun
Ürəgin yarasına.

Dağların lalasına,
Gözlərin alasına.
Bibilər qurban olsun
Qardaşın balasına.

Qalalar, ay qalalar,
Laçın orda balalar.
Analar bala verməz,
Yoxsa güclə alalar.

Qalalar, ay qalalar,
Qaladan yol salalar.
Ana baladan olmaz,
Bəlkə gücə salalar.

Dağ başında qalam var,
Ürəgimdə yaram var.
Xalqın malı-dövləti,
Mənim də bir balam var.

Mən deyirəm ay olmaz,
Yaz olmasa, yay olmaz.
Çox nənələr qız doğar,
Bizimqıza tay olmaz.

Qoy topun olsun, oğlum,
Göy topun olsun, oğlum.
Çırağı tapaq dibində,
Toy-düyün olsun, oğlum.

Tuluq, səni asaydım,
Yağın küpə basaydım.
Öğlum qaçaq olanda,
Qulplu qazan asaydım.

Ay bala, qadan alım,
Çərçi gəl, badam alım.
Özüm ayağım atda,
Çulum yox, nədən alım?

Alma atana qurban,
Atıb-tutana qurban.
Məxmər döşək, naz balış,
Onda yatana qurban.

Balama quzu qurban,
Qoç qurban, quzu qurban.
Qurban qəbul olmasa,
Qoy anan özü qurban.

Balama quzu qurban,
Qoç qurban, quzu qurban.
Hər səhər boyun görsəm,
Kəsərəm quzu qurban.

Gülü dərənə qurban,
Dərib sərənə qurban.
Tanrıdan fərə istədim,
Xoruz verənə qurban.

Qızıl gül bağın olsun,
Bağlar oylağın olsun.
Tanrıdan arzum budur,
At minən çağın olsun.

Əziziyəm, balasın,
Örkəndəod qalasın.
Mən balamı istərəm,
Balam isdir balasın.

Bala yaradan Allah,
Tellər daradan Allah,
İstəmiyənlərini
Götür aradan, Allah.

Qızım qızlar içində,
Əşrəfi var saçında.
Qızımçın elçi gəlir
Gələn yazın içində.

Qızım-qızım əsməsə,
Şah qapısın kəsməsə.
Almas medal gəlməsə,
Qızım getməz heç kəsə.

Balamdı, xandı-xandı,
Bağçada quş qovandı.
Qılınc qəmə belində,
Vurmağa pəhləvandı.

Allah, bu kimdi, kimdi?
Bağ-bağçada qovandı.
Xəncər-bıçağ belində,
Qızlara pəhləvandı.

Balama qız axtarırlar,
Dadıyla duz axtarırlar.
Qapı-baca sındırırlar,
Seçməli qız axtarırlar.

Tanrı, bundan beş dənə ver,
Dərdindən ölmüşlərə ver.
Qapıdakı dərvişlərə ver,
Göydə uçan quşlara ver.

Evində qalmışlara ver,
Qarımış-qocalmışlara ver.
Həsrətdə qalmışlara ver,
Həvək g... . salmışlara ver.

Ay bunu verən, tayını ver,
Oxunu gizlət, yayını ver.
Bu il bunu vermisən,
Gələn il də tayını ver.

Bunu verənə qurban olum,
Göyül görənə qurban olum.
Mən ki fərik istəmişdim,
Xoruz verənə qurban olum.

Öldürürsən biryolluq,
Tarı, buna qurban eylə.
Onsuz da qurbanlığam,
Barı buna qurban eylə.

Cınqılı qızım hazara,
Atıldı getdi bazara.
Yüz min tümən kəbinidi,
Öz əmisinin gəlinidi.

Cınqılı qızım saranda,
Dügüsü pişir qazanda.
Beş min tümən kəbinidi,
Öz əmisinin gəlinidi.

Sarımsağım, soğanım,
Yad qızından doğanım.
Yarısı ilan balası,
Yarısı canım parası.

Ay Allah, qəndimdi bu,
Şəkərim, qəndimdi bu.
Allah, bunu hop edərəm,
Atıb-tutub top edərəm.

Cınqılı qızım bir qətirə,
Gedib bulaqdan su gətirə.
Gətirə verə nənəsinə,
Nənəsi tökə nehrəsinə.

Mənim balam bir qətirə.
Gedib anasına su gətirə.
Getmə bala, yıxılarsan,
Salıb kuzəni sındırarsan.

Gur işıqsan ömrümə,
Yaraşıqsan köylümə.
Sən həyatın özüsən,
Ürəgimin sözüsən.

Əlibala oğlan,
Get bazara, tullan.
Nənəyə bir şal al,
Nənə sənə qurban.

Qabda əriklər,
Bu gün dəriblər.
Balamı görən
Ona yeriklər.

Oğul ürəkdir,
Qızıl dirəkdir.
Alın saxlayın,
Qıza gərəkdir.

Dağlarda lalam,
Alınmaz qalam.
Bircə kərə gül,
Alagöz balam.

Ay gözəl oğlan,
Boyu pəhləvan.
Arxlardan tullan,
Qızlara boylan.

Dəryalar dərin,
Bulaqlar sərin.
Tez böyü, oğlum,
Toyunu görüm.

Çaydı, dənizdi,
Quldu, kənizdi.
Balam hər nədi,
Mənəəzizdi.

Aranda təkdi,
Dağda çiçəkdi.
Mənim qız balam
Gör nə göyçəkdi.

Ay süzür yeri,
Axşamdan bəri.
Addımını at,
Qorxma, bir yeri.

Sözüm əzəli,
Canlar təzəli.
Mənim bu balam
Ölkə gözəli.

Altında xalça,
Çalır kamança.
Bizimçün gəlir
On dənə xonça.

Dağda ağ atlar,
Atlar, çağ atlar.
Balama qurban
Ərsiz arvatlar.

Əlində var dəf,
Üstündə sədəf.
Qızımçın gəlir
Qırmızı köynək.

Hər yana gözük,
İlqarda düzük.
Qızımçın gəlir
Brilyant üzük.

Durar nəmazdan,
Əlində Qəran.
Qızımçın gəlir
Bir dənə yorğan.

Aynada dügmə,
Tozunu silmə.
Qızımçın gəlir
Bir dənə tirmə.

Bağların barı,
Heyvası, narı.
Qızımçın gəlir
On sap mirvarı.

Dağdakı atlar,
Atlar, göy atlar.
Balama qurban
Göyçək arvadlar.

Dağda çobanlar,
Qoyun sağanlar.
Balama qurban
Oğlan doğanlar.

Üzəndə çaylar,
Bir-birin haylar.
Balama qurban
Ulduzlar, aylar.

Dağların gülü,
Bağın bülbülü.
Balama qurban
Atamın eli.

Dağın çiçəgi,
Gülün ləçəgi.
Balama qurban
Elin göyçəgi.

Dağın maralı,
Sünbül saralı.
Balama qurban
Hacılar malı.

Badambadamı,
Alım qadanı.
Balama qurban
Kəndin adamı.

Balama qurban alçalar,
Balam haçan əl çalar?

Balama qurban sürülər,
Balam haçan sürünər?

Balama qurban dayçalar,
Balam haçan tar çalar?

Balama qurban ağ atlar,
Balam haçançay atlar?

Balama qurban daylaqlar,
Balam haçan oynaqlar?

Balama qurban buzoylar,
Balam haçan özü oynar?

Balama qurban buzoylar,
Balam haçan düz oynar?

Balama qurban cüyürlər,
Balam haçan yüyürər?

Balama qurban fəriklər,
Balam haçan yeriklər?

Balama qurban cöngələr,
Balam haçan dincələr?

Balama qurban meyvələr,
Balam haçan evlənər?

Balama qurban kətdilər,
Balamı pis örgətdilər.

Balama qurban xalası,
Balam elin arxası.

Balama qurban xalası,
Balam qızıl parçası.

Balama qurban xalası,
Qızılgülün parası.

Balama qurban dayısı,
Balam dağlar ayısı.

Balama qurban beş kişi,
Beşi də qızılbaş kişi.

Balama qurban gözlərim,
Şirin-şirin sözlərim.

Balamın saçı var – xərmənkimi,
Darağ götürüb daramağım gəlir.
Alnı var – at meydanı,
Minib çapmağım gəlir.
Qaşları var – qələm kimi,
Kağaz götürüb yazmağım
gəlir.
Kirpikləri var – ox kimi,
Yay götürüb atmağım gəlir.

Gözləri var – piyala kimi,
Su doldurub içməgim gəlir.
Burnu var – püstə kimi,
Sındırıb yeməgim gəlir.
Suratları var – Satanıalma,
Çaqqıgötürüb yeməgim gəlir.
Dodaqları var – qaymaq kimi,
Qaşıq götürüb yeməyim gəlir.
Çənəsi var – fındıq kimi,
Sındırıb yeməgim gəlir.

Ay mamanı-mamanı,
Hanı balamın tumanı?
Odu bax, ağac başında,
Dayısıgilin tuşunda.
Dayısı buna neyləsin,
Habban-hubban eyləsin.
Yığsın dünya malını,
Balama bir toy eyləsin.

Balam, donun ikidi,
Biri tavus tüküdü.
Dodaqların xam şəkər,
Dilin badam içidi.

## LAYLALAR

Laylay, bağım, meşəmsən,
Dolu ətir şüşəmsən.
Mən bağbanam, sən gülüm,
Dumuyum sən, peşəm sən.

Laylay, quzu qurbanın,
Biri, yüzü qurbanın.
Quzudan qurban olmaz,
Anan özü qurbanın.

Laylay, lala zəmisi,
Məhəbbətin gəmisi.
Məhəbbət kimiyası
Tez qızıl eylər misi.

Laylay, yulların başı,
Kəleybərin dağ-daşı.
Burda bir at kişnəyir,
Çağırır yar-yuldaşı.

Laylay, sular balığı,
Çörəyimin qalığı.
Ata, ana sözündən
Bala gəlməz acığı.

Laylay, məhəbbət kanı,
Laylay, ədəb məkanı.
Harda məhəbbət olsa,
Güllləndirər tikanı.

Laylaya tutdum səni,
Əcəb uyutdum səni.
Can qoydum, cəfa çəkdim,
Belə böyütdüm səni.

Laylay, saçın daradı,
Anan saçın daradı.
Boy-buxunda, həyada
Əsl gözəldi, saradı.

Laylay, hava küləkdir,
Ürəyim sənə bənddir,
Qışdakı evsizlərə
Allah özü köməkdir.

Laylayın oyun görüm,
Dur yeri, boyun görüm.
Tarıdan arzım budur,
Ölməyim, toyun görüm.

Laylay, dağ boyu duzum,
Ay körpə əmlik quzum.
Banladılar xoruzlar,
Yuxla ayım, ulduzum.

Laylay, gül butam gəlim,
Ətrinə batam, gəlim.
Arzım budur, ölməyib
Toyunu tutam, gəlim.

Laylay, mənim ziynətim,
Sümüyüm, qanım, ətim.
Dağ kimi dayağımsan,
Sənsən mənim cürətim.

Laylaydan nar şirindir,
Heyvadan nar şirindir.
Körpələr olan yerdə
Kim deyər yar şirindir?

Laylay deməsəm olmaz,
Yerin sərməsəm olmaz,
Sənin qəmli günündə
Qəmin yeməsəm olmaz.

Laylay dedim yatınca,
Şirin yuxu tapınca.
Min dil ilə saxlayım,
Atan gəlib çatınca.

Laylay, nazım, ağlama,
Sözüm, sazım, ağlama.
Yazda dolan buludtək,
Can-cığazım, ağlama.

Laylay dedim adına,
Haqq yetişsin dadına.
Hər vaxt laylay deyəndə,
Balam düşər yadıma.

Qurban ollam bu qıza,
Kişləsən gəli bizə.
Edərəm hamıya pilov,
Qoyaram önünüzə.

Günəşim yox, gülüm yox,
Bundan böyük zülüm yox.
Balam itgin düşübdür,
Niyə mənə ölüm yox?

Laylay, saçın qaradı,
Anan saçın daradı.
Boy-buxunda, həyada
Əsli qızdı, Saradı.

Laylaydan ay alışdı,
Bağçamızda ilişdi.
Beşiyinin üstünə
Ulduzların yığışdı.

Laylay, balam, ay batdı,
Günəş çıxdı, ay batdı.
Gözlərin yum, yatginən,
Gecədir, zulumatdı.

Atıban, tut balamı,
Şəkərə qat balamı,
Şəkərdən acı olsa,
Götürüb at balamı.

Laylay canım, ciyarım,
Gündüzüm, gecə yarım.
Ürəyimi sinəmdən
İstəyirsən de yarım.

Laylay, qışım-qarımsan,
Yazdan alma-narımsan.
O dünyada behiştim,
Bu dünyada varımsan.

## MÜXTƏLİF UŞAQ ŞEİRLƏRİ

A teşdi, teşdi, teşdi,
Vırdım kəlləni keşdi.
İki xoruz əlləşdi,
Biri qana bələşdi.
Qan gedib çaya düşdü,
Çaydan göyərçin uşdu.
Göyərçin alapaxta,
Yuvası qəlbi taxta.
Xanım oturub otaxda,
Ağ papırız dodaxda.
Büllur isdəkan qabaxda.
Qəyçini atdım tağçıya,
Cingildiyə-cingildiyə,
Gedəcəyəm yağçıya,
Dingildiyə-dingildiyə.

Şam ağacı – şatır keçi,
Qoz ağacı – qotur keçi.
Happan, hoppan,
Yarıl, yırtıl,
Su iç, qurtul.
Əlimə tikan əbdil qiyə?
Bir nağara, çıx qırağa.
Ağ quşum, ağarçınım,
Göy quşum, göyərçinim.

Ev yiyəsi qonağa,
Pişim, pişim mavına.
Pişim gedər avına,
Qonaq bu gün burdadı,
Sabah gedər evinə.
Qonaq ev yiyəsinə deyir:
Pişim, pişim, mavəsər,
Çölə çıxma, yel əsər.
Qonaq bu il burdadı,
Gələn il də sərbəsər.

Çıqqılı qızım, dur çay qoy.
Evimizi süpür, nahar qoy.
Mənim adım Həlmədi,
Əmirkadan gəlmədi.
Əmirka mənim olsun,
Qırmızı donum olsun.
Giyim, gidim Tehrana,
Tehranda toyum olsun,
Qızdar gəlsin toyuma,
Qurban olsun boyuma.
O tay, bu tay bu oğlanın
kəndidi,
Ağ səmavarürəgimin
bəndidi.

Xəlqə gələr ala gözdi, qələm
qaş,
Birə gələr dabanı cırıq, dalı
yaş.

Bayrama nə qaldı, nə
almadı,
Qaldı əlli günümüz.
Əlli günnən sora
Sarı bağlar sarıyallar,
Qurbağalar quruldar,
Anam qoş-qoş deyir,
Bacım qoş-qoş deyir.
Oğluna ver alım,
Qızına ver alım.

Yaxşı olu qoyunun ağı,
Gəzər dalanı-dağı.
İçər sərin bulağı,
Şirin olar qəymağı.
Yaxşı olu qoyunun qərəsi,
Qırxlığı polad pərəsi,
Qış gününün bulaması,
Yay gününün dolaması.
Anam qoş-qoş deyir,
Bacım qoş-qoş deyir.
Oğluna ver alım,
Qızına ver alım.

Sətili götür gəl bizə,
Bizdən gedax Təbrizə.
Təbriz yolu buz bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülün birin üzeydim,
Tellərimə düzeydim,
Qardaşımın toyunda
Sındıra-sındıra süzeydim.

Gilan yolu sərbəsər,
İçində meymun gəzər,
Meymunun balaları,
Məni görüb ağladı,
Tumanına qığladı.

Həsən bəyin nəsi var,
Çağır-çuğur çayı var,
Göyə qalxan atı var,
Göy muncuqlu iti var.

Əl-ələ, kəmər belə,
Su gələr incə-incə,
Atam gedib başmaq ala,
Birtaysənə, birtaymənə.

* * *

Əl-ələ, ha əl-ələ
Su gəldi lülə-lülə,
Suyun başı bizimdir,
Çeşmə başı sizindir.
«Maral» gedib çeşməyə,
Sudan gətirsin bizə,
Əyildi üzün yuya,
Həmdəsudandoldura.
«Maral» suyabaxırdı,
Acıqlanıb oxurdu,
«Ay» burnu əyri kəhriz,
Beli donquzlu kəhriz.
Qış gələr, sən donarsan,
Mən üstündə gəzərəm,
Ayaqlayıb əzərəm.

Bir, iki, bizimki,
Üç, dörd, qapını ört,
Beş, altı, simavər altı,
Yeddi, səkkiz – Firəngiz
Doqquz, on, qırmızıdon,
Onbir, oniki, danışaq Türki.

Hap-hapan, kəssəkatan,
Gedindeyinatmasın,
Bizimevinqızxatını,
Boynundavaryüzaltını.

Yüz atın bir quşumuş,
Bağçaya qonmuşumuş,
Koroğlu vuruşmuşumuş.
İynə-iynə, ucu düymə,
Sam ağacı, qatır keçi,
Qoz ağacı, qotur keçi,
Happan-huppan,
Suiçqurtul,
Çıxqırağa, çıxqırağa.

Ağdəvəalçaqgəlir,
Qolunda qolçaq gəlir,
İndinin qızları,
Kəbin kəsir özləri.

İki dişi var qabaqda,
Çörəyi qoymaz tabaqda,
İki dişi dörd olubdur,
Canımıza qurd olubdur.

* * *

Mırt, mırt,
– Adın nə?
– Balqabaq.
– Evlənsənə?
– Gələn yox.
Dillənsənə?
– Qoyan yox.
– İstəsənə?
– Verən yox.
– Oynasana?
– Çalan yox.
– Yerin hara?
– Samanlıq.
– Saman yeginən?
– Qarnım tox.
Onda çəkil, gendən bax.

* * *

Bu meşə başdan-başa fındıqlı meşə,
Od yanar, dəmir qızar, ördək üzər,
Yar mənə alma verib almamışam,
Atımı çöl dərədə bağlamışam.
Çöl dərədən bir qız çıxdı,
Əlində polad qayçı, məxmər biçqı,
Bu hərəm kiminki?
– Həsən bəyin.
Atına arpa verin, kişnəməsin,
İtinə sümük verin, dişləməsin...
Bağdan baxdım işıqdı,
Çəngə dolu qaşıqdı.
Qız süpürər toz eylər,
Oglan qıza göz eylər.

Oglanın qız xatını,
Boynunda yüz altını,
Yüz altın bir quş imiş,
Dəryaya qonmuş imiş.
Sahın oglu görmüşdü,
Oxnan onu vurmuşdu,
Ox məndən hezar, bezar.
Kətən köynəklər yazar.
Kətan köynək mil-mili,
Gəl oxu bizim dili.
Bizim dil "Urmu" dili,
Urmudan gələn atlar,
Arpanı yeyər atlar.
Arpanın kütün yedim,
Sahıma "Şirvan" dedim.
Şahım Şirvan içində,
Qılıncı qan içində,
Məndən kiçik qardaşlar,
Oynar meydan içində.

**SAY**

Birə-bit,
İkiyə iynə,
Üçə üskük,
Dördə döşək,
Beşə beşik,
Altıya Allah,
Yeddiyə yemiş,
Səkkizə sərçə,
Doqquza dolça,
Ona oraq,
On birə dayaq,
Gəlin gedək,
«Əli»nin başını yaraq.

# İSKƏMƏRDƏ UŞAQ OYUNLARI

Aşağıdakı şeiri qızlar əl-ələ verib dövrə vurub dolanır və oturub-duranda oxuyurlar:

Quruludu, aş içmərəm,
Darvazadan keçmərəm,
Darvazamənimolsun,
Qırmızıdonumolsun.
GeyimgedimBakıya,
Bakıdatoyumolsun,
Qızlargəlsintoyuma,
Qurbanolsunboyuma.

İki, ya üç nəfər dövrə vurub barmaqlarını sayırlar, hər kimsənin barmaq sayması tez qurtarsa, o ayağa durar:

Üşüdüm, ha üşüdüm,
Dağdan alma daşıdım,
Almalarıaldılar,
Bizəzülümverdilər,
Biz zülümdən bezarıq,
Dərin quyu qazarıq,
Dərin quyu içində.

Gün bulud altına gedəndə qızlar dövrə vurub bu şeiri oxuyurlar:

Günüm gedib su içməyə,
Abı donun dəyişməyə,
Kecəl qızın sal təndirə,
Saçlı qızı gətir bizə.

Mən aşıq ahü zarda,
Canım dərddə-azarda,
Ogündənkiquloldum,
Satıldım hər bazarda.

Mən aşığam, hər aylar,
Hər ulduzlar, hər aylar,

Dəryada bir gülüm bitdi,
Susuzundan haraylar.

Nənəm, o qatar keçi,
Qayada yatar keçi,
Qış soyuğu gələndə
Balanı atar keçi.

Nənəm, a sarı qoyun,
Ayaqları qar  qoyun,
Qapıda bo eyləsin,
Nəslini tarı qoyun.

Saya-sayasayadan
Qoyungələrqayadan,
Sayaçıyapayverin,
Damazlığı mayadan.

## ÇİBBOLİK

Qoyunun dərisindən kəsilmiş əl boyda dərinin ortasında ağır bir şey (qurğuşun) bağlanır. Bir ayağın ucundan vurulur yerə duşməmək şərtilə.  Ədədi sayarlar:

Bir cüt,
İki cüt,
Üç cüt.

Yaxud deyərlər, cütün axırına kimi gəlib çatdım, ya mən, ya sən bu, yüz cütə  qədər davam edər, ondan sonra rəqibi çağırıb tərlətməyə davam edir, ayaq bir cut, tək deyərək çibulunu istədiyi tərəfə atır, rəqib çibulunu göydə tutmağa çalışır, əgər tutarsa oyun ona keçir, əgər tutmazsa, ömrü boyu tərləyir.

*Başqa bir oyun:*

Günüm gedib su içməyə,
Abı donun dəyişməyə,
Keçəl qızın sal təndirə,
Saçlı qızın gətir bizə.

Uşaqlar yuvarlaq şəkildə oturub əllərini açıb yerə qoyarlar. Birisisayanolar, busözlərideyər:

Motal-matal,
Dərzimotal,
Eləratar,
Qaymaqtutar,
Əmimoğlu
Burnuqara,
Durmaqara,
Çıxqırağa.

Bu sözlərin sonunda əlin bir kəsin əlinə toxunmasa, oyun olduğu kimi davam edər, toxunsa, əli toxunan adam başını yerə əyər, uşaqlar yumruqlarını onun kürəyində üst-üstə qoyub, başı aşağı olandan soruşarlar son yumruq kimindir, adını söylə. Əgər doğru söylərsə, o sayan olar, yoxsa bu üstə oğlan oyunçu yalandır deyib, axtarıb tapmalıdır. Tapandan sonra o sayan olub, bu şeri oxuyar:

İynə-iynə,
Ucu düymə,
Bal-ballıca
Şam ağacı,
Satır keçi,
Qoz ağacı,
Qotur keçi,
Happan-huppan,
Yarıl, yırtıl
Su iç qurtul,
Əmim oğlu,
Uzunbığlı
Haldırım dedi,
Göyə bir ağac aldı,
Qarğa sapı,
Gülbudağı,
Motal-motal,
Tərsəmotal,
Ellələratar,
Qaymaqqatar,
Ağ quşum,
Ağar quşum,
Ağarçınım,
Göy quşum,
Göyərçinim,
Burnu qara,
Çıx qırağa,
Çıx qırağa.

Bu şəkildə oyun davam edər.

* * *

Əl barmaqları ilə körpələr üçün başqa bir oyun belədir ki, barmaqlar açıq şəkildə olur, bu şeirin bir qismini oxuyanda yumulu, digər qismilə də açılır.

Baş barmaq,
Başala barmaq,
Uzun hacı,
Qıl turacı,
Xırdaca bacı,
Bu vurdu,
Bu tutdu,
Bu bişirdi,
Bu yedi,
Vay bəbəyə qalmadı.

## UZUN EŞŞƏK OYUNU (HUSTANA)

Bu oyun sayilə başlanar:

Bir, iki, bizimki,
Üç, dörd, qapını ört,
Baş altı, samavar altı,
Yeddi, səkkiz, Firəngiz.
Doqquz-on, qırmızı don,
Arabaya qon,
Arabanın təkəri
İstanbulunun nökərləri
Hop-hop hop çıxdı.

## ÇİLİNG-AĞAC OYUNU

Əvvəl bir çala qazılar, çiling ağacını çalanın ortasına qoyarlar, bu sözləri, deyərlər:

Biri malus,
İkim klavus,

Üç adə,
Dörd badə.

Al gəldi çib bu, deyəndən sonra çilingi göyə fırladıb, kim çilingi tutarsa gətirib vuran adama verib, vuran adam əl ağacını burnundan tutub çilingi salır, əgər çalaya düşərsə, oyun davam edir, yoxsa adam oyunu aparır.

## ANA-BALA OYUNU (1)

Ana zarafat üçün uşağının qulağını çəkərək deyir:

– Qul-qulu,
Eşşəgi suvarmısan?
– Yox-yox.
– Eyvay-eyvay,
Susuzluqdan öldü.

Yenə qulağını çəkir deyir:

– Eşşəgi suvarmısan?
Uşaq deyir, suvarmışam,
– Hansı suyunan?
– Soyuq suynan.

Bir az qulağını bərk çəkir:

– Eyvay,
Eyvay,
Ağzı dondu.

Yenə qulağını çəkir:

– Qulu-qulu,
Eşşəgi suvarmısan?
– Suvarmışam.
– Hankı suynan?
– İsti suynan.
– Ey vay,
– Ey vay
Ağzı yandı

Bir az bərkə çəkir sonra soruşur:

– Qulu-qulu
Eşşəgi suvarmısan?
– Suvarmışam
– Hansı suynan?
– İlıq suynan.
– Eyvay,
– Eyvay,
Ürəyi bulandı.

Bir də çəkib soruşur:

– Qulu-qulu, eşşəgi suvarmısan?
– Suvarmışam.
– Hankı suynan?
– Anasını südüynən.
– İndi oldu.

Ana balanın qulağını öpür.

*Uşaq oyunlarının başqa növü belədir:*

Uşaqlar toplaşıb qurdu bəlli etmək üçün onların içindən bir nəfərini seçmək üçün əlinin üstündən vuraraq, belə bir söz ifadə edərdilər: «ləpə-düyü-noxud-nal-mıx – çıx». Başqa şəkildə belə deyilir: «dərə-təpə-düz-yüz-yıx-mıx-gilas-çıx», başqa şəkildə də deyilir: «qızıl – aftafa-gümüş aftava – ox atdı-ox tutdu-bu qaldı-bu çıxdı».

Bəzəndə uşaqlar əl-ələ verib elə şeirlə leyli gedib oxuyarlar:

Əl-ələ düyəm belə,
Atam gedib başmaq ala,
Birtayısənə,
Birtayımənə.

## ANA-BALA OYUNU (2)

Ana balasını əlinin arxasına döyüb oxuyur:

Pişiyim-pişiyim mavuna,
Getdi siçan ovuna,
Pişik desəm qaçmıyasan,
Balamın əlin qapmıyasan.

Və ya başqa şəkildə ana öz balasını belə oxşuyur:

Hamani, hahamani,
Eşşəklər yedi samani,
Hanı bu qızın tumani,
Odur bax ağac başında,
Hamam arxında,
Bir eşşək ölüb,
Qarqa deyir arıxdı,
Qəcələ deyir çarıxdı,
Pişik deyir nə qarta qurt eliyirsiniz, yeyin getsin.

Başqa bir oyun belədir:

Tap-tap, inci qızım,
Nanə qızım,
Palan düzüm,
Nə tapırsan,
Ver mən də tapdım.
Yox-yox,
Ağam vurar,
Ağam söyər,
Elə də çubuq ver çəkək,
Cöcala barmağını sorur,
Acıdı, ha acıdı,
Bir dəfə də sorub belə deyir
Şirindi ha şirindi.
Mənimdi ha mənimdi,
Tapmışam ha tapmışam.

## ƏL-ƏLƏ

Qız uşaqları bu oyunu oynayırlar. Üz-üzə oturub əllərini bir-birinə çalıb, “sim-sim” deyib oyuna başlayırlar:

İkibacılaryan-yana,
Gedirlərseyvana,
Seyvan suyu sərindi,
İki bacılar gəlindir.
Gəlinə bax, gəlinə,
Əlin qoyub belinə,
Gəlinə bir söz desən,
Gedib deyər ərinə.
Əri minər maşına,
Sürər dağın başına,
Oğlanlar əsgər gedər,
Kül qızların başına.

Və ya başqa bir şeirdə oxuyarlar:

Qoyungedimanamgilə,
Anamadeyim, gəlim,
Çustumu geyim gəlim,
Novruz dayı suya düşür,
Suya düşdü boğuldu,
Fatma xala axtarmaqdan yoruldu.

## UŞAQ OYUNUNUN BAŞQA BİR NÖVÜ

Bu oyunda rol alan, ya kimin nə iş görəcəyi aydın olsun deyə iki nəfər gizlincə özlərinə ad qoyarlar. Sonra gəlib deyərlər. Hansını istəyirsən, armud, alma, kimin adı deyilən meyvədən olanda qarşı tərəfə keçərlər. Hətta bu oyunda meyvənin yerinə şəhər adları da qoyarlar. Məsələn, Təbriz, Bakı. Beləliklə, qruplar bəlli olar. Bəzəndə yar seçmək üçün püşk atarlar. Yaxud bir neçə qısa, uzun çöpü ovucda tutarlar, çəkərlər. Başqa bir şəkildə də belə seçərlər – arpa, buğda, düyü, noxud, nal,

mıx, çıx. Və ya ox atdı, ox tutdu, kim çıxdı, kim qaldı. Bu qaldı bu çıxdı. Sonra körpə uşaqlar əl-ələ verib bu şeiri oxuyarlar:

Əl-ələ, kəmər belə,
Su gəlir incə-incə,
Atamgedibbaşmaqala,
Birtaysənə, birtaymənə.

## KÖKƏ OYUNU

Uşaqlar halqa vurub bir uşağı ortaya salarlar. Onun kürəyinə vurub oxuyarlar: "Nənəsi yağlı bir kükə bişirmiş. Qalx əyağa, qalx ətrafına bax, kimi sevərsən, tut əlindən dart". Ayaq üstə düran uşaq birini seçər, özü isə onun yerinə gedər.

## BİR QUŞUM VAR BU BOYDA

Belədi ki, bu oyunda oynayanların sayı azı iki nəfər olmalıdır. Ancaq çox olduqca oyun daha da şirin olar. Bu oyunda bir nəfər bir heyvanı nəzər alaraq əlinin kəfəsini yerdən bir az aralı saxlayıb oynayanlara göstərib deyir:

– Bir quşum var bu boyda,
Eşidənlər cavab verirlər:
– Qıy qala ha, qıy qala.

Haman oyunçu əlini bir az yuxarı qaldırıb deyir, bu boyda. Qalan uşaqlar isə səs-səsə verib deyirlər:

– Qıy qala ha, qıy qala.

Yenə hamı ona baxıb oyunçu bir az da əlini qaldırıb nəzərə aldığı heyvan boyda saxlayıb deyir:

– Su içər olar bu boyda.

Onu eşidən və əlinə baxan oyunçular yenə də birlikdə deyirlər:

– Qıy qala ha, qıy qala.

Bunnan sonra oyunçu nəzərə aldığı heyvanın nə olduğunu təxmin edib deməlidilər. Məsələn, sual verənin əli yerdən çox aralı olursa, onların zənni öküzə, dəvəyə, ata, qatıra və bu kimi qara mallara gedər. Və onların bu heyvanların adlarını de-

məklə o heyvanı taparlar. Habelə əli təxminən səksən-yetmiş santimetr yerdən fasiləli olsa, onlar o heyvanı qoyun, keçi, it, qurt və bunlar boyda heyvan olduğunu təxmin edərlər. Yenədə əli aşağıda  olsa, oyunçular nəzərə aldığı heyvanın pişik, toyuq, xoruz, ördək və dahada aşağı da olursa qurbağa, ilan, çayan (əqrəb) və... olduğunu zənn edib cavab verərlər. Cavab verəndə hər biri bir heyvanın adını çəkməyə haqqı var. Doğru cavab verən sual verənin yerinə keçərək oyunu ələ alar. Bu da ilk oyunçu kimi bir heyvanı nəzərə alaraq, onun dediyi kimi sözlər və göstərişlərlə oyuna davam edər. O da oyunda doğru cavab alana qədər oyunu əldə saxlayır. Yəni, cavab verənlərin heç biri doğru cavab vermədikdə sual verən heyvanın adını özü deyəndə və digər oyunçular onu təsdiq edəndən sonra başqa bir heyvanı fikrində yenidən tutur, oyunu əvvəldən başlayarlar.

## MİZRAQ OYUNU
*(fırratma)*

Bu oyun artıq qış fəsli, yəni yerdə buz donan zamana aid olur. Ağacdan yonaraq ucuna məxsus mıx çalallar. Qatmanı ona sırıyannan sonra oyunçu qatmanın baş tərəfin  barmağına keçirdib mizraqı aşağı doğru fırladıb mizraq isə buzun üstündə fırlanır.  Bu oyunda mizraqın artıq fırlanması oyunçunun məharətindən asılıdır. Bəzən bu mizrağı şüşə, yaxud mərmər üstündə də fırladırlar. Bu oyun bəzən bir neçə oyunçunun iştirakı ilə davam edir.

# YANILTMACLAR

Al bu taqqatuqları, taqqatuqçuya taqqatuqlanmaya götür, əgər taqqatuqları taqqatuqçu taqqalamasa, taqqatuqları taqqatuq-çudan taqqatuqlamadan götür gətir.

Ay axsaq aşpaz Həsən şah! Aşpazlar aş bişirirlər, sən də gəl, aş bişir, ay aşpaz Həsən şah.

Bu kasa bizim özümüzünümüş.

Bir ikidir bir iki, beş altıdır beş altı, inanmırsan say da bax, un altı un altı.

Ellər məzələnmiş də, biz məzələnməmişik məgər?

Əlişlə Məmiş məhəkməyə getmiş, məhkəmədə məhkə-mələşmişlərəmi, məhkəmələşməmişlərmi?

Əmqızımın ağ mıncığı.

Getdim gördüm, şah Abbasın baş aşpazı Abbas aş asanda buzbaş asmır, buzbaş asanda aş. Dedim, şah Abbasın baş aşpazı Abbas, niyə aş asanda buzbaş asmıyersan, buzbaş asanda aş? Dedi: Mən şah Abbasın baş aşpazı baş aşpaz aş asanda buzbaş asmıram, buzbaş asanda aş, una görə kı, aşnan buzbaş, buzbaş-nan aş yula getmir.

Getdim gördüm, körpü altında ikı kürkü yırtıq kirpi var. Erkək kürkü yırtıq kirpi dişi kürkü yırtıq kirpinin kürkünü yamır.

Gül dibi bülbül dibi, gül dibi bülbül dibi ... .

Göydən iki damcı düşdü, biri mənim alnıma, bir anamın alnına, biri mənim anlıma, bir anamın anlına…

Küp qulpu, xub küp qulpu.

Qatığı sarımsaqlasan da yemek ular, sarımsaqlamasan da.

Qəlmə! Mənə qəlməlnəmə, mən özüm qəlməlnənlərədənəm.

Qulaşsan da qulaşacağam, qulaşmasan da qulaşacağam.

Ləbləbiçi, ləbləbiləri ləbləbiçiyə luzumlu luzumsuz, lavbalıq yapmış.

Mulla əmaməlnməlimi, əmmaməlnnəməlimi?

Şəməsi paşa pasajında səsi buzuzşur.

Suyamanı su ayaq qablarına yamalamalımı, yamalamamalımı?

Yurğana yurğul yurğun.

# TAPMACALAR

Aç desəm açılır, qapa desəm, qapılır.

***(Ağız)***

Ağ dəvəm durub gedsə, qara qoyun yatıb qalar.

***(Qar, qar əriyəndən sonra qalan qara topraq)***

Ağ sandığım açılar, içindən ipək saçılar.

***(Günəş)***

Ağ siçan, qara siçan, biri yatar, biri açar.

***(Gecə-gündüz)***

Ağdı, ama pənir deyil, quyruğu uzun siçan deyil.

***(Turp)***

Alçacıq dallı, yemişi ballı.

***(Çiyələk)***

Altındı dalda yatar, dal qırılmış, yerdə yatar.

***(Heyva)***

Arxana mindim – xan oldum, qapıya gəldim – qul oldum, oduna yandım – kül oldum.

***(Odun)***

Arxasında ağzı var, tumşuğunda gözü var.

***(Dəyirman)***

Asıt-yasıt yorqalı,
Ağzı qızıl torbalı.

***(Kəklik)***

Avludan (çalıdan) atladı,
Qonşuda yumurtladı.

***(Qabaq)***

Avuca dolar, evə sığmaz.

***(Lampa, çırağ işığı)***

Ay mənim al yasdığım,
İçinə un basdığım.

***(İydə)***

Ayağı papıq (yapıq),
Ağzı köpük.

***(Dəvə)***

Ayağı yox, qaçır, qanadı yox, uçur.

*(Bulud)*

Ayağı yoxdu qaçır,
Qənədi yoxdur uçur.

***(Külək)***

Anaxanım atlandı,
Qol-qanadı qatlandı.

***(Kələm)***

Aşıq ağladı getdi,
Könül dağladı getdi.
Əlli dəvə, yüz qatır
Bir mıxa bağladı getdi.

***(Qarğıdalı)***

Ay baba, ha hut baba,
Dolan evi, yat baba.

***(Süpürgə)***

Araba gedər, izi yox,
Ulğun yanar, közü yox.
Kolluxda gizlənib,
Qabığı var, közü yox.

***(İlbiz)***

Ay nənə, bizə yağ gətir,
İnəkləri sağ gətir.
Çalxalanmamış nehrədən
Ərinməmiş yağ gətir.

***(Bal)***

Arazın ləpəsindən,
Süd sağdım təpəsindən.
İki əli var belində,
Ağzı var təpəsində.

***(Sərnic)***

Alçaq damdan qar yağar.

***(Xəlbir, ələk)***

Anadan doğular, amma heç vaxt o doğmaz.

***(Qatır)***

Atdım atana,
Dəydi kotana.
Dəryada balıq,
Çöldə ceyrana.

***(İldırım)***

Axşam olar,
Ölçü qıçın uzadar.

***(Kilid)***

Aşağa gəlir, işi var.
Yuxarı gedir, yükü var.

***(Qaşıq)***

Ağac başında darı quyusu.

***(Əncir)***

Ağamın bir donu var,
Qatlamaq olmaz,
İçi dolu ləl-cəvahirlə,
Cütləmək olmaz. ***(Göy)***

Altı çəpər, üstü çəpər, içində at çapılar.

***(Ceviz)***

Altı sudu, üstü od.

***(Qəlyan)***

Ay atlar, atlar,
Muğanda otlar.
Vaxtı gələndə
Ombası çatlar.

***(Pambıq)***

Ağzı qara boz bəylər, vursan ağzın əyilər.

***(Canavar)***

Ağzı var, dili olmaz, yüz ağac vır, çığırmaz.

***(Balıq)***

Adam dəyil, əl-ayağı, dişi var,
Əcəb şeydi, qaravəlli işi var.

***(Meymun)***

Ağ uzatdım, al toxudum, qara sərdim.

***(Böyürtkən)***

Ağac başında qumru bitər.

***(Fındıq)***

Ağac başında sarı yemiş.

***(Xurma)***

Ağac başında sarı yumaq, üstünə səpilib ağ sumaq.

***(Heyva)***

Aşmaz-uşmaz, yerə düşə, beli sınmaz.

***(Yarpaq)***

Bağlaram yeriyər,
Açaram, durar.

***(Başmaq)***

Boyu uzun sayaxdır,
Sahibinə dayaqdır.

***(Ayaq)***

Bir öküzüm var, quyruğundan tutmasan dama girməz.

***(Qaşıq)***

Başı sarıqlı, qutuda durar, eşiyə çıxsa, odu da var.

***(Kibrit)***

Başı var, saçı yox, gözü var, qaşı yox.

***(Balıq)***

Bir balaca fal daşı,
Dolanırı üz-başı.

***(Göz)***

Bir balaca boyu var,
Qırmızıdan donu var.

***(İydə)***

Bir balaca odu var, göz korladan dumanı.

***(Siqar)***

Bir burça fətir, aləmə səçir (saçır).

***(Ay, günəş)***

Bir dalım var, beş qolu.

***(Əl, barmaq)***

Bir evdə iki ortaq, bir sarı, biri ağ.

***(Yumurta)***

Bir gəlin var, gəzdiyi dağlar, bağlar, özü gülər, gözü ağlar.

***(Bulaq)***

Bir qabağım, yeddi dəlik başında.

***(Baş)***

Bir quşum var, on iki yuvası, hər yuvada otuzdan yumurtası, hər yumurtanın igirmi dörd balası, hər balanın altmışlıq ayağı, bu sözləri bilən tapar, bilməyənin ağzı açıq qalar.

***(il, ay, gün, saat, dəqiqə)***

Bir otaqdı, qapısı yox.

***(Yumurta)***

Bir toxlum var, bir yanı qara, bir yanı ağ, bu nədir, düşün tap.

***(Gecə-gündüz)***

Birisi deyir: “qaçalım”, birisi deyir: “yatalım”.
(Axmaq ilə tükənməz, yatmaq ilə yorulmaz).

***(Su, daş)***

Biz biz bizidik, biz minlərcənə qızıdıq, dan atana yayıldıq, dan atan son yumulduq.

***(Ulduz)***

Biz biz idik, otuz iki qız idik, qatar-qatar düzüldük, yaş qocalıq yetişdi, birdən-birə üzüldük.

***(Diş)***

Boş gedib dolu gələr, dəbərtdikcə xoş gələr.

***(Qaşıq)***

Böyük yorğan tutmuş olur hər yanı, dərə dibi lüt qalar.

***(Qar)***

Budu yerdə, başı göydə.

***(Dağ)***

Buğu var, saqqalı yox, kölgəni sevər, istidə yatar, uzun yolu gedəsi yox.

***(Pişik)***

Burnu uzun soxulmaz, boynu uzun toxunmaz.

***(Leylək)***

Bizim evdə bir kişi var,
Ağzında üç dişi var.

***(Sacayaq)***

Bir sinidə iki toyuq,
Biri isti, biri soyuq.

***(Ay, Günəş)***

Bir öküzüm var, mıx yüklü.

***(Kirpi)***

Balaca motal,
Qapıda yatar.

***(Başmaq)***

Bizim damdan sizin dama dingalan hop.

***(Pişik)***

Balaca quyu damıldar.

***(Qəlyan)***

Balalarını yığıb başına sızıldar.

***(Samovar)***

Balaca kişi çəpər çəkər.

***(Biz)***

Baldan şirin, baltadan ağır.

***(Yuxu)***

Buxarı, ay buxarı,
Tüstünü çəkər yuxarı.

Beş ağsaqqal oturub,
Bir-birindən yuxarı.

***(Barmaq)***

Bir ağacım var, 12 qolu var,
Hər qolun 30 yarpağı var,
Hər yarpağın bir üzü ağdır, bir üzü qara.

***(İl, ay, gün)***

Bir ayağı var, üç gözü.

***(Rəhnama çırağı)***

Bir evim var, nə g... var, nə başı.

***(Yumurta)***

Bir balaca mit daşı, yandırar dağı-daşı.

***(Güllə)***

Bir tabax alma, səhərə qalma.

***(Ulduz)***

Bir təndirim var, iki çörəkli.

***(Ceviz)***

Bir damım var, ağzı dolu yarmaça.

***(Ağız-diş)***

Bir damım var, tək dirək üstə.

***(Göbələk)***

Birdən baxdım düzdür,
Saydım qırx-yüzdür.
Oğul padşahlıq edir,
Anası hələ qızdır.

***(Nar)***

Bizdən bir mama çıxdı, əl qoydu dama çıxdı.

***(Pişik)***

Burdan vurdum qılıncı, ərəbdə oynar ucu.

***(İldırım)***

Bu günləri şənbədir
Könlümə düşən nədir?
Həm odsuz, həm ocaqsız,
Kölgədə bişən nədir?

***(Bal)***

Bir atım var minə bilmirəm, ağzın açsa, dinə bilmirəm.

***(Şeir)***

Bir axmaq öküzüm var, əyləndirib ət yeyir.

***(Ayı)***

Bir yanı ağ, bir yanı al, ağzına al, dadı bal.

***(Şaftalı)***

Bir təndirim var, iki çörək tutur.

***(Ceviz)***

Çöldə göydür, bazarda qara, evdə qırmızı.

***(Çay)***

Çəpərə düşər, çıqqıldamaz.

***(Gün)***

Çiçək onun, dal onun, yediyimiz bal onun.

***(Arı)***

Çöllərə ayran tökdüm.

***(Ay ışığı)***

Dağdan gəlir, daşdan gəlir, bir qudurğan aslan gəlir, buna yanıt kim tapır.

***(Sel)***

Dağdan uca, dənizdən dərin.

***(Xəyal)***

Dalına keçdim, g... ... qoydum.

***(Kilit, açar)***

Dallarda təpə,
Qırmızı küpə.

***(Gilas)***

Dərədə qalxan,
Üstündə yorğan.
Balaca oğlan,
Bürkünə qurban.

***(Nehrə)***

Daşdan ağır, baldan şirin,
Bazara gedər satılmaz.

***(Yuxu)***

Doxsan doqquz camaat, qaşıq,
İki əzançı, bir imam.

***(Təsbeh)***

Dağdan gəlir homur-homur,
Əyağında əski dəmir.

***(Araba)***

Dağı-dərəni aşar,
Dünyaları dolaşar.
Atasına çatanda
Səssiz ona qovuşar.

***(Çay)***

Dəyirmi top, qızıldan küp.

***(Səma, Günəş)***

“Dəy” desəm, dəyməz, “dəymə” desəm, dəyər.

***(Dodaq)***

Dönsən dönər, bir ayağın üstünə minər.

***(Qapı)***

Dörd ayaqlı, dəmir dırnaqlı.

***(At)***

Dumanı tütər, yükü çəkər, balıq deyil, dənizdə üzər.

***(Gəmi)***

Duzsuz pişər, qaynamaz, düşər.

***(Yemiş)***

Düzülməmiş inci, toxunmamış ipək.

***(Ulduz, göy)***

Dünyaya gələndə ayaqsız gələr,
Dünyadan gedəndə ayaqlı gedər.

***(Qurbağa)***

Dağdan aşar, damdan aşmaz,
Dağdan gəlir eşinə-eşinə.

***(Qar)***

Dağdan gəlir qaça-qaça, qırmızı tuman, pambıq parça.

***(İydə)***

Dağdan hellədirəm sınmır, bir yumruğa dözmür.

***(Soğan)***

Dənizdə balıq, başı yanıq.

***(Piltə)***

Dörd qardaş bir quyuya daş atır.

***(Mal məməsi)***

Dəvədabanı,
Gəzər obanı,
Altı qıçı,
İki dabanı.

***(Tərəzi)***

Dəyirmana dən oldu,
Zülfüm üzə bənd oldu.
Üç yüz altmış altı taxta
Bir mismara bənd oldu.

***(İl)***

Dağdan, qayadan aşar,
Pişik kimi dırmaşar,
İlan kimi sürünər,
Divardan bərk yapışar.

***(Kərtənkələ)***

Dik çıxanda ildırım, dik enəndə digirquz.

***(Dovşan)***

Dilim-dilim nar,
Diziməcən qar.
Yeddi dananın gönü
Bircə ayağıma dar.

***(Siçan)***

Dağda bir qab aş yumurladım, dənəsi də yerə düşmədi.

***(Nar)***

Ertədən qalxar, car salar.

***(Xoruz)***

Eşiyə baxdım, deşiyə taxdım.

***(Kilid, açar)***

Əzan oxur namazsız, hay-küy salar yamansız.

***(Xoruz)***

Əyri dala qar yağmaz.

***(Qoç buynuzu)***

Əldən tutsan, süzülür, oda tutsan, üzülür.

***(Balıq)***

Əlsiz-ayaqsız qapını açar.

***(Yel)***

Əllə tutulmaz, gözə görünməz.

***(Yel)***

Əzizim, qəssab ağlar,
Sarı don qəssab ağlar.
Ölən qoyun ağlamaz,
Öldürən qəssab ağlar.

***(Soğan)***

Əyri-üyrü boy atar,
Ayağı yerə batar.
Salxım-salxım sallanar,
Altında sarvan yatar.

***(Söyüd ağacı)***

Gecə boşalır, danda dolaşır (dolur, yüklənir).

***(Yüklük)***

Gecələri yuxunda görürsün, gündüzlərin arxasıcan yerirsin, bunu tap, tapmasan aclığından ölürsün.

***(Pul)***

Gedər, gedər, ucu yox, qat-qat kəssən, qanı yox.

***(Yer)***

Gedsən gedər, dursan durar.

***(Kölgə)***

Girdə topum suda oynar.

***(Gün)***

Göy ipəkdir, iynə batmaz, qeyçi kəsməz, dərzi tikməz.

***(Göy üzü)***

Göy üzündə yarım çörək.

***(Yarım ay)***

Göydə çaxmaq çaxar.

***(Şimşək, ildırım)***

Gözə girər, gözə görünməz.

***(Yel)***

Gedən leylək,
Gələn leylək,
Bir qıç üstə
Duran leylək.

***(Qapı)***

Gündüz yatar,
Gecə qalxar.

***(Ulduz)***

Güdə boylu,
Qara donlu.

***(Badımcan)***

Gəlirdim sizdən,
Qar vurdu dizdən.
Allah ayırmaz
Bir-birimizdən.

***(Tərəzi)***

Gedib bazara qazan, quyruq aldım,
Qazan əridi, quyruq ərimədi.

***(Ayaqla ayaqqabı)***

Gecə də gəzər uzunqıç, gündüz də gəzər uzunqıç.

***(Çay)***

Gördüm ağ at gəlir,
Dedim: “Hardan gəlirsən?”
Dedi: “Qan dənizindən”.
Dedim: “Niyə qana batmısan?”
Dedi: “Allah qüdrətindən”.

***(Süd)***

Göy öküz koldan baxar.

***(Qarpız)***

Göydən düşdü, yapışdı.

***(Ad)***

Hədəndi, ha hədəndi,
Dörd qırağı bədəndi.
Yaşıl vurdum, al çıxdı,
Görəsən bu nədəndi?

***(Xına)***

Hər gecədə toyu var.

***(Şam, çıraq)***

Həsənağa məsciddədir,
Zənciri qəfəsdədir.
Nə yerdədir, nə göydə,
Təxti-rəvan üstdədir.

***(Dil)***

Heyva kimi sağ, sapsarı
Nə heyvadı, nə darı.
Bir ağacdan dərərəm,
Ləzzətini görərəm.

***(Armud)***

Xanım içərdə, saçı dışarda.

***(Qarğıdalı, məkə)***

İki anadan on bala,
Öz işinə yordana.

***(Əl, barmaqlar)***

İki bala ayaqlaşıb yatır, dura sala dayaqlaşıb atır.

***(Kirpik)***

İki dartar,
Biri yırtar.

***(Öküz, xış)***

İki kilim, ikisi də gen kilim.

***(Yer üzü, göy üzü)***

İki yoldaş, bir-birin görməz.

***(Gün, ay)***

İşıqla çıxar, qarayla batar.

***(Kölgə)***

İki ayaqlı bir fil,
Ortasında var bir dil.

***(Tərəzi)***

İynəsi çox,
Tikəni yox.
Adı dərman,
Özü heyvan.

***(Kirpi)***

İnəyim var, eşikdədi,
Əli-dili eşikdədi.
İldə bir kərə sallanar,
Özü yenə eşikdədi.

***(Bağ)***

İpsiz iynə, deşiksiz muncuq, Allah dözər, adam üzər.

***(Üzüm)***

Kiçicik baca,
Dolu yonğaca.

***(Ağız, dişlər)***

Kiçicik baca, dünyanı udar.

***(Ağız)***

Kiçikcənə boyu var, qatbaqat donu var.

***(Soğan)***

Komul-komul kom qoyun,
Min sürüdən çox qoyun.
"Yat-yat" dedim yatmadı,
Dan atarkən yox qoyun.

***(Ulduz)***

Kağızına bax-kağızxana, nə çəksən ağzına.

***(Nehrə)***

Kənddən çıxdı saqqallı qız.

***(Süpürgə)***

Kor kişi meşədən baxır.

***(Əzgil)***

Qaçar durmaz,
Yatar durmaz,
Gedər gəlməz,
Alar verməz,
Gələr gedər.

***(Zaman, ölü, keçmiş, ölüm, pul)***

Qaçar, qaçar, qarnı doyar.

***(Cəhrə iynəsi)***

“Qal” desən qalmaz, öz başına getməz.

***(Kölgə)***

Qaladan atsan, yayılar,
Suya atsan, bayılar.

***(Pambıq)***

Qaldıqca uzanar, verdikcə qısalar.

***(Borc)***

Qanadlıdır, quş deyil,
Buynuzludur, qoç deyil.

***(Kəpənək)***

Qanadı var, qanı yox.

***(Kəpənək)***

Qara qatır,
Balıq satır.
Gecə gəzir,
Gündüz yatır.

***(Gecə quşu)***

Quyruğu orağı.

***(Xoruz)***

Qara ayqır, qızıl qısraq.

***(Qara bulud, şimşək)***

Qara boza boyu var, qara tüslü donu var.

***(Badımcan)***

Qara buğa köçürkən, yeri-göyü qapsayar.

***(Gecə)***

Qara dağa qar yağdı, iki ayağım üç oldu.

***(Saçın ağarması, əsa)***

Qaranlıqda gizlənir, arpaçılə çıxanda yox olar.

***(Ulduz)***

Qazanda pişməz,
Tabağa düşməz,
Onu dadmasa,
Adam olmaz.

***(Ana südü)***

Qıl qılının üstünə, qıllı dodaq üstünə.

***(Bığ)***

Qolu yox, baltası yox, çox gözəl köprü yapar.

***(Şaxta, soyuq)***

Quyruğunu bağlaram, qulağını buraram, tüm dünyanı soraram.

***(Radio)***

Qutu-qutu içində
Sandıq qutu içində.
Fatmanın ağ yaylığı,
O da qutu içində.

***(Şabalıd)***

Qırmızı xəşən,
Atılıb düşən,
Dəyirmanlardan
Təndirə düşən.

***(Buğda)***

Qaq-qaq qalası var bunun,
Ağı, alası var bunun.
Yumurtlmaz, qaqqıldamaz,
Uçar balası var bunun.

***(Kəpənək)***

Qırmızı toyuq bağda,
Dimdigi var torpaqda.

***(Qırmızı turp)***

Qara adamlar qırmızı dünyada.

***(Qarpız dənəsi)***

Qara toyuq bağdadır, dimdigi torpaqdadır.

***(Göbələk)***

Qaradır, qarğa deyil,
Qanadı var, quş deyil.
Tula kimi iy bilir,
Tazıya yoldaş deyil.

***(Pıs-pısa, böcək)***

Qulağın burmasan, dilin çıxartmaz.

***(Lampa)***

Quyruğundan tutmasan, tövləyə getməz.

***(Qaşıq)***

Qoca kişi dağdan şələ hellədir.

***(Ülgüc)***

Qırx qardaşıq, başımız bir boyda.

***(Kibrit)***

Qaya altdan qaz gedir,
Burnun qulazlar gedir.
Bi il boğaya gəlir,
Yeddi il boğaz gedir.

***(Fil)***

Qızılgül beçə verdi,
Sana gör necə verdi.
Yarpaqsız ağac gördüm,
Torpaqsız ağac gördüm.

***(Maral buynuzu)***

Qah-qah qalası var bunun,
Qan piyalası var bunun.
Nə doğur, nə törəyir,
Pərvaz balası var bunun.

***(Çiyələk)***

Nənə doğar qızı,
Nə əli var, nə ayağı.
Qız doğar nənəni,
Həm əli, var həm ayağı.

***(Yumurta və toyuq)***

Nə yerdədir, nə göydə,
Zülmü cahan içində.

***(Uşaq ana qarnında)***

O yanı qaya, bu yanı qaya,
İçində sarı maya.

***(Yumurta)***

O nədir ki, ayaqsız qaçar.

***(İlan)***

O nədir ki, toya çarşablı gedir.

***(Badımcan)***

O taydan gedən kişi,
Əlində təndir şişi.
Səndən bir ət istərəm,
Nə yayı görər, nə qışı.

***(Göbələk)***

Özü bir qarış, saqqalı iki qarış.

***(Xoruz)***

Ovu olsan mırıldar,
Sığallasan xoruldar.

***(Pişik)***

O nədir ki, evə girməz, sədaqəti gəzər.

***(İt)***

Önünə keçməz, ardın bıraxmaz.

***(Kölgə)***

Öz qanın özü əmər.

***(Lampa)***

Özü girər, başı qalar.

***(Çivi, mıx)***

Pəncərədən ay doğdu,
Soyuq düşdü, yox oldu,
Anası beşikdəykən,
Qızcığazı qız doğdu.

***(Çiçək)***

Pəncərədi qapaqlı,
Çevrə bəri saçaqlı.

***(Göz, kirpik)***

Paltarı var, dərzi görməyib,
Unu var, dəyirman görməyib.
Taxtası var, dülgər görməyib.

***(İydə)***

P... . . dədənin dişinə-dişinə.

***(Bal arısı)***

Sandığıma min ox saldım, dan qaradım biri yox, donub qaldım.

***(Ulduz)***

Saqqalı uzun sallanar,
Dağı-daşı dolanar.

***(Keçi)***

Sarı toyuğum, cücəsi çox, sana gəlməz, cıv-cıv edər cıvlaşar, qaçıb gedməz.

***(Ay, ulduz)***

Sarıdır zəfəran kimi, qorunur Quran kimi.

***(Altın)***

Sudan çıxar, sudan qorxar.

***(Duz)***

Suya düşdü min dənə, sudan çıxdı bir dənə.

***(At quyruğunun suda açılması)***

Sap-sarıca yemişəm,
Ərdəbildən gəlmişəm.
Baldan şirin dadım var,
Adda-sanda adım var.

***(Xurma)***

Sarı öküz yatıb durmur, qara öküz gedir gəlmir.

***(Od, tüstü)***

Səhər-səhər ağ oğlanı verdim yerə.

***(Fırtıq)***

Şam ağacın oyallar,
Üsdünə sim qoyallar.

***(Kamança)***

Tanrımın qılıcı,
Göydən çıxdı ucu,
Yerə dəyir bir ucu.

***(Şimşək, ildırım)***

Tapışı (səsi) var, sözü yox, canı var, dili yox, mindiyi atın canı yox.

***(Uşaq, mindiyi beşik)***

Tez-tez gəzər,
Ağ toz tökər.

***(Dəyirman)***

Tikişsiz ipək, dizisiz mıncıq.

***(Göy, ulduzlar)***

Tutsan tutulmaz, gözə görünməz, soxsan soxulmaz, səsi duyulan, dəliqanlı köçün (köçün: oynayan. rəqqas).

***(Yel)***

Tüklü ağzın açdı,
Çılpaq içinə qaçdı.

***(Çorab, ayaq)***

Tündə saçdım oxlarım, dan gəlibən topladım.

***(Ulduz)***

Tür-tür keçə,
Dürülməz keçə.

***(Yer)***

Tək çərdəkli yemişəm,
Nəbatdan da şirinəm.

***(Xurma)***

Tərəzi var, təngi var,
Hər bir rəngdən rəngi var.
Salıb üstə oturram,
Həngi var, ahəngi var. ***(Xalı)***

Üçü qoşa, biri tək, yeddi dəlikli toxmaq.

***(Baş)***

Üzü var, səsi yox.

***(Sis, duman)***

Üstü məxmər,
İçi şəkər.
Üstünə sürt,
Ağzına dürt. ***(Şaftalı)***

Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı.
Üçü yığar gətirər,
Üçü vurar, dağıdar.

***(İlin fəsilləri)***

Üzüm-üzüm yollara düzüm.

***(Qarışqa)***

Uzun-uzun qayışlar
Bir ucu Muğanda işlər.

***(Yol)***

Uzanar, ha uzanar, qollarından balalar.

***(Ağaclar)***

Yarım qaşıq, duvara yapışıq.

***(Qulaq)***

Yaşıl qoysan, qırmızı çıxar.

***(Xına)***

Yatsa daş, yansa odun.

***(Daş kömür)***

Yazda geyinər, qışda soyunar.

***(Ağac)***

Yarpaqsız budaq atar.

***(Maral buynuzu)***

Yerə vurdum baltanı,
Kəsdi qızıl xaltanı.
Yerdən bir oğlan çıxdı,
Yerin-göyün sultanı. ***(Buğda)***

Yer üzünün qarası.
Ağacların anası.

*(Torpaq)*

Yupyumru fincan,
İçi dolu mərcan.

*(Nar)*

Yeriyəndə tək qıç, dayananda üç qıç.

*(Əl arabası)*

Yük altında qanlı kasa.

*(Çuğundur)*

Yol üstündə yoğun arvad.

*(Təndir)*

Yaşıl, ağım var,
Al otağım var.
Göy paltarımda
Boz qurşağım var.

*(Qarpız)*

Yupyumru hamar daşı,
İçində bəylər aşı.
Bişirərsən, aş olar,
Bişirməsən, quş olar.

*(Yumurta)*

Yumru-yumru sarıdı,
Yumru gözü darıdı.
Gəzər bağçada, bağda,
Üç həftənin barıdı.

*(Cücə)*

Yumruğun yırtığıva.

*(Cib)*

Zər-ziban zərdən bunun,
Zərdən abbası var bunun.
Xəncərin dəlik-dəlik,
Gör nə nə səfası var bunun.

*(Narınc)*

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

## A

Abırlı abrından qorxar, abırsız nədən qorxar?
Abırsızdan abrını saxla.
Ağ köpək, qara köpək, ikisi də köpəkdir.
Ağ gün qara günü yaddan çıxardar.
Ağac kökündən su içər.
Ağac yaş ikən əyilər.
Ağacı meyvəsindən tanıyarlar.
Ağıl insana sərmayədir.
Ağıl gücdən üstündür.
Ağıla paxıllıq olmaz.
Ağıllı bizi tapmaz, dəli bacadan düşər.
Ağıllı bildiyini söyləməz, dəli söylədiyini bilməz.
Ağıllı bir dəfə aldanar.
Ağıllı dostunu hər zaman xatırlar, ağılsız isə işi düşəndə.
Ağıllı düşməndən qorxma, dəli dostdan qorx.
Ağıllı kişi qışın qeydinə yayda qalar.
Ağıllı uşaq bələkdə özünü göstərər.
Ağıllı fikirləşincə, dəli çayı keçdi.
Ağıllıya işarə, dəliyə kötək.
Ağıllının ağzı qəlbində olur, axmağın qəlbi – ağzında.
Ağlamaq fayda verməz.
Ağlınla gör, qəlbinlə eşit.
Ağrımaz baş qəbirdə olar.
Adı var, özü yox.
Adam adamdır, olmasa da pulu, heyvan heyvandır, atlas olsa da çulu.
Adam başından böyük danışmaz.
Adam var ki, yemək üçün yaşayır, adam var yaşamaq üçün yeyir.
Adamın dostu dar gündə bəlli olar.
Adamın əvvəli olunca, axırı olsa yaxşıdır.
Adamın malı gözünün qabağında gərək.
Adamın öz yavan çörəyi özgənin plovundan yaxşıdır.
Adamın ölümü – mollanın bayramı.
Adamın üzünə baxarlar, halından xəbər tutarlar.

Adamın ürəyindəkini bilmək olmaz.
Adamın hüsnünə baxma, ağlına bax.
Adamların qorxusundan doğrunu demək olmur, Allahın qorxusundan – yalanı.
Adamlığı adamdan istə, xoş ətri – qızılgüldən!
Ay aydın, onun da üzündə ləkə var.
Ayağını yorğanına görə uzat.
Ayaq islanmayınca, balıq tutulmaz.
Ayaq üstə ölmək diz üstə yaşamaqdan yaxşıdır.
Ayaqqabı dar olanda dünya başa zindan olar.
Ayının boğazına su çıxanda balasını ayağınınaltına alar.
«Al ver» deyiblər, «al vermə» deməyiblər.
Alan olmasa, satan da olmaz.
Allah adamın ömründən kəsib bəxtinə calasın.
Allah bacadan tökməz, gərək özün çalışasan.
Allah bir kəsə qəzəb eləmək istəsə, əvvəlcə onun ağlını başından alar.
Allah verəndə yox yerdən verər.
Allah verməyəndə bəndə neyləsin?
Allah qardaşı qardaş yaradıb, kisələrini ayrı.
Allah dəvəyə qanad versəydi, uçurmadığı dam-daş qalmazdı.
Ananın keçdiyi körpüdən qızı da keçər.
Ananın canı övladdadır.
Anlayana bir söz bir kitabdır.
Anlayana bircə milçək də sazdır, anlamayana zurna-qaval da azdır.
Arsız qocalmaz.
Arvad almamış övlad arzusu eləmə.
Arvad ilə at – igidin bəxtinə.
Arvad qohumu şirin olar.
Arvad yıxan evi fələk də yıxa bilməz.
Arvad şeytana papış tikər.
Artıq tamah daş yarar, daş qayıdar, baş yarar.
Artıq tikə diş qırar.
Aslan öləndə də aslandır.
Aslanın qorxusu qarışqadan olar.
Aslanlar yurdunda tülkülər gəzir.

Asta atın təpiyi bərk dəyər.
Ata malı tez tükənər.
Ata malına göz dikən malsız qalar.
Ata oğlunun pisliyini istəməz.
Atdan düşən yenə atlanar.

**B**

Baba paltarı geyərsən, baba olarsan.
Babadan hümmət – nəvədən xidmət.
Babanın əlindən nəvə tutar.
Babanın üzünü ağardan nəvəsi olar.
Bablı baba ilə, su qullabı ilə.
Baqqal, qəssab – hər ikisi bir hesab.
Baqqal daşdan kəsər, siçan baqqaldan.
Baqqal ölülərin borcun dirilərə yüklər.
Bağ alma, bağlanarsan, dağ alma, dağlanarsan, qoyun al, yağlanarsan.
Bağ bağbansız olmaz, dəvə sarbansız.
Bağ belə, bostan belə, tənəkləri şələ-şələ!
Bağbanın bar vaxtı qulağı ağır eşidər.
Bağbanın könlü olsa, nə gəlib bağda paya?
Bağda əlləşənin qurşağı qığ olar.
Bağım var, bağım var – tuman bağı!
Bağında gül var ikən – gül üzünə, bağında gül qurtardı – kül üzünə.
Bağça bağın qıydı, bağban salxım da qıymadı.
Bağçalar sarı, heyvası narı, hamı dinsə də, sən dinmə barı.
Bədnən gələn, badnan gedər.
Bazar ata-ana tanımaz.
Bazar baqqalsız, meşə çaqqalsız olmaz.
Bazar quruldu, hesab duruldu.
Bazarı kasad olan mərdanə gərək olsun.
Bazarın bazar, qadam sənə, mərdimazar.
Bazara gəldi qul alan, kül başına dul alan.
Bala quşun ağzı böyük olar.
Balı da sənin, bəlası da.
Balı dibindən, yağı üzündən.

Balı əliuzun olan yeməz, qismət olan yeyər.
Balı olana doşab satmazlar.
Balın yoxdur, bal kimi dilin olsun.
Balını ye, arısını soruşma.
Balsız şanda arı durmaz.
Balçı qızı – daha şirin.
Balçının var bal tası, odunçunun baltası.
Balağa girdi bağa, bir quş tutdu, o da qurbağa.
Bala bağır ətidir.
Balalı qarğaya pay düşməz.
Balasız da ağlar, balalı da.
Balıq balasını da ovlar.
Balıq balığı udmasa, dəryanı balıq tutar.
Balıq başından iylənər, camış ayağından.
Balıq istəyən özünü suya vurar.
Balıq istəyənin quyruğu buzda gərək.
Balıq kimi qulağı şır-şırdadır.
Balığın böyüyü tabaq altındadır.
Balta ağac kəsməzdi, sapı ağac olmasaydı.
Balta görməyən bağ meşə olar.
Balta öz sapını kəsməz.
Banlayan toyuq mollaya düşər.
Bar vaxtı bağbana salam verən çox olar.
Bar verən ağaca daş atarlar.
Barsız ağaca daş atmazlar.
Barlı ağacın başına dolanarlar.
Barmaq hesabı verir.
Barmağı işin içindədir.
Barmağın hansını kəssən, ağrısı birdir.
Barıt ilə odun dostluğu olmaz.
Basılanı əzməzlər.
Batman qara daşdan, yaxşılıq iki başdan.
Bax mənə, baxım sənə.
Bax mənə bir gözlə, baxım sənə iki gözlə.
Bahalıqda aldığımıucuzluqda sataram.

Baş sınar bel içində, qol sınar kürk içində.
Baş hara gedərsə, ayaq da ora gedər.
Baş ürəkdən su içər.
Başa düş, başımı yar.
Başa düşənə can qurban.
Başaçığın qaçan yeri – papaqçı dükanı.
Başbilənsiz iş olmaz.
Başda oturan baş olmaz.
Başda tük olsun, daramağa nə var?
Başlı başın saxlasın, mən başımdan bezaram.
Başı ağ, ürəyi qara!
Başın böyüklüyü dövlətdir, ayağın böyüklüyü möhnət.
Başına gələn bilər.
Başını itirən tükü üçün ağlamaz.
Başını yarıb ətəyinə qoz tökür.
Başlanmış iş yarı olmaq deməkdir.
Başmaq cütlənəndə məlum olar.
Başqasına köynək oldun, mənə barı xiştək ol.
Başqasına pislik edən özünə etmiş olar.
Başqasının əli ilə aş yeyənin qarnı doymaz.
Bez istəyirsən – Zəncana get, ölüm istəyirsən – Gilana.
Belə də qalmaz, belə də getməz, bir gün olar bəxt oyanar.
Belə yatan öküz yük götürməz.
Beş ilin öküzüqırx ilin qazısın aldadır.
Beş gün yaraq –bir gün gərək.
Bəd övlad xətaya ürcah olar.
Bəd at özün gözlər, yaxşı at igidi.
Bədbəxt ova çıxdı, dağları duman aldı.
Bədbəxtin atı çox getməz.
Bədən başa deyir: – Saxla məni, saxlayım səni.
Bir də gəlin ollam, oturub – durmağımı bilərəm.
Bir dəli bir quyuya daş atdı, yüz ağıllı çıxarda bilmədi.
Bir dəfə gəldin – yoldaş, iki dəfə gəldin – qardaş.
Bir dəfə görmək iki dəfə eşitməkdən yaxşıdır.
Bir dirhəm min eybi örtər.

Bir dost min ildə qazanılar.
Bir dostum var, bir postum.
Bir evdə iki qız – biri biz, biri çuvalduz.
Bir evdə şadlıq, bir evdə – şivən.
Bir eşitmisən, bir də eşit.
Bir əl əkər, iki əl biçər.
Bir əllə düyün düyünlənməz.
Bir ət ki girdi qazana, oldu yeməli.
Bir ziyan, min böhtana səbəb olar.
Bir ziyan, min öyüddən artıqdır.
Bir idi, oldu iki, ovhala qurbanın olum, ovhala.
Bir ilana, bir də xana bel bağlama.
Bir inad, bir murad.
Bir it hürməklə karvan qayıtmaz.
Bir iti iki daşla vurur.
Bir iş başlamayınca qurtarmaz.
Bir iş var, iki əməl.
Bir iş tut ki, aqibəti xeyir olsun.
Bir işdə özünə on mənfəət varsa, xalqa bir zərər, o işi başlama.
Bir işi başlayandan əvvəl axırını fikir eylə.
Bir iş bitməyincə, o biri işə başlama.
Bir işin əvvəlinə bax, bir də axırına.
Bir yanda ağlayır, bir yanda gözünün yaşını silir.
Bir yanda ağlaşma, bir yanda çalğı.
Bir yandan bağlayanbir yandan acar.
Bir «yeyirəm» deyəndən qorx, bir «yemirəm» deyəndən.
Bir gecənin oğrusu on illik molladan çox bilər.
Bir gecəlik söhbətin doqquz ay mabədi var.
Bir gələn bir də gələr.
Bir gəmi dolanar, bir qız dolanmaz.
Bir gözə bir dünya sığışar.
Bir gözü alça dərir, biri səbətə tökür.
Bir gördün namərdi, bir də görsən namərdsən.
Bir görür, iki istəyir.
Bir gül ilə bahar olmaz.

Bir gün duz yediyin yerə, qırx gün salam ver.
Buyuran bilməz, hazırlayan bilər.
Buyurduğu qulluğa bax, verdiyi haqqa.
Bu gün belədir, sabah elə.
Bu gün qızını döyməyənsabah dizini döyər.
Bu gün dünyadır, sabah axirət.
Bu gün düşənbədir, meylinə düşən nədir?
Bu gün olanını ye, sabaha qismət nə olsa.
Bu gün gəlib keçdi, sən sabaha bax.
Bu gün nəğd, sabah nisyə.
Bu gün sən deyərsən, sabah sənə deyərlər.
Bu gündən sabahı gör.
Bugünkü qazma sabahkı neftdir.
Bugünkü qız sabah anadır.
Bugünkü yumurta sabahkı toyuqdan yaxşıdır.
Bugünkü söz dünənki sözün körpüsüdür.
Bugünkü toyuq sabahkı qazdan yaxşıdır.
Bulaq gərək yerindən bulaq ola.
Bulaq öz gözünü kor istəməz.
Bulaq özü tərpənməz, el-obanı ayağına gətirər.
Bulağa susuz aparar, susuz gətirər.
Bulamanı bulama, buladıqca yalama.
Bulanlıq suda balıq tutulmaz.
Bulud altından çıxan gün, yaşmaq altından çıxan üz.
Buludu külək oynadır, ağlı kəm olanı fışdırıq.
Buluddan nəm çəkir.
Bundan sonra əlini öz cibinə sal.
«Bunu edəcəyəm», demə, «bunu eləmişəm» de.
Burada vurur qılıncı, fələkdə oynar ucu.
Burada dilənir, orada zəkat verir.
Burada üləma diz yerə qoyub.
Burnun girməyən yerə başını soxma.
Burnunu hər deşiyə soxar.
Burnunu sıxsalar, canı çıxar.
Burun-qulaq başa sadağadır.

Burun çirkli olanda kəsib atmazlar.
Buxarının əyriliyinə baxma, tüstüsünün düzçıxmasına bax.

**C**

Cavan baş bir çanax qandır.
Cavan işlər, qoca dişlər.
Cavanlıq bir dəfə olar, qocalıq da bir dəfə.
Cavanlıq gözəllikdir, onu boyamaq artıqdır.
Cavanlıq soltanlıqdır, bacarsan saxla.
Cavanlıqda qocalığa güc saxla, pullu gündə pulsuz günə pul saxla, savaşanda barışmağa üz saxla.
Cavahir bazarında muncuq satılmaz.
Cavahir cında içində olar.
Cavahirin qiyməti var, sözün qiyməti yoxdur.
Cavahirin qiymətini sərraf bilər, nə bilər hər divanə.
Cahilliyi uzadan ya tula quyruğu xınalar, ya camadar olar.
Camal gedər, kamal qalar.
Camış hənəyi göz çıxardar.
Can alan baxışından bəlli olar.
Can bazarda satılmaz.
Can baladan şirindir.
Can bir qəlbə yaşayır.
Can verirsən, boz sərçəyə ver, qaranquş gəldi-gedərdir.
Can verirsən, qardaşa ver, min il keçsə, yad olmaz.
"Can" deyən çox olar, can verən olmaz.
"Can" deməklə can əskilməz.
Canavar tək qalanda başına çaqqallar yığışar.
Canavarlar ağız-ağıza yatarlar.
Cananı sevən canından keçər.
Canandan ayrılan candan ayrılar.
Canbaz ipdə gəzər, balıq – suda.
Candan kabab olmaz.
Candır, badımcan deyil.
Canı yanan eşşək atdan yeyin gedər.
Canı olanın, qayğısı da olar.
Canı sapdan asılıb.

Cahil axırda tula quyruğu xınalar.
Cəhrə əyirsən – don geyərsən.
Cida ilə qulağa pambıq yeritmək olmaz.
Cidanı oğurlayan yerini bilər.
Cidanı çuvalda gizlətmək olmaz.
Ciyərə qane olmayan pişik, asılarsan qənarədən.
Ciki mənim – biki mənim, alçı dursa – sənin bəxtinə.
Cin "bismillah"dan qorxar.
Cins cinsə çəkər.
Cismin qidası – yemək, ruhun qidası – oxumaq.
Cicinin axır yorğanı.
Cığala tanrı verməz, versə də, qarnı doymaz.
Comərd vergisini xeyirlidən-xeyirsizdən əsirgəməz.
Comərd deməklə – maldan etdilər, igid deməklə – candan etdilər.
Cütə getməyən öküzü ətlik adına satarlar.
Cütçü babadır özü üçün.
Cücə ağgünlü olsaydı, toyuq əmcəkli olardı.
Cücə səbət altında qalmaz.

**Ç**

Çayın daşı – çölün quşu.
Çayır yeddi il leylək yuvasında qaldı, yerə düşdü bitdi, atasının vəziyyətini unutmadı.
Çayxana dolu – sahə boş.
Çalan olsun, oynayan tapılar.
Çalğı olan yerdə, oynamaq da olar.
Çalğı toyun yaraşığıdır.
Çalğısız toy olmaz.
Çalışan qazanar.
Çalışan əli bıçaq kəsməz.
Çapqınçı olsan da, insafı əldən vermə.
Çarvadara yol göstərməzlər.
Çarəsiz dərd olmaz.
Çarəsiz dərdə loğman da acizdir.
Çarığına baxma, ürəyinə bax.
Çarşab-corab eyləyib gəlir.

Çaxırpaxır açandır.
Çaxırı iç-şir böyrü yırtmağa, içmə-qarğalar gözünü dəlsin.
Çaxırı keçinin boğazına töksən, varıb dağları aşar.
Çaxırı lala versən, lal dil açar.
Çaxırı töksən siçanın boğazına, pişikdən pasport istər.
Çaxmağını çax, papağımı tapım.
Çahar atdım şeş gəldi, yenə fələk uddu məni.
Çaş biri iki görər.
Çeşmə ümman yaradar.
Çəkilən zəhmət hədər getməz.
Çəkic ol – üstdə ol, zindan olub altda qalma!
Çərçinin yüz andı öz eşşəyinə qənim olar.
Çərçinin nəğməsi yox, nərəsi çox.
Çərşənbə yemişidir.
Çətini ölənəcəndir.
Çibin mundar deyil – ürək bulandırır.
Çiy ət dərd gətirər.
Çiy ət ət gətirər, çiy çörək – dərd.
Çiy noxud ağızda islanmaz.
Çiy süd əmənə etibar yoxdur.
Çinara nə qədər su versən, meyvə verməz.
Çirkaba daş atma, üstünə sıçrayar.
Çirkin dövlətli qızını atası adına alarlar.
Çirkin yuyunmaqla gözəl olmaz.
Çıxan qan damarda qalmaz.
Çiçək çox olan yerdə, arı da olar, bal da.
Çoban çox olanda qoyunu qurd yeyər.
Çoban corabını özü toxuyar.
Çobanın yasdığı yastı qayalardır.
Çolaq ayağa daş dəyər.
Çolaq at seyidə nəzirdir.
Çolaq koru görəndə öz halına şükür eylər.
Çomağın o biri başın çevirir.
Çox bilən quş dimdiyindən tələyə düşər.

Çox biləntez qocalar.
Çox bilmək istəyənçox da çalışsın gərək!

**D**

Dava acı, faydası şirin olar.
Dava dağarcıq üstədir.
Dava günündə igid gərək daldalanmasın.
Dava üçün bir qazı, isbat üçün on şahid.
Davada ağac aradakına dəyər.
Davada aradakının gözü çıxar.
Davada qılıncı borc verməzlər.
Davada nırx kəsən olmaz.
Davakarın şah olsa, ərizəni Allaha yaz.
Davalı yerdə ot bitməz.
Davasını bilməyənə şahid olma.
Davaçı qazı isə, ərizəni Allaha yaz.
Davaçın xan olsa Allah dadına çatsın.
Dağ başı duman olar.
Dağ ağrı çəkdi, nə doğdu? – Siçan.
Dağ başı dumandan qurtarmaz, insan başı yamandan.
Dağ başında xırman qurma, sovurarsan, yel aparar, sel yanında dəyirman qurma, üyüdərsən, sel aparar.
Dağ bizim, ceyran bizim, ovçu burda nə axtarır?
Dağ da olsan, dağa daldalan.
Dağ dağa arxadır.
Dağ dediyin ucalıqdır, ucalıq.
Dağ yeri – duman yeri.
Dağdan gələn dağa gedər.
Dağdan gəlir dağ arabası, heç kimin onu mindiyi yox,
Dağdan hey götürüb desən ki, «çoxdur», bir də görərsən ki, dağ özü yoxdur.
Dağın nə dərdi, dağ boydadır.
Dağın üstə bağın sağ olsun.
Dağılasan vilayət; azançısı – eşşək, münəccimi – çaqqal.
Dağına baxar – qar verər, bağına baxar – bar verər.
Dazın istədiyi qara saç olar.

Dairənin nə başı var, nə ayağı.
Dayağı dağ olanınbaşı göylərdə olar.
Dayanan su tez iylənər.
Dayı ilə dağ dolan, əmi ilə bağ dolanma.
Dayı görməyib, elə bilir Şaqqulu da bir dayıdır.
Dayı tikən körpünü su aparmaz.
Dayısı olan dayısına güvənər.
Dal ayağı ilə qulağını qaşıyır.
Dalaşan köpək xoralı olar.
Dalda qalma, yoldaşından yeyin get.
Daldan gələn dadlı olar.
Dam dirəksiz olmaz, tövlə kürəksiz.
Damdan düşdüm, ətəyim sındı.
Damdan düşənin halını damdan düşən bilər.
Damdan düşsə, pişik kimi ayağı üstə düşər.
Damımız uçdu, dam kürüməkdən qurtardıq.
Dan ulduzuna dönmüsən.
Dana göbələk götürdü.
Dana oynar, mıxını bərkidər.
Danalı inəkdən sağım olmaz.
Danışmaq dananı qurda verər.
Danışıram da pis olur, danışmıram da.
Dar yerə min dost yerləşər, bir düşmən yerləşməz.
Darayı, səni geyər hər ayı!
Darvazadan keçməyən iynə gözündən keçər.
Darı çörəyi – xırmana qədər.
Darıya girən donuz yabanı özünə qəbul elər.
Darıycan əri olanın tanrıycan hökmü olar.
Darımızı yeyib, üzümüzə xortdayır.
Daş altından su yeridir.
Daş at – qolların açılsın.
Daş bir yerdə – qoz bir yerdə.
Dəvəni ya duza, ya suya.
Dəvəni yel aparsa, keçini göydə gör.
Dəvəni yükü ilə, sarbanı ipi ilə.

Dəvəni palaz altında gizlətmək olmaz.
Dəvəni satan köşək ala bilməz,
Dəvənin ayağı altında qarışqa əzilməz.
Dəvənin biri bir döngə, vay döngə dərdi.
Dəvənin yemədiyi ot, ya başını ağrıdar, ya qıçını.
Dəvənin kini – ilanın kini.
Dəvətsiz qonağı köpək qarşılar.
Dəvətsiz gələn qonaqquru yerdə oturar.
Dədə görməyən elə bilər Şaqqulu da bir dədədir.
Dədəm evində balıq başı, ərim evində də balıq başı?
Dədəm evində də qarabəxt, ər evində də?
Dəyərli muncuq yerdə qalmaz.
Dəyirman bildiyini eylər, çaq-çaq baş ağrıdar.
Dəyirman iki daşdan, məhəbbət iki başdan.
Dəyirmana dəni evdə arıd apar.
Dəyirmana gedirəm, nə dənim var, nə çuvalım.
Dəyirmana getsə, dünya xəbəri gətirər.
Dəyirmana gələndən sonra ulaq görən çox olar.
Dəyirmanda buğda qurutmazlar.
Dəyirmanın boğazı boş qalsa, daş daşı sürtər.
Dəyirmanın boğazına ölü salsan, diri çıxar.
Dəyirmanın pəri – iki günün əri.
Dəyirmanın səsindən qaçan un üyütməz.
Dəyirmandan acıq eyləyən çuvalını boş aparar.
Dəyirmançının şahidi kömbəçi olar.
Dəymə mənə, dəyməyim sənə!
Dəymə tazıya – qaçar qazıya.
Dəli ağlamaz, ağıllı gülməz.
Dəli aydan qorxar.
Dəli bağlayanı ağıllı aça bilməz.
Dəli başına dövlət quşu qonub.
Dəli qazandı, ağıllı yedi.
Dəli qazının yazdığını ağıllı qazı pozmaz.
Dəli söyləyən doğru olar.
Dəli utanmaz, yiyəsi utanar.

Dəli çomağa rast gəlib.
Dəliyə bir hava bəsdir.
Dəliyə qanun yoxdur.
Dəliyə qoşulma, səni də dəli edər.
Dəliyə daş atma, başına daş yağdırar.
Dəliyə dedilər: – Dünyada dəli çoxdur, ağıllı?
Dedi: – Dəli!
Dedilər: – Nə üçün?
Dedi: – Dəli bir nəfərdir, ona “dəli” deyən minlərlə!
Dəliyə dedilər: – Nə üçün dəli olmusan?
Dedi: – Ağıllıların dərdini çəkməkdən!
Dəliyə dəyənək verməzlər.
Dəliyə dəli kimi cavab verməzlər.
Dəliyə yazı yoxdur.
Dəlini zəncirlə yox, tədbirlə tutarlar.
Dəlinin başında qoz ağacı bitməz.
Dəlinin bir ağıllısı olmaz?
Dəlinin buynuzu olmaz ki?
Dəlinin dilinə pəhriz yoxdur.
Dəlinin düşünməsinə, toyuğun eşələnməsinə dərman yoxdur.
Dəlinin eşşəyi də dəli olar.
Dəlinin nə toyu olsun, nə bayramı.
Dəlinin sözü, sərxoşun gözü.
Dəlinin ürəyi dilindədir, ağıllının dili ürəyindədir.
Dəlinin xırmanı olmaz.
Dəlicə qızdan dəlicə gəlin olar.
Dəlləyi müştərisindən çox.
Dəllək dəlləyin başını qırxanda pul almaz.
Dəlləkliyi bizim başımızda öyrənir.
Dəm dəm gətirər, qəm qəm.
Dəmir ayaq, dəmir çarıq, dəmir diş.
Dəmir dəmiri kəsər.
Dəmir ki var, döydükcə uzanar.
Dəmirçinin ömrü tax-taxla, leyləyin ömrü lağlağla keçər.
Dəni ellərdən, suyu göllərdən.

Dəndən yeyir, başqa yerdə yumurtlayır.
Dərd gələndə lailacı, pişiyə deyərlər: – Xanım bacı!
Dərd gələndə xalvar ilə gələr, çıxanda misqal ilə!
Dərd olsun, söz olmasın.
Dərd çəkənə gərəkdir.
Dərdi verəndərman da verər.
Dərdin yoxdur, söylən, borcun yoxdur, evlən.
Dərdini dərd bilənə söylə.
Dərdini gizlədən – davasını tapmaz.
Dərdini unut, sözünü unutma.
Dərdli dərdlinin dərdini axtarar.
Dərdlini dindirmə, özü dillənər.
Dərdsiz baş – bostan qırağında köpək.
Dərdsiz könüldə məhəbbət yuva açmaz.
Dərə mənim, düz mənim, sənin burada nə işin var.
Dərə mənim, düz sənin.
Dərəni, təpəni sel bilir, yaxşını, yamanı el bilir.
Dərzi öz yırtığını yamamaz.
Dərzinin mayası iynə-sapdır.
Dərilməmiş güldən dəstə bağlamaq olmaz.
Dərin su bulanmaz.
Dərya görünən yerdə qətrə nə görünər?
Dərya murdarlıq götürməz.
Dəryadakı balıq, göydəki quş satılmaz.
Dəryadan bir damcı.
Dəryadan nə əskik olacaq? Dərdə nə əskik olacaq?
Dəryadan uzaq, bəladan uzaq.
Dəstəmazsız namaz olmaz.
Dəstini qıran da bir, suyu gətirən də bir.
Dəhnəni dərin qazı, suyu gur gəlsin.
Div qurbağaya aşıq olub.
Divan ilə divanlıq eləmək olmaz.
Divan haqqa da baxar, nahaqqa da.
Divanxana qapısı –girəndə darvaza olar, çıxanda iynə gözü.
Dil ağrıyan dişə dəyər.

Dil sümüksüzdür, amma sümüyü sındırar.
Dil ürəyin açarıdır.
Dildə bir şey deyib, ürəkdə başqa şey tutma.
Dildə yox, işdə özünü göstər.
Dildən acı, dildən şirin şey yoxdur.
Dildən gələn əldən gəlsə, kasıb-kusub varlanar.
Dildir, nə qoruğu var, nə qaytanı.
Dilənçi torbasından çörək yeməzlər.
Dilənçiyə bir verərsən, bir də istər, sabahacan yatmağa yer də istər.
Dilənçiyə torbası ağırlıq eləməz.
Dilənçiyə xiyar verdilər, əyridir, deyə almadı.
Dili bal, işi bəla.
Dilin olmasaydı, qarğalar dimdikləyərdi.
Dilində öd olanın hər şeyi acı olar.
Dilinə doğru söz gəlməz.
Dilini bilməyən anasın tanımaz.
Dilini saxlayan, başını saxlar.
Dilini tut, divanı ud.
Dilini uzun eləyən, başını bəlaya salar.
Dindən çıxsan da, eldən çıxma.
Dini dinara satan molladindən də olar, dinardan da.
Dini dinara satmaq olmaz.
Dini yeyib, imanı dalına atıb.
Dini olmayanın imanı da olmaz.
Dinindən dönər, imanından dönməz.
Dincliyimi Şahmərdan kəsib.
Diri dirinin dərdini çəkər.
Diri it ölü aslandan yaxşıdır.
Diridən dirilik qalar.
Diriyə dirilik lazımdır.
Diz ağrısını can çəkər.
Diş verən dişlik də verər.
Diş qurdalamaqla qarın doymaz.
Diş yox ikən dodaq var idi.
Dişi düşmüş boz öküzqoşulub cöngələrə.

Dişinin qədrini bilməyən çənəsiz qalar.
Doğru söylə, atı min çap.
Doğru tutulmayınca, oğru tutulmaz.
Dodağın qalınlığına baxma, sözün zərifliyinə bax.
Dozanqurdunun da balası özü üçün əzizdir.
Dolan qoyunum, dolan, borc verən gələr, ya səni aparar, ya məni.
Dolanmağa yad ölkə, ölməyə vətən yaxşı.
Dolaşan qurd ac qalmaz.
Duz-çörək qədri bilməyən itdən də alçaqdır.
Duz-çörək itməz.
Duzun duz olsun.
Dul arvad yuxuda ikinci ərini görər.
Dul arvad özü yetimdir, amma yetimlərə anadır.
Dul arvadı qız adına almazlar.
Dul arvadın boxçası qoltuğunda olar.
Dul arvadın dilləriqaraca yazın günləri.

**E**

Ev ayranı acı olar.
Ev alma, qonşu al.
Ev bağda, bağ dağda.
Ev bizə qaldı desənə, halva bişibdir – yesənə.
Ev bizim, sirr bizim.
Ev böyüksüz olmasın.
Ev dağılsa, tiri qalar, kalafa uçsa – yeri.
Ev sözsüz olmaz, meşə çaqqalsız.
Evdə qonaq olanda uşağa acıqlanmazlar.
Evdə div olur, çöldə divanə,
(Evdə xoruz olur, bayırda toyuq).
Evdə gəlinim olsun, bayırda – yeznəm.
Evdəki hesab bayıra çıxmaz.
Evdən qabaq qonşu axtar.
Evdir –aşağısı da olar, yuxarısı da.
Evə girirəm, qarı döyür, bayıra çıxıram – tanrı.
Evi abad al, bağı – bərbad.
Evi abad edən arvaddır.

Evi yoxdur, qapı axtarır.
Evi odlanan mən, əli kösövlü sən.
Evimizə gəldi qonaq, vay dədəm vay, dədəm vay, olaydı yumurta, bişirəydim qayqanaq, vay tavadərdi, yağ da yoxdur!
Evin bəzəyi ocaqdır. (Evin bərəkəti ocağındadır).
Evin böyüyü buyruqda, kiçiyi – qulluqda.
Evin zibilini küçəyə atmazlar.
Evin yaraşığı gəlindir.
Evin yaraşığı uşaqdır, süfrənin yaraşığı – qonaq.
Evin yıxılsın, Müşküllü Məmməd, ayının böyüyünü
burada qoyub gedib meşədə axtarır.
Evin minarə dibində olsa da, qulağın səs eşitməz.
Evlər damı isti sacdır, davam gətirən oturar.
El ağzı ilə şorba içilməz.
El ağzında bir sözün yüz rəngi var.
El ağzını bağlamaq olmaz.
El adamı "igid" deyə candan edər, "comərd" deyə maldan edər.
El ayranı yanğını soyutmaz.
El arasında it quyruğu kəsməzlər.
El atan daşa güc çatmaz
El qapısı – həkim qapısı.
El qızına inanmaq olmaz.
El dağlara dayanıb, çıraqlı indi oyanıb.
El dəlisiz olmaz.
El eybini sənə deyən, sənin də eybini elə deyər.
El el ilə, dəyirman yel ilə.
El ilə qara gün bayramdır.
El ipilə quyuya düşən, quyuda qalar(Özgə ipilə quyuya düşən, quyuda qalar).
El içində – əmioğlu, əmioğlu içində – qardaş.
El içində ol, el içində öl (El içində – öl içində).
El yandıran şamı söndürmək olmaz.
El ağzı – çuval ağzı.
El el üstə sığınar.
El yaxşılığın unutma.

El yumruğunu görməyənöz yumruğunu batman sanar.
El keçən körpüdən sən də keç.
El kisəsindən dəvələr sənə qurban.
El köçdü, oba qaldı.
El köçdü, sən də köç.
El gözü aydın görər (El gözü sərrafdır).
El malı ilə dost qazanılmaz.
El malına kəm baxan, malsız-davarsız qalar.
Elə bil ölü qəbirdən xortdayıb.
Elə bil kilsəyə bir daş atdım.
Elə don geymək gərək ki, yamağı evdə tapıla.
Elə elə ki, bir də bazara şorsatan gəlsin.
Elə elə ki, nə şiş yansın, nə kabab.
Elə zılxın (çuğundurun) belə qazanı olar.
Elə iş tut ki, içindən qənbərqulu çıxmasın.
Elə ye ki, dişlərinə zərər eləməsin.
Elə ye ki, həmişə yeyəsən.
Elə yeməyin belə də qusmağı olar.
Elə hürəyən itdənbelə zınqıldayan tula olar.
Elə çobanın belə də sürüsü olar.
Elə çömçənin belə də qazanı olar.
Elə tikə götür ki, uda biləsən.
Ellər bizə, biz ellərə.
Elm zəhmət ilə ələ gələr.
Elm insana böyük mirasdır.
Elm var ki – rəndədir, adamı hamarlayır.
Elm mərtəbəsi uca olar.
Elm oxumaq – iynə ilə gor qazımaq deməkdir.
Elm para ilə yox, çalışmaq ilə ələ gələr.
Elm sahibinə böyük zinətdir.
Elçiyə "yox" cavabı verməzlər.
Enişin yoxuşu, yoxuşun da enişi var.
Erkək aslan şirdir, dişi aslan şir deyil.
Erkək itin qarnı tox gərək.
Ertəyə qalan, arxaya qalar.

Ertəyə qalan bəladan qorxma.
Ertəykən əkən erkən də biçər.
Ehtiyat ən böyük qoçaqlıqdır.
Ehtiyat şərtdəndir.
Ehtiyatlı qoyunu qurd yeməz.
Ehtiyatlı oğulun anası ağlamaz.
Ehtiyatı əldən vermə.
Eşq ağladar, dərd göynədər.
Eşq bir dəryadır, üzmək bilməyən bu dəryada boğular.
Eşitmək görməyə bənzəməz.
Eşitmişəm, görməmişəm.
Eşşək aldım qatır çıxdı.
Eşşəyə min, ata çatınca.
Eşşəyə min, baxtın açılsın.
Eşşəyə minib, eşşəyi axtarır.
Eşşək dağda ölər, sorağı evə gələr.
Eşşək eşşəyə "uzunqulaq" deyər.
Eşşək ya oduna gedər, ya suya.
Eşşək yük altında anqırmaz.
Eşşək Məkkəyə getməklə "hacı" olmaz.
Eşşək nə bilir xurmanın dadını?
Eşşək nədir, döşək nədir.
Eşşək olsa da, özümüzünküdür.
Eşşək olan qulaqların sallasın, nalbənd gəlib ayaqların nallasın.
Eşşək olasan, çulun bu qədər nazik?!
Eşşək palçığa batsa, yiyəsindən qeyrətlisi tapılmaz.
Eşşək palçığa batandan sonra yol göstərən çox olar.
Eşşək tapılanda yük vuran çox olar.
Eşşəkdən soruşdular: Mənzilə nə vaxt çatırıq?
Dedi: – Üstümdəkindən soruş!
Eşşəklər evdə oturub, qoduqlar sahəyə çıxıb.
Eşşəyə buynuz versən, vurar ölkəni dağıdar.
Eşşəyə qızıl yükləsən, qiyməti artmaz.
Eşşəyə qızıldan noxta taxsan, yenə adı eşşəkdir!

**F**

Fal yox, yumurta da yox.
Farsın – qəzəli, türkün məsəli.
Fəqir əlinə baxırsa, sən cibinə bax.
Fəqirə “axmaq” deyərlər, kasıba “gic”.
Fəqirə həmdəm gəlməz.
Fəqirin təsəllisi – ölümdür.
Fəqirin cibi boş, qəlbi doludur.
Fələyə bel bağlamaq olmaz.
Fələyin beylə-beylə işləri çox, aslanı ac gəzdirər, tülkünü tox.
Fələyin qaydasıdır, dağı dağ üstündən çəkər.
Fələyin zoruna heç nə kar etməz.
Fələyin çərxi dönər.
Fələyin işinə bax, ayıya qaval çaldırır.
Fələk birin qurar, birini dağıdar.
Fələk güclü – mən gücsüz.
Fərə çıxdığı qabığı tanıyar.

**G**

Gedər aclıq, gələr bolluq, bizə qalar kömbə yanığı.
Getdi – görə bilməzsən, yıxdı – hörə bilməzsən,
onu ki, sən deyirsən, onu daha görməzsən.
Get özünə dost qazan, düşmən ocaq başında.
Get çanağım, gəl çanağım, ortalıqda sın çanağım.
Getdi babamın xeyratına.
Getdi qara qızın eşqinə.
Getdi gedər-gəlməz yoluna.
Getdim adına, tüpürdüm dadına.
Getdim dərdli yanına, o məndən narın ağladı.
Getdim savab edəm, günaha batdım.
Getməsin o yaman ki, yerinə yaxşı gəlməyəcək.
Getmişdi kabab iyinə, gördü ki, eşşək dağlayırlar.
Gec danışsan, kəlamın gül olar.
Gec kəsər, karlı kəsər məzlumun ahı səni!
Gec gələn qonaq olduğundan yeyər.
Gecə sol yatan səhər sağ oyanar.

Gecə şərab, gündüz qumar, bu əməllə sənət umar.
Gecənin ərizəsini həzrət Süleyman oxumayıb.
(Gecənin ərizəsini heç kəs oxumayıb).
Gecə dırnaq kəsən, gündüz nağıl danışan əlbət gora gedər.
Hər zülmət gecənin bir gündüzü var, bir yandan bağlayan bir yandan açar.
Gecə pişik samura oxşar.
Gədadan bəy olmaz.
Gədadan borc alma, ya toyda istər, ya bayramda.
Gəzər divanə-divanə parası olmayan dərviş.
Gəzərdə – qoyun əti, onun da boyun əti.
Gəl bir addım, gəlim iki addım.
Gəl bu şeytan atından en!
Gəl daşı ətəyindən tök!
"Gəl" deməsi yaxşıdır, "get" deməsi pis.
Gəl məni gör, dərdimdən öl.
Gəldi qaşın qayırsın, vurdu gözün çıxartdı.
Gəldi – qatıq, gəlmədi – ayran.
Gəldi əcəl, vermədi macal.
Gəldi-gedəri saxlamaq olmaz.
Gəldi-gəldisi şah gəldisinə dönüb.
Gəldi xəzri, ver nəziri, gəldi gilavar – onda nə var?
Göz gördüyünə inanar.
Göz görməz, üz utanmaz.
Göz görməsə, könül bulanmaz.
Gözəl görünər, çirkin bürünər.
Gözəldə etibar olmaz.
Gözəldən göz ağrısı, çirkindən dərdi-bəla.
Gözələ baxmağın könül səfası var.
Gözələ göz dəyər, qəlbə – söz.
Gözəllər çox iş görərlər, soyarlar adamı, dərviş edərlər.
Gözəllik vardan olar, olmasa – hardan olar?!
Gözəllik ondur, doqquzu dondur.
Gözəllik baş tacıdır, hər adama qismət olmaz.
Gözümüz yollarda, qulaqlarımız səsdə.

Gözümün ağıcan olsun, özümün olsun.
Gözün aydın olsun, pişiyimiz oğlan doğub!
Gözün bir ayağın altına baxsın.
Gözünə qara su gələr.
Gözünə torpaq atır.
Gözü qabağına baxmayanın ayağına daş dəyər.
Gözünün nuru yoxdur.
Göydə axtarırdım, yerdə əlimə düşüb.
Gölməçəyə su gəlincə, qurbağanın gözləri bərələr.
Gönüqalın adamdır.
Gönü suya vermə, verdin heyfsilənmə.
Gördü – hənək, görmədi – gerçək.
Gördüyün güllü kömbədir, bazara çıxıb, qoğal olub.
Gördüyünlə nə işin var, sən bildiyindən danış.
Gördüyünü qoyub, eşitdiyinə inanma.
Gördün yarın yar deyil, tərkin qılmaq ar deyil.
(Gördün ərin ər deyil, tərkin qılmaq ar deyil).
Görən gözə yasaq olmaz.
Görən gözün haqqı var, görən görüb-götürər.
Görünən dağ uzaq deyil.
Gönünü dabbağxanada tanıyırlar.
Götürəndə peşiman, götürməyən də.
Guş daşı yerdə qalmaz.
Güvənmə varlığa, düşərsən darlığa.
Güvəc qazana dedi: Üzün qaradır!
Güvəc daşa toxunsa, vay güvəcin halına,
Daş güvəcə toxunsa, vay güvəcin halına!
Güvəc yumbalanar qapağın tapar.
Güvəcə verə-verə çıxan qazan bahası.
Güzgüyə baxan özgəsini görməz.
Gün altında yatmayan kölgənin qədrini bilməz.
Gül bülbüldən artıqinsan əlindən çəkər.
Gül qönçədə qalmaz, söz – qəlbdə.
Gül əzizdirsə, gülşən ondan əzizdir.
Gül istəyən tikanın da istəsin gərək.

Gül getdi, xar qaldı, güldən yadigar qaldı.
Gül güllüyü ilə üşüməz.
Gül o qədər bitib, reyhan arada itib.
Gündüz gedir dar-dar edir, axşam gəlir yer dar edir.
Gündüz gəzər obanı, axşam sancar dabanı.
Gündüz molla, gecə oğru?!
Gündüz şam yandıran gecə şamsız yatar.
Günəbaxan günə baxar!
Günü gününün ölümünü istər.
Günülüyə, yanı qoduqluyaruzigar haramdır.
Günüm yoxdur, günüm var.
Günümü göy əskiyə bağlayıb.
Güc doğanağa düşər.
Güc gələndə dad bacadan çıxar.

**H**

Havayı sirkə baldan şirin olar.
Haqq ver, haqq al.
Haqq verən haqq götürər.
Haqq – qüvvət, qüvvət – haqdır.
Haqq deyən məhrum olmaz.
Haqq yandıran şamı söndürmək olmaz.
Haqq iş gündən aydındır.
Hazır aşın dik qaşığıdır.
Hazır oldu bişmişlər, gəldi gözdən düşmüşlər.
Hayıf qiyamətə qalmaz.
Hayıf olsun, mərd igidlər qocalır.
Hay-hayı gedib, vay-vayı qalıb.
Halal artar, haram batar.
Halal incələr, amma üzülməz.
Halal ye, halal danış.
Halvanı yeyib, eşşəyi minib.
Halvaxor molladır!
Hamamdan gəlirsən – get ərin evinə, paltar yumaqdan gəlirsən – get dədən evinə.
Hamı bilir ki, dağda kəklik gözəldir.

Hamı bilir ki, Şirvan çuxurdadır.
Hamı dedi, dad oldu, mən deyəndə, bidad.
Hamı dinəndə “can” oldu, mən dinəndə qan oldu.
Hamıya it hürər, bizə Mazandaran çaqqalı.
Hamıya kələk, bizə də kələk?
Hamıya gələr gözü qara, qələmqaş, bizə də gələr sallaqburun, keçəlbaş.
Hamıya ovuc-ovuc, bizə bir iynə ucu.
Hamımız birimiz üçün, birimiz hamımız üçün.
Hamıya hörmət elə, hörmətin olar.
Hamısı bir bezin qırağıdır.
Heyvanda arıqlıq, insanda yekəqarınlıq eyibdir.
Heyvanın acgözlüyü onu kökəldər, insanın acgözlüyü onun başını yeyər.
Heyvanın dişinə baxarlar, insanın – işinə.
Heyvası yox, narı yox, qoy desinlər, Şahbudağın bağı var.
Heydərü-Səfdərdi bizim pirimiz, qırxınıza taydı bizim birimiz.
Heyrətdə ağıl, yolda – salam, qəmdə – təsəlli.
Hesabsız gələn zərərlə gedər.
Hesablıya dağlar da əyilər.
Hesabın böyük-kiçiyi olmaz.
Heç bilmir harada bişib, deyir: – Bir çömçə də mənə ver!
Heç igidin yatmasın baxtı, yanı üstə çevrilməsin taxtı.
Heç kəs ana qarnından gətirməyib.
Heç kəs arxasız olmasın.
Heç kəs qurdnan qiyamətə qalmaz.
Heç kəs öz eybini bilməz.
Heç kəs heç kəsin kitabını oxumur.
Heç kəsin qara papağı yanmasın.
Heç neyə heç nə ala bilməzsən.
Heç toy görməmisən, bacasından da baxmamısan?
Heçi heçə vurarsan, yenə də heç çıxar.
Həvəsdir – bəsdir.
Həqiqət bir şeydir, onu hər kəs dürlü anlar.
Həddini bilməyənə həddini qandırarlar.

Hərdən sözün mərəzi gələr.
Həya imandandır.
Həyası olmayanın insafı da olmaz.
Həmid xəstə, Həsən xəstə, Nadirqulu can üstə.
Həmişə biz görürük, bir yol da sən gör.
Həmişə bülbül ötməz.
Həmnişini bab elə, görən desin, hə belə.
Həmsayənin arvadı göyçək.
Həmxana – dəmxana.
Həmcinsini tanımayan ayağa düşər.
Həmşəridən kəndxuda hansı vilayətdə var?
Hənək-hənək, axırı dəyənək.
Hər dəlinin bir ağıllısı olmalıdır.
Hər dəlləyin əlinə saqqal vermək olmaz.
Hər dərdin bir dərmanı var, tapanı gərək.
Hər zamanın bir Fironu var, hər Fironun da bir Musası.
Hər kəsin dəlisi evdə, dərdi qarnında.
Hər kəsin dərdi özünə bir at yüküdür.
Hər kəsin iradəsi öz əlindədir.
Hər kəsin keçəcəyi özünə görə olar.
Hər kəsin malı özünə görə qiymətlidir.
Hər kəsin öz ağlı.
Hər kəsin öz bəxti.
Hər kəsin uşağı özünə şirindir.
Hər kəsin hörməti öz əlindədir.
Hər kəsin çörəyi xəmirinə görədir.
Hər gəlirin bir çıxarı var.
Hər gözəldə bir eyib olar.
Hər göldən bir qurbağa, Göygöldən min qurbağa.
Hər gördüyünə aldanma.
Hər gördüyünü atana oxşatma.
Hər gün bir olmaz.
Hər gün günahkar, bir gün tövbəkar.
Hər güldən gülab olmaz.
Hər meyvənin kalı dəysə, insanın kalı dəyməz.

Hər meyvənin öz dadı var.
Hər nə desən özünə gedər.
Hər nöqsanı özündə gör.
Hər nə yedin dadındır, hər nə verdin adındır, hər nə qalsa yadındır – oğluna qalsa, yad qızı ilə yeyəcək, qızına qalsa, yad oğlu ilə.
Hər otun öz kökü var.
Hər ölümə qəhrəmanlıq deməzlər.
Hər parıldayan qızıl olmaz.
Hər pərdə dalında yüz sirr var.
Hər rast gələnə "dost" demə.
Hər saatın bir hökmü var.
Hər saqqala salam verməzlər.
Hər saqqallı baba olmaz.
Hər saqqallıya "dədə" demə.
Hər sarğı hər yaraya sarılmaz.
Hər səbrin axırı var.
Hər səhvi üzə vurmazlar.
Hər səhəng suda sınmaz.
Hər sözün bir pərsəngi var.
Hər sözün öz yeri, öz məqamı var.
Hər su keçid verməz.
Hər suda mərcan olmaz.
Hər tullanan qoz bitsə, meymun qozsatan olar.
Hər ucaboylu ağac sərvi-xuraman olmaz.
Hər uzun ağaca çinar deməzlər.
Hər üzə gülənə dost deməzlər.
Hər fəslin bir meyvəsi var.
Hər xoruz öz yerində eşələnər.
Hər xoruz öz həyətində banlar.
Hər xoş görünən kimsəyə aldanma, heyifsən, hər xoş görünən kimsədə vicdan ola bilməz.
Hər heyvanın balası dalınca gedər, eşşəyin balası qabağınca.
Hər hürənə daş atsan, daş daş üstə qalmaz.
Hər çağırılan yerə getməzlər.

Hər çərənçiyə cavab versən, boğazın yırtılar.
Hər şeyə göz dəyər, müflisə göz dəyməz.
Hər şeyi vaxtında əksən, dürr bitər.
Hər şeyi demək olmaz.
Hər şeyin azı yaxşıdır.
Hər şeyin əvvəli çətin olar.
Hər şeyin öz adı var.
Hər şeyin öz vaxtı var.
Hər şeyin çoxu zərərdir.
Hərdən ipək, hərdən köpək.
Hərzə sözün mərəzi gələr.
Hərzə-hərzə danışma, ağzın yamana öyrənər.
Hərə bir barmaq batırar hənasına dəlləkMuradın.
Hərə bir sap versə, çılpağa köynək olar.
Hərə bir tük versə, kosa da saqqallı olar.
Hərə bir cürə başını itirib.
Hərəkət səndən, bərəkət məndən.
Hərəkət harada, bərəkət orada.
Hərənin başından bir avaz gəlir.
Hərif hərifi uzaqdan tanıyar.
Həsən də qəlyan çəkər, Hüseyn də qəlyan çəkər, tənbəki bol olanda siçan da qəlyan çəkər.
Həsir altından su yeridir.
Həsiri oğurlayıb məscidə salır.
Həftədə bir bazar, onu da dərviş pozar.

## İ

İblis ilə mollanın sirri birdir.
İddiası tərlan, özü yapalaq.
İy bilməyən tula dərisini kola verməz.
İyirmisində yel çəkən altmışında sızıldar.
İylənmiş ətə milçək qonar.
İyirmi mədaxili, iyirmi bir məxarici olanın vay halına.
İynə gətir, sap gətir, Şahqulu, yamaq gətir.
İynə gözündən baxaram, cümlə cahanı yıxaram.
İynə olub sancılmısan ətəyimə.

İynə torbada qalmaz.
İynə udmuş köpəyə dönüb.
İynə ucu qədər bir deşik bir küpü boşaldar.
İki adam bir adama qoşundur.
İki adam danışanda üçüncüsü danışmaz.
İki ayaq bir başmağa yerləşməz.
İki ayağın var, ikisini də kirayə elə.
İki arvadlı ev bərəkətsiz olar, süpürülməmiş (zibilli) qalar.
İki at bir ağaca bağlanmaz.
İki qibləyə namaz olmaz.
İki qılınc bir qına sığmaz.
İki qulaq iki eşitmək üçündür, bir ağız bir demək üçün.
İki dəvə əlləşəndə otluq xarab olar.
İki dilənçi bir qapıda dilənməz.
İki dişi var qabaqda, çörək qoymaz tabaqda.
İki dovşan dalınca yüyürən heç birini tuta bilməz.
İki dostun arasına girməzlər.
İki düşün, bir danış.
İgid döyüşdə məlum olar.
İgid igidə xor baxmaz.
İgid ilqarından dönməz, dəvə ovsarından.
İgid ya tər altda, ya yer altda.
İgid yarasız ölməz.
İgid yarasına igid qatlaşar.
İgid yüz yaşar, fürsət bir düşər.
İgid ləqəbilə tanınar.
İgid odur ki, apardığını gətirsin.
İgid oğul düşmənə əyilməz.
İgid oğul cavan eylər atanı.
İgid ölər ünü qalar, öküz ölər gönü qalar.
İgidin əli işdə gərək.
İgidin igiddən nəyi artıqdır?
İgidin xəncəri qınında qalmaz.
İmam əzizdir, qara pul imamdan da əzizdir.
İmam tək-tək tapılar, tin başı şümürdür.

İmam şaftalı ağacı deyil ki, hər yerdə bitə.
İmamzadə piy gətirəni tanıyar.
İl baharından bilinər.
İl var bir günə dəyər, gün var bir ilə.
İl ötər, ay dolanar, şənbə düşər novruza.
İlan adamın topuğunu gözlər, adam ilanın başını.
İlan balasını da çalar.
İlanın boğazına girən çıxmaz.
İlan deyər: – Mən adamı sancmaram, sancanda elə sancaram ki, eşşək buynuzunda sərçənin südü dərman olsun.
İlan əvvəl ovsun qızdıranı sancar.
İlan ilanı vurmaz.
İlan yatar, düşmən yatmaz.
İlan ulduz görməsə ölməz.
İlan üzdən xal-xal olur, insan içəridən.
İlana ağunu kərtənkələ verər.
İlana balası qənim olar.
İlanı yaralı buraxmazlar.
İlanı yuvasında öldür.
İnsan döyüş meydanında tanınar.
İnsan səy və qeyrəti ilə tanınar, bəzəyi ilə tanınmaz.
İnsan xain olmasa, heyvan damğanı neylər?
İnsanı şöhrətləndirən əməlidir.
İnsanın bir özü, bir sözü.
İnsanın dəlisi daşa güc eylər, öküzün dəlisi – başa.
İnsanın dili sandıq, dodaqları qıfıl olmalıdır.
İnsanın əti yeyilməz, dərisi geyilməz, ancaq şirin dili gərək!
İnsanın zilləti də, izzəti də öz əlindədir.
İnsanın gözünü bir ovuc torpaq doyurar.
İnəyi itən soraq eylər.
İnəyi olana nisyə döl verərlər.
İnəyin buynuzuna baxarlar, qızın – üzünə.
İnəyin üzünə bax, südünü sağ.
İnək kimi süd verməyən, öküz kimi kotan sürər.
İnsaf dinin yarısıdır.

İnsafı olmayanın imanı da olmaz.
İpək necə xar olub, eşşəyə çuval olub!
İpin uzunu yaxşıdır, dilin qısası.
İrz (ismət) insanın qanbahasıdır.
İsa öz yerində, Musa öz yerində.
İsatək kişiyə verib bir eşşək, eşşəktək kişiyə verib min köşək.
İslandıq, quruduq, sel bizə neylər?
Qarlı dağdan aşsaq, yel bizə neylər?
İslanmışın yağışdan nə arı (pakı)?
İstədiyim yar idi, yetirdi pərvərdigar.
İstədiyini söyləyənistəmədiyini eşidər.
İstəyənin bir üzü qara, verməyənin iki üzü.
İstəyirsən qocalıqda hörmətin olsun, cavanlıqda qocalara hörmət elə.
«İstəmirəm» deyəndən qorx.
İstəmirəm heyvasını, narını, qoy desinlər:«Şahbudağın bağı var!»
İsti sevən tüstüsünə dözər.
İsti çörək təndirdən, minnəti yox pendirdən.
İt adına alır, özü yeyir.
İt aya hürər, başına bəla gətirər.
İt ardına düşən, leş üstünə çıxar.
İt qulağını kəsəndən qorx.
İt dəvəyə hürər, dəvə eşitməz.
İt də getdi, ip də getdi.
İt dəmirçi dükanından nə aparar?
İt dəftərində adı yoxdur.
İt də öz qapısında ağadır.
İt əl çəkdi, molla əl çəkmədi.
İt əppəyə həris olar, uşaq – məhəbbətə.
İt yanına bəy kimi, bəy yanına it kimi.
İt it ilə dalaşandaqurd körpünü aşar.
İt itə buyurar, it də öz quyruğuna.
İt kölgəsindən qorxar.
İt getdi, qurd gəldi.
İt nədir ki, yunu nə olsun?
İt oğludur, qurd basır.

İt oyun ilə, qurd qoyun ilə.
İt olsun, komasında hürsün.
İt olsun, yiyəsinin qapısında olsun.
İt özüdür, qurdu mənə göstərir.
İt özü nədir ki, südü nə ola?
İt pişik ilə yola getməz.
İt sümüyü ölçüb udar.
İt sümüyü sevinə-sevinə udar, tamaşadır xirtdəyinə gələndə.
İt sümsünməkdən əl çəkməz.
İt ular, payını kəsər.
İt ular, üstünə (sürüyə) qurd gətirər.
İt hardan tapa iki əppəyi, birini başı altına qoya, birini yerə.
İt hürməsə də, quyruğu çömbər gərək.
İtdən qurtardıq, qurda rast gəldik.
İtdən küçük olar, qoyundan – quzu.
İtə bax, qarpızdan pay istəyir!
İtə dedilər: – Gündə neçə dəfə döyülürsən?
Dedi: – Mərdimazara rast gəlməklədir!
İtə dedilər: – Nə üçün hürürsən?
Dedi: – Canavarı qorxutmaq üçün.
Dedilər: – Nə üçün quyruğunu bulayırsan?
Dedi: – Canavardan qorxuram.
İtə ümid bağladıq, hürməyib evimizi yıxdı!
İtə hörmət edərlər – yiyəsi xatirinə.
İti yiyəsinə tanıtdırma.
İti məsciddən qovan kimi qovdular.
İti sahibinə tanıtdırırsan?
İtin adını çəkdin, ağacı əlinə al.
İtin ayağın basarsan, səni qapar.
İtin alası çaqqalın dayısıdır.
İtin axmağı tula olar(itin axmağı tula olar, atın axmağı – yorğa).
İtin acığı quyruğundan bilinər, atın acığı –qulaqlarından.
İtin əbləhi qaysavadan pay umar.
İtin ətini yeyərəm, qəssabın minnətini çəkmərəm.
İtin könlünə qalsa, gündə bir leş yeyər.

İtini haya öyrətmə, qonşunu – paya.
İtlər bizə, qurdlar bizə, sağsağanlar çırtlar bizə.
İftira dağdan ağırdır.
İç dedilər, çeşməni qurut, demədilər.
İçim məni yandırır, bayırım özgəni.
İçmə namərd əlindən su, abi-həyat olsa da.
İçmə çaxırı, açar paxırı.
İş adamı bəyan eylər.
İş bacaranın, aş yeyənindir.
İş başqa, söz başqa.
İş başdan aşıb.
İş başından aşınca, dövlət cibindən daşar.
İş bilən müşküldə qalmaz.
İş danışıqdan keçər.
İş əlindən yeməyə həsrət canım.
İş igidlər başına gələr.
İş ərəb sacına döndü.
İş ilə zarafat olmaz.
İşə bax, ağılsız ağıllının başına ağıl qoyur.
İşə bax, ala qarğa şux tərlanı bəyənmir.
İşə bax, sular baş yuxarı axır.
İşə getməyən oğlum olunca, cütə gedən öküzüm olsun.
İşə xor baxma, boynuva torba taxar.
İşi düşəndə arar məni, işim düşəndə qovar məni.
İşin düşdü qazıya, özün döndün tazıya.
İşin düşdü sarıq başa, başın dəyər daşdan-daşa,
yapışginən əyri xışa, get o başa, gəl bu başa.
İşin canını iş alar.
İşinə yaxşı baxarsan, iş də sənə yaxşı baxar.
İşlə nökər kimi, ye ağa kimi.
İşləyən atı tövlədə bağlasan, cəngi olar.
İşləyən açar parıldar.
İşləyən dişlər, işləməyən kişnər.
İşləyən inci taxar, işləməyən yandan baxar.

**K**

Kabab qanlı, igid canlı.
Kamal ata kürki deyil ki, irs ilə övlada keçə.
Kamil adam az danışar.
Kamil bağban çəkər bağın səfasını.
Kamil insan kəlamından bəlli olar.
Kamil ovçu boşuna güllə atmaz.
Kar eşitdiyini, kor tutduğunu buraxmaz.
Kar eşitməz, yaraşdırar, kor görməz, quraşdırar.
Karın qulağına taxta tıxadılar, dedi: – Bu taqqıltıharadan gəlir?
Kasa sındı, ya cingildədi.
Kasanı mənim başımda sındırır.
Kasıb bacını varlı qardaş istəməz.
Kasıb geyəndə soruşarlar:
– Haradandır?
Varlı geyəndə deyərlər:
– Mübarəkdir!
Kasıb öləndə molla xəstə olar.
Kasıb ölüsünə yas saxlamaz.
Kasıb cavan mərd olar.
Kasıb çıraq yandırar, dövlətlinin pulunu sayar.
Kasıb xərcini bilsə, məxmər geyər.
Kasıba bazarın tulası da hürər.
Kasıba qul ol, varlıya oğul olma.
(Kasıba oğul olunca, dövlətliyə qul ol).
Kasıbdan Allah da bezardır.
Kasıbı dəvə üstündə böv vurar.
Kasıbın bir oğlu oldu, o da boynu əyri.
Kasıbın dövləti saqqalda olar.
Kasıbın dörd düşməni var – it, bit, yasavul, molla.
Kasıbın dürməyi yavan olsa da, dili yağlıdır.
Kasıbın toyunda gecə qısa olar.
Kaş mal zərəri olsun, insan zərəri olmasın.
Keyf qılığa baxmaz.
Keyf sənin, kənd kovxanın.

Keçəl başa taxta daraq?!
Keçəl başından qorxar, kor gözlərindən.
Keçəl başını yudu da, daradı da.
Keçəl var – zığıdı keçəl, keçəl var – noxudu keçəl.
Keçəl qız bacısının saçı ilə öyünər.
Keçəl qız çeşmənin gözündən su içər.
Keçəl qız bəzənincə, toy əldən getdi.
Keçəl qızı "saçlı" deyə ağlama.
– Keçəl qızın nəyi var?
– Başın qaşımağa dırnağı.
– Keçəl qızın nəyi var?
– Dəmirdən darağı).
Keçəl yaradı, öz başını daradı.
Keçəli papağının yanından tanımaq olar.
Keçəlin adı – Zülfəli!
Keçəlin bəxti yaxşı olar.
Keçəlin qazandığı başının ziftinə (qartmağına).
Keçəlin dırnağı olsa, öz başını qaşıyar.
Keçəlin papağı düşənəcəndir.
Keçəlin tükdən acığı gələr.
Keçən zaman qayıtmaz.
Keçən (köçən) yurdun qədrinidüşən yurdda bilərlər.
Keçən keçdi, vay gələcək dərdidir!
Keçən keçib, gələn günün xeyir olsun.
Keçən keçib, sən gələcəkdən danış.
Keçi deyər: – Adım Əbdülkərimdir!
Keçi, qurdun nəyini yeyiblər?!
Keçi kasıbın inəyidir.
Keçi keçim olsun, oturduğum yer samanlıq.
Keçi öldü, qoturu qurtardı.
Keçi öləndə quyruğunu dik tutar.
Keçi suyu bağıra-bağıra keçər.
Keçi şərab içsə, dəvəyə meydan oxuyar.
Keçib gəlib Arazı, bəyənməyir Gülnazı.
Keçidə saqqal var, amma şeyx deyil.

Keçiyə bir sürü qoyundanbir keçi yaxşıdır.
Keçiyə qurd dəyməsə gedib Həccə çıxar.
Keçilər yer əkə bilsəydilər, öküzlər işsiz qalardı.
Keçini dəvə adına satır.
Keçmişin qazancı bugünün rahatlığıdır.
Kəl qoşub cüt sürməyən çörək qədrini bilməz.
Kələ kələlər neylədi ki, kərtənkələlər neyləsin?
Kəllə-paça, qoyma qaça.
Kənardan baxan yaxşı görər.
Kənardan baxana hər şey asan görünər.
Kənd köpəksiz olmaz.
Kənd nədir, qənd nədir?!
Kəndə molla gəlib, kim ölür, ölsün.
Kəndə təzə dəllək gəlib, kəkili yandan qoyur.
Kəndi köpəksiz gördü, əli ağacsız girdi.
Kənkanın vəsiyyəti – qızıl öküzdür.
Kəpək altında unları var.
Kərbəlayi Kazım, sənə demək nə lazım?
Kərə yeyən də çıxar yaza, tərə yeyən də.
Kəs barmağını, çıx bazara, əlac tapan çox olar.
Kəsad bazarın gəliri olmaz.
Kəsək oturub daş üçün ağlayır.
Kəsilsin o iki əl ki, bir başı saxlamaz.
Kəfən havayı olanda adam özünü öldürməz.
Kəfgir qazanın dibini deşib.
Kilid dost üçündür.
Kim eşşək olar, biz ona palan olarıq.
Kim güclüdür – haqq onundur.
Kim canından bezardır?!
Kimə yaxşılıq elədin, özünü ondan qoru.
Kimi əkər, kimi biçər, kimi qazanar, kimi yeyər.
Kimi gülür, kimi ağlayır, hərənin bir dərdi var.
Kimin arabasında gedirsən, onun mahnısını oxu.
Kiminə qat-qat, kiminə – ac yat.
Kimini qaldırır, kimini endirir.

Kimsənin ahı kimsəyə qalmaz.
Kimsənin tikəsi kimsənin qarnında qalmaz.
Kimsənin nəsibin kimsə yeməz.
Kiri kir açar, sirri – sir.
Kirayənişin olduğu bəs deyil, toyuq-cücə də saxlayır.
Kirpik gözün çəpəridir.
Kitab verənin bir əlini kəsərlər, qaytaranın iki əlini.
Kitabı satıb, gəncəfə alıb.
Kitabın köhnəsi, libasın təzəsi.
Kiçiyi böyüyün üzünə qalxızmazlar.
Kiçik açar böyük qıfılı açar.
Kiçik daş da baş yarar.
Kiçiklərə hörmət elə, böyüklərdən hörmət qazan.
Kiçiyin kiçik dərdi var, böyüyün – böyük.
Kişi bilmədiyini ayağı altına yığsa, başı ərşə dəyər.
Kişi qızı olma, kişi arvadı ol!
Kişi öz sözünün ağası olar.
Kişi öz tayı ilə gəzər.
Kişi sevdiyinin nazını çəkər.
Kişi sözü üzə deyər.
Kişi fəhlədir, arvad – bənna.
Kişidə qeyrət olsa, torpağı qızıla döndərər.
Kişidə səbr olmalıdır.
Kişisi olmayan evin ruzisi olmaz.
Kovxa atlanar, öz kəndini çapar.
Kovxa ilə hesaba oturan borclu olar.
Kovxanın bacısı oğlusan? – Gəl min boynuma!
Kovxası gülüm olanın başına külüm olar.
Kolxoz anbarı el süfrəsidir.
Kor at gecə də otlar.
Kor atı minən şahlıq iddiası edər.
Kor bulaqdan su gəlməz.
Kor burada, ya Bağdadda.
Kor qurdun ruzisini yetirən özü yetirər.
Kor əlifə bəy deməyib.

Kor əsasını bir itirər.
Kor ilə çörək yeyəndə insafı arada gör.
Kor it kölgəsindən qorxar.
Kor gözün sahibinə nə faydası!
Kor gözündən qorxar, keçəl başından.
Kor leyləyin yuvasını Allah tikər.
Kor nə istər?İki göz, biri əyri, biri düz.
Kor tutduğun buraxmaz.
Kor tutduğundan kəsər.
Korlar şəhərində ayna satmazlar.
Koroğlu üçəcən deyib.
Koroğlunu tutmağa bir keçəl Həmzə gərək.
Koru dar yerdə qısnamazlar.
Koru kor yanında həyan üçün qoyarlar.
Korun nə borcu ki, şam bahalanıb?!
Kosa kəndə girməmiş gəraylısını başladı.
Kosaya rişxənd edənintop qara saqqalı gərək.
Kosanı gün batandan sonra aldatmaq olar.
Kövək kolunun kölgəsi olmaz.
Köynək dondan irəlidir.
Kölgədə bitən ağacın meyvəsi olmaz.
Köynək olanın kölgəsi olmaz.
Könlü bədöy at istəyən vaxtında alar.
Könlü yemiş istəyən dolanar tağ başına.
Könül arzunun mənbəyidir.
Könül bir böyük saraydır, tikilməsi çətin, yıxılması asan.
Könül bir uşağa bənzər, nə verərsən istər.
Könül umduğu yerdən küsər.
Könül xoşluğu maldan əfzəldir.
Könülsüz (pulsuz) bazara gedən, gördüyünüalmamış qayıdar.
Könülsüz köpəyin sürüyə xeyri olmaz.
Könülsüz namazı Allah qəbul eləməz.
Könülsüz tula ilə ova çıxmazlar.
Könülsüz hürən köpəksürüyə qurd gətirər.
Köpəyə ümid olduq, özümüz də hürmədik.

Köpəyin qarnı tox olsa, gecə ulduza hürməz.
Köpək qocalandaqurda gülünc olar.
Köpək elə köpəkdir, xaltası qızıldan da olsa.
Köpək sahibini tanıyar.
Köpək taya dibində yatar, elə bilər öz hünəridir.
Körpə südsüz böyüməz, pambıq – susuz.
Köhnə düşmən dost olmaz.
Köhnə kəndə təzə darğa gəlib.
Köhnə palan, içi zər-zivər.
Köhnə paltar yamağından bəllidir.
Köhnə pambıq bez olmaz, dul arvaddan qızolmaz.
Köhnə təqvim pula getməz.
Köhnə un çuvalıdır, vurduqca toz qopar.
Köhlən at yeriyəndə toz qopar.
Köçdən azan qarıya bu da azdır.
Köçən yurdun qədrini, düşən yurdda bilərlər.
Köçün dönməsi axsaq itə xoş gələr.
Köçün yaraşığı dananın soncuqlamasıdır.
Köşəyi sataneşşək ala bilməz.
Kuzəçi sınıq qabda su içər.
Kül başına gözəl fərə, beçə də səni bəyənmir.
Külək kimi hərdən bir yana əsmə.
Küləkdə yatanın cin atı olar.
Küləkli gündə pambıq atır.
Küləkli gündə xırman sovurmazlar.
Küləş tez yanar, tez də kül olar.
Külü küllükdən götür, külü təpəyəcən olsun.
Külü ocaqdan götürərlər.
Külün altında köz olar.
Kündəsi küt düşüb.
Kürd kürdü tanımasa, məkri məkrəni tanıyar.
Kürdə dedilər:
– Allah şirindir, ya doşab?
Dedi: – İki dostun arasına girməyin.
Kürdün dilin kürd bilər.

Kürəyə düşməyən dəmir yumşalmaz.
Kürəkən imam kimi gələr, sonra yezidə dönər.
Kürən adam xətakar olar.
Kürən adamla, kürən ata yaxın düşmə.
Kürən toyuq hindən bayıra çıxmaz.
Kürkü əvvəl il özün gey, ikinci il ver düşməninə.
Küsülü qardaş, gəl yükü çataq, küsümüz küsülülükdə.

**L**

Laçın qalada balalar.
Leyli bazarıdır, Məcnun can satır.
Leylək gününü tak-takla keçirdər.
Leş görəndə quzğuna dönər.
“Ləb” deməkdənsə, “ləbləbi” de.
Ləbləbidir – el dəbidir.
Ləvənd ləvəndi tapar.
Ləzgi nədir, güzgü nədir?
Ləyaqət ağıldadır, əsil-nəsəblə deyil.
Lələ var, yurdu yox.
Lələ ikinci anadır.
Lələ köçüb, yurdu ağlayır.
Lələnin yaz evi.
Lənət kor şeytana.
Lənət heçə!
Libasım yamaq götürür, qarnım yox.
Loğma qarın doyurmaz, hörmət artırar.
Loğma dağ aşırar.
Loğma deyil – boğmadır.
Loğmanı az götür, çox çeynə.
Lotu lotunu aldatmaz.
Lotu lotunu tapmasa, qara geyər, yaslı olar.
Lotu lotunun sözünə inanar.
Lotudan adam zərər görməz.
Lotuya bir şillə kar eləməz.

## M

Maya səndən, can məndən.
Mayanı uduzub çuruna güvənir.
Mayasız fətir olar.
Mal adamın düşmənidir.
Mal acıdı – can acısı.
Mal insana, insan mala əmanətdir.
Mal itdi – iman itdi.
Mal yığınca, ağıl yığ.
Mal malı qazanar.
Mal mənimdir, belə yeyirəm, əritmirəm, kərə yeyirəm.
Mal mənimdir, məsləhət mənim.
Mal sahibindən qiymət götürər.
Mal canı qazanmaz, can malı qazanar.
Malı maldan, canı candan ayırmaq olmaz.
Malı qırov öldürər, qışın adı bədnamdır.
Malı mal yanında tanıyarlar.
Malın yiyəsi gərək, oğlu yox, atası gərək.
Malın yiyəsi – uşağın atası.
Malın getməsinə yiyəsi səbəb olar.
Malın mal olunca bazarın bazar olsun.
Malın ortaqlı olmasın.
Malına düşdü talan, sən də bir yandan tala.
Malını bəylər apardı, camalına nə oldu?!
Malını dişin var ikən ye.
Malını yaxşı saxla, qonşunu oğru tutma.
Malını yeməyənin malını yeyərlər, ölüsünü də döyərlər.
Mart çıxdı – dərd çıxdı, keçilər yaza çıxdı.
Martın gözünə barmağım, yaza çıxdı oğlağım.
Martın özünə lənət, aprelin on beşinəcən.
Maşa var ikən əlini yandırma.
Meyvəli ağaca quş qonar.
Meyvəsi yox, barı yox, xaraba qalsın belə bağ.
Meyvəsini yedin, bağbanına rəhmət oxu.
Meyl vermə evliyə, evə gedər – unudar.

Meymunun balası əvvəlcə yeriyər, sonra iməklər.
Meymunun boğazına su çıxanda, çıxar oturar balasının başında.
Meymunun xarratlıqda nə işi var?
Meyxanada yazılan məktub cəhənnəmdə oxunar.
Meyxanaçıdan şahid istədilər, sərxoşu göstərdi.
Meşə ayısız olmaz.
Meşədə ağacın düzünü seçərlər.
Məkruh yeyənə haram söz yaraşar.
Mən almıram, yan cibimə qoy.
Mən aşığam bu daşa, bu torpağa, bu daşa, düşməni elə vur ki, kəlləsindən bud aşa.
Mən balamı istərəm, balam da öz balasını.
Mən baş vurum, sən ayaq, gəl onu ortalayaq.
Mən bu evin öküzüyəm, istər kotana qoşsunlar, istər cütə.
Mən qaçıram molladan, molla çıxır qarşıdan.
Mən qaçıram bəladan, bəla çıxır qabaqdan.
Mən qurdam – alaram, mən çobanam – verməræm.
Mən dedim eşidəsən, demədim öyrənəsən.
Mən dedim: «Zənbil», sən bil.
Mən deyirəm xədiməm, o soruşur, oğul-uşaqdan nəyi var?
Mən demədim, sən eşitmədin.
«Mən» demək şeytana yaraşar.
Mən dəliliklə verdim, sən ağıllı ol, qaytar.
Mən elə keçəl deyirəm, qartmağı yerə töküle.
Mən gətirrəm yığın-yığın, arvad paylar torba-torba.
Mən öz adımı özgədən soruşuram.
Mən ölməyim, mən öləndən sonra, istərsə qiyamət olsun.
«Mən ölüm» deyəndə, axar sular dayanar.
«Mən ölüm», «sən öləsən»lə iş getməz.
Mən səni bəyənmədiyim bulama, sən mənim bığımı bulama!
Mən sözü dedim daza, daz özün qoydu naza.
Mən şahla çilov yemirəm ki, bığım yağa batar.
Məndən böyüyü tabaq altındadır.
Məndən sənə öyüd, dənini özün üyüd.
Məndən uzaq olsun, istər cəhənnəmə dirək olsun.

Mənzil kəsər bədöy at.
Mənzilin yaxın, kiryəsi çox, bunda nə sirr var?!
Mənzili uzaq, eşşəyi çolaq.
Mənə bax, mənim kimi olma.
Mənə yaramaz iş tapşırır, adımı qoyur yarıtmaz.
Mənə nə veribsən, ala bilmirsən?!
Mənə usta deyərlər, arvadıma ustazən.
Məni anam damda doğub.
Mənim gözüm var sənin dolu ilxında, sənin nəyin var mənim boş axurumda?!
Mənim üçün bağ da bir, dağ da bir.
Mənim üçün xan da bir, gülxan da bir.
Mənim xoruzum – özgələrin damı.
Mənimki belə keçdi çərxi dönmüş fələkdən.
Mənlik olan yerdə sənlik şamı yanmaz.
Mərd arxadan vurmaz.
Mərd başa baxar, namərd – ayağa.
Mərd dostluq qanar, bərkdə dayanar.
Mərd ilə gəzən mərd olar, namərd ilə gəzən biyaban-gərd!
Mərd kişi çörəyini daşdan çıxardar.
Mərd gördüyün deməz.
Mərd mərdi kəsər, Murtuza-Əli hər ikisini.
Mərd özündən bilər, namərd yoldaşından.
Mərddən bir çıxar, namərddən iki.
Mərdə gələn qadanı namərdin sərinə yaz.
Molla alacağını unutmaz.
Molla aşı gördü, yasin yaddan çıxdı.
Molla bəyə qoşuldu, xalqın evi yıxıldı.
Molla buzovdur, qırılsa, hamıdan bərk qaçar.
Molla qarınqulu olar.
Molla duru sudan qaymaq yığar.
Molla evindən aş, kor gözündən yaş çıxmaz.
Molla ilə durub-oturanaxırda mürdəşir olar.
Molla Turab banladı, kim bildi, kim anladı?!
Molla çörəyi, ilan ayağı görünməz.

Molladan adam olmaz, palıddan badam.
Molladan soruşdular:
– Verməklə necəsən?
Dedi: – Mənimki almaqdır, iki xasiyyət biradamda olmaz.
Mollaya dedilər:
– Oğlun damdan yıxıldı, ağlı başından çıxdı.
Dedi: – Ağlı olsaydı dama çıxmazdı.
Mollaya dedilər:
– Ölüləri istəyirsən, diriləri?
Dedi: – Ölüləri!
Dedilər: – Nə üçün?
Dedi: – Ölülərdən halva yeyirəm, dirilərdən töhmət.
Mollanı məcsiddə, sərxoşu meyxanada taparsan.
Mollanın bağrı onda çatlar ki, iki yerə ehsana çağıralar.
Mustafa xandan kağızı var.
Muşqulatçun saqqız çeynə.
Müqəssirin dili qısadır.
Müəllim ən böyük bağbandır.
Müəllim ikiqat atadır.
Müjgan oxunan atar, yay qaşın çəkər.
Müştərinin ağlı gözündə olar.

**N**

Naqqa balıq tasa yerləşməz.
Naqqalar olmasaydı, dünya laləzara dönərdi.
Nağd alverdən ətir iyi gələr.
Nağdı əldən vermə (Nağdı qoyub nisyənin dalınca düşmə).
Namaz qıla-qıla yıxdın evimi, indi başlamısan həccə getməyə.
Namazdan əvvəl boğazdır.
Namazı əkib, orucluğa gedir.
Namə yazmaq asandır, yetirmək çətin.
Namərd gəlib mərd olmaz yüz ətəklə yüz yalvar.
Namərdə yaxa vermə, mərdə arxa ol.
Namərdin çörəyi dizinin üstə olar.
Namı-nişanı qalmayıb.
Namus insanın qan bahasıdır.

Namus gedər, dönməz geri, yoxdur onun bəlli yeri.
Nanəcibə salam verərsən, deyər: – Qorxduməndən!
Napakı hamam təmizləməz.
Nar ağacı – istək ağacı.
Nar üstündən turp yeməzlər.
Naümid şeytandır.
Naxçıvanın duzu, qızı, qarpızı.
Naxır itib, ala dananı qovur.
Naxır yeri ilə gedib ala dananı axtarır.
Naxıra gedirəm – çoban olmaz, axura gedirəm – saman.
Naxırda malın yox, növbədə başın yarılır.
Naxırçı qızı arpa çörəyi arzular (Naxırçı qızı naxırçı çörəyi istər).
Naxırçı qızını verdi (köçürtdü), torba dağarcığı da üstəlik.
Naxırçı qızının qeyrəti naxır gələndə tutar.
Naşı oğru özünü samanlığa vurar.
Neyləyirəm qızıl taxtı, bir qızıl baxtım olaydı.
Neyləyirəm qızıl teşti, içinə qan qusacağam.
Nacins qarpızın tumu çox olar.
Neyləyirəm gözəlliyi, gözəl baxtım olaydı.
Nə ağacı tovla, nə də it hürsün.
Nə ağız yandıran aşdır, nə baş sındıran daş.
Nə altda undur, nə üsdə kəpək.
Nə bağım var, nə də çaqqalla davam.
Nə balanı istəyirəm, nə də balasını.
Nə baxırsan taxtına, sən baxgilən baxtına.
Nə biçinini biçirəm, nə də ayranını içirəm.
Nə varlıya borclu ol, nə yoxsuldan alacaqlı.
Nə vaxt tülkü olsan, çarığımı çeynərsən.
Nə ver, nə al.
Nə ver, nə də dalınca get.
Nə qədər uzaq olsa, yol yaxşıdır,
Nə qədər yaman olsa, el yaxşıdır.
Nə qoyuna gedir, nə də qapıda hürür.
Nə arabada, nə dünbədə.
Nə ilə ölçərsən, onunla da ölçülərsən.

Nə istərsən bacından, bacın ölür acından (Bac istərəm bacımdan, bacım ölür acından).
Nə it yiyəsidir, nə gön yiyəsi.
Nə itirib, nə axtarırsan?
Nə işim var bayırda, çaqqal məni çığırda.
Nə yada sirrini ver, nə namərdə bel bağla.
Nə yazılıb, o da olacaq.
Nə yer qəbul eləyir, nə göy.
Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım.
Nə gecəm gecədir, nə gündüzüm gündüz.
Nə günahı var, nə savabı.
Nə özü yeyir, nə özgəyə verir, iylətdirir, itə verir.
Nə özündədir, nə sözündə.
Nə ölüyə hay verir, nə diriyə pay.
Nə soyuğa tabım var, nə pulum var kürk alım.
Nə tiyanda barama var, nə cəhrədə ipək.
Nə turşirin, nə doşab.
Nə çəkərsə, öküz çəkər, araba yolu ilə gedər.
Nə hə, nə yox.
Nə coraba yamaqdır, nə tumana bağ.
Nə şeytanı gör, nə "bismillah" de.
Nə şaşqın ol, basıl, nə daşqın ol, asıl.
Nə şilləmsən, nə şapalağım.
Nəzir seyidə düşər, fitrə yoxsula.

**O**

O adam ki, səhər yalan danışdı, axşamacan yalan danışar.
O qədər dövlətli deyiləm ki, ucuz şey alım.
O qədər kötüklər üstündə budaqlar doğranıb ki...
Ov atanın deyil, yetənindir (Ov yetənindir).
Ovçu nə qədər hiylə bilsə, ov o qədər yol bilər.
Ovcuma qoy, ovcuna qoyum.
Oğlan gəldin, qız gəldin?
Oğlum oğul olsun, ona tapılmayan qız olsun.
Oğluna qız axtarınca, qızına oğlan axtar.
Oğlunu sevən – gəlinin sevər, qızını sevən – kürəkənin.

Oğul arxadır, qız yaraşıqdır.
Oğul bəd övlad olsa, öldürər dərd atanı!
Oğul günahsız olmaz, ata – mərhəmətsiz.
Oğul meyvədir, ata – bağban.
Oğul ölsə, ciyərim yanar, qardaş ölsə, belim bükülər.
Oğul ölümü göz tökər, qardaş ölümü bel bükər.
Oğru doğruluqdan danışar.
Oğru elə bağırdı, doğrunun bağrı yarıldı.
(Oğru elə bağırdı, doğru küncə sıxıldı)
Oğru elə bilər hamı oğrudur.
Oğru it özünü bildirər.
(Oğru it xoflu olar).
Oğru kölgəsindən qorxar.
Od ilə oynamaq olmaz.
Od ilə pambığın nə dostluğu?
Od insanı həm qızdırar, həm də yandırar.
Od olsa, özünü yandırar.
Olar – yazaram, olmaz – pozaram.
Olmadı elə, oldu belə.
On ölç, bir biç.
Ona dözənon beşə də dözər.

## Ö

Övlad kivar, badamdır, nəvə – məğzbadamdır.
Övlad sərmayədir.
Övlad tapılar, ata-ana tapılmaz.
Övlad can yanğısıdır.
Öz ağam, öz qulum.
Öz ağlını özgə ağlına vermə.
Öz adını özgələrə qoyma.
Öz anasını sevən, özgə anasını söyməz.
Öz atının noxtasından yapış.
Öz qədrini bilməyənin qədrini özgəsi də bilməz.
Öz eybini bilməmiş, özgəyə rişxənd eləmə.
Öz eşşəyimizdir.
Öz əli ilə öz ayağına balta çalır.

Öz əlim, öz başım.
Öz ipini özü eşir.
Öz kövşənində otla.
Öz kövşənində otlayan mal ac qalmaz.
Öz kölgəsindən uzağı görmür.
(Öz burnundan uzağı görmür).
Öz gözündə bayquşun balası tovuzquşundan da gözəldir.
Öz gözündə tiri görmür, özgə gözündə qılı seçir.
Öz oduna da məni yandırma.
Öz örüşündə Muradalı da bəydir.
Öz sözünü özgənin ağzından danışma.
Öz çulunu sudan çıxarda bilmir.
Özgə ağzına baxan ac qalar.
Özgə bağından gül dərməzlər.
Özgə qapısını bağlı istəyənin öz qapısı bağlı qalar.
Özgə evində qonaqdan borc istəməzlər.
Özgə əli ilə ilan tutur.
Özgə əlində kömbə böyük görünər.
Özgə yerin halvasını hövla ilə çalarlar.
Özgə kisəsindən pul bağışlamazlar.
Özgə gözü yaxşı görər.
Özgə malına göz dikən, malsız-davarsız qalar.
Özü getdi, sözü qaldı.
Özü özünə qəbir qazıyır.
Özü özünə eyləyənə çarə yoxdur.
Özü özünə eyləyəni el yığılsa, eyləyə bilməz.
Özü ölçür, özü biçir.
Özü üçün əriştə kəsə bilmir, özgəyə umac ovur.
Özüm qoturam, keçim ki qotur deyil?
Özüm qürbətdəyəm, gözüm vətəndə.
Özümə yer eylərəm, gör sənə nə eylərəm.
Özün fil olsan da, qarışqanı yaddan çıxartma.
Özündə olmayanda qonşuya gedərsən, qonşuda olmayanda hara gedərsən?
Özündən böyüyə qabarma, bəlkə atandır.

Özündən dövlətli ilə ayaq çəkmə.
Özündən yuxarı baxanda, özündən aşağı da bax.
Özündən güclü ilə vuruşma.
Özünə baxma, sözünə bax.
Özünə qıymadığınıözgəyə qıyma.
Özünə düşmən öz dostunu itirəndir.
Özünə hörmət qoymayanözgəyə də hörmət qoymaz.
Özünü böyük göstərmək kiçikliyin ən kiçiyidir.
Özünü qələmə verən axmaqdır.
Özünü tanımayan Allahını da tanımaz.
Özünü xəstə (yorulmuş) bilsən, yoldaşını ölmüş bil.
Özünün yavan çörəyi özgənin plovundan yaxşıdır.
Öyrənməyə ar olmaz.
Öyüdü anlayana verərlər.
Öküz altında buzov axtarır.
Öküz deyər: – Mən ağama nökərəm.
Öküz dəvəcən olanda, dəvə dağcan olar.
Öküz əhildəməkdən boyunduruq əhildəyir.
Öküz kimi yeyir, dana kimi yatır.
Ölən onlardan olsun, bel-kürək bizdən.
Ölən öldü, vay qalanın halına.
(Ölən öldü, borcun uddu, vay qalanın halına).
Ölən öldü, diriyə dirilik gərək.
Ölən canını qurtarır, vay qalanın halına.
Ölən üçün qəm yemə, beş bükümdən az yemə.
Ölənin borcunu baqqal dirilərə yüklər.
Öləcəksən, əgərçi şah olasan.
Ölmə, itmə, qapımızdan getmə.
Ölmək istəyirsən, köç Mazandarana.
Ölmüş aslana dovşanlar da hücum eylər.
Ölmüş eşşək axtarır ki, nalını çəksin.
Ölmüş aslandan diri köpək yaxşıdır.
Ölü aslanın saqqalını yolarlar.
Ölü qəbristandan qayıtmaz.
Ölü dağı çəkilər, diri dağı çəkilməz.

Ölü yerdə qalmaz (Ölü kəfənsiz qalmaz).
Ölü kimdir ki, gorun söyən kim ola?!
Ölülər elə bilir ki, dirilər halva yeyir.
Ölüm-dirim bizim üçündür.
Ölüm haqdan, kəfən Məmməd Cəfər bəydən.
Ölüm haqdır.
Ölümə gedən gəldi, pula gedən gəlmədi.
Ölümə çarə yoxdur.
Ölünü vaxtında ağla, el gələr, tünlük olar.
Ölünü özbaşına qoysan, şıllaq atar, kəfəni cırar.
Ölürsə, yer bəyənsin, qalırsa, el bəyənsin.
Ölüsü bir gün, şivəni min gün.
Ölüsü ölən kiridi, yasa gələn kirimədi.
Ölüsü ölən bir gün ağlar, dəlisi olan hər gün.
Ömrün bərəkəti yaxşı əməl ilədir.
Ömür edən yaşa dolar.
Ömürlər örtülüdür, həm qocaya, həm cavana.
Öpürsən, öz əlini öp.
Ördəyi su ilə qorxutmazlar.
Ördək öldü – qaz qaldı, sim qırıldı – saz qaldı.
Örüşündə otla (Örüşündən çıxma).

## P

Padşah xəzinəsi də altı şahılıq qıfıla möhtacdır.
Padşahın ayağı dəyən yerdə yeddi il ot bitməz.
Padşahın da dalınca danışarlar.
Paydan pay ummazlar.
Paydan uman pay verməz.
Payın qabağı pay olar.
Payını yalqız yeyən payını dişi ilə tutar.
Payını payımın üstə qoy, ya altından ye, ya üstündən.
Payız camışı qaçağan olar.
Payızın suyu kasıbın boğazına təngdir.
Palçığa batan arabanı öküz çıxardar.
Papaqçının könlü olsa, bir dəridən doqquz papaq tikər.
Papaqçının papağı olmaz.

Papağı tülkü dərisindən, xəbəri yox gerisindən.
Paran vardır – cümlə aləm qulundur, paran yoxdur – dar küçələr yolundur.
Paslı dəmirdən qılınc olmaz.
Paxıl adam ac canavardan pisdir.
Paxıl olma, qüssən olmasın.
Paxıla tanrı verməz, versə də, qarnı doymaz.
Paxılın axırı olmaz.
Paxılın goru cəhənnəmdir.
Paxılın gözü doymaz.
Peyğəmbər əvvəl öz canına dua edib.
Peyinin adı «Çəməngül».
Peyininə bax-bostan at.
Pendir yeyən su axtarar.
Pəncşənbənin gəlişiçərşənbədən bəllidir.
Pöşəngin axırı torbakeş olar.
Piyada atlıya gülər.
Piyadanın atlı ilə nə yoldaşlığı?!
Pişik balası özünü anasının döşündə gizlədər.
Pişik bərkə düşəndə, dırnağı ilə pələng gözüçıxardar.
Pişik bəsləməyən siçan bəslər.
Pişik yeyəni aslan qusdura bilməz.
Pişiyə dedilər:
– Atan yaxşıdır, anan?
Dedi:
– Nə bu, nə o, miyo-miyo.
Pişiyin ağzı birə salanda, dönər üzünü cırmaqlar.
Pişiyi bağlayıb, çörək yeyənlərdəndir.
Pişiyi bir vursan – dinməz, iki vursan – dinməz, axırda üz-gözünü cırmaqlar.
Pişiyiniz nərdivanımızı aparıb.
Pirini tanımayanın aqibəti pis olar.

**Q**

Qab-qaşıq qonaqlığıdır.
Qab sirkəyə görədir.

Qaba söz qaba hərəkətdən pisdir.
Qaba suyu tutduğu qədər tökərlər.
Qazan qapaqsız olmaz, igid – papaqsız.
Qazan dedi: – Qızmışam!
Çömçə dedi: – İndi bulanıb çıxmışam!
Qazan oddan qızar, insan – sözdən.
Qazan olsun, dolu olsun, yeyən tapılar.
Qazancım ata-anamın, öyrəndiyim özümün.
Qazancını itir, malını itir, duz-çörəyi itirmə.
Qaya dağa arxalanar.
Qaya uçmasa, dərə-təpə dolmaz.
Qayınana pambıq olsa belə, yerindən qalxsa, gəlinin başını əzər.
Qayınanalı gəlinin dilinin altında fənd gərək.
Qanan düşmən qanmaz dostdan yaxşıdır.
Qanana işarə, qanmayana kötək.
Qanacaqlı adam həm qanar, həm qandırar.
Qanmaza nə demək?!
Qanmazın başmağın cütləyəndə, deyər: – Qorxdu məndən!
Qanmazla yoldaş olma, səni də qanmaz eylər.
Qanun zora tabedir.
Qapıya gələni qovmazlar.
Qapını döyməsən, açmazlar.
Qapını gen qoy, dəvə özü gələr (Qapını gen qoy, dəvəsini allah-dan istə!)
Qara bulud yağış yağdırar.
Qara qız bəzənincə, toy əldən gedər.
Qara qızın bəxti olsaydı, anadan ağ doğulardı.
Qara xəbər tez yayılar.
Qaraya sabın, dəliyə öyüd neyləsin?!
Qarğadan gözəl quş istədilər balasını göstərdi.
Qarğanın qonaqlıq yeri peyinlikdir.
Qardaş qardaş yaranıb, cibləri ayrı.
Qardaş qardaşın pis gününü istəsə də, ölümünüistəməz.
Qardaş da dost olsa yaxşıdır.
Qardaş olaq, tən bölək.

Qarnı toxdur, gözü ac.
Qarnı toxun qayğısı olmaz.
Qaçan yıxılmağa baxmaz.
Qaçmaq da hünərdir, qovmaq da.
Qaş düzəltdiyi yerdə vurdu gözün çıxartdı.
Qaşqabağından zəhrimar tökülür.
Qəbahət çox vaxt öldürəndə yox, öləndə olur.
Qənaət tükənməz bir dövlətdir.
Qənaət xəzinədir.
Qərib quşa yuvanı Allah yetirər.
Qərib dərdin tək ağlar.
Qərib dostu olmayandır.
Qəribə bir salam min tüməndən yaxşıdır.
Qəribi baxışından tanıyarlar.
Qəribin boynu uzun olar, dili qısa.
Qəriblik ağıl artırar.
Qəriblik cənnət olsa, yenə vətən yaxşıdır.
Qiymətdən düşmək istəmirsənsə, heç kəsin qiymətdən düşməsinə çalışma.
Qiymətli yük yüngül olar.
Qismət göydən zənbil ilə enməz.
Qız badamdır, balası – badam içi.
Qız qaldıqca qızıla dönər.
Qız qızıldır, qədrini bilsin gərək.
Qız qundaqda, cehizi sandıqda.
Qız dediyin ağacdakı almadır, kim salar, o da yeyər.
Qızıl palçıqda da parıldar.
Qılınc kəsməyəni çörək kəsər.
Qılınc gücü ilə müsəlman olub.
Qılıncının dalı da kəsir, qabağı da.
Qızın isməti – atanın dövləti.
Qızın oldu, qırmızı donunu çıxart.
Qızınmadıq istisindən, kor olduq tüstüsündən.
Qoduq böyüyər – eşşək olar.
Qoz qabığından çıxdı, qabığını bəyənmədi.

Qonaq süfrənin yaraşığıdır, uşaq – evin.
Qonağa: «Çörək yeyirsən?» – deməzlər.
Qonağa «get» deməzlər, palazı altından çəkərlər.
Qonağı evə qoyan yoxdur, soruşur:
– Paltarımı haradan asım?
Qonağı olmayan evlər yıxılsa yaxşıdır.
Qonaqlıq yaxşı şeydir, bir gün bizdə, bir gün sizdə.
Qonaqsan – xoş gəlmisən, niyə əliboş gəlmisən?
Qonaqsız ev – susuz dəyirman.
Qonaqsız ev uğursuz olar.
Qonşu qonşu olsa, kor qız ərə gedər.
Qohumun pisinə də, yaxşısına da qurban olum.
Qocaya gedən quyruq yeyər, cavana gedən – yumruq.
Qocaya hörmət elə, sən də qocalacaqsan.
Qocalar uşaq təbiətli olar.
Qocalıq gəldi, getməzdir, cavanlıq getdi, gəlməzdir.
Qocalıq soruşmaz, gələr.
Qocalmasan, qoca qədri bilməzsən.
Qudurasan, ay qurbağa, gəlib bizi vurmağa!

**R**

Rast gəlməyən işə peşiman olma.
Rahat durmayan, narahat olar.
Rahat oturana nə vali gələr, nə hakim.
Rahatlıq istəyən adam – kar, kor, lal gərək.
Rəmmaldır, peyğəmbərlik iddiası eləyir.
Rəncbərin ümidi əkinədir.
Ruzimiz düşüb kor Məliyin əlinə.
Ruzi ki dedin, qazıya məlum.
Rüşvət cəhənnəmin açarıdır.
Rüşvət haramdır.
Rüşvət qapıdan girərsə, iman bacadan çıxar.

**S**

Sabahın da sabahı var.
Sabahın naharı bədənin mismarıdır.

Sabahın şəri axşamın xeyrindən yaxşıdır.
Sabahın şirin yuxusu yolçunu yoldan eylər.
Savab adamı dilli eylər.
Saqqal başa qurban olsun.
Saqqal adama qazılığ verməz.
Saqqal yox ikən, bığ var idi.
Saqqala xal düşdü – ürəyə xal düşdü.
Saqqalda feyz olsaydı, keçiyə "Kəraməddin ağa" deyərdilər.
Saqqalı hər dəlləyin əlinə verməzlər.
Saqqalımı hələ ələ verməmişəm.
Saqqalın çıxmamış, kosaya rişxənd eləmə.
Sağ başına saqqız yapışdırma.
Sağ əl verəni sol əl gərək bilməsin.
Sağ əli ilə haraylayır, sol əl ilə qovur məni.
Sağ əlin rənci sol ələ haramdır.
Sağlamlığın qədrini xəstələr bilər.
Sağlıq ən böyük varlıqdır.
Sağlıq böyük nemətdir, qədrini bilmək gərək.
Sağlıq ən böyük nemətdir, demə babam, yoxsulam.
Sağlığında kor Fatma, öləndə badam gözlü.
Sağsağan kəkliyə baxar, öz yerişini itirər.
Sadağa bəlanı rəf eylər.
Sadağa qada qaytarar.
Sadağa saraydan çıxmaz.
Sadə yaşasan, yüz yaşaya bilərsən.
Sadəlik də abadlığın bir növüdür.
Saz olan yerdə sözü saza verərlər.
Saz şadlıq gətirər.
Sazına bülbül qonar.
Sazlı ev – sözlü ev.
Say, yerinə qoz qoy.
Sakit olan salamat olar.
Salavat gücə bağlıdır.
Salam var, baş kəsdirər, söyüş var, ənam alar.
Salam verdim, borclu çıxdım.

Salam-əleyk, sağsağan, isti çörək, göy soğan!
Salatçının səsi mollaya toy-bayramdır.
Sallaqxana köpəyi arsız olar.
Saman altından su yeridir.
Saman yeyən eşşək torbasını özü daşıyar.
Sancmayanı sancmazlar.
Sapın ucunu tapandan sonra iş yaxşı gedər.
Sar çalağanın dayısıdır.
Sarala-sarala yaşamaqdansa, mərd-mərdanəölmək yaxşıdır.
Sarbanla qonaq olanın darvazası gen gərək.
Sarı it çaqqalın dayısıdır.
Sahibindən qabaq bostana girmə.
Sahibinin yanında pişik də it basar.
Sahibsiz qoyunu qurd yeyər.
Sahibsiz ev xarabadır.
Sahibsiz mal yetimdir.
Saç səfadan uzanar, dırnaq cəfadan.
Saç ürəkdən su içər.
Saçı borc almaq mümkün olsaydı, keçəlin nə dərdi vardı?!
Sacı soyuq olanın kündəsi küt gedər.
Səbir ağacı hər bağda göyərməz.
Səbir acıdır, meyvəsi şirin.
Səbir edən muradına yetişər.
Səbir edən salamat olar.
Səbir cənnət açarıdır.
Sevindim – quşum var, quşum var, aralığa çıxdı sərçə balası.
Sevinc sevinc gətirər.
Səkkiz gün ömürədoqquz gün çalışmaq lazımdır.
Səksən, doxsan, bir gün varsan, bir gün yoxsan!
Səksənində yaşayır, indi belin qurşayır.
Səlbəni meyvəli ağaca vurarlar.
Sənə it saxlayanınbir tikə artıq çörəyi gərək.
Sən ağacı əlinə al, oğrunu it qapacaq.
Sən ağacı götür, suçlu özünü bildirər.
Sən adını çək, mən nişan verim.

Sən atlı, mən piyada.
Sən bir yeyib içmisən, mən dünyanı gəzmişəm.
Sən vuranda su çıxar, mən vuranda – qan?!
Sən qoçaq oğlan ol, qaranlıq gecələr çoxdur.
Sən də bir saqqal tərpət.
Sən dədəli, mən yetim.
Sən doğru ol, əyri bəlasını tapar.
Sən duza gedəndə, mən duzdan gəlirdim.
Sən içini ye, mən qabığını gəmirərəm.
Sən işi buraxmasan, iş səni buraxmaz.
Sən güllə atan ol, barıtını mən verrəm!
Sən gündüz gedən yolları mən gecə ikən keçmişəm.
Sən meyxanaya gedirsən, mən məscidə, bəs bir-birimizi harada görək?!
Sən mənim bir üzümü ağart, mən sənin iki
üzünü ağardım.
Sən mollaya gedəndə, mən molladan gəlirdim.
Sən nə bilirsən ayı harada yumurtlar?!
Sən sevdanı et, quyruq heybədədir.
Sən sözü at, yiyəsi özü götürər.
Sən haqq ol, haqq da səninlə olar.
Sən çaldın!
Səndən ehtiyacı olanıbaşqasına möhtac eləmə.
Səndən mənə yar olmaz.
Sənə bir kəlmə söz, mənə bir illik yol.
Sənə bir toy tutaram ki, əlindən it əppəyini alar!. .
Sənə məndən öyüd, dənini özün üyüd.
Səni nə tapan deyər: – Yaşa! Nə itirən deyər: – Hayıf!
Səni istəyirəm, özümü səndən artıq istəyirəm.
Səni istərəm, çox istərəm, bir gözümü yox istərəm!
Səni mənim qəbrimə qoymayacaqlar!
Sənin atın mənim arpamın gücünə yorğa gedir.
Sənin ipin ilə şələ bağlamaq olmaz.
Sənin yumurtanın sarısı olmaz.
Səninki nəğddir, sən apardın.
Səninki səndə, mənimki məndə.

Səpilməyən buğda göyərməz.
Sərnic gətir, süd axtar.
Sərxoşun dəniz topuğundandır.
Sərxoşun məktubu meyxanada oxunar.
Sərxoşun nə vecinə, aləmi su aparsın.
Sərçə qazan doldurmaz, qaz vur, qazan dolsun.
Sərçə qazan deyil, budunu verim, bir dəvənin nəyini verim?!
Sərçə nədir ki, bozbaşı nə ola?!
Sərçə olsun, əlimdə olsun, göydə uçan qazı neylərəm?!
Səfərə gedən su götürər.
Səhər yeməyini özün ye, günorta yeməyini yoldaşına, axşam yeməyini düşməninə ver.
Səhər gedər naxıra, axşam gələr axura.
Səhər gününə qızmayan axşam gününə heç qızmaz.
Səhərin işini səhər gör.
Səhrada gül bitməz, cahilə söz yetməz.
Sidqnən qardaşdan mətləb almaq olmaz.
Sidr-kafuru müftə görsə, uzanıb ölər.
Sirkənin öz qabına zərəri var.
Silah sahibinə də düşməndir.
Sirr açandan el qaçar.
Sirr vermə dostuna, o da deyər dostuna.
Sirr saxlamaq mərdlikdir.
Sirri sirr açar, kiri – kir.
Siçan qarasından minarə tikir.
Siçan görəndə pələngə dönən pişik, pələng görəndə siçana dönər.
Siçan olmamış qovurğa yeyir.
Siçan sidiyinin də dəryaya xeyri var.
Siçana dedilər:
– Bu deşikdən çıx, gir o deşiyə, beş min altunverək sənə!
Siçan dedi:
– Bunda nə var?
Siçandan olan kəsəyən olar.
Sızanağı qaşıma, çiban edərsən.
Sıyıq ilə yıxılan ev, aş bişir, viran olsun.

Sınan qol sağalar, sınan qəlb sağalmaz.
Sınanmamış atın dal-qabağına keçməzlər.
Sıradan çıxan qotur olar.
Sıxıla-sıxıla behiştə getməkdənsə, oynaya-oynayacəhənnəmə get.
Sovqatın adı birdir.
Soğan acı olsa da, süfrədə öz yeri var.
Soğan eyib açandır.
Soğan olsun, nağd olsun!
Soyub-soyub quyruğunda bıçağı sındırdı.
Soyuq dəmir döyülməz.
Sona qalan dala qalar, dala qalan dana.
Söz var – gələr keçər, söz var – dələr keçər.
Söz var – xalq içində, söz var – xülq içində.
Söz var – şəkər-şirin bal kimi, söz var ki, zəhərdən də betərdir.
Söz danışıqdan keçər.
Söz dediyin dəmirdir, döydükcə uzanar.
Söz yaş dəridir, haraya çəksən, oraya gedər.
Söz gəldi – deyərlər.
Söz gəzdirən adamdan qorx.
Söz gümüş olsa, sükut qızıldır.
Söz odur ki, haqqa varam.
Söz sandığa girməz.
Söz sahibi ölsə də, söz qalar.
Söz sahibinin dustağıdır, sahibi – sözün dustağı.
Söz söylədiyin adamı tanı, sonra ona söz söylə.
Sözlə plov bişsə, dağ qədər yağ məndən.
Sözü at yerə, gedər yerini tapar.
Sözü məndən qabaq gedər.
Sözü xiridarı olana deyərlər.
Sözün acısı zəhərdən də betərdir.
Sözünü bilməyən ağızbaşa toxmaq vurdurar.
Sözün qədəmi yeyin olar.
Sözün qısası, hörüyün uzunu.
Sözün damarı olar, çəkdikcə uzanar.
Sözün düzü daşdan keçər.

Sözün düzünü de, atı min çap.
Söyləmək məndən, dinləmək səndən.
Söymə nökər atamı, söyməyim bəy atanı.
Söyüddən səndəl iyi gəlməz.
Söyüş qəlp puldur, yiyəsinə qayıdar.
Söndü bizim çırağımız, yandı sizin çırağınız.
Söhbət darı torbasıdır, deşildi, dağılacaq.
Söhbət ilə qarıyan, qəmdən, qüssədən azad olar.
Su gərək quyunun dibindən çıxsın, quyuya sutökməklə quyu sulu olmaz.
Su görəndə balıqdır, qaya görəndə – keçi.
Su görməyincə, ətək çəkmə.
Su götürməklə dəryadan su əskik olmaz.
Su murdarı pak eylər.
Su səmtinə axar.
Su sənin dalınca gəlməsə, sən suyun dalınca get.
Su suya qarışanda güclü olar.
Su suyu tapar, su da çuxuru.
Susuz yerdə ördək olmaz, qaz olmaz.
Suyun quyuda olsun.
Suyun əvvəli bulantı gələr.
Suyun üstə gəmi var, hər bir işin çəmi var.
Suyun şırıltısından, arvadın zırıltısından qorxmaq gərək.
Sulu-sulu yudum, çamurlu-çamurlu sərdim.
Subay adamın yaxasını bit yeyər, çörəyini – it.
Subaylıq soltanlıqdır.
Süd igidə halaldır.
Süddə ağzı yananqatığı üfləyə-üfləyə içər.
Sükut edən salamat olar.
Sükutla görülən işqışqırıqla başa gəlməz.
Süleymana qalmayan dünya heç kəsə qalmaz.
Sümüyünü it sümüyünə qatma.
Sümükləri sürmə olub.
Süpürgə gəldi, qonağa cavab eylədi.
Sürməni Allah aparıbpaxlanın gözünə çəkib.

## Ş

Şabalıtdan yağ çıxmaz.
Şam yanmasa, başına pərvanə dolanmaz.
Şamdan soruşdular: – iplik yanır, sən niyə əriyirsən?
Şamaxıda danışır, Bakıda eşidilir.
Şahla plov yemirəm ki, bığım yağa batar.
Şahsənəm oğlan doğub!
Şahin ilə dəvə ovlamazlar.
Şahın da dəvələri ayaqyalın gəzir.
Şey qurd salanda duz səpərlər, duz qurd salanda nə səpərlər?
Şeytanın acığı yaxşı adamdan gələr.
Şeytanın qulağına qurğuşun!
Şaftalı-tabaq olub girmə ortalığa.
Şah Abbasa yaradı, Keçəl Abbasa yaramadı?
Şah Abbasın tənbəlidir.
Şah bilər, şahivən bilər.
Şah vəzir ağlı ilə oturub durar.
Şah qapısı şaxtalı olar.
Şah da bilir Şirman çuxurdadır.
"Şah", "şah" dediyim, öz canım üçündür.
Şəbpərə gecə gəzər, gündüz gəzməz, elə bilər – özü bilər, özgə bilməz.
Şələ aşırmışlar kimi gözünü nə döyürsən?
Şələni elə bağla ki, gücün çatsın.
Şər kəsən barmaq ağrımaz.
Şər sevən – yalan, şər gətirən – gerçək.
Şərik yaxşı olsaydı, Allah özünə yaradardı.
Şərikli əti it yeməz.
Şərti şumda kəs, xırmanda yabalaşmayasan.
Şəfa verən ağudan da verə bilər.
Şəfa haqdandır, həkim-səbəbdir.
Şilə ilə yıxılan ev, plov bişir, qoy dağılsın.
Şillə yeməmiş yanaq qızarmaz.
Şir gərək pəncə vura şir ilə.
Şir öz dişini heç kəsə borc verməz.
Şiri şiranə tutarlar.

Şirin aşına zəhər qatma.
Şirin dil adama dost qazandırar.

**T**

Tava dəlik – yağ tutmaz, taxta çürük – mıx tutmaz.
Tava dəlik, tas dəlik, boş da qoyduq üstəlik.
Tavus bəzənər qaqqıldar, əyilib ayaqlarına baxanda sustalar, oturar.
Tavus hər yana baxar fərəhlənər, ayaqlarına baxanda qüssələnər.
Tanrı verən dövlətibəndə ala bilməz.
Tazı heyz alanda, dovşanlar pəyədə balalar.
Tazını xaltası ilə tanıyarlar.
Tazının ağası varsa, dovşanın da tanrısı var.
Tazısız ova gedən evə dovşansız qayıdar.
Tamahkarı yalançı aldadır.
Tamahkarın gözü kor olar.
Tamahkarın gözünü torpaq doldurar.
Tanrı böyük – altı gen.
Tanrı bir yandan bağlasa, bir yandan açar.
Tanrı vuran ağacın səsi çıxmaz.
Tanrı qoruyanı qurd yeməz.
Tanrı eşşəyi tanıyıb, buynuz verməyib.
Tanrıdan gəlməsə, bəndədən nə gələr.
Tanrının sabahı qurtarmaz.
Tanrısız yerdə otur, həkimsiz yerdə durma.
Tanımadığın adamı evinə buraxma.
Tapılan tapanın olsa, qoyun çobanın olar.
Tapanda ye, tapmayanda ac qal.
Tar çalan simi gözlər.
Taxtına nə baxırsan, batına bax.
Taxtanı rəndə hamarlar, bəndəni – bəndə.
Taxçadakı qarnımda, boxçadakı əynimdə.
Taxça mənə qaldı, Şeydalı, boxça mənə qaldı, Şeydalı,
Bir saat yarı görməsəm, yandırram dağı, Şeydalı.
Tez bitər, tez yetər.
Tez qaçantez yorular.

Tez duran, tez evlənən peşiman olmaz.
Tez ələ gələn tez də ayağa düşər.
Təqsir oldu lələdə, saqqalı verdi ələ.
Təqsir öldürəndə yox, öləndə olar.
Təqsir taledə deyil, insanın özündədir.
Təqsirim olsa, boynum tükdən nazikdir.
Təzə bardaq, təzə su.
Təzə bəydən köhnə bəyə bir xələt.
Təzə evə köçəndə, köhnə evin ocağından kül götürərlər.
Təzə süpürgə gələndə, köhnə süpürgəni dama atarlar.
Təzə çıxan daylaqlar, çuluna görə oynaqlar.
Təzək yığan əlləripək gördü dolaşdı.
Təzəcə çıxıb təndirdən, minnəti yox pendirdən.
Tək ağacdan bağ olmaz.
Tək atdım, cüt vurdum.
Tək gəldi səbr eylə, cüt gəldi xeyirdir.
Tək otur, təknə qaşı.
Tək səbir yaxşıdır, cüt səbir xoşdur.
Tək xoruzdur, əlli yerdə hini var.
Təkə sürüyə böyük olmazdı, qoyunlar qoyun olsaydı.
Təkədə qoç hünəri olmaz.
Təkəyə dedilər: – Buynuzların niyə haçadır?
Dedi: – Arasında iş var!
Təkərin başı-ayağı yoxdur.
Təki çalan olsun, oynayan tapılar.
Tələsən ayaq büdrər.
Tələsən bir yerinə iki verər.
Tələsən yolda qalar.
Tələsən gecəyə düşər.
Tənbəl badam istər, sındırmağının zəhmətindən qaçar.
Tənbəl yatağan olar.
Tənbəl arvad suyu dağıdar, deyər: – Aydınlıqdır!
Tənbəl dağda qar gördü, yorğanına büründü.
Tənbəl deyər: – Ver yeyim, ört yatım, gözlə canım çıxmasın!
Tənbəl dilənçinin qardaşıdır.

Tənbələ dedilər: – Qapını ört.
Dedi: – Külək əsər, örtər.
Tənbələ dedilər: – Atı sula.
Dedi: – Dodaqlarım yaradır.
Dedilər: – Gəl xörək yeməyə.
Dedi: – Hanı mənim yekə qaşığım?
Tənbələ iş buyur, o sənə ağıl öyrətsin.
Tənbələ həftənin hər günü cümədir.
Tənbəllik azar artırar, işləmək canı saf eylər.
Tərə yeyən də yaza çıxar, tərə yeməyən də
Tərəzi gözü kimi iki tirəyə əyilmə.
Tərək halva xörəkdən sonra.
Tərlan yerində çəçələ-çərkəz əyləşib.
Tikə tikəyə borcdur.
Tikəni qaytarmazlar.
Tikili don gen olar.
Tikmək güc aparır, yıxmaq asandır.
Tısbağaya – balası, hər kəsə öz balası.
Ticarətin əsası – insaf, sonrası da insafdır.
Tiflisin üstü bostan, abad olsun Gürcüstan.
Tovus quşunu tükünə görə kəsərlər.
Toz ayrı, duman ayrı.
Toy-bayram bizim küçədə də olar.
Toya toy deyiblər, yasa – yas.
Toyda oynamaz, vayda ağlamaz.
Toydan sonra xınanı tazıya yaxarlar.
Toysuz ev tapılar, vaysız ev tapılmaz.
Tövbə – toxluqdan, qovğa – aclıqdan.
Toyuğun başı kəsiləndə də gözü eşənəkdə olar.
Toyuğun cəriməsi bir yumurtadır.
Topal eşşəklə karvana qoşulma.
Topal ilə gəzən axsamaq öyrənər.
Tora düşən səbr eyləməsə, özünü fəlakətə salar.
Torpaq qızılquşdur, əldən buraxdın, uçar gedər.
Torpaq deyər: – Döy məni, doyurum səni!

Torpaq deyər: – Öldür məni, dirildim səni!
Torpaq deyər: – Sən mənə tər ver, mən sənə zər verim!
Torpaqnan oynayan ac qalmaz.
Tox ikən yeyəndişi ilə özünə qəbir qazıyar.
Tox it ac bəydən yaxşıdır.
Tox nə bilirac nə çəkir?
Tox toyuğu ilə, ac soyuğu ilə.
Toxum at, toxum götür.
Tövbəsi tövləyəcəndir, doğsa, səsi çıxmaz.
Traktora qulluq elə, atı yadından çıxartma.
Tula itdən murdardır.
Tumanı cırıq kəndxuda, istəyir bizi qorxuda.
Turp əkdim, şəlqəm çıxdı.
Tut ağacı əkən ipək dərər.
Tutmadı bostan, olmadı qarpız.

**U**

Uzaq yerin arpasındanyaxın yerin samanı yaxşıdır.
Uzaq yerin bir parça kağızı, yaxın yerin bir kəlmə sözü.
Uzun danışanın ömrü az olar.
Uzun yolun bu başında yalan danışano başında özü də inanar.
Uzun kösöv əl yandırmaz.
Ulamağını bilməyən köpəksürüyə qurd gətirər.
Ulduz hesabı ilə gəmiçi yol aparır.
Ulduz çoxsa, ay birdir.
Ulduzu barışmayan gəlinin salamı da savaşdır.
Uma-uma döndüm muma.
Umac – burdan ye, ordan, acı.
Unumu ələdim, ələyimi asdım.
Usta əli dəyməyən iş haramdır.
Usta görən şagirdhər məqamda yorğalar.
Usta görməyən şagird ondan-bundan qarmalar.
Usta meymun qamçısız oynar.
Usta oğlundan şagird olmaz.
Ustakarın qapısı qırıq olar.
Ustakarın oğurluğun tutmaq olar.

Utanırsan, üzünə rübənd sal.
Utancağın eşşəyini qurd yeyər.
Uçuq ev xarabasından məlum olar.
Ucuzluqda alanın, bahalıqda satanın üzünü görmə.
Uşaq ağlaya-ağlaya böyüyər.
Uşaq adamı qanlı qapısına aparar.
Uşaq aşığı oynamaq üçün yığar.
Uşaq böyük olunca, böyüyü yumaq olar.
Uşaq evdə böyüyər, balıq – göldə.
Usta əli dəyməyən iş haramdır.
Usta görən şagirdhər məqamda yorğalar.
Usta görməyən şagird ondan-bundan qarmalar.
Usta meymun qamçısız oynar.
Ucuz aldın, quyruğunu düyünlə.
Uşaq yıxıldığı yerə baxar.
Uşaq gördüyünü istər.
Uşaq sözü şah sözündən hökmlüdür.
Uşaq sözün düzünü deyər.
Uşaqlı evdə qiybət olmaz.
Uşağa buyur, dalınca yüyür.
Uşağı yemək böyütməz, sevinc böyüdər.

**Ü**

Üz verdik dəliyə, palçıqlı çıxdı xalıya.
Üz verilən yerdən ərinmə, üz verilməyən yerdə görünmə.
Üz göstərsən, qohumluq iddiası eylər.
Üzərliksən varsan, yetmiş dərdə davasan, o yerdə ki varsan, qada-balanı qovarsan.
Üzrü günahından artıq.
Üzü ağ, qəlbi qara, mən belə dostu neylərəm?!
Üzü necədir, ürəyi də elədir.
Üzü şeyx, astarı kafər.
Üzük tanınar qaşı ilə, qız – qardaşı ilə.
Üzük-üzük oynayan gecələr yatmaz.
Üzüm ayağın altında!
Üzüm qaradırsa, alnım açıqdır.

Üzüm üzümə baxar, qaralar.
Üzümə bax, halımı sor.
Üzümü əldə gör, çöpünü – yerdə.
Üzün qaralığı yaman deyil, qəlbin qaralığı yamandır.
Üzünü xalqa çevirənin arxası möhkəm olar.
Üzü üstə gələni arxası üstə çevirməzlər.
Ümidilədir cahanda hər iş.
Ürək yanar, göz yaşarar.
Ürək yanmasa, gözdən yaş çıxmaz.
Ürəyimin daşqınını ağız deyər.
Üstü bəzək, altı təzək.
Üstümü unlu görüb, adımı dəyirmançı çağırma.

**V**

Var axar, yox baxar.
Var var üstündən gələr.
Var evi – kərəm evi, yox evi – vərəm evi.
Var günün dostu çox olar.
Vara var deyərlər, yoxa yox.
Varı olan taxar, varı olmayan baxar.
Varını verən utanmaz.
Varını itirən az şey itirər, namusunu itirən – çox şey.
Varlı varından pay versə, varsız da varlı olar.
Varlı yoxsullaşanda əlli il dəstgahını pozmaz.
Varlı kisəsini döyər, kasıb dizini.
Varlı olub qəm-qüssə ilə yaşamaqdansa, kasıb olub şad-xürrəm yaşamaq yaxşıdır.
Varlığa güvənməzlər.
Varlığa nə darlıq?!
Varlıya toxun keç, yoxsuldan qorun, keç.
Varlının arvadı öləndə yorğan-döşəyi təzələnər, kasıbın arvadı öləndə yorğan-döşəksiz qalar.
Varlının varı gedər, muzdurun canı.
Varlının eşşəyi də yeyin gedər.
Varlının çörəyi kasıbın çənəsini yorar.
Varsa əgər hünərin, hara getsən var yerin.

Varını verənin kisəsi boş qalar.
Vaxt vaxtı gözləyər.
Vaxt ikən oxu, aşıq, el gələr, tünlük olar.
Vaxtdan gileylənmə, vaxtın gedər.
Vaxtı boş olanın sözü çox olar.
Vaxtın qiyməti puldan bahadır.
Verdiyi abbasıya bax, etdiyi tələbə.
Verdiyi anda bax, gördüyü işə.
Verdiyin iki şahı, zərbaf çıxmayacaq ki!
Verdiyin sənindir, vermədiyin özgənin.
Verən əl ac qalmaz.
Verən əli də var, vuran əli də.
Verən əli hər kəs öpər.
Verəndə imam olur, alanda Şümür.
Verəndə elə verər, alanda belə alar.
Verərsən adındır, yeyərsən dadındır – dala qoyulanı it yeyər.
Verərsən ətdən-mətdən, işlərəm bərkdən-bərkdən,
verərsən şordan-mordan, işlərəm ordan-burdan.
Verərsən pendir, eylərəm kəndir, verərsən aş, eylərəm baş.
Verib yaman olunca, verməyib yaman ol.
Verməz doqquzu, yeyər toppuzu, verər otuzu...
Vədəsi bitmiş nökərin əcəli yetən ağası gərək.
Vəziri qarğa olanın ağzı zibillikdə olar.
Vələ gedən öküzün olsun, işə getməyən oğlun olmasın.
Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır.
Vicdanla işləyən gözükölgəli olmaz.
Vur dedim, öldür demədim ki?
Vur deyənlə vuran şərikdir.
Vuran igid dayısına baxmaz.
Vuran öküzə Allah buynuz verməz

**Y**

Ya bağ ətəyi, ya dağ ətəyi.
Ya bağayarpağı, ya quzuqulağı.
Ya bil, ya bir biləndən soruş.
Ya bu dəvəni güdməli, ya bu dünyadan getməli.

Ya vəlvələdən, ya zəlzələdən.
Ya dalına min, ya dalına mindir.
Ya dəli, ya divanə, Bəhlul Danəndə, Bəhlul divanə.
Ya dövlət başa, ya quzğun leşə.
Ya zor, ya zər, ya şəhərdən səfər.
Ya Museyi – Kazım, sənə demək nə lazım?!
Ya ölüm, ya dirim.
Ya taxt, ya bəxt.
Ya tələf ollam, ya xələf.
Ya torba yırtılar, ya dağarcıq.
Ya unçu ölər, ya dəyirmançı.
Yabılarda qotur yabı mərd olar, yorulandayiyəsinə dərd olar.
Yabıya rəhm etməyən piyada qalar.
Yava itin yava da küçüyü olar.
Yavan ətin şorbası olmaz (Yavan ətin şorbası da yavan olar).
Yavaş gedən yorulmaz.
Yavaş gedən çox gedər.
Yağ acı olanda, plov da acı olar.
Yağ da yesə dirilməz, bal da yesə dirilməz.
Yağ yağ ilə qovuşar, yarmalar yavan qalar.
Yağ yaxşı yağdır, hayıf ki, it dərisindədir.
Yağ ye, yaxada gəz.
Yağı yağ üstündən tökür, yarmanı yavan qoyur.
Yağı od əridir, qarı – gün.
Yağış ilə yer göyərər, alqış ilə ər öyünər.
Yağış isladar, gün qurudar.
Yağış vurmuşun damcıdan nə qorxusu?
Yağış yağa-yağa küpünü doldur.
Yağış yağar, yer doymaz.
Yağla yovşan da yeyilər.
Yağla yarma qovuşar, arada soğan büzüşər.
Yağmadı yağış, bitmədi qamış.
Yağmasa da guruldar.
Yad qızına uymazlar, yad qızı zavallı olar.
Yad qızına güvənmə, xətakar olar.

Yad gəlib qohum olunca, qohum yad olur.
Yaddan yoldaş olunca, yoldaş əldən gedər.
Yaz bitirir, yay yetirir, payız gətirir, qış itirir.
Yaz var, qış var, nə tükənməz iş var.
Yaz gələr, qış gedər Ağaqulu, dəyirmana boş gələr Ağaqulu, dul arvada xoş gələr Ağaqulu.
Yaz gələr, qış gedər, ördək gələr, qaz gedər, hamı birləşib gəlsə, Balaxanım yalqız gələr.
Yaz günündə tərləməyən qış günündə titrəyər.
Yaza çıxartdıq dananı, bəyənməz oldu ananı.
Yazan da sən, pozan da sən, heç bilmirəm nəsən sən?
Yazana baxma, yazdığına bax.
Yazda arpa yeyən atqışda ətini tökməz.
Yazda çalan, qışda oynar.
Yazıdan qaçmaq olmaz.
Yazılan pozulmaz.
Yazılmayan kitabı vərəqləməzlər.
Yazın hərəkəti, payızın bərəkəti.
Yay işini qışda gör, qış işini yayda.
Yay altında ox gizlədər.
Yay var, qış var, hələ çox iş var.
Yay kasıbın həm atasıdır, həm də anası.
Yay gününün yağışıqış gününün yavanlığıdır.
Yayda ayran tapmayanqışda yorğan tapmaz.
Yayda başı bişəninqışda aşı bişər.
Yayda kölgədə oturan, qışda ocaq axtarar.
Yaylağın dağı sağ olsun, qalı da olar, qarsız da, igidin canı sağ olsun, varlı da olar, varsız da.
Yayın tör-töküntüsü qışın azuqəsidir.
Yalan ayaq tutar, doğru bir yanda qalar.
(Yalan ayaq tutar, amma yeriməz).
Yalan danışan yanındakını qanmaz yerinə qoyar.
Yalan ilə dünyanıgəzmək olar, amma qayıtmaq olmaz.
Yalan olmasa, doğru yeriməz.
Yalan üz qaraldar.

Yalan cücərər, amma bitməz.
Yalanla plov bişsə, dəniz qədər yağı məndən.
Yalançılıq üz qızardar.
Yalançının ipi qısa olar.
Yalançının ipiylə quyuya düşən quyuda qalar.
Yalançının işığı yarıyacan yanar.
Yalvarmaqla donuz darıdan çıxmaz.
Yalqız qazıya gedən razı gələr.
Yalançı kimdir: – Hər eşitdiyini danışan.
Yalqız quş yuva salmaz.
Yalqız yeyən süfrəsini özü yığar.
Yaldan tuta bilməyənquyruqdan heç tuta bilməz.
Yaman adamın başına daş salsan, çiyninə düşər.
Yaman yeyənin olsun, yaman deyənin olmasın.
Yaman günə səbr edənyaxşı günə tez çatar.
Yaman külahduzdan yaxşı palanduz yaxşıdır.
Yaman dirilikdən ölüm yaxşıdır.
Yaman olmasa, yaxşılığın qiyməti bilinməz.
Yaman olan arvadev-eşiyini qoyar gedər.
Yanşağı cəhənnəmə atdılar, dedi: – Odunun yaşdır.
Yar mənimlə yar olsun, kol dibi diyar olsun.
Yara var bağlarlar, yara var dağlarlar.
Yaralı quşa daş atmazlar.
Yarımadıq yarıtmazdan.
Yarası avand olanın təbibi qabağına çıxar.
Yarımçıq bilməkdənheç bilməmək yaxşıdır.
Yarın yara sovqatı, bir dəstə bulaq otu.
Yat, qara öküzüm, yat, borc verən gələr, ya səni aparar, ya məni.
Yatan aslan olsa da, fürsət oyağındır.
Yatan daşın altına su keçməz.
Yatan ilanın quyruğunu basma.
Yatan iti oyatma (dindirmə).
Yatar-yatar, başı şişər, duranda bitin axtarar,
Yatıb yuxuda halva görüb.
Yatmışı yatmış oyada bilməz.

Yatmağa qaya kölgəsi, əgər ki marı olmasa...
Yaxşı ata bir qamçı, yaman ata min qamçı.
Yaxşı at köhnə çulun altında da bilinər.
Yaxşı at yemini artırar, yaman at qamçısını.
Yaxşı arvadlı ev cənnətdir.
Yaxşı arvad ərini bəy eylər, yaman arvad – zay.
Yaxşı qızdan yaxşı gəlin olar.
Yaxşı it ələ düşməz.
Yaxşı igid dalı gözlər, yaxşı at qabağı.
Yaxşı igidin adını eşit, üzünü görmə.
Yaxşı işçi səliqəsindən bilinər.
Yaxşı işə Allah zamindir.
Yaxşı əkinçi xərcini yerdən çıxardar.
Yaxşı elə yaxşıdır, çalış yamanı yaxşı elə.
Yaxşı yoldaş uzun yolu qısaldır.
Yaxşı mal öz-özünü işə verər.
Yaxşı mal yerdə qalmaz.
Yaxşı günün döş ağrısı, yaman günün diş ağrısı?
Yaxşı gündə yağlı çörəyi bəyənməyən, yaman gündə quru çörəyə salam verər.
Yaxşı gündə yad yaxşı, yaman gündə vay qardaş!
Yaxşı olarsa – Allahdan, pis olarsa –Şeytandandır, deyərlər.
Yaxşı olanda – xanımdan, pis olanda – kənizdən.
Yaxşı şeylərin yolu tapdaq olar.
Yaxşı şeyə gül ki, başına gəlsin.
Yaxşı xörək qalınca, pis qarın yırtılsın.
Yaxşılıq ayaq açıb gəzəndir.
Yaxşıya yaxşı de, yaxşılığı artsın, yamana yaxşı de, yamanlığı qayıtsın.
Yaxşıya yaxşı – deyərlər, yamana – yaman.
Yaxşılıq yaxşılıq gətirər, yamanlıq nəyə gərəkdir?
Yaxşılıq eləyib bir şey umursansa, etməsən yaxşıdır.
Yaxşılığın əcri (əvəzi) gələr.
Yaxşılığa yaxşılıq – kor eşşəyə samanlıq.
Yaxşılığa yamanlıq olmasaydı, qara öküzə bıçaq olmazdı.
Yaxşılıq yerdə qalmaz.

Yaxşını yada vermə – hayıfdır, yamanı yada vermə – ayıbdır.
Yaxına ərinir, uzağa yüyürür.
Yaxın yerə yük daşıyır (Yaxın dəyirmana yük daşıyır).
Yaş yaşadıqca, ağıl başa gələr.
Yaş odun satmayıbsan ki, niyə qorxursan?!
Yaşına baxma, başına bax.
Yaşı çox, ağlı yox.
Yaşına-yaşına – çıxdı ocaq başına.
Yeddi ayda bir qarış, bir ayda yeddi qarış.
Yeddi qonşu bir qazana möhtacdır.
Yeddi qurda bir çarıq neyləsin?
Yeddisinə «Gülüstan»ı oxuyan, yetmişində başa düşər.
Yeddisində nə idi isə, yetmişində də odur.
Yezidin Şamə getməsi doğru oldu.
Yeyən bilməz, doğrayan bilər.
Yeyən qurtardı, yalayan qurtarmadı.
Yeyəndə çeynə, danışanda fikirləş.
Yeyərsən qaz ətini, görərsən ləzzətini.
Yeyərsən qüvvətin artar, verərsən hörmətin.
Yeyərsən qismətindir, yeməzsən – özün bilərsən.
Yel belə əssə, balta belə kəssə, vay mənim halıma.
Yel əsəndə yellənər, yol görəndə yollanar.
Yel əsib, qoz tökülüb.
Yel ilə gələn, sel ilə gedər.
Yel üfürdü, su köpürdü.
Yelə tüpürən üzünə tüpürər.
Yeməyənin malını yeyərlər, ölüsünü də söyərlər.
Yeməyin qulu, işləməyin xəstəsi olma.
Yeməyin dadı duzdadır, dünyanın dadı gözdə.
Yeməyin ustası, işləməyin xəstəsi.
Yeməyini yalnız yeyənyükünü özü qaldırar.
Yemədidir, saxla, yeməli deyil, tulla.
Yemiş vaxtı xırçının qulaqları kar olar.
Yemlik imiş, duz imiş, sən də batır, sən də ye.
Yemsiz torbaya at gəlməz.

Yer var, danışarlar, yer var, sözü udarlar.
Yer qatı, göy qatı, hardan olduavandı?
Yer qulaqlı olar.
Yerə vurdun, başıma vurdun!
Yerə düşməklə gövhər qiymətdən düşməz.
Yeriyən at yemini özü artırar.
Yel aparan yelinki, yerdə qalan mənimki.
Yerlər o yerlər, görünməz oldu ellər.
Yetənə yetir, yetməyənə daş atır.
Yetim ağlağan olar.
Yetim yerə baxar, ürək yaxar.
Yetimə dedilər: – Kimi sevirsən?
Dedi: – Mənə çörək verəni!
Yetimə öyüd verən çox olar, çörək verən az.
Yetimi doydur, nə olacağını düşünmə.
Yəhər gah atın belində gəzər, gah at yiyəsinin.
Yiyəsi ölən eşşəyi qurd yeyər.
Yiyəsinə baxarlar, atını nallarlar.
Yiyəsinə baxıb, mıxını çalıb.
Yiyəsini sevənitinə çörək verər.
Yığma dən üçün xırman açılmaz.
Yığılaq biz araya, məlhəm qoyaq yaraya.
Yırtıq böyük, yamaq kiçik.
Yırtıcı aslan zülmkar şahdan yaxşıdır.
Yırtıcı quş dimdiyindən bəllidir.
Yırtıcı quşun ətin yeməzlər.
Yırtıcı quşun ömrü az olar.
Yıxılan ağaca balta çalan çox olar.
Yovşan olub, arxanda dovşan yatınca, palıd ol, kölgəndə sürü yatsın.
Yol bilmirsən, yola gəl.
Yol böyüyündür, su kiçiyin.
Yol həmişə bostan kənarından düşməz.
Yoldaşı evdən götür, quşu – yuvadan.
Yoldaşı yolda tanı.

Yoldaşı yoldaşdan soruşarlar.
Yoldaşın sözünə inan, özündündə dayan.
Yoldaşın qarğa olsa, yediyin nə olar?
Yoldaşın yaxşı olsa, uzun yol yaxın olar.
Yoldaşını mənə de, sənin kim olduğunu deyim.
Yol yeriməklə alınar.
Yola bələd olan büdrəməz.
Yoldan çıxsan, eldən çıxma.
Yolu yaxın – yükü yüngül.
Yolu qardaşla kəsərlər, meşəni – mişarla.
Yoluxda nə var, qırığa nə versin.
Yolçu yolda gərək.
Yolçudan yolçuya pay düşməz.
Yolçuya yol gərək, qurbağaya – göl.
Yolçunu yoldan eləməzlər.
Yorğa at da hərdən büdrər.
Yorulmuş eşşək mənzili yaxın istər.
Yorulmuş öküz «oho»nu Allahdan istər.
Yumurtada tük bitməz.
Yumurtana görə qaqqılda.
Yun darayaram, kələf olar, qız doğaram, xələf olar.
Yunu var, unu yox.
Yusif bazarıdır, hər kəsin mətahı varsa, gətirsin.
Yuxarı baxıb qəm eyləyincə, aşağı baxıb dəm eylə.
Yuxarı başda yer yoxdur, aşağı başda oturmur.
Yuxarı evə baxıb, aşağı evi yıxma.
Yuxarı tüpürürəm – bığ, aşağı tüpürürəm – saqqal.
Yüz birə qoşulmaz, bir yüzə qoşular.
Yüz «vur» deyəndən, bir vuran yaxşıdır.
Yüz qayğı bir borcu ödəməz.
Yüz eşitməkdən, bir görmək yaxşıdır.
Yüz il gərək qanqal otlayasan ki, ağzın dəvə ağzına oxşasın.
Yüz ilin ibadətindən bir günün səxavəti.

## Z

Zalıma rəhm etmək –məzluma zülm etməkdir.
Zalımın ömrü az olar.
Zənburun dəvəsidir.
Zəngbar talanı deyil ki?!
Zər ilə olan, zor ilə olmaz.
Zərd bəzərəkdən (kətan toxumundan) yağ çıxardar.
Zəhər zəhəri öldürər.
Zəxirəsin (ərzağın) fikr eyləyən, peşiman olmaz.
Zəhər gələndə acı qaçar.
Zəhmət – torpaqda, nemət – süfrədə.
Zəhmət çəkən bal yeyər.
Zəhmətlə yeyilən acı soğanminnətlə yeyilən baldan şirindir.
Zəhmətsiz iş olmaz.
Ziyan ağudan acıdır.
Zirəyə getdin çörək götür, Zirədən çıxdın ayaq götür.
Zirək quş dimdiyindən tələyə düşər.
Zirəm, sənə su verrəm, bu gün verrəm, sabahverrəm, özüm billəm.
Zopa doğrusunu dedirdər.
Zor ilə gözəllik olmaz.
Zora xanların da borcu var.
Zorən təbib olmaz.
Zorla gedən köpək qoyuna fayda verməz.
Zurna görür – zurnaya yapışır, dəf görür – dəfə.
Zurnada “pişro” olmaz, bəxtinə nə çıxsa, çal.
Zurnanı versən naşı əlinə, gen tərəfdən püfləyər.
Zurnaçı dəfli olar.
Zurnaçı zorunu püfünə verər.
Zurnaçı oğlu zurnaçı olar.
Zülm ilə abad olan, bir gün gələr, bərbad olar.
Zınqırovlu dəvə itməz.
Zınqırovu pişiyin boynuna kim asacaq?

## İNAMLAR, SINAMALAR

Ala qarğaya daş atma, səni qarğayar.
Atın nalı bərəkətdir, evində saxla.
Açarı səsləndirmə, evdə dava düşər.
Axır çərşənbənin falı düz deyər.
Axan ulduzlar ölənlərin ulduzlarıdır.
Arı yuvasın dağıtma.
Asqıran kimsəyə üç günə kimi heç nə olmaz.
Astananı qarmaqlamaq pis olar, qarmaqladınsa, üç yola çəpik çal.
Astanada dayanma, yoxsa qeybətin edərlər.
Ağac bir ildə iki yol gül açsa, düşər-düşməzi var.
Ağzıvı açanda xeyirə aç.
Ağlayan dəli tez sağalar.
Ağız qanına qoyma hava dəysin.
Axşam səbri xeyir olar.
Ağ tükivi çəkmə, bəxt tükü ağ olar.
Ağbəxtin çarqatın başına sal, sən də ağbəxt olarsan.
Alalı kimsəyə gülmə, sənə də ala düşər.
Almanın qabığın bütün soy, bir ağıza niyyət elə.
Altı barmaqlının əli (udum) olar.
Ana və qız hər ikisi bir ayda doğarlarsa, uşaqların biri eybəcər olar.
Anadan olan dişli uşaq bərəkət gətirər.
Ayı uliyəndə ağlama, yoxsa ay axrına kimi ağlarsan.
Ayı uliyəndə ay nəmazı qıl, yaxşı olar.
Ay tutulanda boylu arvad gərək ki ona baxmaya, yoxsa uşağı al xallı olar.
Ay öli, il ölü doktur, davaya getmə.
Ay tutulanda mis bəşqanı ona sarı tut.
Ayağı ağır ayaq üstə olanda, işə başlama.
Aya baxma, çəkər səni aparar.
Batıq qaşıq yerə düşərsə, qonaq gələcək.
Barmağıvı sındırma, ömrün azalar.
Başın altda corab qoyma, pis yuxular görərsən.
Baş-başa çalma, keçəl olarsan, çaldın, bir də çal.

Başı yekə, yekə də iş sahibi olar.
Başmaqların üst-üstə düşərsə, qeybət edərlər.
Başmaqlarıvın bağın düyün salma, yoxsa işin düyün düşər.
Başmağı tərsinə geyərsən, işin rast gəlməz.
Bal arısın öldürmə, pis olar.
Bayram günü ağlamazlar.
Bayram günü bir tazə paltara qəyçi qoy.
Bayquş səsi qoyma uşağın qulağına çatsın.
Bəxt aynası sınarsa, pis olar.
Bəxtəvərin sağ əlin qoy başıva, xoş olar.
Boş qaşığı boş qazana çalma.
Borc verəndə sağ əl iləver, tez qayıtsın.
Böyük ayağı olan məkbətdə qalar.
Boylu arvadın başına duz tök, əlin başına aparsa, qızı olacaq, yoxsa buğuna aparsa, oğlu olacaq.
Boylu arvad aya baxıb əlin qarnına qoysa, uşağı alalı olar.
Boylu arvad əlin cigərə vursa, uşağı qırmızı xallı olar.
Boylu arvad bibər yesə, uşağı ətiacı olar.
Boylu arvadı disgindirmə, pis olar.
Boylu arvad gərək ki, qurd-quşa baxmaya, yoxsa uşağı onlara bənziyər.
Boylu arvad gərək ki, hər kimsənin çörəgindən yeməsin.
Bu ildən gələn ilə qalan narış bərəkət gətirər.
Bir kimsənin çörəgin əvvəl yemağındırsa, bir ağıza niyyət eylə.
Bir kimsənin dalında əgləşmə, yoxsa qiyamət günündə verərlər dalına.
Bir kimsəylə yan-yana dəgərsən, qohum olarsan.
Bir yerdə ilk yatmağındırsa, yuxuna niyyət eylə.
Bir günluq aya baxdınsa, dönüb kimsənin üzünə baxma, yoxsa ay axırına kimi nasazlarsan.
Bir günluq aya baxdun, tez bax suya, ya qızıla.
Bir qapudan girdin, o biri qapudan çıxma, yoxsa oranın sahibin borclu salarsan.
Caduya gümanın gedərsə, hər harda, uşağı oraya işət.
Canamazı, möhürü ayaqlama, kor olarsan.

Cümə axşamı evin külün eşigə tökmə.
Cümələr dırnaq tutan varlı olar.
Cüt səbir yaxşı olar.
Cənağ sındırma, ayrılıq gətirər.
Cəhənnəm odu seyidləri yandırmaz.
Çadranı tərsəsinə örtən ziyarətə gedər.
Çadranı tərsə örtmə, qəm gətirər.
Çayda tiliq görsən, bil ki, qonaq gəlir.
Çərağı püfləmə, pis olar.
Çəraq yandıranda üç salavat çevir.
Çərşənbə axşamı bəççiyə get, yaxşı olar.
Çeçəyən kimsənin dalına çal, deynə "hamsı sənin".
Çeçəyənin alnını çək, çeçəməsi qurtarar.
Çeçəyən sovqat yeyəcəq.
Çox ağlayan uşaq anası, ya atasının başın yeyər.
Çox ağlayan uşağın başın mavala salallar.
Çox ağlayan uşağa ver bir qır-cəgər adam, təstəq çıxsın.
Çox gülmə, zərərin çəkərsən.
Çörəgi astanaya tökmə, pis olar.
Çörəgi ətəgə töküb yemə, pis olar.
Çörəgi əyaqlama, kor olarsan.
Çörəgi zir-zibilə qatma, pis olar.
Çiçək çıxardan uşağa qoyma murdar kimsə baxsın.
Dara asılana baxma, pis olar.
Dan yeli hər kimsənin üzünə dəysə, həyalı olar.
Dəsmaldan yadigar olmaz, verərsən, ayrılıq gətirər.
Dəgirman daşın yatdıq yerə qoyma, pis olar.
Duzu yerə səpmə, pis olar.
Duzu yandırmazlar.
Doğan qadın yerinə keçəndə Allahdan üç şey istəsə, Allah yox deməz.
Doğan qadın yanında qız uşağı olsa, çətin doğar.
Doğanmayan qadın yanında üç güllə at, doğar.
Düşən dişi at dama, qarğa sənə qızıl diş gətirər.
Dırnağı bir-birinə çalma, kədərlıq düşər.

Dırnağıva ağ çal, düşsə bil ki, taza paltar geyacaxsan.
Dırnağı uzun şeytan balasıdır.
Dizlərivi qucaqlama, qəm gətirər.
Evi iki adam süpürsə, pis olar.
Evə çay calandı, yerinə qənd dart.
Evdən çixanda üç yol qapuya deynə: "Evi sənə, səni Allaha tapşırdım". Onda evə oğru gəlməz.
Eşşək anqıranda hörüklərivi çək, uzanar.
Əti acı adamı mığ-mığ sancmaz.
Ət ilə qarpızı bir yerdə yeməzlər.
Əzan deyilən zaman əgləşənin ömrü uzun olar.
Əcinnə dəmirdən qorxar.
Əcinnələr səni çağıranda, denə, gələnmərəm, duz dartıram.
Əcinnədən qorxsan, yaxava iynə sanc.
Əhsan yeməklərin qabın yumazlar.
Əhsan yeməgi həram eyləmə, pis olar.
Əhsən qabı sınanda, pis olar.
Əsnəyəndə birinin üzünə baxma.
Əqaqiyə gülünün (beş ləçəyin)qoy dilinin altına, onda işin rast gələr.
Əgləşənin başına dolanmazlar.
Əl üstə xal əliaçıqlıq nişanəsidir.
Əl ilə ayaq dırnaqların dalbadal tutma, tutarsan, atan-anan ölər.
Əllərivi barmaqlama, qəm gətirər.
Ələgi çalmazlar.
Əqd olan gəlin ayağa duranda, həmin hər hansı qız əgləşsə onun yerində, tez ərə gedər.
Əqd süfrəsin gərək iki kəbinli açmaya.
Əqiq qaşı yanında saxla, yaxşı olar.
Əmi oğlu ilə əmi qızının kəbini göydə kəsilər.
Fala inanma, falsız da qalma.
Fərik banlasa, ya başın kəs, ya ver seyidə.
Gülab çəkmağın düşər-düşməzi var.
Gəlin oynasa, ucuzluq olar.
Gəlin əqd olanda gərək əynində hər nə düyün var, açsın.

Gəlin ayağında qurban kəs, başın bədənindən ayır.
Gecə od ilə oynayan uşaq yerinə işəyər.
Gecə evi süpürməzlər.
Gecə pıçaq çəkmə, dəmir uzanar
Gecə ağac altda yatma, yoxsa əcinnələr yolun kəsər.
Gecə anadan olan kimsənin ayağı ağır olar.
Gecə bucaqda dayanma, əcinələr səni dəyişər.
Gecə yatanda yastığına tapşır səni vəqtində oyatsın.
Gecə yatanda ağzıvı açıq qoyma, şeytan gələr tüpürər.
Gecə yarısı itlər hürüb, qarğalar qırıldasa, zəlzələ nişanəsidir.
Gecə evə ağ aparmazlar.
Gecələr başın altda qara paltar qoyma, pis yuxu basar.
Gecə yatanda qayqanaq yemə, qara basar.
Gecə baş daramazlar.
Gözü sulu kimsə qürbətdə qalar.
Gözüvə çör-çöp düşsə, uçux-uçux eylə, çıxar.
Göz yaşı şur olsa, ağlayan qəmlidir.
Gözəl gördün, “maşallah” de.
Güzgüyə çox baxma, dəli olarsan.
Güzgünün üzün divara sarı qoyma, pis olar.
Gözün yol çəksə, tazə bir xəbər gələcək.
Gözdən öpmək ayrılıq gətirər.
Gülən dəli sağalmaz.
Gördığın yuxular yadından çıxarsa, mavlada çörək ye.
Gözündə xal olan kimsənin baxışı bədbətər olar.
Göyün ilk qarın yeməzlər.
Göy qırmızı olsa, qar yağar.
Göyərçin yumurtasın ver uşaq yesin, tez dil açar.
Göyərçini qəfəsə salma.
Gözlü adama dolaşma, əcinnələr ilə gəl-gedi vardı.
Gün başlayanda astanaya qənd at, xoş xəbər gəlsin.
Gün arası anadan olan kimsənin ayağı yüngül olar.
Gün batanda gərək ki, yerdə yatan olmaya.
Gün batan zaman təziyəli evə getməzlər.
Girdəkan ağacı qabağında dayan, şəklivi çəkər.

Girdəkan ağacı altında yatma.
Hacət varsa, qırx gün sübh nəmazından sonra küçə qapsın süpür, sula.
Hamama girəndə, "bismillah" deginən.
Hamam suyundan içmə.
Hamamdan çıxandan sonra sərin su içmə, içdinsə, əlivi qoy başıva.
Hamamdatanış gördün, çiyninə bir ovuc su tök.
Hər eşşək arısın ki, öldürdün, o dünyada sənə bir xurma verərlər.
Hər evin bir qaraçuxası olar.
Hər evin bir ilanı olar.
Hər ağlamağın dalında bir gülmək var.
Hər ananın uşağı qalmasa və ölsə, onun uşağın bir uşaqlı ananın yaxasında asla, qalar.
Hər kimsə özün öldürsə, yeri cəhənnəmdir.
Hər kimsənin bir ulduzu var.
Hər kimsənin bir ilanı var.
Hər kimsənin başından vurma, kor olar.
Hıçqırıq qursağı genəldər.
Heş kimsənin canına and içmə.
Xəbərçi gələndə bir xoş xəbər gözlə.
Xoruz çərşənbə axşamı banlasa, təsətəq ver.
Xırda pul səsləndir, pullanasan.
İtən şey tapılmasa, bil ki, əcinnələr aparıbdır, üç salavat çevir, tapılar.
İti öldürmə, pis olar.
İti olan evdə mələklər olanmaz.
İl təhvil olanda balıqlar üzü qibləyə sarı dayanarlar.
İl əvvəli, ay əvvəli, həftə əvvəli əliaçıq kimsədən siftə al, xoş olar.
İlin axır çərşənbəsi səhər gün çıxmamışdan su üstündən atıl, bəxtin açılar.
İl təhvil olanda istəklilərivin yanında ol, yoxsa il axırına kimi tək qalarsan.
İsti suyu yerə tökəndə "bismillah" deynə.
İstəyirsən dolu kəssin, yetdi məs qabı at altına.

İsti suyu astanaya tökmə, yoxsa əcinnələr dağılar evinə.
İstəyirsən gözəl olarsan, hər gün səhər nəştab bir pişmiş soğan ye.
İydənin gül verən çağı ağac altda dayanma.
İldırıma qızıl tutma.
İldırım çalanda ağac altda dayanma.
İşə başlayanda bir ayağı yüngül kimsədən istə gəlsin.
İşə başlayanda bir ağıza niyyət elə, o işin əncamına.
İşə başlaynda "bismillah" deynə.
İynəni bağçaya sanc, şeytan onu açmasın.
İki ölü dalbadal apardun qəbristana, üçüncüyə bir xoruz öldür apar.
İki bacının kəbini bir evə düşər-düşməz olar.
İki adam küsüləndə, mələklər bir dəsmal yuyub sərələr, o dəsmal quruyunca barışdılar, heç, yoxsa mələklər hər gününə bir ilin günahın yazarlar.
İki ər quyulayan arvad üçüncüsün də quylayar.
İstəyirsən gəlsin, qəndi at astanaya, istəmirsən gəlsin, dişlə at astanaya.
Keçi buynuzun yandırma, pis olar.
Kəbin kəsəndə bir pıçaq ağzı bağla, qoy, qəynananın ağzı bağlansın.
Kəl iti gördün, yetdi qədəm geri gəl.
Kəhrəba daşın saxlamağın düşər-düşməzi var.
Köhnə paltarı qəbristana atma.
Kürəkənə başmaq alma, darlıq olar.
Kötüklü gül-ağac birinə verəndə, onun künüknə bir pul al.
Kimsəni dolabçaya salıb qapunu bağlama, əcinnələr onu deşər.
Kirpigi düşənə deynə, hansı gözündədir, ona niyyət eyləsin.
Kor pişigi evə qoyma.
Qab-qaşıq, istəkan, nəlbəki düzüləndə, gəlir-gəlmir say, bəlli olar gələn var, ya yox.
Qara pişigi vurma, əcinnələr ilə gəl-gedi var.
Qar yağanda gün çıxsa, qurd balalar.
Qarğa evə sarı qarıldasa, qonaq gəlir.
Qarğa yuvasın dağıtma, evin dağılar.
Qarğa damağın şaqqıldatsa, qonaq gələr.

Qarnın səyrisə, qonşun ajdı.
Qarnın səyrisə, bil ki, qonşudan pay gəlir.
Qarışqa yuvasın dağıtma, pis olar.
Qazan dibini yalama, toyunda qar yağar.
Qazanı ağzı açıq qoyma, şeytan gələr yeməgi yalar.
Qatır dırnağın yemə, uşaqdan düşərsən.
Qavalı üzü qibləyə sarı aslama, partlar.
Qayqanaq ilə yoğurt yemə.
Qəbri ayaxlamazlar.
Qəbr torpağından tök ölü sahibinin başına, ölüdən soyuyar.
Qəbristanlıqdan çıxanda dalıva baxma.
Qəbr üstə “fatihə”yə gedəndə üç yol daş ilə çal, ölü gələr.
Qəbristanlıq tozunu evə gətirmə.
Qəşş eyləyəni cızığa sal, ayılsın.
Qəm qəmi gətirər, dəm dəmi.
Qəran olan yerdə ayaq uzatmazlar.
Qərban gözə şəfadı, qurut və saxla.
Qəfil üstə pıs-pıslar yatsa pis olar.
Qəcələ beyni yemə, səfehlərsən.
Qəranı ayaqlama, qaralarsan.
Qurban ətindən hələ-həlbət yetdipay ver.
Qəlbi düz kimsənin işi rast gələr.
Qorxan uşağı ver bəççi tutsun.
Qurdun yağın qoyma bədənivə dəysin, yoxsa hamı səni qurd gözündə görər.
Qorxan kimsəyə bir tikə omma çal, yenidən qorxut, o, tikəni yesin, qorxuluğu çıxar.
Qorxan kimsəyə ver, qara qazanda su içsin.
Qurbağanı əlivə alma, ziyil tökərsən.
Qövsi-qüzehdə sarı rəng çox olsa, o il nasazlıq çox olar.
Qövsi-qüzehdə qırmızı rəng çox olsa, o il döyüş çox olar.
Qövsi-qüzehdə yaşıl rəng çox olsa, o il göy-göyərti çox olar.
Quş badəşgada əgləşsə, üzü həyətə sarı, evdən gedən olacaq.
Quş badəşgada əgləşsə, üzü evə sarı, xoş xəbər gələcək.
Quş gəlib başa qonsa, xoş uğurlar gətirər.

Qulaqdan olan xal zəkavət nişanəsidir.
Qulaq səyrisə, qonaq gəlir.
Qoyunun başın kəsəndə, ona duz ilə su ver.
Qoyunun başın üzü qibləyə sarı kəs.
Qonağın başmağına duz tök, tez gedər.
Qırxıncı gün həzrət Xızır gələr, hər nə istərsən istə.
Qızılgülü evdə saxla, yaxşı olar.
Qəyçinin ağzın açıq qoyma, düşmənlərin aqzı açıq olar.
Qırxlı uşaqların paltarın azandan sonra qoyma ip üstə qalsın.
Qırxlı uşağa sarı geydirmə.
Qırxlı uşağın yanına ət aparmazlar.
Lüt bədənivə baxma, məsiyət gətirər.
Lüt yatanın imanı olmaz.
Mama başmağının tozun zahının başına silkələ, tez doğar.
Maşanı qoyma titrəsin, əl-ayağın titrər.
Maval ocağın üzü qibləyə sarı qoymazlar.
Mırdar kimsə nasaz uşağın yanına getməyə gərək.
Mırdarsan əgər, məscid qabağından keçmə.
Məzacı isti olanın oğlu olar.
Mədadı ikibaşlı qətdəmə, dədən ölər.
Məhərrəm-səfər ayında baş vurub, qaş almazlar.
Məhəmmədi qarışqasını öldürmə, o imam Həsənə su daşıyıb.
Məscid həsirin küçədən evə aparma.
Məsum uşağın əllərin göyə sarı tut, Allahdan hər nə isdəsən verər.
Meyrəmli gəlsə, bil ki, bayram gəlir, ona muşduluq ver.
Mənzil binasına gərək ki, qurban qanı tökəsən.
Müsafirindən xəbərin olmasa, güzgünü aya tut, onda görərsən.
Müsafirin dalısıyca ağlama, pis olar.
Müsafirin dalısıyca su səp, Qəran tut, salim gəlsin.
Müsafirin dalısıyca hec nə sındırma, yoxsa xəsarət görərsən.
Müsafir dalısıyca yetdi atdım get, salim gəlsin.
Məkkədən gələnin başmağın gey ayağıva, sən də gedərsən.
Mömin kimsənin yatmağı da ibadət sayılır.
Muy ağacın yaş-yaş kəsmə, ağlayar.
Napak kimsə gərək Qərana əl vurmaya.

Nar behişt meyvəsidir, onu yeyən, bunsuz ki, bir dənəsi də yerə düşə, sən də behişt adamı olarsan.
Narın dişli kimsə qıtmır olar.
Nasaz uşağı bir tüfəngin qundağından üç yol keçirt, sağalar.
Nasaz uşağı yetdi qadın qıçı altından keçirt, düzələr.
Nasaza sarı gül aparma.
Nərdiban altından keçmə.
Nərdiban yatırtma, evdən ölü çıxar.
Nərdibanı gecə evdən-evə aparma.
Nərdibanı evdən-evə daşıma, pis olar.
Nənəsi qız doğan gəlin oğlan doğar.
Nənni boş olanda, tərpətmə, uşaq sancılanar.
Nəzər dəyən kimsəyə yetdi qapunun çöpün götür, sal üzərrikdə yandır.
Nəzər dəyən kimsənin nəzərin yumurta ilə poz.
Nəzər dəyməsin, çal təxtəyə.
Nəzər dəyməsin, yanıvı qaşı.
Namaz qılanı yamsılama, ağzın əyilər.
Niyyət edəndə, "inşallah" de.
Od üstə işəməzlər, pis olar.
Oğlan uşağı tez olar.
Ovcun qaşınsa, əlivə pul gələcək.
Ovuc içi dik olsa, o əl sahibi Əli nökəridir.
Özgənin payın yemə, yoxsa dilində pay çixar.
Ölü qarşuva çıxarsa, yetdi qədəm geri gəl.
Ölü paltarın satmazlar.
Ölü yerdəykən ona tərmək çal.
Ölülərin ruhu cümə ağşamı azad olar.
Ölünü üzü qibləyə sarı uzat.
Ölü sümüklərin dağıtma.
Ölünün dalınca danışma.
Ölünün dilincə danışma.
Pendiri çox yemə, korafəhim olarsan.
Peş buxarı yolağı əcinnələr yuvasıdır, yandıranda "bismillah" deynə.

Pis fal vurma, pis gətirər.
Pis fal vurma, vurdunsa, iki barmağıvın arasına “tuh” eylə.
Pişik qapu qabağında yuyunsa, evə qonaq gələr.
Pişik yuyunanda əlin qulağının dalısına aparsa, evə qonaq gələr.
Pişigin yeddi canı olar.
Pişigi oynatma, bahalıq olar.
Pişigi vurma, pis olar.
Pişigin gözün bağla, çörək ver.
Pişigin artığın yeyən səfehlər.
Sarımsaq qabıqların evə dağıtma, pis olar.
Sarı qarpız hər dərdin davasıdır.
Sağ göz səyirsə, bəd xəbər gələcək, bir təsələq ver.
Sailin əlinboş qaytarma, ahı tutar.
Sailin çörəgindən yemə.
Saymaq azaldar, sayma.
Sirkə qoymağın düşər-düşməzi olar.
Sirkə qoyanda başına gərək ki, mırdar adam dolanmaya.
Sirkəni saldın, yetdi gün başın açma, disginər.
Səhəri it uğruna çixsa, pis olar.
Səhəri ağ at və qoyun uğruna çıxsa, yaxçı olar.
Səhər ol vəqt tək həmama girmə, əcinnələr hamam edirlər.
Səhər qapuya su cala, axşama kimi xoş xəbər gələr.
Salamı cavabsız qoyma, pis olar.
Siçan qarası hər nəyə deysə, mırdar olur.
Sınan qab dərdi-bəlanı aparar.
Sığırçını qəfəsə salma, pis olar.
Sənəg daşın evə aparma.
Süfrə açılanda gələn bəlli deyər ki, qaynanası çox istəyir.
Subayın yatdığı yer onu nifrin edər.
Süpürgə bir kimsəyə dəysə, pis olar, gərək ki, həman kəs onun üstünə tüpürsün.
Süpürgəyə tüpürmə, nasazlıq gətirər.
Su calansa, aydınlıqdır.
Suyu atanda şaqqıldasa, evə qonaq gələr.
Soyuq deyən kimsə dəli olmaz.

Su yoluna girmə, əcinnələr yuvasıdır.
Suya tüpürmə, pis olar.
Suyu qızdıranda içinə yapraq sal, tez qızar.
Söyüt ağacı əkmağın düşər-düşməzi var.
Sütlü arvad döşlərin əlinə alıb Allahdan nə diləsə, Allah verər.
Süd verən ananın südü azalsa, deməsin azalıb, desin gedib sürüyə.
Sol əlli bilici olar.
Sol ayağıvın altı qaşınsa, kötək yeyəcəksan.
Sol əlin qaşınsa, bil ki, pul xərşləyacaxsan.
Sol göz səyirsə, xoş xəbər gələcək, bir qırmızı sap qoy üstünə deynə: “Mən səni sevindirdim, səndə məni sevindir!”
Soğanı kəs, qoy evə, mərəz gedər.
Soğan qabığın yandırma, pis olar.
Şaş zorlu olar.
Şaş ruzulu olar.
Şənbə günü dırnağ tutmazlar.
Şənbə axşamı xoruz banlasa, xoş xəbər gələr.
Sopreyə dəydun, qüsl eylə!
Şeytan toru ucaya çıxsa, yağış yağacaq.
Şeytan torunu öldürmə, o peyğəmbərimizə nəcat veribdir.
Sədəqə dərdi-bəlanı aparar, ömrü uzadar.
Səfərin axır çərşənbəsi təsədağ ver.
Taza gəlin, taza gəlin görməginə getməz, yoxsa çilə basar.
Taza əqd olan gəlin gərək ki, astanada dayanmaya.
Taza paltarın ilk dəfəsin toy-qonalığa gey.
Taza gəlin qara geyməz.
Taza pal-paltara içinə qənd sal, yaxşı olar.
Təpəsi iki olan, iki arvadlı, ya ikiərli olar.
Təsbegi üç yol başıva dolandır, ver sailə.
Təndir küfləsinə baş uzatma, əcinnələr yuvasıdır.
Toyuğun dimdiginə od bas, yumurtasın yeməsin.
Toy gecəsi bir ovuc suvağı qoy gəlinin yastığı altına.
Toxum çırtdayan qız ərsiz qalar.
Tut ağacın kəsmə, el malıdır.
Tutduğun dırnağı evə dağıtma, evin dağılar.

Tutduğun dırnağı yerə tökərsən, xərdəcəl gələndə tikan olub ayağına batar.
Tutu satmazlar.
Tükan açarın sağ əli ilə aç, yaxşı olar.
Tükünü yandırma, başın ağrıyar.
Tükünü ələ vermə, pis olar.
Uçuğu soyuq dəmir ilə disgindir, düzələr.
Uşaq yuxuda güləndə, mələklər onu danışdırırlar.
Uşaq çörəgə işəsə, gərək anası o çörəgi yesin.
Uşaq yuxuda ağlasa, şeytan ona deyər ki, anan ölübdür.
Uşaq anasın tanıyan günlərdə ananın tükləri tökülər.
Uşağa güzgü gösdərmə, pis olar.
Uşağa xaşxaş gülü aparma, pis olar.
Uşağa göz dəyməsin deyə, boynuna dağdağan sal.
Uşağa göz dəyməsin deyə ləl çevir, püflə üzünə.
Uşağa pənir vermə, səfyələr.
Uşağa bal vermə, dil açmaz.
Uşağa şəkil göstərmə, pis olar.
Uşağa atasının adını qoysan, ömrü uzun olar.
Uşağı tağçaya qoyma, əcinnələr dəyişər.
Uşağı qıdıqlama, əti tökülər.
Uşağı olmayan qadın başına xanım rəfiyə süfrəsin silkələ.
Uşağı bələkləyəndən sora üç yol əlini yerə çal və uşağın dalına çək və deynə: hamunın yuxusu sənin olsun. Onda uşağ rahat yatar.
Uşağı ağac dibinə işətmə, yoxsa əcinnələr səni qarğış eylər.
Uşağı yorğan-döşək üstə qoyma, əcinnələr dəyişər.
Uşağı qırx gün əvvəl evdən-eşigə çıxartmazlar.
Uşağı ölən ana gərək ki, uşağın qəbri üstə getməyə, gedərsə, mələklər uşağı sürüyə-sürüyə gətirərlər ananın ayağına.
Uşağın boynundan öpmə, yoxsa küsəyən olar.
Uşağın göbəgi evdə qoyula.
Uşağın göbəgin qoyma it, pişik yesin.
Uşağın başından vurma, yetim olar.
Uşağın dırnağın ilk yol tutanda gərək ki, dayısı ovcuna pul qoysun.
Uşağın ilk dişin hər kim görsə, gərək dişlik pişirsin.

Uşağın adın Məhəmməd qoydun, gərək ona bir Qəran çıxdırasan.
Uşağın adın məsumlar adından qoydun, gərək ağırlığı qədər xurma əhsan verəsən.
Uşağın adın Qərandan aç, yaxşı olar.
Ummayasan, xoş qoxu gələndə ovucuvu iylə.
Umanın dili şişər.
Üç kərpici üst-üstə qoyma, adı batmış çıxar.
Üç gün əvvəl ölənin qəbri üstə getməzlər.
Üzərrigi bayıra atma, ayrılıq düşər.
Üzün qibləyə sarı noğdan, altda dua eylə tez əcabət olar.
Üzərrigi salanda alovlasa, bəlli olar ki, bəd-nəzər var.
Üzə püfləmə, yara tökər.
Yatanda başın altına kitab qoyma, pis yuxu görərsən.
Yatanda üzü qibləyə sarı yat, dinc yatasan.
Yatanda bir yol "Ayətel-kürsü" oxu, yuxuda səni heç dərd və bəla tutmaz.
Yatdıq yerdə ayaqlarıvı tərsəsinə tərpətmə, evdən ölü çıxar.
Yaradan disginmə, yara tökərsən.
Yasəmən ağacını əkməginin düşər-düşməzi var.
Yalandan and içmə, qaralarsan.
Yerikləyən qadın hər əldən gərək çörək yeməyə.
Yetdi uğurdu, on üç uğursuzluq.
Yuxuda tərək gördün, tərək çal.
Yuxunu hamudan qabaq suya de.
Yoğurdunan balıq əti yemə.
Yıxılana gülmə, başıva gələr.
Zirəklıq cəvanənbərlik gətirər, çox zirək olma.
Zəmzəm suyu göyöskürək tutana düşər.

## DEYİMLƏR

Ağzına su alıb.
Aşımıza su qatma.
Ayı dostluğu.
Aleybanı quleybanı, gəl apar bu heyvanı.
Arıx nədi, quyrux nədi.
Arxa su gələnə qədər qurbağanın gözləri bərələr.
Arpaya qatsan, at yeməz, kəpəyə qatsan, it yeməz.
Az aşın duzu deyil.
Ağzı açıq qaldı.
Ağzı südlüdür.
Aldın payın, çağır dayın.
Bax, bura gün hardan çıxıb?
Boğaz düyməsin.
Boynuva biçilib.
Bir əli balda, bir əli yağda.
Boğazını otarır.
Erməni qan görmüş.
Əlim daş altındadır.
Əzrayıl kimidir.
Əzrayıla can verməz.
Bağrıma daş basdım.
Başı bədəninə ağırlıq edir.
Baxtıva daş atma.
Bir Koroğlu qaldı, bir də Eyvaz.
Camış ... bənzər.
Canımı dişimə tutdum.
Cin vurdu başıma.
Candeyibcaneşidir.
Cəfəri təyyar namazı tək uzandı.
Cəhənnəmidalınaçatıb.
Cütə gedən öküzü gözündən tanıyarlar.
Cırığı başına çıxıb.
Çılpaq quşun yuvasıdır.
Elə söz deyərəm ki, yetişmişlərin tökülər.

Elə bil göz yaşıdır.
Eşşək sudan gəlincə.
Elə bil daşa deyirsən.
Elə bil dovşanı çuvala salıbsan.
Ey ah, ahın düşsün dağlara, daşlara, ölsün qoca qarı, sən min yaşa.
Evdə toyuq, çöldə xoruz.
Əlin qoltuğunda qalsın.
Əlini ağdan qaraya vurmaz.
Əlinin dalısına dağ basmaq.
Əlindən gələni ardına qoyma.
Əlini orağa vermə.
Əmcəyini təndirə yapmaq.
Əli işdə, gözü oynaşda.
Daşını atdım.
Dana tölə mıxını çıxardanda, doqquzunu özünə, birini özgəyə vurar.
Dili varsa, dilçəyi də var.
Dəvə buynuz axtarırdı, qulağını da itirdi.
"Dəvə" deməkdən dilim tük çıxartdı.
Dəliyəm, dələcəyəm.
Dişimin dibindən çıxanı dedim.
Fələkdən bir gün oğurladım.
Gönü suya verib.
Gözünün qurdunu almışam.
Gözlərini otarır.
Günün bacada, suyun kuzədə.
Günortadan sonra adam olanlar.
Gözünün qorasını sıxma.
Gecə qurdu.
Gözünü dörd aç.
Haca gedən gəldi, saca gedən gəlmədi.
Hamını qurd yedi, bizim kimin tükü dağılan olmadı.
Hayı gedib, vayı qalıb.
Hər göldən bir qurbağa tutub.
Xəmir belə su aparır.
Xoruz səsini eşitdim.
Xoruzlanma.

İp qırılmaz, can çıxar.
Külək həmməşə bir tərəfə əsməz.
Qulaq kəsəndir.
Qan-qan deyir.
Qanına susayır.
Qatı açılıb.
Qıl keçməyən yerdən qarpız soxmaq.
Qurd dedik, qulağı çıxdı.
Qurd ürəyi var.
Qulağı tüklü.
Qulağın qarnı yoxdur ki, söz ilə doysun.
Qurd ilə qiyamata qalma.
Qurdunan qiyamata qaldıq.
Qan qaralıb.
Quş pişirir.
Mən buranın çəmini deyərəm.
Məni boğaza yığdı.
Mərənd ölüsüdür.
Nə sən sor, nə mən söyləyim.
Nə başdır, nə ayaq.
Papağın fırlat, yaz gəlir.
O, anasının əmcəyini kəsəndir.
Onun ağzının yemidir.
Onda alacağı yox, beşdə verəcəyi.
Onun sidiyidə mudardır.
Suya girdi, quru çıxdı.
Tapmış kimi oldum.
Tərs damarına düşmüş.
Tikəsini kimdən tutub?
Torpaq çəkər.
Top kimidir.
Torbada pişik var.
Uduzub çuluna oynur.
Ürəyi daşdandır.
Yeddi göydə bir ulduzu yox.
Yoxuşa sürmə.

## DAŞLAR, MUNCUQLAR

***Yusurı*** (yüsürü):

Zəriş rəngində bir muncuqdur. Bu muncuq nəfəs (nəzər) dəydikcə parçalanır, ancaq daş, nəzər uşağın üstündən götürüləndən sonra düzələr.

**Pazhrı** (pazəhri):

Mısır rəngindədir. Gunəşin işığı altında parıldayıb, nəzərə belə gələr ki, içində narın-narın ulduzlar var. Unu daşıyan adama guz (nəzər) dəydikcə əriyib, kiçilər.

**Güz mıncığı** (göz mıncıqı):

Qara və ağ rənglərdə ular. Unu daşıyan adama guz (nəzər) dəysə, aradan iki bölünər.

**Şəvə:**

Zil qara rəngində ular və unu daşıyan adamı qərə basmaz. Bu daşın hamilə xanımlar tərfindən daşınmağı çox yaxşıdır.

**Güyərtmə (**göyərtmə):

Güy rəngində ular. Unu uşaq ustünə aparmazlar, aparsalar uşaq məriz ular. Bu mərizəligin dərmanı güyərtməni qaynadıb uşağa içırtməkdir.

*İzahı 1:* sudamər uşaqlara aid olan " quş vurma" adında bir naxuşluq vardır. "Quş vuran" uşağın damağında ağa çalan bir yara ular və bu səbəbdən sud əmə bilməz. Bu naxuşluğu tutan qız uşaqlarının dırnaqları güyərir, uğlan uşaqlarınında d...! Uşaqların ağızlarındakı yaranı bir ignə ilə dəlib, güyərtəmə daşını yaranın yerinə surtub, beləliklə uşağı dərman edərlər. Bu iş gürülməsə, uşaq ulər.

*İzah 2:* Uşaq tək qalırsa, ya da unun ustünə güyərtmə gətirsələr, uşaq naxuşlayar. Dərman üçün güyərtəməni uğlan, ya da qız uşağının qıçının arasına sürtüb unu dərman edərlər.

**Əqiq**:

Narınc rəngində ular. Çox dəyərli ulduğuna gürə, uşağın paltarına asarlar. Bu daş indi də üzük qaşında işlənir və tuylarda gəlinə tühfə edilər.

**Sarılıq** (sarılıq):

Sarılığı daşıyan uşağa nəfəs (nəzər) dəydikcə, bu daş əriyər. Bu daşınan qədim sarılığı olan uşaqları dərman edərmişlər, belə ki, sarılıq daşını ayrı bir daşa sürtüb, unun xırdalarını barmaq ilə uşağın damağına sürtərdilər.

**Güy mıncıq** (göymıncıq):

Uşağı bədənzərdən quruyan bir daşdır.

**Baba qulu** (Babaqulu):

Bu daş, üzərində daşıyanı nəzərdən quruyar (nəzər gütürməz). Mısı rəngində və çox saf ular.

**Süleymani:**

Buz rəngində bir daşdır və uşağı bəd nəzərdən quruyar.

**Qan mıncığı** (qanmıncığı):

Duğan xanımın qanaması kəsilməsə, bu daşı unun əlinə verərlər, beləliklə də unun qanaması kəsilər.

**Al qulağı** (Alqulağı):

Xanım uşaqdan rəd olandan sonra tuxanma ular (urəyi xərab ular). Bu daşı unun başı üstə quyub, ya da əlinə verəllər, beləliklə də bu yaxşılaşar.

**Sancı mıncığı** (sancı mıncığı):

Xanım uşaqdan qurtulanda, ya uşağı olanda, sancısı ular. Bu daşı unun əlinə verib və sancısını kəsərlər.

## XALQ TƏBABƏTİ

**At alması** – At alması bir növ meyvədir, döyərlər, ishal üçün faydalıdır. Kökünü qaynadarlar, böyrək daşı ulsa əridib salar.

**Ardıc** – Ardıc bir növ ağacdır. Dəmlərlər göz ağrıya və suyu it dirsəyinə xeyirdir.

**Albalı sayağı** – Albalı sayağı dəmlənər, sancıya xeyirdir.

**Ayır (əgir) Əyir** – Ayır dağlarda bitən bir bitgidir ki, yayın axır ayında (şəhərivərdə) bitər. Bu bitginin baş tərfində olan tuxumlarından neçə sayaq faydalanmaq ular. Kürpə uşaq sancılanırsa, ayırın tuxumun bir tikə parçanın arsına bükübü, bir qabda uşağın anasının südüylə isladarlar. Ayır südü canına çəkəndən sonra parçanı südün içından çıxardıb qabdakı südü eşigə atıb, parçanı sıxarlar. Undan çıxan südü uşağa içirdib, unun qarın ağrısını dərman edərlər. Buyuk adamlar da bu tuxumları ağızlarında çeynəyib, qarın sancılarını unla dərman edərlər. Deməliyik ki, ayırın tuxumları çox şirin ular.

**Avəlik // Əvlik** – Bu utu zuğlu-zuğlu dəmləyib, mədə və bədən ağrısı olan adama verərlər. Bu utun tuxumunu bir qabda yandırıb, tüstüsünü, canı səpən adamın səpgilərinə tutarlar. Səpgilərin başları qaralıb, dərman ular. Habelə, bu utun tüstüsü çox pışaba gedən adama da faydası var.

**Babənək gülü** – Babənək gülü sancı, sinə ağrısı və buğaz gəlməhsinə xeyirdir.

**Batbat kökü** – Batbat kökün furmalarda həb kimi qayırarlar. Duğmaq istəhməhin qadınlar qabaqdan məsərf edərlər. Duğmanın qabağın alar.

**Bağa sümüyü** – Bağa sümüyü tusbağa sümüyünü döyərlər, at yarasını sağaldar.

**Baldırqan dəhni** – Baldırqan dəhni sarımsaqla qaynadarlar, adamı tərləhdər. Qulunca xeyirdir.

**Beş barmaq** – Beş barmağabeş yarpaq da deyirlər, bütün yaralar üçün xeyirdir.

**Bəzərək yağı**

Bəzərəyin yağı adət ulan qadınlara xeyirlidir.

**Bənövşə gülü** – Bənövşə gülü göz damarlarına xeyirdir, güclənədirir.

**Biləlik** – Biləlik kulda ular, yumuru-yumuru, xırda-xırda ular. Göbəgi düşənə xeyirdir.

**Bızuşa // Bizovşa** – Bızuşanın narın tuxumlarını quvurarlar, nabatılə dəmləyib, ishalı olan adama verib unu dərman edərlər.

**Buruq otu** – Buruq otu bel ağrısına dərmandır. Qaynadıb parça üstə yaxarlar, belə bağlarlar tuxtadar.

**Buğanaq** – Buğanaq tikanlı utdur, tər çağında yeyilsə urəgi güclü edər.

**Bulaq otu** – Bulaq otu duğan arvadlara bir şeydən irgənsə, bir yeri şişsə xeyirdir. Bulaq otu qərə yataqlığa və başqa dərdlərə dərmandır.

**Bulum** – Bulum bulum dörd parça ulur, içərisi dulu dəhn ulur. Suyun sıxasan sinhəzitə xeyirdir.

**Boyaq otu** – Boyaq otu unun kökü yumurta sarısı ilə birlikdə qul-qıç sınığına xeyirdir.

**Buyma dərən** – Buyma dərən bütün bədəndəki yelləri aradan aparar. Sancıya xeyirdir.

**Burmadərən** – Bu utu kiçik vaqtı şurbaya vurarlar. Böyüyüb, yetişəndən sonra, dərib qurudarlar. Unun dəmlənmişi acı ular və zəhərlənən adama faydadır.

**Cacıx // Cacıq** – Bu utu suda qaynadıb, qaynayandan sonra tılıfını sudan ayırıb, suyunu içib, ya da aşa vurarlar. Tifilinidə bədənin sancı eləyən yerlərinə düşərlər.

**Cəfəri** – Cəfəri qanı çuxaldar, quxu və ayıləri aradan aparar.

**Cırcır** – Cırcır gəvən gülü  sancı üçün xeyirlidir.

**Çöl bəzərəgi** – Çöl çöl bəzərəgi mədə yelini aradan aparar.

**Çilə dağ** – Çilə dağ (çilə daq) qüyərüq yağıyla birgə döyüb, irı bitən sınıq sumuyun sındığı yerə bağlarlar. Düyünü əridər.

**Çərtdən quşu** – Çərtdən quşu yayın ol ayında gül verən bir bitgidir. Birinin guzundə ağrısı olsa, ya da güzünə bir zad dəyib güzü qızarsa ya büzəglə çərtdən qoşunun güllərindən bir az qaba tukub, sonra unların ustünə bir qız uşağına süd verən xanı-

mın südündən sağıb quyarlar islansın. Sonra unu salarlar güzə güzün buzun aradan aparar, bir də kəsilən yaraya çox faydalıdı.

**Erkək çarşudu** – Erkək çarşudun dəni dəmliyib içərlər, bədən giziltisinə və əsaba xeyirdir.

**Ərik ağacının kitirgəsi** – Ərik ağacının kitirgəsi diş ağrısına xeyirdir.

**Əmə köməhci** – Əmə köməhcinidüyü ilə yesən canı yumuşaldar.

**Dağ Mərzəsi** – İstilik və bahar fəslində bitər. Unun dəmləməsi mədə sancısına faydadır, küftə tərəsinə də qatarlar. Unu qaynadıb suyu ilə hənanı (xınanı) isladarlar. Bu hənanı qul-qıçın sancı elədigi yerlərə quyub, sancını dərman edərlər. Şah tərəsi istılikdir, buna görə də süyüqəlüq eləyən adamın sancısı olsa, unu dəmlərlər, ya da unu quymağa vurarlar, sancını aradan aparar.

**Daş gülü** – Daş gülü daşda bitər, qaynadarlar içərlər, bel dıskı xəstəliyinə xeyirdir.

**Dağ xaşxaşı** – Dağ xaşxaşı büzmə qabı ulur, içində narın dəhnələri ulur. Qabını döyərlər şəkərlə və südlə qarışdırıb körpə uşağa verərlər. Uşağı sağlam edər, vaxtında yatar.

**Dağ nanəsi** – Dağ nanəsi dəmlərlər mədənin köpünü alar.

**Damarca** – Damarca uzun və dəhnəli ulur. Dəmlərlər urək ağrısına və yaraya xeyirli ulur.

**Gavi gülü** – Gavı gülü qanı duruldar, başda uç gülü ulur, Suda dəmlərlər.

**Gəzənə** – Gəzənə narın tıkan, ot pəlüovüla yeyərlər. Mədəyə və urəgə xeyirdir.

**Göbələk** – Göbələk mədə ağrıyanda tuxtadar.

**Göy atın südü** – Göy atın sütü lalabənd utu və sarı gül ki, gıldık tikanı kimi ulur və ilan qabığını bu sütdə qaynasa it saratanına xeyirdir, unu aradan aparar.

**Günəbaxan otu** – Günəbaxan otu enli yarpaqları ular, aşla pişə urək ağrısına və yaraya xeyirdir.

**Gəvən kitirgəsi** – Gəvən kitirgəsi yumurta sarısı ilə birgə baş tükünə və baş dərisinə xeyirdir.

**Göyərçin qanadı** – Göyərçin qanadı suyun tutarlar, gözə qan dulanda göz pərdəsinə xeyirdir.

**Girdəkan** – Girdəkanı qaynadıb başı yuyarlar, tükün töhülməsinin qabağın alar. Tükün bitməsinə xeyirdir.

**Gildik** – Gildik kətəhlli (qabıqlı) gülü ular, içində iri dənli, dəmlərlər urəkdə ləkələrə xeyirdir. Dəhni ilə yeyələr. Mədəyə dərmanıdır.

**Hov yarpağı** – Hov yarpağı unun dəhnini kərə ilə qatıb yeyələr. Nənə kalasından uşaqda qurd ulsa dəfə elər. Yaranı sağaldar və çirki aradan aparar.

**Həvə-cüvə** – Hüvə-cüvə çəmən utuna uxşar, yer kökü zuğuna uxşar, zuğu ular. Suda qalsa qan kimi ular. Ağır yaralara vursan qanını qurudar.

**Xuruz budu // Xoruz Budu** – Bu ut bahar fəslində bitər və unun qaynanmışı qarın və bağırsaqları yumuşadar.

**Xətəmi gülü** – Xətəmi gülü bədəni çirklərdən təmizlər. Suyuq diməhdə sinəni yumuşaldar.

**Xəşə otu** – Xəşə otu heyvanı kökəldər.

**İydə ağacının qabığı** – İydə ağacının qabığı bədəndə şişən bir uzuun ustünə bağlasalar, sağaldar.

**Kasnı** – Kasni (göy çırtıq) qızdırmaya xeyirdir. Qanı təmizlər, böyrək və dalaq üçündür.

**Kasıb noxudu** – Kasıb noxudu dalaq, rumatism və böyrək daşlarına və qan azlığına və vərm üçün dərmandır. Böyrək və məsənə üçün dərmandır.

**Kəndir gəvənin kökü** – Kəndir gəvənin kökünün bir il qabaqdan dərilmişini və bir il qazılan süpürgə otu və suğan qabığını qaynadıb suyunu duğmayan qadınlara versən xeyirdir.

**Kəklik otu** – Kəhlik otu dəmlərlər, suyuq dəyməni iç zigillərini aradan aparar.

**Quş əbəbəgi** – Bir adamın sinəsi ağrısa, quş əbəbəgini qaynadıb və unun pıçılqanlı suyunu una içirdib unu dərman edərlər.

**Qapaqlıca** – Qapaqlıcanı isladıb içərlər, bağırsaqları yumuşaldar.

**Qara bəzərək** – Qara bəzərək arıq ulanlara xeyirdir və səs tutulmaya və buğaz qurumasına dərmandır.

**Qarnı yarıq** – Qarnı yarıq kəsilənyara yerinə suyu vursan, qanı qurudar, sağaldar.

**Qaz ayağı** – Qaz ayağı iştaha açandır, qanı təmizlər, böyrəkləri təmizlər.

**Qalqan südü** – *(farsca adı: kəngər, elmi adı: Circium)*

Qalqan qamış kimi sulu yerdə bitən bir bitgidir. Qalqanların ən böyüklərini oradan sındırıb ikı gün gözlərlər. Qalqanın sındığı yerdən südə bənzər bir maddə çıxar. Bu maddəni saqqız kimi çeynərlər. Bu saqqız (şirə) dişlərin hərnə sarısı, ya kehərəsi varsa aradan qaldırıb, dişlərin dibini də bərkidər.

**Qərə ağac** – Qərə ağac qabığın qaynadıb suyu ilə xəmir eləsən çıban və yara üstünə qoysan çirki alar.

**Qərə şəngi** – Qərə şənginqaynadarlar, gün yanığına, keçəlligə və tökülməyə xeyirdir. Adət ulan xanımlara xeyirdir.

**Qərə gəvən kitirgəsi** – Qərə gəvən kitirgəsi ilikləri gücəlnədirir, urəgin bəndini yuğunladar.

**Qərəgilə meyvəsi** – Qərə gilə meyvəsi qanı təmizlər, ağacı uzun ular.

**Qəşəngi** – Qəşəngi çirkləri aradan aparmaq üçün xeyirlidir. Qaynadıb suyunu içərlər. Bədənin iç quxuların aparar.

**Qəmiş** – Qəmiş mal heyvanın bədənində çırk ulsa təmizlər.

**Quşüzümü** – Quşüzümü kurk ağrısı üçün xeyirlidir, qanı təmizlər.

**Quş qonmaz** – Quş qonmaz bir tıkanlı otdur, yandırıb külünü yanıq yaraya quyarlar, sağaldar.

**Qılınc otu** – Qılınc otu qatıqla qaynadarlar bavasilə xeyirdir. Heyvan ayarasına qurd düşsə dərman edər.

**Lalabənd** – Lalabənd dağda bitər, gülünü dəmlərlər. Ağız quxusuna dərmandır, ağzı sulandırar, quruyan ağzı sulandırar.

**Məni yaddan çıxarma** – Məni yaddan çıxarma və ya gav zəban, dalaq və böyrək daşı üçün, buğaz ağrıya xeyirdir.

**Miram noxudu** – Miram noxudu dənin qaynadarlar, urək ağrısına xeyirlidir.

**Mısım ağacının qabığı** – Mısım ağacının qabığı və yarpağını qaynadıb içərlər, böyrəgə dərmandır.

**Nana** – Nanə mədə üçün xeyirlidir.

**Nanə** – Suda becərilən nanə qulunc və ayrılar üçün xeyirlidir.

**Novruz gülü** – Novruz gülü dəmlərlər, süt əmər uşaq qusanda içirdərlər, xeyirli ular.

**Pinti gəvə** – Pinti gəvəninin gülü təngi nəfəs üçün faydalıdır.

**Səhlab otu** – Səhlab otu kökünü döyüb yesən ösgürmə başqa dərdlərə xeyirdir.

**Somurqan** – Somurqan uca, narın tüklu ulur. Ağ və sarı rəngdə gülləri ulur. Uçlərində şirin su ulur. Urəgi güclü edər.

**Söyüd yarpağı** – Söyüd yarpağı uşaq həsbəhsinə xeyirdir. Uşağı söyüd yarğaında yatırdarlar.

**Siyri quyruğu** – Siyri quyruğyu gülü qurudub dəmlərlər. Yüz dərdə dərmandır.

**Süpürgə** – Süpürgə qurban ayında acarlısan zigilə çəkərlər, yaxşı edər və yandırasan heyvan əmgəci gəlsə qaytarar.

**Sütdüyən** – Sütdüyən bir utdur yaraya xeyirdir.

**Şahbizək** – Şahbizək və ya bala dun (baladon) qarın ağrısına, qulunc və dalaq və qərə ösgürəgə dərmandır.

**Şah tərə** – Şah tərə qanı təmizlər. Dalağı işə salar, bədən ağırlaşanda xeyirdir. Mədəni tuxtadar. Şah tərəsi dəmlərlər, xına ilə başa yaxarlar, dərini və tükü yaxşı saxlar. Mədəyə düşsə tuxtadar.

**Şüvərən** – Şüvərən qızdırmanı alar, əsəbləri tuxtadar, yumuşaqlıdır.

**Şirin biyan** – Şirin biyan mədə ağrısına və mədə yarasına xeyirdir. Qulunc ağrısına dərmandır.

**Şirin gilə** – Şirin gilə sütünü saqqız edərlər. Dişlərə xeyirdir.

**Südədüin** – Südədüin çəşəmbələrin qırağında bitən bir bitgidir və bu bitginin gözəl xasıtı var. Bu ut ortadan qırılsa, qırılan yerdən südə uxşar bir maddə çıxar. Bu südə uxşar maddəni suyun özünə damızanda suyun uzu pərçəm kimi al-əlvan ular. Sonra hər nə tuz-torpaq suyun özündə olsa, məhlul ulub və su göz yaşı kimi durular.

**Şüvərən // Şüvərən** – Şüvərəni suda nabatıla dəmləyib qızdırmanı ya, xüşəgiti olan adama içirdib, unu dərman edərlər.

**Söyüd yarpağı** – *(farsça adı: bid, elmi adı: Salix)*

Söyüd ağacının tər-taza çixmiş yarpaqların dərib bir uvuc unlardan bir çaydan suda qaynadıb, qızdırması (təbi) olan adamı unla dərman edərlər. Belə ki, u suyu sərinlədib, təbi olan adamın əl-ayağaın unla yuyub qarnını və alnını həmin su ilə yaşadarlar. Beləliklə, adamın qızdırması kəsilər.

**Tank otu** – Tank otu ikı uzun yarpağı ulur, iki yarpağının arasında bir yumuru gülü ulur. Unu aş ilə yeyərlər. Yeməkdən düşənin meylini çuxaldar, iştahanı açar.

**Tərə** – Tərə qarını təmizlər, dərdləri aradan aparar, saralana dərmandır.

**Türpək** – Yarpaqlarını aşa vurarlar. Sarı gülləri ular. Bu güllərin dəmlənmişi mədə sancısına yaxşıdır.

**Türşək** – Türşək qanı təmizlər, ağız ağrısına, buğaz ağrısına və mədəyə xeyirdir.

**Tüklücə** – Tüklücə mədədə ulan qara suyu çölə tökər, sancı üçün xeyirlidir.

**Uşəqün** – Uşəqün qabığının suyu qaş tükünə xeyirdir.

**Üzərlik** – Üzərrik tüstüsü əsab üçün xeyirdir.

**Üvəlik** – Üvələk bədənin köpün alar. Dəri köpüşəgəhində və qaşınanda dəmləyb içərlər. Uvəlik (aş tərəsi) dəhnin dəmləyib içərlər. Titrəməyə dərmandır. qurxan adama içirdərlər.

**Yarpuz** – Yarpuzu dəmlərlər, soyuq dəymə üçün və bütün çirkləri üçün xeyirlidir.

**Yemişan gülü** – Yemişan gülü də məlhəmdir, bütün sancılara xeyirdir. Meyvəsi qara suyu çölə tökər.

**Yol otu** – Yol otu yulun alt və üstündə bitir, pıluva qatarlar. Mədə yarasına və bədən kəsiginə xeyirdir.

**Yonca gülü** – Yonca gülü pıçaq kəssə, döyüb üstünə quyarlar, yaranın qanın qurudar.

**Zəncəfil** – Zəncəfil təzə ulan uşağın yanın çırtarlar zəncfıl quyarlar. Qərə qan gələr, daha bavasır tutmaz. Böyüklər gərk özləri işiyə qaba, sunra uçındə utura, düzələr.

**Zirə küp** – Zirə küp qarın ağrısı üçün faydalıdır. Burundan qan açılsa qurudar.

**Zirinc** – Zirinc yağlı xörk yesən, zirinc yesən rahatlıq gətirər.

## BAYATILAR

Bir gül verdim aldı yar,
Boynuma qol saldı yar.
Düşmən yolumu kəsdi,
Evdə yalqız qaldı yar.

Aşıq səndən hay gəlsin,
Hay gəlsin, haray gəlsin.
Hər gün hayın gəlməsə,
Hər həftə, həray gəlsin.

Nazikin bayatından,
Düşdü bir bay atından.
Oxu aşığım, oxu,
Doymuram bayatından.

Aşığım çal saz incə,
Sazla oxu söz incə.
Sazını elə çal ki,
Cana sinsin sözüncə.

Əzizim, nə çində gəz,
Nə Çinümaçində gəz.
Tanrını axtarırsan?
Ara, öz içində gəz.

Əzizim, adın-sanın,
Parlasın adın-sanın.
Alqış doğru eşqə ki,
İş onun, ad insanın.

Şəməm, haqqı danmaram,
Öz sirrimi qanmaram.
Yanmasam, ərimərəm,
Əriməsəm, yanmaram.

Aşığam qalx ayağa,
Mey doldu, qalx ayağa.
İllər xəstəsi canım,
Yar gəldi, qalx ayağa.

Aşığam, sağı görüm,
Sinəmdə dağı görüm.
Mətləbim yarı görmək,
İşim nə dağı görüm!

Əzizim, atma məni,
Güləm, saraltma məni.
Sən irizayi-xuda,
Yaddan çıxartma məni.

Təpə dağa bənd olur,
Saçları kəmənd olur.
Sən yadıma düşəndə,
Gözlərim rübənd olur.

Bulaq başı lil gəlir,
Dəstə-dəstə qız gəlir.
Neynirəm belə yarı,
İldə-ayda bir gəlir.

Gülümnən,
Bülbülümnən, gülümnən.
Küsdürdüm yola saldım,
Bu lal olmuş dilimnən.

Savalanda yel əsər,
Adamı şaxta kəsər.
Yarın qadasın alım,
Belə yardan kim küsər?

Qapımızdan geşdi yar,
Ağ geyvə geymişdi yar.
Səslədim, səs vermədi,
Elə bil küsmüşdü yar.

Əzizim, qışına bax,
Yaz gedib, qışına bax.
Gözləri can alandır,
Demirəm, qaşına bax.

Eləmi, obaxanı,
El xanı, obaxanı.
Kirpiyim ox eyləyim,
Vurummı obaxanı?

Mişginin üst dağıyam,
Sözlərin müştağıyam.
Qaşın kimi qaş olmaz,
Gözlərin dustağıyam.

Savalanım buz bağlar,
Dövrəsi yarpız bağlar.
Qaş-gözünün şənində,
Aşıq gələr söz bağlar.

Qəribəm ağlaram mən,
Sinəmi dağlaram mən.
Yardan ayrı düşəli,
Başa şal bağlaram mən.
Belədimi qürbət el,
İgid oğul, qürbət el.
Adamı tez qocaldar,
Qərib ölkə, qürbət el.

Yeddi arxa dolandı,
Sular çarxa dolandı.
Düşmən elin gücünnən
Qorxa-qorxa dolandı.

Mən aşiq, yalqızalma,
Ağacda yalqız alma.
Yardan öpüs alanda,
Cüt-cüt al, yalqız alma.

Əzizim, lala yalqız,
Gül solsa, lala yalqız.
Çıxaram dağ başına,
Çəkərəm nala yalqız.

Əzizim, saçı xurma,
Dağ yolu burma-burma.
Küsüb könlün alaram,
Gedib kənarda durma.

Gecəni dan eyləmə,
Saçını yan eyləmə.
Bu küsüb-barışmaqla,
Qəlbimi qan eyləmə.

Əzizim, ara yerdə,
Xəznəni ara yerdə.
Yar yenə bizdən küsüb,
Rəqib var ara yerdə.

Aşıq gələndə sözə,
Simli saz gərək dözə.
Sən kiküsüb getmişdin,
Necə baxaq üz-üzə?

Tamburun teli nazik,
Qol üstə cüt bilərzik.
Yadigara vermişəm,
Qırmızıqaşlı üzük.

Bulaq başı paxla, yar,
Al kəmərin saxla, yar.
Kisə tikdim göndərdim,
Yadigarçin saxla, yar.

Dağlardan bir ün gəlir,
Yaramnan irin gəlir.
Adına nənəm qurban,
Adın nə şirin gəlir.

Savalanın düzündə,
Qoşa xal var üzündə.
Mənim nə günahım var?
Günah sənin özündə.

Dağları aşan mənəm,
Hörüyü kaşan mənəm,
Ərim çirkin, mən gözəl,
Ölsəm də boşanmanam.

Başı dingəli gəlin,
Yanı yengəli gəlin.
Görüm göyçək üzünü,
En aşağı, mən gəlim.

O tay-bu tay Həkəri,
Oğlun yeyər şəkəri.
Eləsinə gedərəm,
Bəylər olar nökəri.

Mən aşıq, demə barı,
Vay əkdim, demə barı.
Sirrimi gizlin saxla,
Düşmənə demə barı.

Dağ başın dolu gözlər,
Sağ gedən solu gözlər.
Günlər keçər, il dönər,
Yar-qohum yolu gözlər.

Göy bulud, dəniz ayaz.
Dərdini bilənə yaz.
Bir günə möhlət verdi,
Nə qış gəldi, nə də yaz.

Çalmanı başa çaldı,
Göz üstən qaşa çaldı.
Vəfasızı mən sevdim,
Ömürüm daşa çaldı.

Təndir üstü kösövlar,
Kösöv yanar, his olar.
Neynərəm özgəsini,
Yarım mənə bəs olar.

Mən aşığam, vay qanlı,
Vay qaralı, vay qanlı.
Öldürəsən cananı,
Adın qalar vayqanlı.

Mən aşıq, boz dağları,
Bürünüb toz dağları.
Əlin əlimə versən,
Aşaram tez dağları.

Əzizim, mələr, gəli,
Sel dağı dələr, gəli.
Bir can bir canı sevsə,
Gecəni bölər, gəli.

Bağçanı, barı bölləm,
Heyvanı, narı bölləm.
Sevinci verrəm sənə,
Qəmini yarı bölləm.

Ağacda püstə mənəm,
Çiçəkdən dəstə mənəm.
Sevgilimi versələr,
Behişti istəmənəm.

Əziziyəm, gümüşdən,
Beldə kəmər gümüşdən.
Sən mənimsən, mən sənin,
Kim baş açar bu işdən?

Boz atın yolla, gəlsin,
Ayağın nalla, gəlsin.
Dünya malın istəməm,
Yarımı yolla, gəlsin.

Ay qız, məni bəndə vur,
Saçında kəməndə vur.
Yaxşı olsam, qul eylə,
Yaman olsam, bəndə vur.

Dağların çisginində,
Dumanlı çisginində.
El gəlsin harayıma
Halımın pis günündə.

Bu yoldan ötənə bax,
Köynəyi kətana bax.
Qurbətdə gözün açma,
Açanda vətənə bax.

Bu yol yaylaq yoludur,
Qız-gəlinlə doludur.
Bulaqdan gələn qızın
Cınqırası doludur.

Sənə yaralı qurban,
Könlü qaralı qurban.
Sənin təzə yarana,
Köhnə yaralı qurban.

Yaradan var, yaradan,
Yeri-göyü yaradan.
Təbib, sən məndən əl çək,
Məndə var hər yaradan.

Əzizim, gülə yandım,
Bir şirin dilə yandım.
Kərəm ağladı, yandı,
Mən gülə-gülə yandım.

Mənim yarım Xoyludur,
Özü uca boyludur.
Allahıma min şükür,
Əsli-nəsli soyludur.

Bu dağlar daşdan olmaz,
Hər üzük qaşdan olmaz.
Araz, çox da öyünmə,
Qardaşqardaşdan olmaz.

Qara atı yağlaram,
Gül ağaca bağlaram.
Sevdiyimə getməsəm,
Gecə-gündüz ağlaram.

Yasdığım daşım oldu,
Sızlayan başım oldu.
Mənə təsəlli verən,
Bircə göz yaşım oldu.

Ağ almanı dişlərəm,
Yanların gümüşlərəm.
Qardaş gəlsə, vermərəm,
Yar gəlsə, bağışlaram.

Həşəmdi, ay həşəmdi,
Gül xırmanda döşəndi.
Küsmüsən, könlün allam,
Könül açmaq peşəmdi.

Araz başdan bulanmaz,
Keçər daşdan, bulanmaz.
İki həsrət qovuşsa,
Suyu yaşdan bulanmaz.

Əzizim, Diri dağı,
Duman gəl bürü dağı.
Tanrı bir körpü salıb,
Arxası diri dağı.

Aşıq, gecədən gedər,
Karvan gecədən gedər.
Gecə uzun, həmdəm yox,
Zəhləm gecədən gedər.

Aşıq, yaralı bilər,
Eldən aralı bilər.
Gecənin uzunluğun,
Canı yaralı bilər.

Əlimdə maşa qaldı,
Vurmadım daşa qaldı.
Mən sevdim, yad apardı,
Mənə tamaşa qaldı.

Aman amana qaldı,
Halım yamana qaldı.
Yarımın üzün görmək
Axır zamana qaldı.

Dərya səndən, sal məndən,
Yaşıl səndən, al məndən.
Fələk zülmün bəs eylə,
Gəl, bu canı al məndən.

Lələ mənəm, lələ mən,
Yük altdayam hələ mən.
Fələk çəkdirən dağı,
Gəzdirirəm hələ mən.

Əziziyəm, yaralar,
Yar könlünü yar, alar.
Fələk qəlbimə vurub,
Sağalmayan yaralar.

Əzizim, yar bağına,
Baxmaram yar bağına.
Bütün dərdə dözərəm,
Dözmərəm yar dağına.

Əzizim, gözəl maya,
Çəkmişəm gözəl maya.
Əsrəmiş nər öldürdün,
Qanlısan, gözəl maya.

Gəl gedək bizim yerə,
Salxımı düzüm yerə.
Saralıbdır kəfənim,
Yapışıb üzüm yerə.

Bir at mindim başı yox,
Bir çay keçdim daşı yox.
Bacım ölüb, ay ellər,
Yanında qardaşı yox.

Xəstəyəm, loğmanım yox,
Dərdliyəm, dərmanım yox.
Xəzan vurub bağımı,
Bağımda bağbanım yox.

Mən aşıq, üzümüm yox,
Bağım var, üzümüm yox.
Qəbrində bir yer eylə,
Sənsiz heç dözümüm yox.

Dağları qacal aldı,
Ovçular macal aldı.
Bir yanım qərib ölkə,
Bir yanım əcəl aldı.

Gəl məni fağır ağla,
Ağırdır, ağırağla.
Çıx el gələn yollara,
Adımı çağır ağla.

Çərşənbə çay içində,
Ox atdım yay içində.
Tanrı muradın versin,
Bu gələn ay içində.

Mədrəsənin qızları,
Çopur-çopur üzləri.
Nə molla var, nə keşiş,
Kəbin kəsər özləri.

Əzizim, bala dərdim,
Qarışıb bala dərdim.
Qoşdum qəm cütlərini,
Dərd əkdim, bəla dərdim.

Yar gözündən,
Al sürmə yar gözündən.
Adam dövlətdən düşsün,
Düşməsin yar gözündən.

Gedərlər oraq ilən,
Bir dəstə yaraq ilən.
Telə sığal çəkərlər,
Əlində daraq ilən.

Dağ döşündə yol durar,
Su axmasa, göl durar.
Xoş gün ömür dayağı,
Qəm gələr balta vurar.

Mənaşıq, gözəl oxlar,
Tutubdur gözəl oxlar.
Çirkin oxlaya bilməz,
Oxlasa, gözəl oxlar.

Bulandı göz yuvası,
Ağızdır söz yuvası.
Hər kim yuva dağıdır,
Dağılsın öz yuvası.

O dağlar səksəndi, sər,
Bəs etməz səksəndi sər.
Duydu qara qayğını,
Əl qoxdu, səksəndi, sər.

Dərd birkən hezar oldu,
Can dönməz, bezar oldu.
Bir yaradır, min yerdən
Al qanım sızar oldu.

Samovarım quruldu,
İçində su duruldu.
Köhnə yaram üstünə
Təzə yara vuruldu.

Dəyirman belə işlər,
Tərs işlər, belə işlər.
Heç kafirin başına,
Gəlməsin belə işlər.

Əzizim, topal at,
Dərə xəlvət, topal at.
Kişini candan eylər
Yatağan arvad, topal at.

Əzizim, bala dadı,
Bal dadı baladadı.
Dünyada danə dad var,
Hamisi bala dadı.

Əzizim, qəlbiləndi,
Ay doğdu, qəlbiləndi.
And içirəm, qəsəm olsun,
Bu qəlbim o qəlbiləndi.

Əzizim, məzələndi,
Mey içdi, məzələndi.
Vəfalı dostu gördüm,
Ömürüm təzələndi.

Əzizim, gözəl ayaz,
Meh sərin, gözəl ayaz.
Çirkini çirkinə de,
Gözəli gözələ yaz.

Əziziyəm, gül əllər,
Nazik əllər, gül əllər.
Dəryacan ağlın olsa,
Yoxsul olsan, güləllər.

Əlində var bardağı,
Doldurubdur gül bağı.
Kimsənin başa qədər
Yanmayıbdır çırağı.

Eləmi yandırınca,
Ocağı yandırınca,
Qananda can qalmadı
Qanmazıqandırınca.

Əziziyəm, min qana,
Arif mətləb min qana.
Bircə ürək yıxarsan,
Əvəz olar min qana.

Dağların təzə qarı,
Yağıbdır təzə qarı.
Arvadıpis olanın,
Saqqalı tez ağarı.

Mən aşıq, gülən gərək,
Göz yaşın silən gərək.
Nə var-dövlət, nə calal,
Bir qədrin bilən gərək.

Əziziyəm, hisə dam,
Bürünübdür hisə dam.
Hal əhli qocalmazdı,
Olmasaydı pis adam.

Dağdan aşıb gələnin,
Qanı coşub gələnin.
Dünyada nə dərdi var,
Halallaşıb ölənin.

Gəmi yükün yan çəkər,
Zəli sorar, qan çəkər.
Yaxşı gündə dost-aşna,
Yaman gündə can çəkər.

Əzizim, sərin eylər,
Yel əsər, sərin eylər.
Şit söhbət, şit zarafat,
Dostluğu sərin eylər.

Ay çıxar uzaq düşər,
Şam yanar, çıraq düşər.
Yar gözündən düşənlər,
Könüldən iraq düşər.

Sugələr düzə baxmaz,
Gözlərim gözə baxmaz.
Yarını candan sevən,
Hər deyən sözə baxmaz.

Bağçanın üstü olmaz,
Ocaqsız tüstü olmaz.
Dostdan düşmən tapılmaz,
Düşmənin dostu olmaz.

Aşıq yad olar gedər,
Xalı yad olar gedər.
Göz görməyə-görməyə,
Könül yad olar gedər.

Gözlərim yaş iləndir,
Ömürüm yaş iləndir.
Uzaq yollar möhnəti,
Yaxşı yoldaş iləndir.

Mən aşıq başqasına,
Sirr vermə başqasına.
Gəl yerimə yiyə dur,
Tapşırma başqasına.

Əzizim, qızıl alma,
Rəflərə düzül alma.
Çirkin al, saleh olsun,
Bədəsil gözəl alma.

Bir gül aldım o xandan,
Alıb saldım yaxandan.
Bir lal axan sudan qorx,
Bir də yerə baxandan.

Əzizim, bad apardı,
Yel əsdi, bad apardı.
Namərd bir iş işlədi,
Mən sevdim, yad apardı.

Əziziyəm, yüz yalvar,
Yüz bələd var, yüz yol var.
Namərddə səxa olmaz,
Yüz ətəklə, yüz yalvar.

Mən aşıq arxa vermə,
Bu suyu arxa vermə.
Yüz il arxasız qalsan,
Namərdə arxa vermə.

Əzizim, zülfü qara,
Qaş qara, zülfü qara.
Balamı məndən alan,
Tez gəlsin zülfüqara.

Yaz gedib, qış olaydı,
Qaş, gözə tuş olaydı.
Düşmən dili tutulsun,
Dost deyən iş olaydı.

Mən aşıq, bağa belə,
Bağçaya, bağa belə.
Sən duman ol, mən leysan,
Çəkilək dağa belə.

Başında qara çalma,
Yelənin yerə salma.
Gün gedir, ömür gedir,
Gəl məndən kənar olma.

Ağ at gəlir yenişdən,
Sinəbəndi gümüşdən.
Bilsəydim gedərgisən,
Öpərdim gözlərindən.

Aşığam, aşina bax,
Dağların qaşına bax.
Gec sevdim, tez ayrıldım,
Fələyin işinə bax.

Tükandan səngək aldım,
Yarısın yolda saldım.
Evim onda yıxıldı,
Yardan uzaqda qaldım.

Ox getdi, qaldı yayım,
Göyə qalxdı harayım.
Nəsibim ayrılıqdır,
Qismətdə yoxdur payım.

Yaralı bir qoçam mən,
Yaram qoymur qaçam mən.
Tapmıram bir dalda yer
Yaralarım açam mən.

Bu bağda bülbül ağlar,
Bülbül ağlar, gül ağlar.
Ürək ki qana döndü,
Hər nə desən gül, ağlar.

Ərbab yendi maşından,
Keçdi gül arasından.
İlməksalan sevgilim,
Öldü döş yarasından.

Əzizim, o ləngınə,
İğidin o, ləngınə.
Ürəyində kin olan,
Göz tikər ölən günə.

Əzizim, günü günə,
Gəl satma günü günə.
Keçən günə gün çatmaz,
Vurasan günü günə.

Oturdum  xalı üstə,
Xalının gülü üstə.
Neçəsi başın yardı,
Xəsisin malı üstə.

Əziziyəm, nə şax-şax,
Bülbül oxur nə şax-şax.
Nahaq qan yerdə qalmaz,
Nə haq, haqdır, nə şax, şax.

Qış ötüb yenə yazdı,
Pis günün ömrü azdı.
Özgəyə quyu qazan,
Özünə qəbir qazdı.

Əlində var bardağı,
Doldurubdur gül bağı.
Kimsənin başa qədər,
Yanmayıbdır çırağı.

Gəzdim dağı, dağlığı,
Yoxdur onun yağlığı.
Malla dost gedər qalmaz,
Qalar bir can sağlığı.

Ərşə başı,
Ərşə bə-ərşə başı.
Hər gədədən şah olmaz,
Dəysə də ərşə başı.

Əziziyəm, dost aşı,
Dost çörəyi, dost aşı.
Düşmənin gülləsindən,
Yaman olar dost daşı.

Dağların təzə qarı,
Yağıbdır təzə qarı.
Arvadı  pis olanın,
Saqqalı tez ağarı.

Eləmi, yatan qarı,
Dağların yatan qarı.
Kişini tez qocaldar,
Axşamdan yatan qarı.

Əzizim, nə tarazı,
Nə daş var, nə tarazı.
Kişini tez qocaldar,
Arvadın natarazı.

Mən aşıq, gülən gərək,
Göz yaşın silən gərək.
Nə var-dövlət, nə calal,
Bir qədrin bilən gərək.

İstər gül,
Bülbül ağlar, istər gül.
Həyatın sonu ölüm,
İstər ağla, istər gül.

Əziziyəm, hisə dam,
Bürünübdür hisə dam.
Hal əhli qocalmazdı,
Olmasaydı pis adam.

Əzizim, barsız adam,
Heyvasız, narsız adam.
Qalaysız qaba bənzər,
Dünyada yarsız adam.

Eləmi, yandırınca,
Ocağı yandırınca.
Qananda can qalmadı,
Qanmazı qandırınca.

Mən aşıq, bir ustada,
Dür kimi dür ustada.
Dost odur öz dostunun,
Çörəyin dürüst dada.

Əziziyəm, ay ağa,
Salma məni ayağa.
Dost baxsa başa baxar,
Düşmən baxar ayağa.

Mən aşıq, azadam da
Qulam da, azadam da,
Mal olar çox adamda,
Adamlıq az, adamda.

Əzizim, gözü yolda,
Güllərim soldu kolda.
Qeyrət, namus yaxşıdır,
Həm qızda, həm oğulda.

Əziziyəm, min qana,
Arif mətləb min qana.
Bircə ürək yıxarsan,
Əvəz olar min qana.

Əziziyəm, Qorğan-a,
Bu yol gedir Qorğan-a.
Gözəl, namus-arını,
Özü gərək gorğana.

Mən aşıq, bilən olsa,
Qədrini bilən olsa,
Dilli kəs çox danışmaz,
Qulaq səs verən olsa.

Arif odur söz qana,
Söz anlaya, söz qana.
Yüz min tülkü yığılsa,
Neynəyər bir aslana?

Əzizim bir-bir sana,
Qoy verim bir-bir sana.
Bir elm, bir de sənət,
Xəzinədir insana.

Aşıq gedər hər yana,
Sözün deyər mərdana.
Hər qaş-gözü, him-cimi,
Arif gərəkdir qana.

Bu çayda başdan başa,
Su dəyər daşdan daşa.
Fikir qalar zay olar,
Köçməsə başdan, başa.

Əzizim, dağda lala,
Bənzər gül üzdə xala.
Aşıqda hümmət olsa,
Çox tez yetər vusala.

Şurandan bar olmayıb,
Heyvadan nar olmayıb.
Əyri bitən söyüddən,
Uca çinar olmayıb.

Əzizim, günü günə,
Gəl satma günü günə.
Keçən günə gün çatmaz,
Vurasan günü günə.

Ucadır bizim qala,
Dərd getməz yüz il qala.
Bədəsil, əsil olmaz,
Boyunca qızıl qala.

Əzizim, aman gündə,
Boynumda yaman kündə.
Dost kimdir? Düşmən kimdir?
Tanına yaman gündə.

Əziziyəm, bu yara,
Gedər qalmaz bu yara.
Yada dost demək olmaz,
Dost hara, düşmən hara.

Beçarayam, beçara,
Beçaraya nə çara?
Ət iylənsə duz səpin,
Duz iylənsə nə çara?

Dağların təzə qarı,
Yağıbdır təzə qarı.
Arvadı pis olanın,
Saqqalı tez ağarı.

Əzizim, hər divana,
Ayaq qoy nərdivana.
Zər qədrin zərgər bilər,
Nə bilər hər divana.

Aşıq, qan ara yerdə,
Xallar-qan, ara yerdə.
Yer şahiddir, göy şahid,
Qalmaz qan, ara yerdə.

Mən aşıq, aman yerdə,
Dağ yerdə, duman yerdə.
Düşmən sözünə baxan,
Axşamlar yaman yerdə.

Eləmi, yatan qarı,
Dağların yatan qarı.
Kişini tez qocaldar,
Axşamdan yatan qarı.

Mən aşıq, gülən gərək,
Göz yaşın silən gərək.
Nə var-dövlət, nə calal,
Bir qədrin bilən gərək.

Əzizim, nə tarazı,
Nə daş var, nə tarazı.
Kişini tez qocaldar,
Arvadın natarazı.

Əziziyəm, hisə dam,
Bürünübdür hisə dam.
Hal əhli qocalmazdı,
Olmasaydı pis adam.

Dağdan aşıb gələnin,
Qanı coşub gələnin.
Dünyada nə dərdi var,
Halallaşıb ölənin.

Əzizim, barsız adam,
Heyvasız, narsız adam.
Qalaysız qaba bənzər,
Dünyada yarsız adam.

Nərgizlər, ay nərgizlər,
Top-top bitər nərgizlər.
Hayıf cavan canından,
Torpağ örtər, yer gizlər.

Dür at Qır ata neynər?
Qır at, Dür ata neynər?
Öz oğlunu itirən,
Nalan bir ata neynər?

Dağlara dolu düşər,
Qar yağar, dolu düşər.
Qəbrimi quzeydə qaz,
Yar gələr yolu düşər.

Dolu düşər,
Qar yağar, dolu düşər.
Qəbrim yol üstə qazın,
Bəlkə yar yolu düşər.

Mən aşıq, dolu düşər,
Göy gurlar, dolu düşər.
Qəbrim yol üstə qazın,
Anamın yolu düşər.

Mən ölləm, el götürər,
Torpağım bel götürər.
Qoy anam ağlamasın,
Qəbrimi sel götürər.

Mən aşıq, kim bişirər?
Kim yeyər, kim bişirər?
Qurbətdə ölən yarı,
Qəbirə kim düşürər.

Kəklik daşda nə gəzər?
Səkər, daşda nə gəzər?
İgid oğlu ölənlər,
Ağlı başda nə gəzər?

Gül budağın gül əyər,
Yel əsdikcə tel əyər.
Oğul ölmək göz töksə,
Qardaş ölmək bel əyər.

Mən aşığam, bel əyər,
Bağda bağban bel əyər.
Oğul ölsə ev yıxar,
Qardaş ölsə bel əyər.

Əzizim, tikən oldu,
Sökən də tikən oldu.
Toy paltarı istədim,
Kəfənə bükən oldu.

Əzizim, ağlar oldu,
Gözlərim ağlar oldu.
Bala dağı sinəmdə,
Çal-çarpaz dağlar oldu.

Əziziyəm, söküldü,
Damdan torpaq töküldü.
Yaman bala dərdindən,
Belim vaxtsız büküldü.

Ay çıxdı, dalda durdu,
Gör nə xəyalda durdu.
Istəyirdim görüşəm,
Fələk arada durdu.

Kim tutdu?
Kim yaxadı, kim tutdu?
Burda bir bikəs öldü,
Bilməm yası kim tutdu?

Dağda çiskin olur mu?
Duman-çiskin olur mu?
Ağla, gözlərim, ağla,
Bundan pis gün olurmu?

Ay doğdu bizə düşdü,
Gün doğdu düzə düşdü.
Sən tək igid cavanlar,
Tezliklən gözə düşdü.

Dağlara dolu düşdü,
Şeh düşdü, dolu düşdü.
Qəbrimi yol üstə qaz,
Bəlkə yar yolu düşdü.

Dağlara dolu düşdü,
At getdi, nalı düşdü.
Ev tikdim, yar gözlədim,
Əzrail yolu düşdü.

Qarabağın üzümü,
Ölürəm bas gözümü.
Əzrail, bir aman ver,
Yara deyim sözümü.

Araqçının sallama,
Gülü mənə tullama.
Sən mənimsən, mən sənin,
Daha elçi yollama.

At gələr gün batana,
Gedər ellər yatana.
Əgər məni sevirsən,
Elçi göndər atama.

Ərik daşdandı, durma,
Yolu Qaş-dandı, durma.
Demişdin payız gəlləm,
Toylar başlandı, durma.

Damda dirək qaynana,
Şana kürək qaynana.
Oğlu evə gələndə,
Olar zirək qaynana.

Doğdun oğul qaynana,
Yedim noğul qaynana.
Oğlun aldım əlindən,
Çatda boğul qaynana.

Aşı süz qoy qaynana,
Odun düz qoy qaynana.
Oğlun aldım əlindən,
Başan buz qoy qaynana.

Bir qız gördüm biçində,
Sarı sünbül içində.
Burda bir toy olacaq,
Gələn ayın içində.

Gəlinə bax, gəlinə,
Əlin vurub belinə.
Gəlinə söz deyilməz,
Çıxar, gedər elinə.

Bu toy nə toydur belə,
Harayı düşüb elə.
Gəlin gedən qıza bax,
Ağlayır gülə-gülə.

Həlhələ ver gəlinə,
Dəstə gül ver əlinə.
Altun kəmər bağlasın,
Gəlin incə belinə.

Qızım qızlar içində,
Altun hıçıl qıçında.
Qızıma elçi gələr,
Bu günlərin içində.

Gəlinə bax gəlinə,
Şana vurub telinə.
Gəlinə qurban olum,
Qənd əzilib dilinə.

Bikəsəm, gülə damlar,
Göz yaşım gülə damlar.
Dünya yenilsə, yeydir,
Soluncа gül adamlar.

Düşəndən al,
Yıxılıb düşəndən al.
Bir dərdin dərmanını,
O dərdə düşəndən al.

Nərgizdər,
Top-top bitər nərgizdər.
Sənin o gül üzünü,
Torpaq örtər, yer gizdər.

Ya dəli,
Ya divanə, ya dəli.
Xan şirin, candan keçər,
Yara dəysə, yad əli.

Nə qaldı,
Nə qovğadı, nə qaldı.
Yaxçı, sənə min rəhmət,
Yaman, sənə nə qaldı?

Qara bəxtim,
Ağ bəxtim, qara bəxtim.
Sinən yadima düşdü,
Dağlarda qara baxdım.

Nə qarası,
Gözlərin nə qarası.
Gözəl sevən gözlərin
Nə ağı, nə qarası.

Əzəldə gəl,
Payızda, xəzəldə gəl.
Özgə vaxt gəlməsən də,
Məzarım qazanda gəl.

# NAĞILLAR

## FƏNDİ Kİ SİZDƏDİR, TASMASI DA MƏNDƏDİR

Biri varıydı, biri yoxudu, Allahdan başqa heç kim yoxudu. Bir tülkü var idi ki, bu tülkü hər gün gedirdi bağa üzüm yeməyə. Bağban görərdi, hər gün bunun bağı xarab olur. Bağban fikrə düşər, bu tülkü haradan gələr bağa? Ancaq bir gün tülkünü görüb, daldan qovar və tülkü özünü atar bir quyuya. O yoldan ki, bir gün bir qurd keçərdi. Qurd görər, quyu içindən bir səs gəlir. Gedər quyu başına, deyər:

– Kim bu quyuda?

Tülkü deyər:

– Mənəm, oğul.

Qurd deyər:

– Orda neyləyirsən?

Tülkü deyər:

– Qış üçün püstin biçirəm.

Qurd deyər:

– Olar ki, mənim üçün dəri tikəsən?

Tülkü deyər:

– Amma bir şərtim var.

Qurd deyər:

– Nə şərti?

Tülkü deyər:

– Hər gün sən bir davar tut, gətir at quyuya, mən də onun dərisindən sənin üçün püstin tikim!

Qurd qəbul edər. Qurd hər gün özünü vurar sürüyə və hər mükafatnan olar, bir qoyun tutar gətirər atar quyuya. Hər gün soruşar:

– Dəri hazır olmadı?

Tülkü də hər gün bir bahana gətirir ki, qolu qaldı, nə bilim ətəyi qaldı.

Bir gün qurdun hövsələsi başa gələr. Deyər:

– Sənin bu püstin tikilmədi.

Tülkü deyər:

– Get, sabah gəl. Bir də ip ilə zənbil gətir at quyuya, bəlkə mən püstini yuxarı göndərim.

Qurd səhər çağı bir zənbil və bir ip gətirir. Tülkü deyər:

– Əmioğlu, sən dərini yuxarı çəkincə, gərək gözünü yumasan.

Qurd qəbul edər. Zənbil yuxarı gələndə, tülkü zənbildən atılar eşigə və qurdu itələr quyuya. Qurd düşər quyunun təkinə. Tülkü də qaçar gedər yuvasına.

Qurd qalar quyuda. Hər bədbəxtliklə özünü çəkər yuxarı və and içər, bir gün tülküdən əvəzin çıxsın.

Bir gün tülkünü görər, daldan izlər. Tülkü qurdu görüb, qaçıb yuvasına girər. Qurd belə görəndə bağırar:

– İtlər gəldi, itlər gəldi...

Qurd gətirib bir tənək qoyar tülkünün yuvası ağzına. Yel tənəyə girib "hu" səslənər. Binava tülkü də deyər, bəs itlər yuvası ağzındadı. Bir həftə tülkü qalar yuvada acından sıçar, … yeyər.

Çarəsizlikdən bir gün itlərə daş atar. Daş tənəyə dəyər. Tülkü görər bir kuzə bunu bir həftə qorxudub.

Tülkü tənəyi götürər, gedər bir yerdə gölə rastlaşar. Tənəyi bağlar quyruğuna və atar suya. Tənək suya girər "qulb-qulb" edər, tülkü xəyal edər tənək xəfələnir. Tülkü deyər:

– Məni qorxudurdun, indi səni xəfələrəm.

Tülkü səhərə kimi durar, quyruğun da suda saxlar. Səhər su buz bağlar, tülkü nə qədər zor vurar ki, quyruğunu çıxarsın, başarmaz. Quyruğu üzülər. Biçarə elə o cür tülkülər arasına qayıdar.

Tülkülər buna gülərlər. Tülkü utanar, bir yandan da bunlardan kora açmaq istər. Tülkü gedər quyruğuna zelm-ziməb bağlar, gələr tülkülərin yanına, quyruğunun pozun verər.

Tülkülər soruşarlar:

– Bu quyruğu haradan gətirdin?

Tülkü deyər:

– Sizdə bu quyruqdan istərsiz, gərək mənim sözümə qulaq verəsiz.

Xülasə, quyruqsuz tülkü gətirir tülkülərin hər birinin quyruğuna bir tənək bağladar, onların quyruğunu suya saldırar. Bir müddət sonra su buz bağlar. Quyruqsuz tülkü yoldaşlarına deyər:

– İndi quyruğuzu çəkin.

Tülkülər zor vurarlar quyruğlarını çəksinlər. Hamısının quyruqları üzülər. Belə olanda tülkülər təsmim tutarlar, tülkünü ədəb etsinlər. Bir nəqşə çəkib tülküyə deyərlər:

– Gəl bizim yanımza.

Tülkü bilib deyər:

O fəndi ki sizdədir, tasması da məndədir.

## OVÇU PİRİM VƏ İLAN PADŞAHI

Günlərin bir günündə Avçu Pirim bir dağa şikara çıxır. Dağda az dolanır, çox dolanır, bir yerdə görür ki, bir qərə ilan bir gözəl ağ ilannan cütləşib. Avçı Pirim görür ki, ağ ilan çox gözəldi, vəli qərə ilan çirkindi. O zamanın şikar vəsiləsi yay-oxı olarmış, Avçu Pirimin bu ağ ilannan qərə ilanın cütləşməsi acığna gedir. Oxu çəkib isdər ki, qərə ilanı öldürsün, az qala öx qərə ilanın quyruğun qırıb ağ ilanı öldürə, deməginən ağ ilan İlan padşahının arvadıymış. Ağ ilan qışqırdı, ilanlar tökülüb Avçı Pirimin dövrəsin alıllar. Sonradan Avçı Pirimi ilan padşahının yanına aparırlar. İlan padşahı Avçı Pirimə deyir:

– Sən mənim arvadımı niyə öldürdün?

Avçı Pirim deyir:

– İlan padşahı sağ olsun, mənim qəsdim ağ ilanı öldürməx deyildi. Bir qərə ilan o ağ ilannan cütləşmişdi, narahat oldum. Mən isdədim o qərə ilanı öldürəm, oxı atdım, qərə ilanın quyruğun qırdı və ağ ilanın bədənin tutdı. Ağ ilan öldi.

İlan padşahı höküm eylədi, təmam ilanlar gəldi. İlan padşahı Avçı Pirimə dedi:

– İndi sən bax, onı tanı .

Avçı Pirim gördi, qərə ilan ilanların içində gəlir. İlanların arasında gizlənir. Avçı Pirim dedi:

– İlan padşahı sağ olsun, qərə ilan o ilanların arasında gizlənib.

İlan padşahı höküm eylədi, ilanlar qərə ilanı çıxardıb gətirdilər. Gördü ki, ilanın quyruğı qırılıb. Sonralar İlan padşahı Avçı Pirimə çoxlu ənam verib. Avçı Pirim deyir:

– İlan padşahı sağ olsun, mənə ənam, dünya malı lazım deyil, əgər lütfün olsa, mənim ağzıma tüpür, mən təmam dünya heyvanlarının dilin bilim.

İlan padşahı höküm eylədi, qəra ilanın nəslin yer üzündən kəsdilər, qurtardılar. Bəli, İlan padşahı Avçı Pirimin ağzına tüpürir, çıxır çölə, görür ki, ot-yarpax təmam dillərin bilib. Həryənən dilinnən danışıb. Avçı Pirim öz öyünə gedib raz– niyaz eylər. Dübarə bir gün şikara çıxır. Bir dağda bir şikar vurur. Avçı Pirim görür ki, acıb. Bir yerdə ocax yandırır, başlıyır şikarın ətindən bişirib yeyir. O zaman bir heyvan Tüklicə adında Avçı Pirimin yanına gəlir. O da Avçı Pirim kimi başlayır şikarın ətindən bişirir, yeyir. Avçı Pirim şikarın yağından öz bədəninə, tükünə sürtər. Tüklicə də yağından eynən Avçı Pirim kimi öz bədəninə, tükünə sürtər, Tüklücə Avçı Pirimdən soruşur:

– Adın nədir?

Avçı Pirim diyir:

– Özim bəlli Avçı Pirim.

Mərtəb bədənin yağlayandan sonra bir yalavlı kösöv götürüb öz yağlı tüklərə tutur. Avçı Pirimincün tükləri yağlıydı, alışır. Avçı Pirim çalışır bədənin yalavın xamuş eyləyir. Tüklücə də eynən Avçı Pirimə baxıb yalavlanan odu öz bədəninə tutur. Tüklücənin bədəni alışır. Tüklücə odu söndürə bilmir, yanır və çığırır. Deməginən Tüklücə təmam tüklücələrin padşahıymiş. Meşənin tüklücələri soruşullar, səni kim yandırdı? Dedi, özüm. Dedi, özümi öldürdim, biz eliyax. Beləliklə, Tüklücilərin padşahı ölür. Avçı Pirim də salamat öz öyünə qayıdır. Nağıl burda başa çatır.

## QURDUN NAĞILI

Bi şaxsın üş dənə qızı var idi. Bu gedir, bu qızlarına paltar aldı, qayıdıb gəlirdi. Gəldi bi quyunun qırağına su içirdi, suyu işdi. Dedi, Xudaya, çox şükür, Allah çox şükür. Birdən quyunun börünnən bi dənə qurd atıldı. Dedi:

– Kişi, məni neyniridin? Mənim adım İkürdü.

Dedi:

– Ay Allahın heyvanı, necə mənim...
– Yox ey, denən neynirdin?
Dedi:
– Əslən mən səni tanımıram.
– Hardan gəlirdin?
Dedi:
– Qızıma paltar alırdım.
Dedi:
– O qızın birin mənə verdın, canuyu qutardın, əgər mənə verməsən, səni öldürəcəyəm.
Dedi:
– Məni öldürmə, gedim qıza deyim, görüm dənə.
Ağşam munun xanımı otumuşdu, qızları otumuşdu, kişi gəldi evinə. Gördü, xudaya, kişinin üzünə ölü surəti çəkilib. Dedi:
– Bə, kişi, niyə bu vəzdəsən, sənə nə olub?
Dedi:
– Arvad, axtarma, bi dənə qurda ras gəlmişəm, qurt deyər, qızın birin ver mənə.
– Baba, bi belə bi şey olar?
Bu, böyük qıza üz tutdu, dedi:
– Hindi Allah işimi qutarıb, qurdum qalıb!
Ortancılına dedi:
– Baba, indi Allah mənim işimi qutarıb, indi qurt qalıb!
Bu xırdası dedi:
– Dədə, sən ölüncən, qoy elə məni qurd aparsın.
Kişi elə qapıya çıxanda gördü qurt hayatda durub. Qurt qızı götdü, çıxdı getdi. Apardı, demə, o quyunun altınnan munun məqqarəsi var imiş. Getdi, gördü xudaya, bu qurd o qədər zənən öldürüb, o qədər adam öldürüb. Yerin altda munun bi dənə tünəl ki, yeri var imiş, bi qurdu orda bağleyıb, birin burda bağleyıb. Qıza dedi:
– Bilirsən neyniyəçisən? Döşün birin kəsib, o məəm dədəmdi, o da nənəm, hərəsinə birin atacağsan, oturacağsan burda. Gederəm, əgər kəsməsən, səni öldürəcəyəm.

Qurt çıxıb getdi. O qədər ağladı, ağladı, ağladı, ağladı. Böyük dirək var idi, qızıldan bu zanda, o yerin altında. Allahın qudrətinən o dirəhdən bi dənə qapı açıldı. Qapı açıldı, bu qız qaşdı girdi ora, qapı mülhəq oldu. Qurt gəldi. Gəldi, gələnnən sonra xəbər aldı öz dədə-nənəsinnən. Dedi, girdi o dirəyə. Baba, dirəhdə bi şey yox, qapı yox, məqqarə yox, hardan girdi? Dedi, elə girdi o dirəyə, dirək hamarrandı. (Həzrəti-Yahya peyqəmbər Allah-um məsəlli ala Məhəmmədin və ali Mohəmməd çınara girib hamarranan kimi). Qurt bu dirəyi söhdü çıxatdı, apardı köşəndə yəsiz bi dəriyə atdı, başladı munu güddü. Güddü. O vədə güddü, patşahın oğlu, iki dənə tay-tuş cavannan şikara çıxmışdı, gördü dərədə bi şey belə parıllıyır, deyersən, çırağ yaner. Gəldi, gördü bu canda bi dənə qızıldan dirəhdi, üş metir, dört metir. Birinə dedi, dirəyi götdülər, biri aldı atın qucağına. Dirəyi götdülər gəldilər. Gətdi, otağ diktirirdi, vurdu otağına şahın oğlu. Vurdu otağına dirəyi, vurannan sonra bi gün munun nənəsi qəzə pişirib qoymuş idi (otağı dikdirib başa gəlib), şahın oğlu gəldi. Nənəsi dedi:

– Ay bala, qəzəni pişirib qoymuşam dirəyin dibinə, get qəzəni ye.

Gəldi gördü boşdu. Ha büyün gördü yoxdu, ha səhər gördü yoxdu, ha bir gün gördü yoxdu, təəcüb elədi. Nənəsi dedi:

– Ay bala! Mən sənə qəzə pişirib qoyuram ora, gedirəm eşiyə, gəlib görürəm yoxdu.

Gədə gəli, yatdı bi yerdə, qəzəni qoydu ora, gizdəndi munu güddü. O qədə güddü, gördü bi dənə qəşəh xanım dirəhdən çıxdı düşdü yerə, daraşdı elə qəzəni yeyəndə, gəldi tutdu:

– Bə xanım, gündə mənim qəzəmi niyə yeyirsən?

Dedi:

– Qismət mənimkidi.

Nənəsi qaşdı, şaha hay saldı, töküldülər, gəldilər:

– Bə bala, sən nəyin kimisən?

Dedi, elə cərəyan bu cür. Da demədi məni qurt gətirib. Qırx gün, qırx gecə bu qıza toy tutdular. Patşahın oğlu munu aldı. Bi gün köşənə getmişdi nəyə, gördü bu qurt gəldi munun yaanna. Qurt muna əl qavzadı, məni öldürmə (bi qurt danışar). Dedi:

– Noolar mən sənə it olam, daimi sənin həndəvərin, gecə qapında yatam, nəqqədə ətrafdan sənə düşman gəlsə, mən onu hifz eliyəm. Mənə çörəy at, daimi yatım qapında, ha yana da getsən, vəhşi heyvan-zad sənə ras gəlsə, mən onu hifz elərəm.

Qurt düşdü munun yanına gəldi. Qızın da bi oğlu olub, aradan bir il, iki il keçib. Qız görcəh tanıdı, gördü hənüz qurtdu. Day sabına deyə bilmədi, baba, bu qurdu, səni də öldürəcəh, məni də. Utandığından demədi ki, məni bu qurd aparmışdı. Dədəsi gördü da tapa bilmədi, qız necə oldu. Qız ürəyi saşdı. Dedi, məni öldürəcək. Bi gün gecə yarı gördü qurt qapını aşdı keçdi içəri, yapışdı munun qolunnan ki, dur ayağa. Ha ərin döydü, hay vurdu, hay döydü, atdı belə, atdı belə, gördü ərinnən həsamə yoxdu, deyirsən ölüb. Çölə çıxanda gördü bi kasa suyun içində bi belə ala şey var, işliyer kasanın içində, suyun içində. Day munu qurd aparır qızı. Əlin atdı elə bu ışığı, kasada götdü çırpdı yerə sındı, sınanda gədə içərdə vəy elədi, çığırdı. Demə, bu yuxu bi şeyimiş, atmışımış, əslən şəhr bötöy yuxuya getmişimiş. Nə cür cadugər idi, nə cür sehrkar idi. Munun çığırtısına əri oyandı, dik sıçradı qapıda, əlində şəmşir, qızı tutdu, qurt getdi. Hay düşdü şəhrə. Patşah gəldi:

– Baba, bu nə cərəyandı?

Dedi:

– Əmi, Allahdan gizlin dəyi, səndən nə gizlin, bi dənə qurt bi belə adamı qırıb, hənüz qurduydu… Məni dirəhdə bu cür Allah hıfz eləyib.

Dedi:

– Bala, yerin bilirsən o quyunun?

Dedi:

– Əmi, bilirəm.

Patşah dəstur verdi, leşgər çəhdilər. Qız gəldi quyunu nişan verdi. Dörə qazdılar, qurt, demə, quyuda yatmışımış. Qurdu tutdular öldürdülər, dədəsin də öldürdülər, nənəsin də, orda məhvi nabud elədilər, tamam nə qədə cənazə çıxartdılar ordan.

# İLANLA ATLI

Bir gün bir atlı çaparaq, bir yoldan savışırdı, bir səs eşitdi ki, deyirdi, ay yandım, mənə kömək! Atlı baxdı, gördi ki, bir ilan yolın qırağında bir tala yerdə yalavlı od yanır. İlan da odın üsdində bir-iki ərşin yerdə od dövrələyib, qaçmağa yolı yoxdı. Çox-çox müşkildədi. Atlının ürəgi yandı, tez atın saxlayıp, yerə düşüb, atın tərkində bir torbası varıydı, onı görürüb, özin vurdu yalavın içinə. Torbanın ağzın açdı, ilan girdi torbaya. Atlı qaçdı odın içinnən ilanı nəcat verdi və hətta atlı kişinin əli-əyağı, ora-burası da bir muxdəsərdə ütülmüşdi. Elə o halda atlı torbanın ağzın açdı, dedi:

– Ay Allahın heyvanı, çıx get.

Özin ki, ilan genə dolaşdı atlının boyun-boğazına ki, indi də görüm harannan vurum? Atlı kişi əlin-əyağın itirdi, dedi:

– İlan qardaş, bu sözdər nəmənədi, məgər mən sənə pisdıx eləmişəm ki, məni vurursan? Mən səni ölümnən nəcat vermişəm, gəl bu işi görmə.

İlan dedi:

– Mənim başıma bu sözdər girməz. Qurtar da, görüm harannan vurum?

Atlı kişi bir az fikrə keçdi, məzlumanə dedi:

– İlan qardaş, sənnən bir xahişim var, o da budur ki, gedax üç nəfərdən soruşax, əgər olar da desə, işqalı yoxdur. Sənin hardan xoşun gəlsə, məni çal, vur.

Burda ilan qəbul elədi, yola düşdilər. Gedir, qabaqlarına bir bulaq çıxdı. Bulağa məsləhət elədilər. Bulaq dedi:

– Haqq ilanınandı, harasınnan xoşun gəlir, vur.

Atlı soruşdı ki, bulaq qardaş, niyə bu sözi deyirsən?

Dedi:

– Buna xatır ki, mən burda şahidəm ki, təmam adamlar gəlib burdan keçəndə, mal-heyvanların suvarıb, əl-üzdərin yuyub və mənim sərin suyumnan içib və yollarına da mənim suyumnan götürüb və əl-üzdərin yuyub tüpürəllər mənim üzümə. Adamnan pisi yoxdur.

İlana deyir, vur bunı. Bilaxıra, ilannan atlı yollarına ədamə verillər. Gedillər, yetişillər bir böyük çinar ağacına. Burda çinar ağacına da hal-qəziyyəni tərif eylədilər. Çinar ağacı da deyir, haqq ilanınandır, hardan xoşun gəlir, vur. Atlı soruşur, çinar ağacı deyir, adamlar pis bir məxluqdur, buna görə ki, hər yoldan keçən yorğun adamlar uzaqdan, yaxınnan gələn gəlib burda mənim sərin kölgəmdə kölgələnib və atın və qatırın da bağlayıb mənim qol-qanadıma gedəndə də çəkib mənim qol-qabırğamı sındırıb, özünə də şallaq düzəldib, yola düşüb gedirlər. Atlı və ilan yola düşüb gedirlər və yetişirlər bir tülkiyə, hal-qəziyyəni ona tərif eyləyirlər. Tülki deyir:

– Bunı beləsi qəzavət eyləmax olmaz. Siz gərək səhnəni o cür ki, üz verib, mənim içün burda piyada eyləyəsiz, ta mən görəm, sonra qəzavət eyliyim.

Bəli, burda atlı və ilan bir az odunnan, küləşdən yığıb, toylayıb, bir tala yerdə od vurub və ortasında da bir-iki ərşin xalı yer qoyub ilanı atıllar odun üstünə. İlan qışqırır və atlı da gəlir onı o cür ki, ittifaq düşmüşdür, onı torbasının vəsiləsi ilə nəcat verir, gətirir qırağa. Amma burda tülki deyir:

– Atlı qardaş, indi torbanın ağzın möhkəm çək, bağla.

Atlı torbanın ağzın bağlayır və soruşar ki, tülki qardaş, bəs qəzavət nə oldu. Tülki deyir:

– Qəzavət bu torbanı bağla atın quyruğuna, atı sal yola, çap tozda.

Atlı da canı ilanın əlinnən qurtarmışdı, bu işi də görür. İlan da torbada atın dalınca o qədər ora-bura, daşa-qəyiyə dəyir ki, tikə-para olur. Dostlar, burda nağıl sona çatır.

## DONĞUZANQURDININ NAĞILI

Günlərin bir günündə donğuzanqurdu getdi aynanın qabağında durdu. Dedi:

– Mən gözlərimə sürmə çəkərəm, yanaqlarıma şürayi qırmızı rəng çəkərəm. Gedəm özümə dost tapam. Donğuzanqurdu özünə yetişdi və yola düşdü. Getdi, getdi bir çobana yetişdi. Ço-

bandan soruşdu ki, aya, mənimlə evlənərsən? Əgər mənimlən evlənsən, mənimlə dava eləsən nə iş görərsən? Çoban deyir ki, səni bu ağacla vurram.

Donğuzanqurdu deyir:

– Bah, bah. Qadam-balam düşsün canuva, ağacuva. Mən səninlən evlənmirəm.

Genə yoluna edamə verir, gedir. Yetişir bir tülküyə və ondan soruşur ki, mənimlən evlənərsənmi? Onda mənlə dava eləsən, nə iş görərsən? Tülkü deyir, səni allam ağzıma, dişlərimin arasında çeynərəm.

Donğuzanqurdu deyir:

–Qadam-balam düşsün sənin başuva. Mən əsla səninlə evlənmirəm.

Deyər, burnun tutur ustə yoluna ədaməverir. Gedir, gedir yetişir bir siçana. Deyər:

–Əgər səninlə evlənsəm, mənimlən dava eləsən, mənə nə iş görərsən?

Siçan deyər ki, mən quyruğumu sallam balın içinə, çəkərəm sənin o qəşəng yanaqlarıva.

Donğuzanqurdu xanım burda bir naz kərişməgəlir, deyir:

–Mən səninlən evlənirəm.

Bunlar bir-birlərinnən evlənirlər və gedirlər siçanın evinə.

Siçan Donğuzanqurdu xanıma deyir ki, evdə qal və bir yerə getmə, ta mən gəlim. Mən gedirəm xanın evindən bir az yemək oğurlayam, gətirim. Deyir və yola düşür. Gedir xanın evinə tərəf və sonradan Donğuzanqurdu xanım kuzəni götürür gedir bulağa, bir küzə sərin su gətirsin. Əma birdən çoxlu yağış gəlir və neçə nəfər atlı da keçirdi burda. Donğuzanqurdu xanım düşür atın rədinin çalasına ki, su ilə dolu idi. Donğuzanqurdu xanım çaladan çıxa bilmədi. Və sonra gördü ki, atlılar minip atlarına gedirlər. Donğuzanqurdu xanım onlara dedi, ay yol ilən gedən, tabır-tubıratıllar, tigməğərə, kor kəlilər xan evinə gedirsizmi? Donğuzan qurdı don xanım, saşları zərxanım, başmağı gümüş xanım düşüb dərin quyuya, gəlsin oni çıxartsın. Burda atlılar bu

xəbəri siçan beyə deyirlər. Siçan tez özünü Don xanıma yetirir və belə deyər:

–Əlini ver mənə, dost erəci Don xanım.

Deyir:

– Dost erəci səndən güsdürəci.

Burda siçan deyir, dost erəci sənə quyruğunu göstərəci. Burda Don xanım ağa siçan quyruğunnan tutur. Çaladan çıxır və burda barışırlar və şad-xuram gəlirlər evə və başlayırlar yaşayışlarına.

## BİRƏBƏYİN BİT XANIMIN NAĞILI

Günlərin bir günündə Birə bəy və Bit xanım çox üşümüşdülər. Getdilər ocağın qırağına ki, alovlu deyildi. Amma ocağ isti kül və közlü idi. İstərlər özlərini qızdırsınlar. Burada Birə bəy xoşhallığından ki, burada isinirlər, o tərəfə-bu tərəfə hopbələrdi, bir dəfə düşdi odın içinə yandı.

Bit xanım öz həmdəmini əldən vermişdi, özünü vururdı və qışğırırdı və başın tuklərini yolurdu ki, qarğa gördü Bit xanım özünü həlak eləyir. Soruşdu ki, nə olupdu? Bit xanım deyər:

– Birə bəy düşdü odun içinə yandı.

Qarğa qarıldaya – qarıldaya dındığın (dimdik) qopardı, o muğidə qecələ qarğanı gördü soruşdu ki, nə olupdu? Qarğa deyər ki, Bit xanım dedi ki, Birə bəy düşdü od içinə yandı. Bunudiyəndə qəcələ qışqırdı, qanadlarını yoldu. Birdən dəvə bunu gördü, soruşdu ki, nə olub? Bu qədər bitablıq edirsən?

Qəcələ tüklərin yolurdu və deyirdi ki, Bit xanım deyir Birə bəy düşdü odın içinə yandı. Bunu deyəndə dəvənin yekə dodağı sallandı və o, yekə əyağını kəsdi və qışqırdı, fəğan qopardı. Bu halda eşşək onu gördü soruşdu ki, nə olub, nə qiyamətidir?

Dəvə dedi ki, Bit xanım deyir, Birə bəy düşdü odun içinə yandı. O halda eşşək tağət gətirmədi, öz quyruğunu kəsdi. Nagəhan keçi birdən yoldan yetişdi, dedi, eşşək, quyruğuna nə olub?

Eşşək dedi:

– Gərək qışları da kəsəsən, Birə bəy düşüb odın içinə yanıb. O halda keçi buynuzlarını kəsdi, mələdi. O zaman çəpiş soruşdu ki, nə olub? Keçi dedi:

– Ey kaş bir şey olmayaydı. Deyirlər, Birə bəy düşüb odun içinə yanıbdı. İndı gərəkquyruğ, əyağ, qanad kəsilə, biz yasa batdıq.

O zaman bızov və çəpiş yetişdilər, birazbaxdılar bulara, olara güldilər və məsxərə elədilər. Dedilər, gedin əyağızı yapışdırın, qanadlarızı yapışdırın, dimdikizi, quyruğuzu bağlayın düzəlsin.

## CANAVARLA TÜLKÜNÜN NAĞILI

Günlərin bir günündə bir dağın ətəyində, bir böyük düzdə bir canavar və bir də tülkü bir-birinin kənarında yaşayırdılar. Bunlar qardaşdıx olmuşdular. Hərdən bir heyvan şikar eyləyib bahəm yeyərdilər. Amma bir neçə gün bunların yenə dilinə bir şey gəlmir. Təsmim tutullar ki, hərəsi bir səmtə gedib bir şikar tapsınlar. Amma bu tülkü bir uzun dərədən keçirdi. Görür ki, bir tələ vardı. Amma tələnin arasında bir möqdələ qoyun quyruğu vardı. Tülkünün ağzı sulanır, tələnin o tərəfinə, bu tərəfinə keçir, görür ki, heç imkanı yoxdur. Tayinki quyruğu götürə yeyə və qarnını doyura. Burdan vaz keçir. Yoluna idamə verir, yarı yolda bir də görür ki, canavar qardaş gəlir. Ta canavar buna yaxınlaşa, bir nəqşə çəkir. Başlayır şaddıxa o yana hobbulur, bu yana deyir, ay can oynavır. Canavar qardaş soruşur ki, tülkü qardaş, nə xəbərdi, nə olub? Tülkü deyir:

– Nə təhəri olmasın. O uzun dərədə o qədər qoyun quyruğu yemişəm ki, bir məstəm.

Burda canavar qardaş deyir:

– Tülkü qardaş, heç onnan bir az qalmadı? Mən çox acam.

Tülkü deyir:

– Gedax şayəd bir az tapax.

Yola düşüb bahəm gedirlər, yetişərlər o uzun dərəyə. Birdən tülkü deyir:

– Bəli, canavar qardaş. Burda bir miqdar vardı. Gəl götür ye.

Canavar qardaş tez gəlir yetişir, tayinki, ağız atır quyruğa. Tələ canavarın hülqumun tutur. Canavar düşür tələyə və daha çəkmir. Quyruğ ağzınnan düşür. Tülkü qardaş gəlir quyruğu götürür aparır o tərəfdə bir daşın üstündə oturur. Naz eyləməyə başlayır. Yeyib qurtarır, deyir:

– Ax canım, ay canım, mənim ulduzum tapıldı. Mən day doydum.

Burda canavar qardaş çox çətinlixnan deyir:

– Tülkü qardaş, bəs mənim ulduzum nə vaxt tapıla?

Tülkü deyir:

– Canavar qardaş, sənin ulduzun tələ sahibi gələndə tapılacaq.

## TÜLKÜ
*(İskəmər variantı)*

Günlərin bir günündə, tülkü meşədə gəzirdi, birdən gördü böyük bir tələ içində bir tikə ət asılıb. Tülkü gördü ağzını ətə aparan kimi tələyə düşəcək, uzun düşündü, qurdun yanına gedib söylədi:

– Qurd qardaş, bilirsən ki, mən bu gün orucam və buna da bilərsən ki, mən səni çox sevirəm, bunu görə gəl gedək, sən doyunca bir ət ye.

İkilər yola düşdülər, tələyə yaxınlaşdılar. Tülkü geri çəkilib qurda "buyur", dedi. Qurd ağzını ətə yaxın aparan kimi tələnin içinə düşdü və bu əsnada ət eşiyə atıldı, tülkü əti yedi. Qurd soruşdu:

– Hanı, bə sən demədinmi mən orucam?

Tülkü dedi:

– Orucuydum, ancaq indi ayı gördüm, əgər orucumu açmasaydım, günaha batardım, ancaq sən də böyük savab iş gördün ha.

Qurd soruşdu:

– Bəs elə mən haçan ayı görəcəyəm?

Tülkü dedi:

– Elə bu yaxınlarda görərsən. Görərsən bir adam əlində bir böyük döyək və yanında da sənin cinsindən bir it gəlir, onda sən həm ayı görərsən, həm günü.

Bunu deyib getdi. Çox keçmədi tələnin yiyəsi gəldi, tələdə bir qurd, amma ətdən xəbər yox idi. Qurdu doyunca döydü. Qurd bir təhərlə yarım canın adamın əlindən qurtarıb qaçmağa bacardı. Getdi, getdi, tülküyə rast gəldi. Dedi:

– İndi mən sənin hesabına yetişərəm. Sən məni ovçu əlinə buraxırsan?

Tülkü dedi:

– Mənim nə günahım, istərdin yaxın getməyəydin, tələyə düşməyəydin, ancaq indi bu sözlərin yeri deyil, sənin yeməyə ehtiyacın var, gəl gedək xan sarayına, oradan xanımların qarşısında oynayarıq, onlarda əvəzində bizə yemək verərlər.

Qurd dedi:

– Əgər bizdən xoşları gəlməzsə, onda neylərik?

Tülkü dedi:

– Quyruqlarımıza muncuq asarıq, onda xoşları gələr.

– Muncuğumuz yox, haradan muncuq taparıq?

Tülkü oğurladığı boyunbağını qurda göstərdi:

– Bax, mənim var, əgər muncuq istərsən, gecə gedərsən, səhərə qədər dəyirman gölündə oturarsan, heç tərpənmərsən. Su buz bağlayanda sənin də quyruğunda muncuq düzələr.

Qurd tülkünün sözlərinə aldanıb dəyirmana getdi. Quyruğunu gölün suyuna qoydu. Hava soyudu, qurd üşüdü, amma dayandı, gölün suyu da buz bağladı dondu. Səhər-səhər çox çalışdı ki, quyruğunu göldən çıxarsın, gördü mümkün deyil. Bu əsnada dəyirmançı gəldi, qurdu göldə görən kimi bir ağac götürüb qurdun canına düşdü. Qurd qaçmaq istədi, ancaq mümkün deyildi. Çox çalışandan sonra, quyruğu qopub yarı canını götürüb qaçdı. Dərələri, təpələri aşdı, meşəyə çatanda tülküyə tuş gəldi. Tülkü dedi:

– Elə mən də səni axtarırdım, bə hardasan?

Qurd dedi:

– Ay doqqaz, bu dəfə kimsə səni mənim əlimdən qurtara bilməyəcək.

– Mən neyləmişəm ki, günahım nədir?

– Bundan böyük nə günah ola bilər ki, məni dəyirmançının əlinə vermisən.

– Getməyəydin, ondan muncuq istədin, ancaq indi bu sözlərin yeri deyil. Gəl sənə toxuma öyrədim.

Nəhayət, qurd bunu qəbul etdi. Tülkü ağacın qollarını, dallarını qoparıb qurdun önündə oturub toxumağa başladı. Səbətin bir ağzını toxumuşdi ki, tülkü qurddan istədi ki, səbətin içində otursun ta ki, səbətin ölçüsü bəlli olsun. Qurd oturdu, tülkü isə toxudu. Səbətin qurtarmasına az qalmışdı ki, qurd soruşdu:

– İndiyənə qədər mən heç bir şey öyrənə bilmədim.

Tülkü dedi:

– Tələsmə, bunu da öyrənərsən, bir az da gözlə.

Səbət qurtardı, bacası da tutuldu.

Qurd bağırdı:

– Bəs mən hardan çıxacağam?

Tülkü söylədi:

– Ey axmaq, sən burdan heç çıxa bilməyəcəksən.

Bu anda çığır-bağrına baxmayaraq, səbəti təpədən aşağı fırlatdı. Səbət fırlanıb-fırlanıb gəlib çobanın ayağının altında dayandı. Çoban zənn etdi ki, icində bal var, səbəti də evə götürüb anasına verdi, dedi:

– Anacan hər zaman qonaq gəlirsə, bu səbətdən bal götürüb qonağa gətirərsən.

Çobanın anası balı dadmaq üçün əlini səbətin içinə apardı, birdən qışqırdı. Çoban özünü anasına yetirib gördü ki, səbətdən bir qurd çıxmağa çalışır. Zopanı götürüb qurdun canına düşdü, qurdu ölüncə vurdu, leşini də arxa bağçaya atdı. Tülkü o yaxınlarda pusqu qurmuşdu, gəlib qurdu yeməyə başladı.

## VƏRƏK QIRANIN NAĞILI

Günlərin bir günündə Nuh peyğəmbər zamanında bir yoxsul cavan var idi. Allahı bir iş bacarmazdı. Var dünyada bir zadı yox idi. Bir qoca qarı anasınnan şəhərin kənarında bir damxada yaşayırdılar. Bu oğlan günüzlər gedib biyabanlardan tikan qırıb bir şelə gətirib onu satıb bir az yemək, gün ruzisi alıb, gedirdi

anasının yanına. Bir gün genə getmişdi çölə ki, tikan qırsın gətirsin, yorulmuşdu. Gəldi bir su arxın yanında elə üzün yusun. Görür, qarışqalar gəlirlər arxın qırağında, qayıdırlar suyun bu tərəfinə, kecə bilmirlər. Bu tikan qıran bir az fikirə keçdi, dedi: Olmıya, bunlar istəyir ki... ”Arxın üstünə onlarla bir görücü düzlədir. Görür ki, bunlar gəldilər, bu tikan qırana dedilər:

– Hər mövqe müşgilə düşdün. Bunları bir dənəsinə od vurub yandırsan biz sənin yanında hazır ollux.

Dedilər, gedillər, bu tikan qıranda yoluna ədama verir gedir. Amma yolda görür ki, bir böyük şir butadan çıxardır. Gənə də şir bu tikan qırannan təşəkkür eylər, əl atır başınnan bir şuxum tüklərinnən yolur verir tikan qırana, deyir, hər mövqe işin dara düşdü. Əgər bu tükdən birin – ikisin yandırsan, mən sənin yanında hazıram. Deyir gedir. Şəhərdə istəyirdi ki, qırdığı tikanları satsın. Yolda şahın qızın görür. Şahın qızına orda aşiq olur. Bir-iki dənə çörək alır gəlir evə. Anasına deyir:

– Anacan, mən şahın qızına aşiq olmuşam. Onu mənə gərək elçiligə gedəsən. Oğlanın qarı anası deyir:

– Oğlum, padşah sənə qız verməz. Ağlın olsun.

Oğlan deyir:

– Əsla olmaz.

Anasın məcbur eylər. Anası gedir padşahın qızına elçiligə. Vəzirin bu işdən xoşu gəlmir. Narahat olur bu xanımın üstünə. Amma padşah narahat olmur. Deyir:

– İşğalı yoxdur bizim bir şirimiz vardır. Siz də bir şir gətirin. Hər kimin şiri o biri şiri şikəst verdi, o vaxt mən qızımı verərəm sənin oğluva.

Amma vəzir də çox həsudux eylərdi ki, bura bax, bir tikan qıranın hərəkətinə bax. Bir az fikirləşir. O şirin tükləri yanına düşür. Gətirir o tüklərdən iki dənə yandırır. Qıl qur görür ki, şir bunun yanında hazır oldu. Şiri götürər gedər, padşaha xəbər verirlər. Bəli, padşah dəstur verir, meydan sulanır. Tikan qıranın şirinnən padşahın şiri meydanda savaşırlar. Nərə çəkillər, toz qoparırlar. Hər surət görürlər ki, tikan qıranın şiri padşahın şirinə şikəst verdi. Camahatda görürdülər. Amma burda padşah gö-

rür ki, oğlan şərti apardı. Bac – xərac mövqeidi. Bir meydanda üç xalavar buğda var. Üç xalavarda arpa, üç xalavarda dəri vardı. Padşahnan vəzir deyirlər ki, bunları qatışdırın bir-birinə və oğlana deyirlər ki, əgər elə bildin sabah sübhəcan bunları bir-birinnən ayırd elədin, qızı sənə verəm. əgər eyləyə bilmədin boynuvu vuraram. Oğlan bir az narahat olur. Sonradan bir az fikirləşir. Qarışqalar yadına düşür. Tez iki dənə oqun qarışqadan yandırır. Bəli görür ki, tamam qarışqalar bunun dövrəsin əyiblər. Orda qarışqaların padşahı dəstur verir. Qarışqaların qoşunu gəlirlər darışırlar. Bu doqquz xalavar arpanın, buğdanın, darının içinə, buğdanı bir tərəfə, darını bir tərəfə, arpanıda bir tərəfə ayırd eylərlər. Sübh olur. Deyirlər, bəs oğlan bu işi qoyub qaçıb, gəlirlər. Görürlər ki, pehv iş qurtarıb. Oğlan da onun kənarında durubdu. Burda padşah görür ki, şərti uduzub, daha eyləyə bilməz. Müvafiq eylər ki, qırx gün, qırx gecə tikan qıranınnan padşahın qızına toy tutullar. Sonradan padşah onu özünə vəzir eylər ki, sən zirəng adamsan.

## KÜNDƏYEYƏN, ADAMYEYƏN

Biri var idi, biri yox idi, çoxu ac idi, azı tox idi. Belə deyirlə ki, keçən keçmiş günlərdə bir ailədə dörd nəfər var idi. Bir kişi çapar, bir arvad atar, bir oğlan tapar, bir qızdan udar qurulmuşdu. Bir gün uşaqların anası – arvad istəyirdi yuxa çörəgi bişirsin. Bu arvad unu xəmir elədi, yoğurdu, sonra kündələdi və getdi ki, saci gətirsin, ocağın üstünə qoysun. Sac qızarsın, taki çörəyi bişirsin. Arvad sacı gətirdi, ocaq üstünə qoydu. İstədi kündələri oxlov ilə yaysın və sacın üstünə yapsın, ta bişip çörək olsun. Gördü ki, xəmir kündəsi yoxdu. Duruxdu ki, bu kündələrə nə oldu. Genə də xəmir elədi. Kündələdi ki, çörək salsın. Başı nəyə qarışırsa, gəldi gördü ki, yenə xəmir kündələri yoxdu. Arvad artiq durıxdı, şübhələndi. Yenidən xəmir elədi, kündələdi. Bu dəfə Taparı xəmir kündəsinin üstünə gözətçi qoydu. Oğlan gördü ki, bacısı bulkədən çıxdı, gəldi, xəmir kündələrini yeyib qurtardı. Oğlan qorxusundan qıza bir söz demədi. Amma getdi,

gördüyünü anasına söylədi. Dedi ki, ya gərək bu qızı öldürəsiz, ya da mən gedəcəm. Çünkü bu qız yekələndə adam yeyən olacaq. Ana dedi:

– Ay bala, yaranmış canı necə öldürüm? Mən belə bir iş görə bilmərəm, sən də evdən getmə. Heç bir zad olmaz.

Oğlan anasının dediyinə durmadı, acıq edərək evdən çıxdı. Baş aldı çölə sarı, üz tutdu, getdi. Çox yol getdi, sonra yoruldu. Yolun qırağında bulaq üstündə oturdu. Acmışdı, gördü ki, üç dənə ərik meyvəsi bulağın qırağına düşübdü. Oğlan əriklər yedi, dənəsini də bulağın üstündə əkdi. Genə də durdu, getdi. Bir zaman yol gedəndən sonra yoruldu, baxdı gördü ki, bir dağın döşündə tüstü qalxır. Getdi tüstü qalxan yerə yetişdi. Gördü ki, bir daxmadı, içində bi kişi Arxa, bir arvad Suqra var. amma hər ikisi kordu və adamı görmürlər. O, səsin içəri çəkdi ki, bunlar bilməsinlər. Burada başqa bir adam da var idi. Gecəliyəndə qaldı və gördü ki, bir sürü süd verən qoyun gəldi. Arvad ilən kişi bunları sağdılar və başladılar yeməgə. Oğlan da gizdindən başladı süddən yedi. Neçə gün beləcikdə keçindilər. Axərda kişi ilə arvad bir-birini duyuq saldılar ki, yeməkdən doymuruq. Bəllidi ki, başqa bir adam burda vardı. Gizlindən yeməgimizi yeyir. Söz qoydular ki, yemək yeyəndə hər kəs bir yandan əlini gətirsin yemək oğrusunu tutsunlar. Bu işi gördülər, Oğlanı tutdular. Ondan kim olduğunu soruşdular. Oğlan dedi:

– Mənim adım Tapardı.

Başından keçənləri onlara söylədi. Onların oğlandan xoşları gəldi və ondan xoş-beş elədilər və sonra istədilər ki, indi ki gəlmisən, bizim yanımızda qal. Ancaq qoyunları aparıb yaxşıca otarasan ki, artıq süd verə, ta sən və biz yeməkdən doyaq, ac qalmayaq. Oğlan bu deyişləri eşitdi, burada qalmağı qəbul etdi. Bir də oğlana tapşırdılar ki, bir də dağlıq Uruşan sağ-sağ yanına getmiyəsən. Çünkü getsən, xətrə düşərsən. Oğlan, "hə" dedi. Oğlan onların adını arvatdan soruşdu. Arvad dedi:"Mənim adım Sugra, kişinin adı Arxadır". Sonra oğlan uzun çağlar qoyunları apardı, otardı və gətirdi. Südünü sağdılar və yedilər. Axırda oğlan bir gün üzü-üzünə fikirləşdi ki, gərək bu dağın sağ yanına

gedəm, görəm burada nə işlər var ki, onlar məni qoruyub qoymurlar ki, o yana gedəm. Qoyun sürüsün otarmağa dağın sağ yanına sarı getdi. Orada bir yırtıcı qurda tuş gəldi. Gördü qərarsızdı. Hay çalışır, dolanır və ulayır. Yaxınlaşıb nə ulamağını qurddan soruşdu. Qurd dedi:

– Birinci deyim ki, bura mənim qoruğum və oylağımdır. Niyə buraya gəlmisən? İkinci deyim ki, mən yozdaqlayıram. İstirəm ki, doğam. Əgər uşağım iki olsa, verəcəm, sən aparasan. Amma bir olsa, səni yeyəcəm.

Oğlan yaradana yalvarıb ki, oğlu cüt olsun. Qurdun ikiztay balası oldu. Oğlan sevincdən şənlik edirdi. Çünkü xətərdən savılmışdı. Qurd iki balasını əmişdirdi, mayalandırdı və birini oğlana verdi. Və yaxşı saxlamasını ona tapşırdı. Ögey ata-anasına sonradan başına gələni onlara söylədi. Amma oğlanının ögey ata-anası öyüd verdilər ki, birdə bu işi görmə və dağın sağ yanına getmə. Oğlan onların sözünə baxarkən dağın sağ yanına dolanmadı. Amma insanın zəmirində və içində bir qayda var ki, onu hər nədən, hər yerdən və hər yandan qorusan, hey gəzinər, vurnuxur və dolanır ki, o qorunan yana–yöndəmə getsin. Genə də bu iş belə gətirdi ki, oğlan dağın sağ yanına yollansın. Bu dönə işi əcinəyə tuş gəldi. Gördü iki nəfər cin kötükün üstündə əlləşirdi ki, onu yarsınlar, odun eləsinlər. Ta gözləri oğlana sataşdı, dedilər:

– Ay oğlan, gəl qabağa kötüyü yar. Yaranmasan, səni öldirəcağıq.

Oğlan gördü ki, genə yaman yerdə yaman işə tutqun olub. Kötugə baxdı, özünə, qolunun gücünə, baltasına qürrələndi və bir də istədi cinlərə də kələk gəlsin. Baltanı gətirdi, kötügün ortasından çırpdı, kötük bir tərəfdən cırıldı. Cinlərə dedi:

– Əlinizi qoyun kötüyün arasına, ta yenidən qavışmasın.

Cinlər ələrin kötüyün cırığının arasına qoydular. Oğlan tez baltanı kötüyün cırığından çəkdi qırağa. Cinlərin əli kötüyün rasında qalarkən cinlər cığıldadı. Oğlana yalvardı ki, əllərin kötükdən buraxsın. Oğlan dedi:

– İki şərtim var.

Birinci budur ki, məni öldürməyəsiz. Qəbul etdilər. İkinci mənim ögey ata-anamın hər ikisi də kordu, onun dərmanının siz bilirsiz, gərək deyəsiz. Cinlər dedilər:

– Elə bu yardığın kötügün dibindən cücərən şiv civirlərin üstündə bitən o buz yağlı yarpağı dərip onların yanında yandırsan, onun yaşıl yalavının işığı onların gözlərinə nur salacaq və onlar da bu işıqlı dünyaya göz açacaqlar.

Yarpağı yığandan sonra oğlan kötügün arasına qalın bir çiv çaldı. Kötügün arası genəldi. Cinlərin əlini buraxdı. Ağacın da yarılan yerlərini bir-birinə yapışdırdı, ta ağac qanıyayıb öc eyləsin, quruyub aradan getməsin. Çün bu ağac kor gözə dərmandı və qiyməti ağırdı. Cinlərə də dedi ki, siz də kötüyün yerinə çır-çırpı yığın və aparın yandırın.

Bir də deyim, o ağacın adı Yaşıl-yanar, Yalavlanar, ya da loğman ağacıdı. Hər yerdə görsəniz, onu qırıb aradan aparmayın. Hər halda oğlan yarpağı apardı və cinlər deyən kimi işə tutdu. Onun ögey ata-anasının gözləri açıldı. Sevindilər və şənlik etdilər. Sonra oğlan öz ata-ana və bacısını tapıb görmək üçün ögey ata-anadan izn və icazə istədi. Onlar bu gedişin içində oğlana xətr ihsas elədilər. Əvvəl izn vermədilər, vəli sonra gördülər ki, oğlan sözə baxan deyil. İcazə verdilər. Oğlan icazə alandan sonra qoyunlardan bir kasa süd sağdı, qoydu evdəki taxçaya, atasına tapşırdı ki, hər vaxt gördün ki, süd taxçada su olub, inək qurdları kəmsikdən açıb ötürsün. Onlar gəlib məni taparlar. Qurd inəklərinə oğlan ətdən, süddən, yaldan verib becərib kökəltmişdi və yırtıcı öyrətmişdi. Qurtaranı oğlan öz ata-anasını tapmaq üçün evlərinə sarı yola düşdü. Yolda ərik dərdigi bulağın başına yetişdi. Gördü ki, əkdiyi ərikin üçü də bitib yekə nəhəng ağac olubdular. Ordan ötüb, xeylək yol gedəndən sonra öz kəndlərinə yetişib gördü ki, bu kənd çox səssiz-səmirsiz və xəlvətdir. Fəqət iki evdən tüstü çıxır ki, biri öz evləridi, biri də avuxarçı dəmirçinin evidi. Demə, bu oğlanın kündə yeyən bacısı yekəlib, qardaşı öncə deyən kimi adam yeyən olub. Bu kəndin adamlarının hamısını öz ata-anası qarışıq yeyib. Fəqət dişin savlayıb, ya avxarlayıb itilamaq üçün dəmirçini saxlayıb. Öz evləri-

nə baş varıb, gördü ki, ata-anası yoxdu, ancaq bacısı vardı. Bir-birini tanıyıb görüşdülər. Oğlan atasını soruşdu. Qız dedi:

– Cüt əkmağa gedip.

Anasını soruşdu, başqa işlərdən ötəri çölə gedib. Kənd əhlini soruşdu. Qız dedi:

– İşə-gücə gediblər.

Sonra qız qardaşına deyib dayan, qonşuya bir iş üçün baş vurum, gəlim. Qardaşı gözləyib. Qız tez qaçıb dəmirçini üstünə, deyib, mənim dişlərimi savla, istəyirəm qardaşımı da yeyim. Dəmirçi deyib dayan, biləvi tapıb gətirim, dişlərini sovlayım, ta itiləsin. Bunu deyib qızdan gizlin biləvi tapmaq bəhanəsinə evdən çıxıb, qaçıb qızın qardaşının üstünə və onu duyuq salıb ki, bacın kənd əhlini yeyib, indi istəyir səni də yeyə. Tez ol, buradan qaç. Oğlan ayaq götürüb qaçmağa. Qız duyuq düşüb oğlanın dalınca düşüb ki, qardaşını tuta, yeyə. Oğlan qaçıb, qız qavıb. Yetişiblər bulaq başında əkdiyi ərik ağaclarına. Oğlan görüb bacısı bunu haxlayıb ki, tutsun, yesin. Oğlan qorxusundan qaçıb çıxıb öz əkdiyi ərik ağaclarının birinə. Qız başlayıb ağacı yemağa, qardaşına yetişəndə o atılıb o biri ağacın üstünə. Qız ağaca çıxanmırmış. Yenə başlayıb o biri ağacı yeyib qardaşına yetişəndə, hopulub düşüb üçüncü ağacın üstünə. Yenə qız başlayıb ağacı yemağa. O tərəfdən oğlanın ögey ata-anası duyuq düşüblər ki, oğlanın taxçaya qoyduğu süd dönüb su olub. Oğlanın genə başının bəlaya düşmağının və xətərə tuş gəlmağını duyub yırtıcı qurd köpək açıb buraxıblar. İnəklər o zaman oğlana yetişıblər ki, onun adamyeyən bacısı üçüncü ağacı da yeyib istirmiş ki, oğlanı da yesin. Köpək qurdlar oğlanın tuşutmağılan qızı parçalayıb yedilər. Oğlan qurdlara deyir, bir damcı onun qanından bir yarpağ üstünə damızdırıp yadigar üçün mənə verin. Çün hər nə olandan sonra o mənim bacımı damcı da qalmaz. Qurdlar oğlanın buyruğun yerinə yetiriblər. Yəni bir damcı qan damızdırıb yarpaq üstünə oğlana veriplər. Və qızın heykəlinin qalanın elə dağıdıb yeyirlər ki, heç bir barata ondan qalmır. Sonra oğlan qurd köpəklərinən biləlik yola düşüb oğlanın ögey ata-anasına sarı getdilər. Yolun uzunluğu və uzaqlığı oğlanı yormuşdu. O, istəyirdi orda

otursun, dincəlsin və yorğunluğunu canından çıxartsın. Bir yandan da ürəgindən keçirdi ki, doğma atam-anam hərəsi bir təhərilən oldu, əlimdən gəldi, tək qaldım. Bir də ki, bu geniş dünyada yeyib yaşamağa dünya malından və varından heç bir zadım yoxdu. Və xərcimi də salmışam ögey ata-anamın başına. Özüm ayaq üstə dayanmağa gərək binövrəli fikirləşəm. Neynəməliyəm, bu fikirlər könlündən keçə-keçə yol gedirdi ki, bir karvana tuş gəldi. Karvanın yiyəsi böyük baş və bilici bir adam idi. Adı da Qanar idi. O, əvvəl oğlandan halını, adını və kimliyini soruşdu. Oğlan başına gələn oyunları və işləri Qanar tacirə söylədi. O dedi:

– Mənim adım Tapardı.

Tacir dedi:

– Oğlan, səndən bir neçə sorğu soruşacam. əgər düz cavab versən, mən bu karvanı ki, yükü qızıl-cəvahiratdır, sənə verip qayıdıb gedəcəyəm. Əgər düzgün cavab verməsən, səni öldürüb qurd köpəklərini də aparacam.

Oğlan dedi:

– Mən ki sənə söz cavabı borclu deyiləm, əgər düz təhvil verməsəm məni öldürəsən.

Tacir dedi:

– İnsan özü üzərinə və başqasına borcludu ki, düz deyişi və düzgün işi irəşə və başqasına da öyrədə haraçan başarsa işi bitirə.

Oğlan ölümdən qorxarkən hal dirılığının və dirçəkli dil ilən, cəsarətilən dedi:

– Buyur, hər nə sorğun varsa soruş, mən də cavab verim. Tacir əzəlbaş öz bildiklərindən soruşdu və dedi dünya nəyə bağlıdı və üstündə dayanıb?

Oğlan dedi:

– Dünya heç bir zada bağlı deyil və bir yerə dayanacağı yoxdu, bəlkə gəzir. Mumtəha kainat elə böyükdür ki, yarpaqlar buğanaqda fırlanan kimi dünyamız da bu kainatda fırlanır. Amma biz onun dəbrişməyini bilmirik. Nişanəsi də çoxdu, biri də gecə-gündüz idi.

Əl ağacını dik dayadı yerə, bir yanı kölgə, bir yanı günəş olarkən gecə-gündüzü ona tanıtdı. Tacir neçə sorğular da soruşdu. Cavabın düzgünlüklə dedi. Tacir genə soruşdu ki, dünyada bilici çoxdu, yoxsa biliksiz? Oğlan:

– Əlbəttə, biliksiz çoxdu. Çün bilicilər yol vermirlər onlar öyrəşə, əgər onlar öyrəşə və bilsə, qazançın yeyəcəyə və biliciyə ucuz dirə verməz.

Yeni sorğu:

–Ac yaşayan çoxdu və ya tox yaşayan?

Ac yaşayan çoxdu və aclar iki yanda, həm sağda, həm də soldadır. Sağda olan aclar çox varlı və pulludurlar, amma dünyanın hər nə varı, qazançı var, yeyərlər. Genə də qarınları doymur və amma solda olan aclar dünyanın hər nə qazançı var, onların işindən və işdədiklərindən çıxır. Amma yazıxların üzünə bir zad yetişmir. Əgər dilənsələr də yeyicilər ara qatıbonları bir-birinin canına salıb özlərini qırdırırlar. Yerdə qalan da həmişə ac qalır.

Tacir sorğunun məntiqi və düzgün cavabına boyun qoydu və bir yanda istəmirdi karvanı və dirləri və cəvahiratı müftəəldən versin. Hey sorğunu o yan, bu yana bururdu, ta cəavahiratı verməsin. O yandan da sözünün və qolunun altından qaça bilmirdi. Çün qurd köpəklərindən qorxurdu ki, onu parçalasınlar. Birdən gözü oğlanın əl ağacına toxundu. Soruşdu:

– Əlindəki nə ağacı və adı nədi?

Oğlan cavabında qaldı və danışığında topuq vırdı. Cibindəki yarpaq üstündə olanqan qətrəsi dilə gəldi və yavaşcadan dedi:

– Denə şəf ağacıdı.

Çün istəmədi qardaşı sorguda aciz qalıb tərəfə əsir və ölümə məhkum olsun. Oğlan bacısının qan qətrəsi öyrədən şəf ağacın dilə gətirdi. Tacirin sözü, sorğusu qurtarmışdı. Məcbur oldu karvanı yükü qızıl-gümüş və cavahiratı ilən oğlana təhvil verdi. Geri qayıtdı. Oğlan qafiləni yük iləm tacirdən aldı. Ögey ata-anasına sarı yola düşdü. Bir xeyli gedəndən sonra oğlan cibindən qanlı yarpağı çıxardı ki, bacısının qan qətrəsinə təşəkkür eyləyə və ona söz öyrətmağilən tacirin əlindən qurtarmışdı, minnətdarlığını bildirdi. Demə ki, qan qətrəsinin dirilib başqa bir

hovla olmaq rəmzi oğlanın qan qətrəsinin danışmağında imiş. Oğlan ta ağzın açdı təşəkkür eyləyə, qətrə təbdil odu nəhəngdir əjdəhaya və oğlanın xirtəgindən yapışdı ki, səni gərək yeyəm. Oğlan həddən artıq yalvardı ki, onu əjdəha yeməsin, fayda olmadı. Oğlan məcbur oldu qurd köpəklərini kişkirtdi və işarə elədi ki, əjdəhanı tikə-para elədilər və hamısını yedilər. Oğlan bu xətərdən savıldı, qızıl qafiləsini də götürüb qurd köpəkləri ilə birlikdə yola düşdü. Ögəy ata-anasının evinə yetişdi. Ata-ana öz doğması kimi oğlanı sevincikdən bağrına basıb öpdülər. Oğlan da onlara gözəl saraylar tikdi, imkanat yaratdı. Bir gün könlünə düşdü ki, getsin o əvvəlki qurdu görsün. Öz yanında olan ənik köpək qurd balalarını götürüb dağa sarı getdilər. Qurdların anası böyük qurdu tapdılar. Sorğudan soruşduqdan sonra qurdların anası oğlanı qınadı və danlandı ki, niyə mənim balalarımı aparıb arıqlatmısan. Söz uzuna çəkdi, axırda oğlan açıxlandı, yerindən qalxdı, əl ağacın götürüb qurdun kəlləsindən bir dəng gupadı və ana qurd yerbəyer sərildi və öldü. Qurdun balaları baxdı. Oğlana narahat və incik oldular. Və belə ki, deyirlər canlıların arasında qisasa qisas lazımdı. Ana qurdun balaları da şığıdılar oğlanı parçaladılar, yedilər. Bu nağıl bu cürə sona yetişdi.

## AĞILLI QIZ VƏ TƏNBƏL ƏHMƏD

Biri var idi, biri yoxudu, bir padşahın vəziri var idi. Padşah yaman darıxanhal idi, amma vəziri səbrli və dünyagörmüş qoca idi. Bir gün padşah ovdan qayıdanda, yolda bir qıçı axsaq, bir gözü kor qarıya rast gəldi. Qarıya yazıqlığı gəlib çağırdı, ona pul vermək istədi. Dedi:

– Ay qarı, buralarda nə gəzirsən, işin-peşən nədi?

Dedi:

– Mənim peşəm ev tikmək, ev yıxmaqdır!

Padşah dedi:

– Sən nəsən ki, ev tikib, ev yıxasan?

Qarı dedi:

– Bala, sən hələ bilmirsən ki, arvad yıxmayan ev min il tikilı qalar!

Padşahın bu sözdən xoşu gəlmədi. Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, arvad düz deyər.

Padşah dedi:

– Yox, yalan deyər.

Padşahın üç gözəl qızı var idi. Qızların başına yığdı. Böyük qıza dedi:

– Bala, de görüm, evi arvad tikir, ya kişi?

Böyük qız dedi:

– Əlbəttə, kişi!

Padşah orta qızına da dedi:

– Sən de görüm, evi arvad tikir, ya kişi?

Ortancıl qız da dedi:

– Ata, arvad nədir ki, onun tikdiyi ev nə ola?! Əlbətdə, evi kişi tikir.

Padşah bu dəfə də kiçik qızından soruşdu ki:

– Qızım, bəs sən nə deyərsən?

Kiçik qız dedi:

– Ata, evi arvad tikir.

Bu söz padşaha yaman toxunub dedi:

– Nədən ki, belə olur, səni evsiz-eşiksiz lütün birinə verəcəyəm. Ondan sonra baxaq görək, sən necə ev tikəcəksən?

Şəhərin lap kənarında qarı bir qocanın tənbəl oğlu var idi. Adına da "Tənbəl Əhməd" deyərdilər. Əhməd o qədər aciz idi ki, heç yerindən tərpənmək istəməzdi. Padşah qoca qarını çağırdıb dedi:

– Qarı, mən kiçik qızımı sənin oğluna verirəm, onu da götür, get.

Qarı dedi:

– Ay padşah, təsdığın olum, sənin qızın hara, mənim oğlum hara? Oğlumun əynində bir paltarı yoxdur, çığırsan canı çıxar, yeməyə bir tikə çörəyi yoxdu. Oğlum o qızı necə saxlar?

Padşah dedi:

– Qarı, sənin işin olmasın. Apar, qızımı verdim sənin oğluna.

Qarı kor-peşman qızı yanına salıb, getdilər evlərinə. Əhvalatı oğlana dedilər. Əhməd bu işə lap məəttəl qaldı, qız evə gələndən sonra baxıb gördü ki, Əhməd o qədər ərincəkdir ki, heç yerindən tərpənmək istəmir. Çörəyi də elə yatdığı yerdə yeyir. Odur ki, padşahın qızı süfrəni evin lap yuxarı başında saldı.

Əhməd çağırdı ki, mənim payımı gətirin, yerimdə yeyim, qız razı olmadı. Əhməd gördü, acından öləcək, əlacı kəsilib sürünə-sürünə süfrə qırağına gəldi.

Qız hər gün süfrəni evin yuxarı başına salıb, Əhmədi ora çağırardı. Bir neçə gündən sonra Əhməd day özü durub gedirdi süfrə başına. Qız gördü Əhməd qoçaqlaşıb. Bu dəfə süfrəni baxçada, göy otun üstünə saldı. Əhmədi çağırdı. Əhməd yenə getmək istəmədi. Qız gedib itələyə-itələyə Əhmədi süfrə başına gətirdi. Əhməd çörəyi yeyib, yenə getdi evə. Belə-belə qız hər gün süfrəni həyətdə salıb, Əhmədi ora aparırdı.

Aradan bir neçə gün keçəndən sonra padşahın qızı Əhmədi küçəyə aparmaq istədi. Əhməd ki, girdəkanı və fındığı çox sevərdi, qız qapyıa girdəkan, fındıq töküb, Əhmədi küçəyə çağırdı və dedi:

– Ay mitilin biri, evdə oturub neyləyirsən?

Əhməd birtəhər durub fındıqları, cöyüzləri yığışdıra-yığışdıra düz küçə qapısına çıxdı. Elə bu vaxt küçədə qodu-qodu oynayırdılar. Əhmədin xoşu gəlib, bir az da irəli gedib qodu-qoduya baxdı. Sonra qayıdıb evə gəldi. Padşahın qızı Əhmədə dedi:

– Gərək gedib işləyəsən.

Əhməd dedi:

– Axı, mən nə iş görə billəm?

Qız dedi:

– Sən çıx küçəyə, denən ki, ay iş gördürən, ay iş gördürən. Kim sənə yaxınlaşıb bir söz desə, get. O sənə iş gördürər.

Əhmədi birtəhər küçəyə çıxartdı. Əhməd yolun ortasında durub, hərdənbir, "ay iş gördürən" deyirdi. Birdən bir kişi gəlib Əhmədə dedi:

– Oğul, mənim bir bağım var, gəl onu bellə, hər gün sənə bir şahı pul verrəm.

Əhməd kişinin yanına düşüb getdi. Axşama qədər onun bağında yer bellədi, bir şahısın alıb gəldi. Yolda gördü, pişik satırlar. Bir şahısın verib pişiyi aldı. Əhməd evə gəldiyində, padşah qızı dedi:

– Əhməd, nə qazandın?

Əhməd dedi:

– Bir şahı qazanmışdım, onu da verdim, bir pişik aldım.

Qız dedi:

– Əhməd, sən gərək sabahdan səfərə çıxıb gəzəsən.

Əhməd dedi:

– Mən necə səfərə gedə bilərəm?

Qız dedi:

– Sabah gedərsən bazara, yolun qırağında dayanıb gözlərsən. Görəcəksən ki, dəvə karvanları gedir. Gedib karvanbaşıya deyərsən ki, məni də özünüzlə aparın, yolda sizə kömək edərəm. Onda olar razı olarsa, qoşulub gedərsən.

Səhər açılanda Əhməd qız dediyi kimi elədi. Gedib yolun kənarında gözlədi. Gördü ki, dəvə karvanları gəlir, gedib karvanbaşıya dedi:

– Məni də özünüzlə aparарsız?

Karvanbaşı dedi:

– Aparram, mən göydə adam axtarırdım, indi yerdə əlimə düşdün.

Demə, karvanbaşı karvan qabağında belə bir adam aparармış. Yolda bir səhralıq var idi. Oradan keçəndə karvanın suyu tamam qurtarармış. Haman səhrada bir quyu var idi. Karvanbaşı yanında aparan adamı bu quyuya sallardı, ta oradan su çəksin. Sonra adamı qeytərərmiş.

Karvanbaşı Əhmədi özü ilə götürüb yola düşdülər. Az gedib çox dayandılar, çox gedib az dayandılar, dağlar aşıb, sular keçdilər, gəlib haman səhraya çatdılar. Suları tamam qurtarmışdı. Adamlar, dəvələr susuzluqdan yanırdılar. Karvanbaşı Əhmədə dedi:

– Bala, gəl səni sallayaq quyuya, sən bir az bizə su çək.

Əhmədin heç nədən xəbəri olmayıb, gəldi quyu başına. Belinə ip bağlayıb salladılar quyuya. Əhməd quyunun təkinə yetişib, kəndiri açıb, bir xeyli getdikdən sonra bir çaya rast gəldi, tuluğlarını doldurub hayladı ki, çəksinlər. Elə tuluğları taza çəkmişdilər ki, birdən bir nərilti səsi qopdu, Əhmədin az qaldı bağrı çatlasın. Bir də gördü, başı üstə bir bədheybət dev durub. Dev nə dev, boyu minarə, qulaqları çinar ağacı, buynuzları nizə kimi, yeddi başlı. Hər bir qolunda yeddi dəyirman daşı, alt dodağı yer süpürür, üst dodağı göy süpürür. Ağzı dəyirman kürəsi. Əhməd istədi qaça, gördü yox, olası iş deyil. Qaçmağa yer yoxdu. Dev dedi:

– Ay bəni-adam, bura quş gəlsə, qanad salar, indi sənin ətini qaşıqcan, sümüyünü aşıqcan eləyəcəyəm. Hara qaçmaq istirsən? Gəl dalımcan. Səndən bir söz soruşacağam. Əgər cavab verə bilsən, səninlə işim yoxdu, cavab verməsən, onda ölməlisən.

Əhməd qorxusundan tut yarpağı kimi əsə-əsə devin dalıcan gedib bir qəsrə çatdılar. Qəsr nə qəsr! Hər yer zər-ziba, otaqlar qaş-daşlı, ləl-cəvahir dopdolu. Bir cah-cəlal var ki, adamın ağzı açıq qalır. Dev otaqdan-otağa keçib otuz doqquz qapı açdı, qırxıncıda dayandı. İçəridə bir qızıl məcməyidəki yaşıl qurbağaya baxıb dedi:

– Ay bəni-insan, de görüm, dünyada ən gözəl nədir?

Əhməd dedi:

– Ən gözəl könül sevəndir.

Bu söz devin xoşuna gəldi, çün özü haman qurbağanı sevirdi. Dev Əhmədi öldürməyib, ona bir nar, bir girdəkan bağışladı. Əhməd devdən ayrılıb düz gəldi quyunun dibinə, nə qədər səsləndi, harayına çatan olmadı, çün karvan köçüb getmişdi.

Sənə kimdən deyim, pişikdən. Əhməd karvanla yola çıxanda onu da özilə götürmüşdü. Elə ki Əhməd quyuda qaldı, karvan yola düşdü, pişik quyunun başından əl çəkmədi, quyunun qırağında o yandan bu yana, bu yandan o yana gedib mıvıldayırdı. Bir gün, bir gecə orada dayandı. Səhər tezdən uzaqdan bir karvan gəlirdi. Karvan gəlib quyunun yanından keçəndə, karvanbaşı gördü, bir pişik quyunun başında özün ələk-vələk eləyir, karvanbaşı quyunun yanına gəlib, gördü bir səs gəlir ki:

– Ay yoldan keçən, məni quyudan çıxardın!

Karvanbaşı yoldaşların çağırdı, kəndir salıb Əhmədi quyudan çıxartdılar. Əhməd başına gələn qəza-qədəri söylədi. Sonra karvanla birlikdə gedib, bir Cındırqayışlar şəhərinə çatdılar və bir evdə qonaq oldular. Axşam çağı süfrə salınıb, yeməklər ortaya qoyulduqdan sonar, ev yiyəsinin ki uşağı çoxudu, gəlib hər bir uşağa bir toxmaq alıb onların başları üstün kəsdilər. Karvandakılar belə fikir elədilər ki, onlar istirlər bunları öldürsünlər. Ona görə karvanbaşı dedi:

– Ay qardaşlar, əgər siz bizləri öldürmək istirsiz, barı çörək yemədən öldürün, ta çörək yemədən canımız qurtarsın. Bu nə adətdir ki, çörək verib öldürürsüz?

Ev yiyəsi dedi:

– Biz sizi öldürmək fikirində deyilik. Qoyun ortalığa çörək qoyulsun, ondan sonra görün ki, biz nəyi gözləyirik.

Çörək salınan zaman birdən-birə o qədər Cındırqayış töküldü ki, bir zərrə çörək də qalmadı. Cındırqayışlar qonaqların başından təpələrinə qalxırdılar. Nə qədər əl salıb, onları qopartmaq istədilər, qopmadılar. Sən demə, toxmaqları elə bunlardan ötrü saxlamışdılar. Amma hər nə toxmaqla cındırqayışı vurdular, beş-on cındırqayışdan çox öldürə bilmədilər.

Cındırqayışlar qaçıb dəlik-deşiklərə girdilər. Karvançılar lap şaşqın qalmışdılar ki, birdən Əhməd ev yiyəsinə dedi:

– Qardaş, məyər sizdə pişik yoxdur ki, gətirib bunları qovalasınlar?

Ev yiyəsi dedi:

– Pişik nədi? Bizim yerdə elə bir şey yox!

Əhməd gördü, buralarda pişik yox, ona görə də gedib öz pişiyin gətirdi. Tazadan yemək gətirdilər. Əhməd pişiyi evə buraxdı.

Cındırqayışlar bacalardan çıxan zaman pişik birin burda, birin orda basmarladı. Hamısın boğub öldürdü. Ev yiyəsi bu işə lap heyran qalmışdı. Ona görə Əhmədlə danışdı ki, pişiyi dəvə yükü dolu qızıla dəyişsinlər. Əhməd bunların hamısın dəvələrə yüklədi və evinə sarı yola düşdü. Özü də hər yerə yetişdiyi za-

man orada da alver eləyib çoxlu pul qazandı. Sonra pulları və qızılları tapşırdı karvanbaşına ta onları evinə qaytarsın.

Bunları burda qoyaq, sizə kimdən xəbər verim, padşahın kiçik qızından. Qız da qızılları alan zaman gedib bazardan bir neçə bənna və bir çox əmələ tutub bir yeddimərtəbə imarət tikdirməyə başladı. Bir imarət oldu ki, padşahın imarəti bunun yanında daxmaya oxşayırdı. Qız Əhmədin göndərdiyi narı bölüb yemək istəyən zaman gördü ki, doludur ləl-cəvahirlə. Durub onları bazara apardı və evə bir çox ayın-oyun aldı. Xeylaq zamandan sonra Əhməd səfərdən dönüb evinə qayıtdı. Öz evinin yanında yeddi mərtəbə bir imarət gördü. Qapıdakı nökərlərdən öz evinin yerin soruşdu. Dedilər:

– Sən dediyin ev elə burasıdır. Ev elə bu imarətdir.

Əhməd elə bildi ki, onu ələ salırlar. Bir də xəbər aldı:

– Ay qardaş, məni ələ salma, düzün de, bura kimin evidir?

Bu bəhsdən, Əhmədin hay-küyündən, anası qapıdan çıxıb, oğlunu qucaqlayıb dedi:

– Ay oğul, yoxsa evini tanımırsan? Sən gedəndən sonra arvadın tikdirib.

Bəli, Əhməd evə gəlib, evin cah-cəlalın görüb, heyran qaldı. Padşahın qızı onu görüb qabağına çıxdı. Evi necə tikdiyini ondan soruşdu. Sonra Əhmədə bir dəst ipəkdən padşahlara layıq paltar verib, gözəl geyindirdi. Paltarları Əhmədə geyindirdikdən sonra dedi:

– İndi hazır ol, gedək atamı qonaq çağıraq. O, səndən nə soruşsa, düzünü de.

Səhər olub, qız padşahı bütün adamları ilə birlikdə evlərinə qonaq çağırdı. Padşah qızıgilə gəldiyində, evi görüb gözlərinə inanmadı. Öz sarayı bunun yanında belə tövlə hesabında idi. Yeyib-içdikdən sonra padşah Əhməddən soruşdu:

– Denən görüm, bu cəlalı kim düzəldib, bu evi kim tikib?

Əhməd bütün əhvalatı başdan-ayağa padşaha söyləyib dedi:

– Padşah sağ olsun, bu evi sənin qızın tikib.

Qız bu sözi eşidən kimi girib, üzün atasına tutub dedi:

– Ata, indi gördün ki, evi arvad tikir!

Padşah qızının doğru dediyinə inanıb qəbul etdi və başın aşağa saldı. Tazadan yeddi gün-yeddi gecə toy tutub, qızın Əhmədə verdi.

## KEÇƏL

Qədimdə diyərlər İsfahanda iki qardaş var idi: birinin adı İsmayil idi. Bu İsmayilin qardaşının bi oğlı var idi, bi qızı. Bu gedirdi (Allah sizə ruzi eləsin) Məkkiyə, bu qızın tapşırdı öz qardaşına. Ər-arvad oldı, oğul, bılar getdilər Məkkiyə. Bılar Məkkiyə gedənnən sora, bu İsmayilin qardaşı ki qızın tapşırmışdı bına, bu öz qardaşı qızına müştəri oldı. Dedi:

– Gərəh mənnən (bağışlıyun) başuu bir eliyəsən.

Xüləsə, bu dedi, baba, bu cür, belə bi şey olmaz. Çox deyənnən sora, xüləsə, bu qız bına baj vermədi. Gün o gün oldı ki, bılar Məkkədən qayıtdılar gəldilər. Gəldilə, məsələ, bizim dilə gələn, gəldilə Təbrizə, nama yazdı qardaşına ki, "biz gəlirik. " Naməni bi nəfər qasıd gətdi verdi bına, verənnən sora bu qardaşına, qardaşı götdi, mının muqabilində yazdı: "Qardaş, sən ki Məkkiyə gedipsən, sənin bu qızun bu cür işdərdən çıxıp. " Oğlun göndərdi qabağıcax, dedi: "Gedərsən bacıvu apararsan, cəzirədə başın kəsərsən, libasını qanına bular, sürərsən, gətirərsən mənə". Mının qardaşı gəldi, bını mindirdi ata, bizim dilə gələn da bacıdı, qardaşdı, ürəginən gəlmədi bını öldürə. Bını götdi apardı cəzirədə bıraxdı bacısın. Bacısı qaldı cəzirədə, neçə müddət qalannan sora bının libası-zadı əyninnən, beyinnən getdi, cəngəldə, məsəl, cəngəl meyvəsinnən zaddan yeyitdi, bu cür.

Bir gün bi dənə şahın oğlıynan, vəzir güzarı tüşdi bu cəngələ, bu şahın oğlı gəlip geçəndə gördi, bi dənə zənən, məsəl sıxılıp bi dənə ağacın dibinə, bının libası yoxdı: əynində paltosu vardı, çağatdı atdı bının üstünə, bu qız götdi geydi əyninə. Bu şahın oğlı baxdı gördü, bu elə doğurdan da, bi dənə gözəl bi zənəndi, qızdı, mindirdi atına, dedi:

– Vəzir, mən şikarımı vırdım, gəl qayıdax gedax.

Bılar qayıtdılar, gəldilər, gətdi bu şah oğlı bu qızı ötürdi öz hərəmlərinin içinə, müddət qalannan sora adam göndərdi dədəsi-

nin üstünə ki, o qızı ki mən gətimişəm, gərəg izdivac eliyəsən mən için. Dedi, baba, o bi dənə çöldən tutulmadı, mənə şahların qızın, hər kimin şahının qızın istiysən, mən sənə alım. Dedi, yox, mən elə onı istirəm. Gətdi həmən bu qızı, izdivac elədi oğluna. Bıların iki dənə öylatdarı oldı, öylatdarı olannan sora bir gün bu şah oğlun çağırdı, dedi ki, axı heş bilmirik bu şah qızıdı, geday qızıdı, mının dədəsi var, nənəsi vardı, ya yoxdı. Bir gün bu qızı qoşdı vəzirə, dedi ki, apararsan mını İsfahana. Bının görək aya dədəsi var, nənəsi var, famili var, nəyi var. Bu vəzir bir də leşgər götdi, bu qızı da oğlannarıynan götdi, tüştü yola. Müddət gedənnan sora bi məhəldə bılar əyləşdilər, çadır-filan vırdıla, əyləşdilər orda. Bu vəzir, xüləsə, bu arvada müştəri oldı. Gəldi mının yanına, dedi, gərəg sən mənnən bir olasan. Bu qız qabul eləmədi, eləmədi durdı, uşaxların da qoydı, qaşdı qaçasan, geceynən üz qoydı biyabana. Bu vəzir hay güddü, bu gəlmədi, çağırdı, gördü səsi uzaxdan gəlir, dedi:

– Bax, qayıtmasun uşağuvun birin başın kəsəciyəm.

Bu qayıtmadı, uşağının birin başın kəsdi, o birisini də kəsdi, bu arvat qayıtmadı. Bu arvat gəldi, gördi bizim dilə gələn, bi dənə çoban bılağın başında heyvanın yatırdıp əyləşip. Bının da arvat yoxudı: bunı görcəyin durdı, bına (xüləsə, şahın gəlinidi də), Allah səni yetirip mənə, arvadım da yoxıdı, gətdi bi dənə qoyun kəsdi, kabab elədi, yedilər. Xüləsə, yeyənnən sora dedi ki, ağıllı ol, sən mənə yaxun gəlmə, get, bacunnan, nənünnən kətdən gəti, məni qoş, aparsınnar evüvə. Onnan, səhər gedərik molla yanına, rəsmiyyətinən mənə kəbin kəsərsən. Çoban durdı qaşdı kəndə, bu qız gətdi bu qoyunun dərisin, türkün məsəli, keçirtdi başına, oldı bi dənə keçəl. Çobanın libasın geydi, ağacı əlinə, heyvanı bıraxdı, üz qoydı qaçağa. Üz qoydı qaçağa, gəldi çıxdı İsfahanın şəhrinə. Gəldi çıxdı İsfahanın şəhrinə, o məhəlli ki varıdı, özlərinin məhəlli, gəldi, olarda dolanırdı. Bının nənəsi çıxdı gördi, bi dənə keçəl bıların qapısında dolanır, ama bının gözdəri, eyni qızının gözi. Qızın elə bil başın kəsifsən, qoyupsan mının başına. Bını gəldi ərinə dedi:

– Valla, bu cür bi dənə keçəl xıyabandadı, onun gözdəri elə bizim qızın gözdərinə oxşuyer, gə sən onu elə xıdmətkar saxla, atdara baxsın, mənim belə xoşuma gəldi.

Gəldilə, bu keçəli apardıla, özlərinə xıdmətkar (öz dədə, nənəsidi) qarar verdilər. Çoban gəldi heyvanın yanna, gördi, baba, nə arvat var, nə bi şey. Tüşti bu da arvadın dalına, gəldi çıxdı İsfahanın şəhrinə, besab arvadı axtarır.

Bu şah hay güddi, gördi, xəbər olmadı, vəzirə dedi:

– Bə sən apardun bu gəlinə nooldu?

Dedi:

– Valla, apardım qoydum öylərində.

Yalannan dedi. Təzədən oğlın qoşdı vəzirə, bir qədər leşgər götdilə, bir gün, hay bir gün gəldilə çıxdıla İsfahanın şəhrinə. Xəbər aldılar ki, bəs Hacı İsmayılın məsəl evi, bizim dilə gələn, harda!? Xəbər verdilə, gəldilə. Gəldilə çıxdıla İsmayılın evinə. Bu gətdi bıları qəşəg bi dənə apartımanda qarar verdi, əyləşdilə. Bu şahın oğlı hay baxdı gördü, məsəl arvadınnan, uşaxlarınnan belə bi xəbər yoxdı. Bılar bi dənə məclis təşkil vedilər, bu şahın oğlı gördi arvadınnan, uşaxlarınnan xəbər yoxdı, bu çox narahat oldı, dedi:

– Baba, sən (İsmayıla dedi) bi nəfər gətirəsən, bizim dilə gələn, gələ bırda, dastan danışa. Mənim bi az fikrim aram tapa.

Dedi:

– Valla, belə bi adam yeri bilmirəm, bizdə bi dənə bu cürü keçəl var, o şayəd, bilmirəm ki, bilə, ya bilmiyə.

Bu qız gəldi. Gəldilə bını gətdilə. Bu qız gəldi gördi çoban da bırda, əmisi də bırda, şahın oğlı da bırda, dədəsi də bırda, vəzir də bırda. Dedi ki, mən bi dənə dastan danışacağam (bu keçəl), hər kəs çölə gədəcək gessin. Xüləsə, mən danışannan sora heş kəsin həqqi olmasın çölə çıxa. Çobana dedi:

– Arvaduu verəciyəm sənə, dur qapıda, heş kəsi qoyma çölə çıxa.

Çoban da Allahdan istiyer. Deyir:

– Arvaduvu vərəciyəm sənə, arvaduvun yerin bilirəm.

Bu başladı, keçəl dedi ki, mənim bi dənə babam varıdı, bu cür danışardı. Qədimdə mən uşağıdım, babam danışardı: İsfahanda bi dənə Hacı İsmayıl varıdı, Məkkiyə gedir, qızın tapşırdı qardaşına, getdi Məkkiyə. Məkkiyə gedənnən sora (babam bu cür danışardı) bu qardaş qardaşı qızına müştəri oldı. Belə deyəndə bu bırdadı da, bu İsmayılın qardaşı ki, öz qardaşı qızına müştəri olurdu, bu sancılandı. Çobana dedi:

– Sən icazə ver!

Dedi:

– Yox, heş kəsin həqqi… Çoban, qoymıyacağsan heş kəs çıxa çölə, mən arvaduvu verəciyəm.

Bu sancılandı, qardaşı, bu İsmayıl gördü, baba, bu elə özüdi. Dedi, bəli, bir gün Məkkədən Hacı İsmayıl gəlir, bi nama yazer qardaşına ki, biz gəlirik, mənə qurban filan təşkil ver. Qardaşın namanin cavabında yazır ki, sən gedənnən sora sənin qızun bu cür İsfahanın lotularıynan məsəl, baş bir eliyirlə. İsmayıl gördi, baba, bu elə öz sözüdi. Oğlun göndərir Hacı İsmayıl, deyir, gedərsən, bacuu apararsan filan cəzirədə başın kəsərsən, qanlı köynəyin gətirərsən mən içın. Qardaşı aparır, ürəyinnən gəlmir başın kəsə (baba bu cür danışardı, indi bu keçəl deyir). Gün o gün olur, bi dənə şahın oğlı, vəzirinən ras gəlir cəzirədə bu qıza. Şahın oğlı bu qızı götürür gedir, özünə əyal ixtiyar elir. Əyal ixtiyar eliyənnən sora bir günnəri bının iki dənə oğlı olur. Bu şahın oğlı görür, baba, bu elə özüdi, öz sözüdi bının. Bılar dəqiğ qulax verillə, bu deyir mənim babam mənə danışardı, uşağ idim. Xülasə, bir gün (məsəl) vəzir götürür şahın oğlının arvadın (besab) aparır İsfahana dədə-nənəsinin yanına, yolda deey ki gərəh… bu vəzir deyir, mənnən başuvu bir eliyəsin. Bu da eləmir (babam bu cür danışardı), eləmiyənnən sora bu vəzir uşaxların ikisinin də başın kəsir. Bu şahın oğlı görür, ba dədüünən, vəzir də görür e, elə buların öz sözləridi. Onnan sora, xülasə, o qız ordan qaçır gəlir, bi dənə çobana ras gəlir. Çoban deyir, ay keçəl, dədəm qurban sənə, elə odı. Çobana ras gəlir, çoban da … Xülasə, çobanın da başın alladır, çobanı yolleer kənde (baba bu cür danışardı), yolleey kəndə, yollıyannan sora… Bu səfər gəlir gö-

rür arvat yoxdı, arvat da qoyunun dərisin keçirdir başına, olur bi dənə keçəl. Elə o məclisdə börkü götürür, qoyur yerə, tükləri tökülür. Xüləsə, Hacı İsmayıl da görür öz qızıdı (ərzi bə hüzür), şahın oğlı da görür öz arvadıdı ki, başına bı qəzavü qədər gəlip. Orda bi səfər həmin İsmayılın qardaşın da öldürüllə, vəziri də öldürüllər, çoban görür dədə vay, vəz xaraptı, çoban qoyur qaçır. Yedim, işdim, sənün gəldim xıdmətüə yetişdim.

## ÇOBANIN OĞLU

Bi dənə çoban vardı, bu çobanın bi dənə oğlu vardı, dərsə gedərdi, bi dənə də o dörə padşahun qızıynan dərs oxurdula bılar ikisi, bılar həmqılasdıla bir-birləriylə. Həmqılasdıla, elə oğlan da cavan idi, qız da cavan idi. Günnərün bir günü qız dedi ki:

– Ay oğlan.

Dedi:

– Hə.

Dedi:

– Mənim sənə elə alağam var ki, düz sözü, səni görmiyəndə bağrım çattır, həmi həmqılasıx, həmi sənün suyun mənə çox xoş gəlir.

Dedi:

– Xob, sənün mənə alağun var. Sən bi dənə şah qızısan, mən bi dənə çoban oğlı. Allah səni mənə qısmət eləsə, gələrsən?

Dedi:

– Niyə gəlmərəm, səni də Allah yaradıb, məni də Allah yaradıb, çox da şah qızıyam, sən çoban oğlusan. Sənün dərsün, mənnən də yaxçı, cavannığun mənnən də yaxçı.

Da, bu bir-iki kəlmə sözü bırda danışdıla. Bu oğlan bir gün getti, nənəsi için danışdì, dedi:

– Valla, nənə, şahın qızıynan bi dənə bü cür söz danışdım, o qız mənə bu sözü dedi.

Dedi:

– O sənə aşıq olub, qoy deyim, dədün səhər gessin xastqarlığa.

Dedi:
– Evün dağılsın, o necə gessin, o bi dənə şahın qızı, mən bi dənə çoban oğlı.
Dedi:
– Baba, o yalvarır gələ, başuva da dönər, gələr, mən kəniz, dədün nökər, işlərəg, o yəər da.
Dedi:
– Baba, gə, əl öpək!
Dedi:
– Olmaz.
Gecə arvad kişiyə dedi:
– Kişi, evün dağılsın, şahun qızı aşıq olub oğlana, səhər get xastqarlığa.
Dedi:
– Arvad, belə iş olmaz!
Dedi:
– Olar, yalvarır. Gələr, sənin işün yoxdu.
Oğlan o gün getti mədrəsiyə. Səhər getmədi, qoyunu aparmır çölə. Bəli, bu durdu, kişi durdu, (bi dənə məin kimin ķargər, biçarə, ağa, paltar cunuz) bi dən də dağarçığa çörək qoyub, dalına aslıyıb getdi. Bəle, yetişdi dərbara. Yetişdi gördü baba, nigəhvan, pasıban, durub, dedilər:
– Qoca, nə zülm oluf!?
Dedi:
– Zülm sizə olsun, mənə nə zülm olub!?
Dedi:
– Be hara gedisən!?
Dedi:
– Mənim xeyirri işim var, icazə verün gedim, şahınan sözüm var.
Dedi:
– Evün dağılsın, bu cür qoymazla.
Dedi:
– Ağa, qoyalla, mənim xeyirri işim var, zülm özüzə olsun, nə zülm olacax mənə. Mən xeyirri işə gedirəm.

Geşdilə, dedi:

– Qiblei-aləm sağ olsun, valla, bi dənə çoban, dalında bi dənə bir şey aslanıb, deyir, mənim xeyirri işim var. Deyir, zülm özüzə olsun, nə zülm, mən xeyirri işə gedirəm, bəs, icazə verün gedim şahun yanına.

Dedi:

– Xub, yol verün, qoyun gəlsin.

Dedi:

– Gə geç.

Geşti, gördü hə, vəzir-vüzəra, vəkil, şah hamısı oturufla, bılar baxdıla.

– Səlam-əleyküm!

– Əleykə-səlam!

– Ağa, sənə nə zülm olı!?

Dedi:

– Ağa, zülm məni istəmiyənnərə olsun, nə zülm, mən xeyirrigə gəlmişəm, bu şahı mənə tanıttırun.

Bılar gördü xaxol bir adam gəlib, dedi:

– Neynisən!?

Dedi:

– Ağa, mənim şahınan sözüm var da! Siz bu şahı…, mən görüm, hansuz şahsuz?

Dedi:

– Ağa, şah, qıble-aləm odey, odu!

Dedi:

– Valla, danışmağun karı yoxtı, sənün qızunan mənim oğlum həmqılasdı, həmdərsdilə, bəs qızun mənim oğluma aşıq olub, icazə verəsən, toyu eliyək.

Bu şah bi güldi, vəzirə baxtı, vəzir vəkilə baxtı, bu ona baxtı. Dedi:

– Baba, götürün bunun əngin basun.

Vəzir dedi:

– Qiblə-aləm sağ olsun, o bi dənə biçarə, bi dənə xaxol bi adamdi, nəyın öldürəsən, onu Allah öldürüf də. Ona bi dənə söz

de, qo gessin, onun nəyin öldürüsən, o bi dənə biçarə adamdı, o annamır ki, danışmağı.

Dedi:

– Xob, sənün oğlun şuqli…?

Dedi:

– Mənim oğlun şuqli heş zad, dərs oxur sənün qızuunan.

Dedi:

– O şuqul döy, apar oğlun şuqula qoy, şuqul örgənsin öziyçin, gəlsin qızı verim.

Dedi:

– Allah sənə ömür versin, elə arvad deyir ki, "yalvarıb verəcəh".

Qəyitti:

– Xudafis!

– Xudafis!

Ağa, bu gəldi, dedi:

– Arvat!

Dedi:

– Hə.

Dedi:

– Arvad, elə sən deyən düz oli, verir, dedi şuqla qoy.

Dedi:

– Oğlan, səhər getmə mədrəsiyə.

Dedi:

– Evün dağılsın, dədə, sən işdən çıxdun? Sənün çırağun geşsin, necə şuqla, baba, mən…

Dedi:

– Baba, yalvarır, bədbax, bizdən yaxçısına verəcəg!? Mən kəniz, dədün də çoban, gedər qəşəg işlər, gətirir yeyün, içün kefüzü çəkün.

Dedi oğlanı səhər aparacam şuqla qoyam. Bəle, səhər oğlanı götdü, day mədrəsiyə qoymadı, götdü bını apardı. Aparır bını qoya şuqul örgənə. Getti, bi dənə dərbüşi-cadu fel darış gəldi bına. Gördü bi dənə qoca, bi dənə cavan oğlan aparır. Nə oğul, adam oğlanun cavannığına, boy-buxuna baxır, adam doyur. Dedi:

– Qoca, hayana aparırsan bu oğlanı!?
Dedi:
– Valla, bını aparıram şuqla qoyam.
Dedi:
– Qoy mənim yanımda.
Dedi:
– Sən şuql…?
Dedi:
– Bəle, hər şuql desün bına örgədərəm.
Dedi:
– Çox qəşəg. Mən bını qoyacam da, ya sən ol, ya hər kim olsun. İndi ya bilmədim əlinə verə, ya ala.

Bını qoydu bının yanında şuqlu, gedə şuqul örgənə. Verdi oğlanı, qəyitti. Oğlanı verdi dərbüşə, dərbüş də cadu-fel, dərbüş götdü oğlanı, qoca qəyitti gəldi evinə. Bu dərbüş bını apardı, yetirdi bi dənə məqqariyə, ağa, bi dənə dua oxudu, məqqarə getti göyə, bi dənə tünel açıldi, dedi:

– Oğlan, geç!

Oğlan geşdi, dedi:

– Xudaya, dədəmü evi dağılsın, bırda nə şuql örgənəcəm mən. Məni gətti bıra.

Geşdi, hay getdilə, gettilə, yetiştilə, gördü yerün altında bi dənə qız, cavan çox vəceh oturub (vəceh, yanı çox gözəl, göyçək) dedi:

– Qız! (qız da dərbüşün qızıydi)
Dedi:
– Hə.
Dedi:
– Oğlan, adun nə?
Dedi:
– Mənim adım Məhəmməddi.
Dedi:
– Qız!
Dedi:
– Hə!

Dedi:

– Qız, bu Məhəmmədi gətimişəm, bına qəşəg örgədəsən cadu-feli, qırh gün sənə vax verirəm, mürəttəb örgədərsən. Örgədənnən sora, mən gedirəm gələcəm mən, bını oxuyacam, bi dənə bına qəşəg çumux vıracam ola mücəssəmə, qoyam xəzaniyə. Bının mücəssəməsi, xəzanədə day qiyməti yoxtu, amma yaxçı örgədə, yeməyin də yaxçı ver.

Dedi:

– Baş üsdə!

Dedi:

– Xob.

Oğlana tafşırdı, bu qəyitti. Qəyitti, qız dedi:

– Oğlan!

Dedi:

– Bəli!

– Adun nə?

Dedi:

– Adım Məhəmməd.

Dedi:

– Evün dağılsın, Məhəmməd, sən hayannan gəldün darış bu dədəmün çənginə? Bu dədəm kafərdi, müsəlman döye, səni bəyəm qoyar bırdan diri çıxasan?

Dedi:

– Vallah, mənim dədəm, bəsab gətti mənə şuğul örgədə.

Dedi:

– Xob.

Qız da bu oğlana bir göyüldən min göyülə aşıq oldi. Aşıq oldi bu oğlana, dedi:

– Məhəmməd!

Dedi:

– Hə.

Dedi:

– Məhəmməd, mənim sözümə baxarsan, səni baladan rəəd eliyəm?

Dedi:

– Baxaram.

Dedi:

– Mən vəli, səni bırdan çıxarttım, gettün, mənim dalımca gələsənə!

Dedi:

– Gəlləm.

Dedi:

– And iç.

And içəllə, and-qəssəm eləllə, bu gessə gələ bının dalıyca.

Dedi:

– Oğlan!

Dedi:

– Hə.

Dedi:

– Məhəmməd, evün dağılsın, mürəttəb dərs örgən.

Qırh gün bını yedirtti, Məhəmməd bi dənə pəhlivanı oldu qəvi heykəl, dərsin qutardı, örgəndi, qırh gün başa gəldi. Başa gəldi, dedi:

– Qırh gün ki başa gəldi, dədəm gəldı, sənə deyəcəh: "Məhəmməd, gət gə kitabı, aş oxi" Açacax, ohumuyasan a! Desə, "bu nədi?" denə "bilmirəm", "o nədi?" "bilmirəm", "o nədi", səni vıracax. Diyəcəh, "bəs çəpbəli-haramzadə, bə sənə, əşşəyə yasin oxurdux: sən qırh gün mənim bu qəddə ağuzamı, qeyrimi yeyibsən bırda, sən bırda neyliyibsən bə? Sən bi dənə dərsi örgənə bilmiyibsən", səni vıracaq. Mən də deyəcəm ki, ağa, bu hambali-bimuzdi, hes-zad annamır, hes-zad bının şuuru yoxdu, hes-zad örgənə, səni atacax çölə. Attı çölə, gə dalımaca ya. Dedi:

– Baş üsdə, gəlləm!

Qırh gün başa gəldi, dərbüş gəldi:

– Qızım!

– Bəle.

– Məhəmmədə örgəttün?

Gördü, ədə, Məhəmməd yeyib, peysər eh, bi dənə qəvi heykəl olub.

Dedi:

– Kitabı gət gə görüm, örgənipsən?
Gətti.
– Aş görüm.
Aştı, dedi:
– Bu nəmənədi?
Dedi:
– Bilmirəm.
– O nəmənədi?
– Bilmirəm.
– O nəmənədi?
– Bilmirəm.
Buna bi sillə:
– Çəpbəli-haramzadə, bə sən qırh günü bırda neniyipsən!? Bu qəddə yeyifsən, olufsan bi dənə pəhlivan.
Qız gəldi:
– Dədə, vırma, əlac olmaz ona, heş-zad halı olmaz bına, hambali-bimüzdü, heş-zad dünyada bilmir bu bədbax.
Dedi, dur ayağa. Ağa durdu, bi dənə daldan bına təpik vırdı– xoş gəldün. Bə sən bırda heş-zad annamıyıfsan, hes-zad bilmisən. Oğlan da cadu-feli örgənib, day hər əməli bilir. Oğlan bırdan çıxdı. Çıxdi getti, oldu bi dənə qöərçin qənət-qənətə vırdı, getti tüştü öz qapılarında. Tüştü genə oldu həmən Məhəmməd, geşti, gördü, dədəsi elə çobançılığ elir, nənəsi də oturup. Girdi içəri, nənəsi dedi:
– Oğlan, sən kimsən?
Dedi:
– Nənə, məni tanımısan?
Dedi:
– Sən kimsən?
Dedi:
– Mən Məhəmmədəm.
Dedi:
– Necə Məhəmmədsən? Sən bu qırh gündə nə cür bu qəddə oldun?
Dedi:

– Mən həmən Məhəmmədəm, narahat olma, elə sənün oğlun Məhəmmədəm. Dedi:

– E, sənə qurban olum, şuqlu örgəndin…?

Dedi:

– Şuqul örgənmişəm, sənət örgənmişəm, da qutulan döy.

Gecə oldu, dədəsi gəldi gördü, ədə, bi dənə qəvi heykəl pəhlivan bılarda oturub.

– Arvad bu kimdi?

Dedi:

– Məhəmməd.

– Necə Məhəmməd?

Dedi:

– Evün dağılsın, məni tanımısan? Həmən Məhəmmədəm.

Dedi:

– Sənə qurban olum, sən qırh gündə nə cür bu qəddə oldun?

Dedi:

– Məni bi dənə sənətə qoyubsan, əvvəlim sənət örgənmişəm, narahat olma. Ağa, səhər getməsən, villə davari, davara getmə, denə "ağa, da mən getmirəm". Səhər məni aparacağsan, bi dənə olacam ati-qırmız, qəşəhligcə aparacağsan bazara. Mənnən qorxmaya ya, mən səni öldürmərəm, sənə əziyət eləmərəm. Bazara apardun, hamı mənə aşıq olacax, nə desün məni alacaxla, neçə desün məni alacaxla, ama noxtamı vermiyəsən. Mən cadunu oxuram noxtama, denə ağa "mən noxta vermərəm". Noxtani ki vermədün, mən hər yanda olsam, gələcəm, noxtani versün, day gələmmərəm.

Dedi:

– Vermərəm.

Dedi:

– Qorxma ya, mən səni vırıb eliyən dörəm, əslən mənnən qorxma.

Ağa, gettilə, şəhərə yaxlaşırdı, bi dənə əlində dedi: vır başıma. Vırdı, bu oxodu, oldu bi dənə atı Səmənt. At belə ki baxır, ağzınnan alo çıxır, əllər gedir göyə. Bu kişi xof elədi, dedi, e, dədəm vay, bu məni öldürəcək. Deyib, "day mən at oldum, danı-

şammərəm e, qorxma mənnən”. Bəli, bını apardi, yetişti bazara. Ağa, millət gördü, bi dənə qoca kişi, bi dənə at gətirip əslən məmləkəttə bu at yoxdu.

– Qoca əmi, neçiyə?

Dedi:

– Ağa, müştəri hər kim olsa, ona verərəm.

Ağa bu, neçə, dedi, o neçiyə? Bu dedi, məsələm birdən yüz tüməni, dedi iki yüz tümən, iki yüz tüməni beş yüz tümən, o dörə. Bi dənə cavan oğlan gözü qıfıllı, dedi, ağa, bu atun qıymətin de. Dedi, ağa, məsələm (o dörə) iki yüz tümən. Dedi, buyur sənün iki yüz tümənün. Dedi, mən bu atun üsdünə ki çıxdım, dünyanı dağıdacaam. Dedi:

– Ağa, mən sənə at verirəm, noxta vemirəm e! Get noxta al gəl, vır atun başına, mən sənə at satıram. Mənim bü cür atım çoxtu, o noxtalar atun başına gəlməz.

Dedi:

– Eybi yox. Saxla, gedim noxta gətirim.

Getdi, bi dənə noxta aldı gətti, bu noxtanı sıyırdı, vırdı bının başına, bu çəhdi apardi. Yetişti, arvata, dedi:

– Arvat, ərsin gət gə, atun ayağunu altına. Gör nə at almışam, qardaş almışam, bunun üsdünə çıxsam, məmləkəti dağıdacaam.

Arvat gəldi gördü, doğurdan da elə attı. Dedi:

– Evün dağılsın kişi, bu bizim qapılardan olmaz.

Dedi:

– Olar.

Ağa çəhdi, bu at sığışmadi, tamam çərçüanı, qeyrə hamısın sındırdı, bastı, geşti içəri. Dedi:

– Arvat, get, bi kə yoncadan, arpadan gəti, tökək bının qabağına, görək yaxçı yeyə bilır?

Gettilə yoncadan, arpadan gəttilə, töktülə qabağına, bağladıla axura. Ər-arvad baxırdi, elə bi ki geşti, gördülə, aho, at oldu bi dənə milçək, üştü getti. Əh, olan, bu at bi dənə milçəy oldi, kişi evün dağılısın, bu nə cərəyan?

Dedi:

– Bilmirəm bu nə cür, nə cürdi, o qəddə at oldu bi dənə milçək.
Dedi:
– Amma, heş kimə buruza vermiyəsən, elə mərdüm qoy xof içində qalsın.
Dedi:
– Heş kimə demə, qoy elə, millət xof için desin, "bu bi dənə at alıb bü cür", sirrimizi demə.
Bılar əlləri qoynunda ottular. Dədəsi otumuştı, gördü Məhəmməd gəldi.
– Məhəmmədcan, gəldün?
Dedi:
– Qoxma, nağada mənim bu qıymətimi yuxarı dəsün, alacaxla, faqat noxtanı vermə.
Ağa, bir gün oldu qara at, bir gün oldu ağ at, bir gün göy at, da bü cür, bü cür day kişi sərvəttən sirab oldu. Dedi, amma elə gündə culda düşəcəm, noxtanı vermə. Bir gün ginə bını aparırdı, gedirdi bi dənə berahə yolunan, həmən dərbüş gəldi bınnan qabax-qabax, gördü e, bu Məhəmməd bi dənə olub, elə bil o dörə, göy dəmir at, gözlərinnən tanıdı dərbüş bını. Dedi:
– Əy nənün matəmində oturasan, Məhəmməd, bə sən cadu-feli örgənibsən, sən bizə boyun almeyibsan, sənün nənün matəmində oturdacaam, bu atı hayana aparısan?
Dedi:
– Aparıram satam.
Dedi:
– Sat mənə.
Dedi:
– Alısan?
Dedi:
– Bəle.
Da bu qoca da bədbax tanımadı, bu həmən dərbüşdi.
– Qıymət?
Dedi:
– Ağa, beş yüz.

Dedi:

– Ama, dərbüş, mən noxta vermərəm, ə!

Dedi:

– Kişi, bu noxtasız atı hayana aparım?

Dedi:

– Xob, noxtanun, de, pulun verim da.

Kişini allatti, tamahın çox elədi. Dedi, beş yüz də bının noxtası, məsələm. Dedi, bu da beş yüz, noxta… Noxtanı da aldı, kişi qəyitti. Qəyitti, Məhəmməd gördü, xudaya-xudabəndə, day bını aldı düşman. Bın düşmanıdı, abi-leysan kimin bının gözünnən yaş tökülür dədə, sən məni sattun düşmanıma. Dedi, səni, nənüün matəmində oturasan, Məhəmməd, sən örgənibsən, demisən. Ağa, apardı, yetişdi, məqqarəni oxudu, məqqarə getti göyə, getti, bını çəhdi içəri, geşti, yetişti qıza, qız! Dedi, ha!? Dedi:

– Qız, hələ gə gör, Məhəmməd nə moda tüşüb. Bu örgənib, bizə boyun almır, eybi yoxdı elə, o çumuğu gət gə, mən cadu oxuyum, elə bını bu mod mücəssəmə eliyim. Bu mücəssəmə o biri mücəssəmələrdən daha yaxçı.

Qız gördü, e, oğlan gəlib, dedi:

– Dədə!

Dedi:

– Hə.

Dedi:

– Onu bağla orda gə, nahar amadədi, naharun ye.

Dedi:

– Evün dağılsın, bu cadu-fəli örgənip gedər.

Dedi:

– Gedəmməz, indi sən bə qorxmusan, noxtasın ver mənə, alan naharı çəhdim, otu ye, bının dədəsin yandırram, bəs o, bizə boyun almeyib, dədə, yandıracağam ona.

Noxtanı aldi, dedi, geş naharun ye. Ağa, bu geşti naharın yeyə, yavaşça dedi, evün dağılsın, Məhəmməd, noxtanı siyirdi qaç. Ağa, bu Məhəmməd qaştı, elə məqqarədən çıxanda, qız dedi, ay dədə, at qaştı, vırdı mənim də az qaldı qarnım cırıla, "vay öldüm". Dedi, əy, sənün boynun sınsın, qız, demədim saxliyəm-

məsən. Məhəmməd aradan çıxtı. Məhəmməd çıxdi, bu dərbüş də villədi qazasın, bının dalıyca çıxti. Məhəmməd gördü, yoq, dərbüş gəlir. Yetişdilər bılar bi dənə dərya var idi, dərgəça, yetişti dəryiya. Yetişti, oxudu, bi dənə oldu balıq, düşdü dəryiya, həmən Məhəmməd. Bu ki gördi Məhəmməd oldu balıx, bu oxudu, özün elədi bi dənə naqqa, naqqanın qanəti yekə, balığın qanəti xırda. Ağa, bu gedir qabaxca, daldan da bu naqqa onun dalıyca gedir, döndü gördü, yo, dərbüş az qaldı bını yetirə, bu oxudu, özün elədi bi dənə göyərçin qalxdı göyə. Bu gördü ki, bu oldu göyərçin bu oldu bi dənə qırqı, tüştü bının dalıyca (qırqı da axı bu quşları yeyer). Ağa, göyərçin qabaxca, qırqı bının dalıyca, gəldilə, həmən şəhərdə dör vırıllar, bını quvalır. Məhəmməd baxdı gördü, bi dənə üsdü açıx yerdə bu patışahdı, vəzir-vüzəra hamısı oturup miz səndəl üstündə, fori gəldi, elə bu şahun başının üstündə oldu bi dənə qızılgül, gəldi dik tüştü patişahun əlinə. Bu gördü, göydən bi dənə gül tüşti. Dedi:

– Vəzir, vəkil, bəs bu gül hardan gəldi!? Bizim bağda bu gül var!?

Dedi:

– Valla, bilmirəm.

Dedi:

– Bağmanı çağırun gəlsin.

Bağmanı çağırdıla. Dedi:

– Bağman, bu güldən var!?

Dedi:

– Xeyir, ağa, o güldən bağda yoxdi!

Dedi, bu göydən…ama, çox ətirli gül. Bu gülə baxır, xoşi gəlir, ətrin iylir, əlində oynadır. O gördü ki, o oldu gül, əndi gəldi, oxudı həmən dərbüş oldi, gəldi dərbarın qapısında, "Əli şəni" deyir. "Əli şəni" deyir, bına bi pay… Dedi:

– Ağa, mən pay istəmirəm.

Dedi:

– Nəmənə istisən bə?

Dedi:

– Ağa, o gül mənimdi, gəlib tüşüb sizə, mən o gülümü istirəm.

Dedi:

– Dərbüş, şərm elə, xəcalat çək, güldə nə əhəmiyət…, mənim bına xoşum gəlir, güldə nə əhəmiyət... , qızıl deyesən, gümüş deyesən, pul deyesən…!

Dedi, yo, elə mən gülü istirəm. Gülü istirəm, bu şah qəzəbnak oldu, istədi bu gülü verə bına, bu fori oxudu, özün elədi nar. Bu ginə oxudu. Dedi:

– Nə istisən?

Dedi:

– Nar.

Dedi:

– Bayaxdan gülü…, indi nar istisən?

Dedi:

– Elə həmən gül nar oldu, o mənimdi, adalətüə zor eləmə, mənim narımı ver.

Dedi:

– Baba, şərm elə, çıx get işüə, mənə əziyət eləmə, səni öldüttürrəm, dədün…

Dedi:

– Xeyir ağa, heş vaxt ədalətə zor yoxtı, sən mənim narımı…, o nar mənimdi.

Gəldi tüştü ora. Ağa, istədi ki, bu ata dərbüşün əlinə, bu parttadı, töküldüyerə. Dərbüş ki gördü, bu oldu nar, töküldü yerə, oxudu, özün elədi bi dənə cücəli toux. Cücəli toux oldi, ağa, bi başdan qıqqıllır, qıqqıllır, bu narun dənnərin döşürüllə, yeyillə. Hay yeyillə, biri getti, patışahun elə bil mizinün altına, ta ora yetişincəh, bu oxudu, özün elədi bi dənə tülki, həmən bu Məhəmməd. Oldu tülki, mizün altınnan çıxdı, daraşdı, cücəni, touğu, hamısın yedi. Dərbüşi yedi, aradan apardi, bılar da baxılla, oldu bi dənə göyərçin, qalxdı göyə. Dedi:

– Vəzir, vəkil, bu əgə sirr idi…, bu elə aşkara oldi, bu nə iş idi, qabağa gəldi?

Bılar hamısı mat qaldı, vəzir, vəkil, vüzəra. Dedi, da bu aşkar bi şey oldu, əvvəli oldu gül, oldu nar, dərbüş oldu bi dənə cücəli toux, alttan bi dənə tülki çıxtı, oları yedi, ordan, bi səfər bu oldu bi dənə göyərçin, qalxdı göyə, bu nə qəzo-qədərdi? Dedi, bilmirəm? Dərbüşi yedi, yedi, bu ginə qənət-qənətə vırdı, dolandı, getti, gördü, bəle, bının qızı dərsin oxuyub, bi dənə qəşəg xırxıca qız, qırh dənə qız kəniz verib bına. Bi dənə bağda bın için qəşəg küləfirəngi saxtuman düzəldib, qız orda, qırh dənə də bına kəniz veriflə, dərsin də qutarıb, həmən qız ki bınnan oxurdi. Evinin, saxtumanın orda bir sərm ağacı var idi, həmən Məhəmməd, həmən göyərçindi, geşti ottu sərm ağacında, gördü aluşqa açıxdı. Aluşqa açıxdı, qız da naharı yeyif, yatıp, bu yavaccalı, elə, qənət-qənətə vırdı geşti, oldu həmən gül, qızıl gül, qaldı taxçada. Qaldı taxçada, o qız durdu gördü, baba, bi dənə iy büriyib bu otağı, baxdı gördü, ə dədəm vay, bi dənə də gül var bu otaxda, amma belədi, belədi, bınun ətrinnən adam məst olur, əslən bu güldən heş məmləkəttə yoxtu. Bu gülə baxtı bir, döndü, aldı əlinə iylədi, bu gül bi qahqa çaldı güldi, güldi, tez gülü attı yerə. Attı yerə, dedi, baba, gül də gülər? Çağırdı, ay qızlar, gəlün bıra! Qızlar gəldi, dedi, qızlar, get, bağmanı çağır, görüm bu güldən varımız? Bağmanı gəldi dedi:

– Valla, bu güldən bizim əslən yoxtı, bağda bu gül yoxumuzdı.

Dedi:

– Qızlar, dədüzi yandırram, bu gül istiyə sola, öldürəcəm sizi, bi gülü bi mod saxlıyacağsuz, gəlib solmıya.

Gəttilə bi dənə qəşəg güldan düzəlttilə, gülü qoydula ora, qoydula bının taxçasına. Büriyib, iy büriyib, əslən şoq büriyib otağı. Gecə oldı, bəle, şam gəldi, bu oxudi (qızın gözünə görükmür), əndi gəldi, ottu surfanın başında. Bılar nəmənə gəttilə, bu yedi, qız aman vermədi. Qız dedi, "xudaya, bə, büyün doymuram". Dedi, qız, şam gətirün. Elə bu qızlar gətirəni Məhəmməd yedi. Qızlar gətirəni Məhəmməd yedi. Qırh dənə qızun, bi dənə xanımun, qırh bir dənə hamısıın qazasın yedi. Bu qızlar güldü, dedi:

– Xanım, büyün sənün qarnua ilan girip, bu qəddə azanmı…?

Dedi:

– Valla, mən də təəcüb elirəm, heş özüm doymadım, bu nə cür, nə cərəyandı?

Vırdı, genə bu qız gecə yatti, qızlar da getti, öz otaxlarında elə dedilə, güldülə, olan xanımun, qırh dənə, qırh bir də qazaynan biz aj qaldıx, bınun qarnına nə bala gəlib?

Bu qız yatti, yuxuya getti, gedənnən sonra bu yavaşcılı endi, geşti, otti qızın başınu üsdündə. Ottu başınu üsdündə, oturannan sonra bu qızun bu üzünnən, o üzünnən öfdi, ginə həmən gül oli ottu güldanda. Səhər qız durdu, e bınun üzünə ləkə tüşüb, çağırdı, qızlar, gəlün bıra, görüm. Gəldi, dedi:

– Yatmışdüz?

Dedi:

– Xeyir!

Dedi:

– Köpəyin qızları, bə yatmamışsuz, mənim üzümə hardan ləkə tüşüb.

Dedi:

– Xanım, valla-billa, biz elə bı gecə sənün qaza yeməyün, şam yeməyün deyip gülmüşük.

Dedi:

– Yo, yatıpsuz.

Ağa, bıları birbəbir gətti şallax vırdırdı. Bu qızları belə vırdırdı, belə vırdırdı, bədbaxları day kül elədi. Bılar ağlaşılla, xanım, valla, yatmamışığ. Ginə oldu gecə, dedi, qazanı çox eliyün. Gecə oldu, ginə qazanı gəttilər, endi yedi, gecənin bi zamanı ginə qız yatmıştı, əndi gəldi aşağı. Gəldi, ginə geşti, qızun başı üsdə ottu, bu qızun bu üzünnə, o üzünnə öftü, qızı oyattı, qız durdu gördü, e dədəm va, bi dənə qəvi-heykəl pəhlivan oturup bının başıın üstündə, dedi:

– Ağa, sən kimsən, bıra gəlipsən, sən çi-karəsən?

Dedi:

– Qız, məni tanımısan?

Dedi:

– Yo!

Dedi:

– Mən, elə həmən Məhəmmədəm, sənnən dərs oxurdum. Sən qızları niyə vırdırdun? Sənü üzünə ləkə mən salmıştım, gül mənəm, götürüsən, mən gülürəm, sən atısan yerə. Ağam gəldi, sənü ağua xastəqarlığa, dedi “apar sənət”, mən bü cür sənət örgənmişəm. İndi mənə gəlisən, ya yo?

Dedi:

– Sənün başuva da dönnəm, onda gəlirdim alan səhlidi hələ.

Dedi, buruza vermə. Qırh gün bılar yedilə, iştilə, köflərin cırdıla, bırda köfə baxtılar. Bir gün dedi:

– Qız, mən gedirəm emmizə, dədəmi yolluyacam elçiligə, sənün toyun başlıya, görəm dədün verir, ya yo?

Dedi, baş üstə. Bu getti.

– Məhəmmədcan, hardasan!?

Dedi:

– Allasəni məhv eləsin dədə! Sən məni düşmana sattun? Cəng elədim, demirəm, yedim, ama dədəm yandı da. Səni məhv olasan! Sənə demədim, “noxtamı satma”?

Bu nənəsi dedi:

– Ay səni məhv olasan, kişi, dünya malı gözün tutmuştu? Sən noxtanı, niyə satdın…?

Dedi:

– Eybi yoxdu, da səs eləmiyün, indi səhər, ağa, get elçiligə, gör şah nə deyir!?

Səhər durdu getti. Day libas saz əvəz olub, vəz cürrənib, həmən çoban. Getti ginə, bu pasıvannan, sərvazdan, dərbardı da.

– Qoca, hara yedəsən? Nə zülm olub?

Dedi:

– Zülm özüzə olsun, nə zülm olub, mənim xeyirrig işim var, gedirəm şahun yanına, nə zülm?

Bılar güldü. Dedi:

– Yol verün geçim şahun yanına.

Dedi:

– Qoy, icazə alax.

Geşti dedi, valla, bi nəfər gəlib, bizə bu sözü dedi. Dedi, yol verün, gəļsin. Yol verdi, geşti.

– Səlam!

– Əleykə-səlam!

Dedi:

– Qiblə-aləm sağ olsun!

Dedi:

– Bəle!

Dedi:

– Filən tarix mən gəlmiştim bıra, sənün qızuva görə gəlmiştim elçiligə, nə deyisən?

Dedi:

– Bə, oğlun şuqla qoyufsan?

Oğlan da örgətti dədəsinə, dedi, sənə desə, “nə şüql örgənib?”, deyərsən, “özün istiyün, özü sənə desün”, bını de, qəyit.

Dedi:

– Oğlun nə sənət örgənib?

Dedi:

– Onu mənnən xəbər alma ki, qiblə-aləm sağ olsun, oğlanı özün istə bıra, qoy sənə dəsin “nə sənət örgənmişəm”.

Dedi:

– Get oğlanı yolla görüm, bu çi-ķarədi? Bu bizdən əl çəhmir, bə bınun oğlu nə cür oğuldı?

İki dənə mamur verdi bına, gəldilə, gördü ədə, bi dənə qəvi heykəl pəhlivan oturup bılarda, elə, yemə, işmə, bınun gül camalına tamaşa elə, cavannığına, boyuna, buxuna.

– Oğlan, sənsən şahın qızın istiyən?

Dedi:

– Bəle, mənəm.

Dedi:

– Səni istillə, gedək.

Gəldi, salam, əleykə-salam, yetişti dərbara, ağa, salam verdi, şahun ədəbin yerinə yetirdi. Dedi:

– Oğlan, o qocanun oğlu sənsən?

Dedi:
– Bəle, qurban, mənəm!
Dedi:
– Sən nə sənət örgənibsən?
Dedi:
– Nə sənəti istisən?
Dedi:
– Sənətün adı?
Dedi:
– Mən o cür sənət örgənmişəm, bi dənə gül tüştü, sənün gəldi əlüə, bi dənə dərbiş gəldi, onu istədi, gül oldu nar, narı at-tun parttadı töküldü yerə, onnan sonra dərbüş oldu cücəli toux, bir başdan döşürürdü, narın bi tərəfin o yeyirdi, bi tərəfi oldu bi dənə tülki, qalxdı, daradı o cücəli touğun hamısın yedi, onnan sonra oldu bi dənə gövərçin, üştü qalxdı göyə, mən bü cür sənət örgənmişəm, mən idim o.
– Sən idün?
Dedi:
– Bəle, mənəm.
Vəzir, vəkil dedi:
– Qiblə-aləm sağ olsun, bü cür adam cadu-fel bilir, bü cür adam dərbara lazımdı da!
Dedi:
– Qızı mənə verisən, ya yox?
Dedi:
– Verirəm, lap minnət elirəm, necə da, bınnan yaxçı sənət nəmənədi.
Ağa, qızı verdi bına, toyun elədi. Bir gün qıza dedi:
– Qız!
Dedi:
– Hə!
Dedi:
– Bu sənəti bi məqqarədə örgənmişəm, bəs, gedəcəəm onun dalıyca.
Dedi:

– Oğlan, məni də apar.
Dedi:
– Aparram.
Dedi:
– Məni də apar, gedək, görək mənnən cavandı, ya yo?
Dedi, dört dənə sənün cavanuğundadı, bu sənəti o mənə örgədib. Ağa, bılar durdular, o dörə indi nə vəsileynən gettilə, həmən məqqarəni oxudu, qaxdı göyə, qızınan oğlan getti, çıxdı məqqariyə, gördü qız oturub, yetişdi, qız bını gördü, tanıdı:
– Məhəmmədcan, gəldün?
Dedi:
– Bəle.
Dedi:
– Dedün yedim, aradan apardım.
Dedi:
– Allah ona lənət eləsin, o kafər idi.
Dedi:
– Bu kim?
Dedi:
– Bu da şahun qızıdı, mən bını almışam, mənə gəlisən, ya yo?
Dedi:
– Baba, necə, sənün başuva dönnəm!
Qız dedi, böyüh sənsən. O dedi, xeyir, sən şah qızısan, sən böyüg… Bılar dava elədi. Dedi, baba, niyə dava elisüz? İküz də mənim xanımım olacaxsuz da! Qızı da orda aldı. Bının nəmənə xazanə, qeyri sərvəti, hamısın göttü, o dörə gətti şahlığa. Olar qaldı orda, mən xəbər gəttim sən için.

## İKİ QARDAŞ

Deyəllə, iki qardaş var imiş, buların biri çox sərvətməndi-miş, biri əciz imiş, yanı bizim dilə gələn, gedaylıx-falan elərmiş. Bu qardaşı ki, sərvətmənd idi, görür baba, bının abrına bais olur. Aparır bını, bi dənə dərbətdə, məsələn, bi dənə cəngəlistan yerdə köhül varımış, aparır bu qardaşın ötürür ora, deyər, mən bu sər-

vəti, bırdan əmələ gətimişəm, bu köhüldən. Bu gecə qalır orda, qalannan sonra, gecəni müddət geçənnən sonra görür (bizim dilə gələn) bi dənə ayı gəldi bu köhülə, bi dənə canavar gəldi, bi dənə tülki. Bu da bi məhəldə özün məsəl ayın-oyunnan çəkib üstünə, yatıb orda, məsəl otdan-ələfdən o köhüldə verib ki, bular görmüyələ. Sora bular bir-birinə deyər ki, qardaş, sərgüzəştüzi danışun görək, nə kəsb elesüz? Bının biri, bu tülki deyər:

– Valla, bu kətdə ki var, bu kəndin mal-heyvanı ora çıxar, orda bi dənə xəzanə vardı. Bu mal-heyvan onu dırnaxlar, üsdün açar, mal-heyvan gedənnən sora mən gedərəm, onun üsdün örtərəm.

Bu canavar da deyər:

– Valla, bu kətdə bi dənə ki sürü var, onun içində qara qoyun var, onun məğzi hər dərdə dərmandi. Mən də o qoyunu güdərəm ki, ələ gətirəm, gir verməz.

Bu yaru da eşidir. Bu ayı da dedi ki, valla, burdaki bu əlan, məsəl, şahlıq vardı, buların su yoxlardı o şahın bağının içində bi dənə çeşmə var, olar bilmillər. O ayı, pələk də suyun şırıltısına yatar, su ki şırıllar, üsdən tökülər, qorxusunnan gedər orda yatar ki, xorullıyar, xorullıyanda, məsəl, şikarvan eşidər ki bu, burda bu şir var, gələr bura. Bular diyəllə, durulla, dağılılla. Bu yaru durur, gəlir ordan, güdür, görür, bəle, mal-heyvan ki ora çıxardı, orda bi tülki gəldi, bu cür əlinəni, bu cür torpağı yığdı, gəldi gördü, bırda bi dənə xəzanə var. Bını çığartdı, apardı evinə, bını satdı. Bi qədri, gəldi çobanın yanına, dedi ki, bu qara qoyun kimindi? Dedi, məsəl filanındı. Dedi, bını satsala, neçiyə verəllər? Dedi, məsəl, satsala, verəllə əlli minə. Dedi, mən yüz min verrəm bu qoyuna. Bu qoyunu gətdi, kəsdi, bının məğzın qurutdı, yığdı bi dənə dəsmala, saxladı. Saxlıyannan sora bir gün bu şahın da bi dənə qızı varıdı, bu lal idi, danışmırdı. Neçə dənə düktür gəlmişdi bına behesam mualıca eliyə, eliyə bilməmişdi, o düktürrəri yığıb zindani eləmişdilə, bu yaru həmin o qoyunun məğzinən, yığdı bi dənə şüşüyə gəldi, mən düktürəm, dərbarın qabağında bu yan, o yana gedir. Xüləsə, bını tutdula apardıla şahın yanına, dedi:

– Bax, əgər sağaltsun bu qızımı vərəcəyəm sənə, sağaltmasun, səni öldürəcəyəm.

Dedi:

– Eybi yoxdu!

Kağaz verdilər, kağaz aldılar. Ağa, bu dedi ki, (qızı gətdilə bi dənə bu cür mənzil) gərəh xudbəni ola, heş kəs olmıya. Bu məğzidən, türkün məsəli, qoydu bi dənə bi şeyin başına, pilədi bu qızın burnuna, qız ayıxdı, danışdı. Xəbər verdilə ki, şah, bəs cərəyan bu cürdi, sənin qızun day danışır. Gəldilə, gördülə, dedi, məni istiyən bu zada ənam, bına doyuncax pul verdilər. Pul verdilər, bu da sərvətmənd oldı, bu qardaş ki, əciz idi, sərvətmənd oldı. Yanı, dünya əvəz əvəzidi. Sora bu böyük qardaş ki vardı, bu vırdı əciz oldı. Bir gün gəldi, bu qardaşı gördü, baba, şahlıxda şah olub. Bu əciz qardaş ki bunu aparmışdı, orda heyvanat beyinnən apara, bu gəlip şah olup. Bir gün gəldi, bu qardaşına qonağ oldı, dedi:

– Qardaş, sən bu şahlığı hayannan əlüvə gətdün?

Dedi:

– Həmin yerdə ki sən məni apardun qoydun o köhüldə, mən bu şahlığı ordan əmələ gətdim.

Çün bu aparmışdı ola, onu qomuşdu orda, heyvanat onu beyinnən apara. Bu qardaşı ki əcizləmişdi, bının deyişinən getdi ora, gənə gecə gördü, həmin heyvanatdar gəldilər həmin köhülə. Gələnnən sora dedi:

– Qardaş, o səfər bırda adam-zat varımış, nəmənə demişik əməl eliyiplə. Durun bıranı axtarax, görək adam-zad olsa tutax öldürək, bizim sirrimizi bu açıpdı.

Durdular, həmin yerdə bu adamı… Çün bu onu aparmışdı, orda heyvanat beyinnən apara, hə, odu ki bular ayıxdıla, mını tapdılar. Bını, bu adamı bırda beyinnən apardıla.

## DƏRZİ QIZI

Biri vardı, biri yoxudu, Allahdan qeyri heş kəs yoxdu. Cenni-cenni celalətə qarışdı, iki heyva görər bir nara qarışdı. Haralardan ərz eləyim, ağanın qulluğunnan, xanımın buyurduğunnan. Bi dənə dərzi qızı var idi, bi dənə patşah oğli. Günnərin

bir günü olar, patşah oğlu dərzi qızına aşıq olar. Gələr bu qapıdan geçər, deyər:

– Canım dərzi qızı, gözüm dərzi qızı, göydə ulduz neçədi?

Deyər:

– Canım patşah oğlu, gözüm patşah oğli toxmi-reyhan neçədi?

Gedər. Genə saba olar gələr, deyər:

– Canım dərzi qızı, gözüm dərzi qızı göydə ulduz neçədi?

Deyər:

– Canım patşah oğli, gözüm patşah oğli, toxmi-reyhan neçədi?

Oğlan geder, bir az sabunnan, saptan, sancaxdan, mırdan-mıncıxdan alar, tökər bi dənə cəbiyə, aslar çiyninnən gələr. Deyər: "Ay saf alan, sancağ alan, mır alan, mıncığ alan". Gələr bu qapıdan keçər. Qız çıxar eşigə, deyər:

– Neçiyə verəssən?

Oğlan bi yana, bi yana baxer, o yana baxer, Deyər:

– Valla, heş zada verməræm bu qədər ver-vesaili bi cüt öpüş verərəm.

Qız deyər:

– Eybi yox, geş getginən.

Geçer, onnan deyər: "Qara yerə, heş kəs yoxdu bu gəldi-gedərgidə, xob!" Qız çağırar muna iki dənə öpüş verər, bu qədər vər-vəsaili munnan alar. Bir gün, iki gün, bu oğlan munun gözünə görsənmir. Bi iki günnən sonra oğlan gələr, genə qapıdan geçər, deyər:

– Canım dərzi qızı, gözüm dərzi qızı, göydə ulduz neçədi?

Deyər:

– Canım patşah oğlu, gözüm patşah oğlu, mili-reyhan neçədi?

Deyər:

– Canım dərzi qızı, gözüm dərzi qızı güzgü-sabun verib, öpüş almax necədi, de.

Deer: "A, sən nenüün oğlu olasan, bəs sən məni alladıpsan!" Qız gedər bi dənə qəssaba, deyər:

– Ağa!

Deyər:
– Hə!
Deyər:
– Bi dənə mən için qoyunu dəri-boğaz elə, ver mənə.
Bəle, munu dəri-boğaz elər, verər buna, qeyidər gələr. Gedər bi nəfər deyər:
– Ağa!
Deyər:
– Ha!
Deyər:
– Onun g…. . üstündə mən için qıngıro tutgınan.
Gələr gedər, öz evinnən onu evinə kan vırdırar, deməli yer altı. Bi dənə qapı öz evinnən qoyar onun evinə getməgə, bi dənə də onu evinnən ki, yol açar, gedər.
Günnərün bü günü olar, genə bu oğlan gələr qapıdan keçər, deyər:
– Canım dərzi qızı, gözüm dərzi qızı, göydə ulduz neçədi?
Deyər:
– Canım patşah oğlu, gözüm patşah oğlu, mili-reyhan neçədi?
Qız getdi. Qız getdi, axşam olar, belə bunun, patşahun davarı gələr. Qız axşam əli üsdə gedər bulara. Patşah deyər:
– Çoban!
Deyər:
– Bəli!
Deyər:
– Çoban qardaş, bizdə bi dənə yad var.
Deyər:
– Eybi yox, sən yad yeyən döysən ki, saba çığadarsan qatarsan sürüyə.
Bəli, bu gecə qaler burda. Oğlan da dəri-dünyada bi dəneymiş, özü də azan çəkərmiş. Gecənin bir yarısı oğlan yater, çırağı nimxot elər, qız gələr girər bunun yerinə, atılər minər munun sinəsinün taxtasına. Deyər:

– Başuva dönüm, qadou alım, sən nəmənəsən, bir qıllı canavarsan, sən mənim döşümün üsdünə çıxıpsan!

Deyər ki, mən noolcam, mən Ərzail əleyk-salamam, gəlmişəm sənün canui alam. Hay bu oğlan buna yalvarar, bu bac vermer. Deyər:

– Mən Ərzailəm, gəlmişəm sənün canuva.

Deyər:

– Sən bil Allah, atamun, anamun bi dənəsiyəm, elimün, tayafamun bi dənəsiyəm, sən mənim bu gecə canımı alma, saba gecə gəl, mənim canımı al. Mən bu gecə, saba elimnən, tayfamnan xudafisliy eləyim, saba gecə gə, mənim canımı al.

Olmer, bu çox deyər, bu az eşidər. Deyər:

– Eybi yoxdi.

Bi dəsmal atun peyinin, bir atdafa atun sidgin də qız özüynən götürər. Deyər:

– Bu dəsmaldakın yeginən, atdafadakın içginən, saba gecə gəlləm, sən canuyu allam.

Bəli, bu oğlan, şərinnən bi dəsmal atun peyinin yeər, bir atdafa atun sidigün içər, qız durar ayağa, gedər.

Süb olar, padişahun gözü yoldadı, bu dura azan verə axı, görər durmadı, hay qalar qalar. Durmadı, arvadına deyər:

– Arvaţ!

Deyər:

– Hə!

Deyər:

– Get, gör ki bu oğlan niyə durub azan vermədi!?

Gələr, görər, oxa, oğlan belədi, belədi, əslən ölüm halındadı! Deyər:

– Nədi?

Der, noolacaq, Əzrail gəlmişdi mənim canımı ala, bu gecə yalvarmışam, yaxarmışam, mənim canımı almayıp, saba gələcək canımı ala, bəs gəlün xudafisliy eliyün mənnən! Yığışılla, ağlıyan ağlar, gülən gülər, gecənün bir yarısıneycax bunnar ağlellar. Gecənün bir yarısı olar, deyər:

– Nənə, dədə!

Deyər:

– Bəli!

Deyər:

– Nənə, dədə, Əzrail süzə görə mənim gəlip canımı almır, süz durun gedün!

Bəli, bular çırağı nimxot eləllər, gedəllər, oğlanun gözü qalar o qapıda görək Ərzail nə vədə gələr. Ərzail hardeydi? Süb olar, dədə, nənə gələr bunnan genə xəbər tutar? Görər, yox, oğlan yatıpdı. İki gün, üş gün, elə bu cür oğlanun gözü yolda qaley. İki gün, üş gün sora durar, boynuna bi dənə şərif atar, gedər buların genə qapısına. Deyər:

– Canım dərzi qızı, gözüm dərzi qızı, öpüşün biri neçədi?

Deyər:

– Canım patşah oğlu, gözüm patşah oğlu, Ərzail olub, sinən taxtasın almax necədi? Bir atdafa at sidigü, bir dəsmal at peyini yedirtmək necədi?

Deyər, əh, sənün nənün sənçin mələr qalsın, bəs sənüdün məni məriz eliyipsən. Oğlan geder, dədəsinə nənəsinə deyər, ölmə var, dönmə yoxdu, süz o qızı mənçin gərək alasuz.

– Baba can, sən patşah oğlusan, sən bi dənəsən, sən onu niyə alasan?

Deyər:

– Yox, gərək mənçin alasuz.

Bu qız da ki biley bunu aley. Bəli, yeddi gün, yeddi gecə toy eləllər, bunu gəlin aparallar. Gəlin aparallar, yeyən yeər, içən içər, durar dağılar adamnar. Bəli, oğlan içəri girər, oğlan ta girənə, qız neynər bu yana baxar, o yana baxar, görər bi dənə qəməni itidib, oğlan aslayıb mıxdan. Bu yana baxar genə, o yana baxar, görər bi dənə doşabun dərisi taxçada. Doşabun dərisin gedər-gətirər, doşabun dərisin gətirənnən sora qoyar döşəgin üsdünə, üzünnən yaylığı çəkər bunun üzünə, çadıranı örtər bunu başına, qız çıxar gedər. Qız çıxar geder dədəsi evinə. Oğlan elə ordan gələr, qəməni götürər, vurar ki doşabun dərisi part elər, qarannıxda üç ovuç bu doşabun dərisinnən içər. Çırağı qozər, görər, dərzinin qızı hardeydi, bu doşabın dərisidi partdayıb. Doşa-

bın dərisidi partdayıb, oğlan durar ayağı, baş götürər gedər. Oğlan gedər çıxar Çini-Çələbiyə. Qız da bunnan gedər çıxar Çini-Çələbiyə. Burda yeəllər, içəllər, güləllər, danışallar, oğlan bunu tanımaz. Deyər:

– Oğlan!

Deyər:

– Bəli!

Deyər:

– Bəlkə, sən gedəsən, Allah sənnən mənə evlat verdi, mənə bir nişanə ver, get.

Oğlan götürər, muna kəmərin verər. Bəli, oğlan gələr çıxar Çələbiyə, qız da gələr çıxar Marçın Çələbiyə. Burda genə yəəllər, içəllər, deyər, oğlan, sən gedəssən, bəlkə, Allah sənnən mənə bi dənə evlat verdi? Oğlan burda bazbəndin verər. İndi, Çini-Çələbidə doğacağ oğlan, ismi-Bağdatda doğacağ qız. Bu səfər gələllər Marçın Çələbiyə ismi-Bağdada, burda da genə yeyəllər, içəllər, güləllər, danışallar, deyər:

– Oğlan, sən gedəssən, Allah sənnən, bəlkə, mənə evlad verdi. Mənə bi nişanə ver get.

Oğlan sahatın açar, verər buna, oğlan der, bunun nənəsi belə, dədəsi belə, məsələm da mən bunu tapa bilmədim. Oğlan çıxar gələr kəndinə. Nənəsi, dədəsi deyər:

– Sənə demədik, dərzinin qızın alma, onnan sənə arvatdıx çıxmaz. Sən ged al vəzirün qızın, vəkilün qızın, sən getdün bi dənə dərzinün qızın aldun, iynəynən sapdan nə çıxacağ idi?

Bəli, gələr, qız da çıxar gələr. Bu gedər, bu səfər vəzirün qızın alar, yeddi gün, yeddi gecə bun çın toy eləllə, qazannarda pilo, xuruş qəynar… Durar ayağı neynər, (üş dənə əhvalatı oldu axı), qız dəsmalı bağlar qızınun başına, bazubəndi bağlar bir oğlunun qoluna, sahatı da vurər bir oğlunun qoluna. Deyər, sən gedərsən deyərsən "Çini-Çələbi!" O deyər, "nədi, Marçin Çələbi!?" Deyərsən, "hara gedəssən?" Deyərsən, "tutmuşam İsmi-Bağdat əlinnən, gedirəm xan babamun toyuna". Bəli, bu bacını alıllar arıya, oğlanun biri bu yanda, biri o yanda, bacınun əlinnən tutupla gələllər. Deyər:

– Çini-Çələbi!
Deyər:
– Nədi, Marçın Çələbi?
Deyər:
– Hara gedəsən?
Deyər:
– İsmi-Bağdat əlinnən tutmuşam, gedirəm xan babamun toyuna, bəy babamun toyuna.
Bu oğlan da aluşqadan baxeymış. Oğlan baxar, gözü sataşar bu uşaxlara. Deyər:
– Ay uşaxlar, nəmənə deyəsüz?
Deyər:
– Heş zad.
Deyər:
– Oxuyun görüm, nə deyəsüz.
Deyər:
– Mən deyərəm "Çini-Çələbi". O, deyər, "nədi, Marçın Çələbi", "tutax ismi-Bağdat əlinnən, gedərik xan babamun toyuna, bəy babamun toyuna".
Deyər:
– Xob, yuxarı gəlün görüm, kimün uşağısuz?
Yuxarı çıxalla, görər, sahat öz sahatı, kəmər öz kəməri, bazbənd öz bazubəndi. Deyər:
– Kimün uşağısuz!?
O qız qəyidər, deyər:
– Kimün olacax, sənün!
Der:
– Mənim ki uşağım yoxdu.
Deyər:
– Sənün!
Deyər:
– Kimün nəvəsisüz?
Deyər:
– Mən dərzinün nəvəsiyəm, sənün uşağun.

Sora gəlini üzü rübentdi qəytərər atınan. Qazannar qəynar, pilo, xuruş …, gedər dərzinün qızın gətirər. Deyər, sən ki məni, bəlkə, almeydun, mənim abrımı aparacağudun, xob, mən eşşəgün sidigüynən, atun peyinin sənə yedirtdim ki, sən məni qəytərmiyəsən. Qutardı getdi. O yedi, işdi, məkanına geşdi, biz də burda.

## QARQU

Biri var ıdı, biri yoxudı, qeyr-əz Allah yoxsul adam var idi, heş zadı yoxudu, naxada işlirdi, heş zad yetirə bilmirdi, dedi arvad-uşağına ki, baba, mən gedirəm, gedirəm özümə bi dənə iş tapam. Bu getti, day tərgi-vətən oldu evinnən. Getdi çıxdı bi çeşmənun başına, otdu bırda, bi az su işti, bi dənə də arpa çörəyi vardı, bını yedi, gördü bi nəfər də bi dənə qarqunu minib, özünə at eliyib. Gəldi, qarqunu aştı, bağladı orda bi dənə otun kökünə. Əvvəl qarqunu tutdu, fişqırıq verdi, su içə. Bu bi güldü. Dedi:

– Qardaş, nəyə gülüsən?

Dedi:

– Valla, ona gülürəm ki, sən o qarqunu at eliyifsən, onu minifsən, sürüsən da, özün yerisən da. Bu bir. Bir də sən bağlıyıfsan su içsin, qarqu da su içər?

Dedi:

– Kişi, deyəsən səndə iman yoxdı, sən kafər məmləkətinnən gəlifsən. Sənün hes zada qayıllığun yoxdů.

– Necə ki?

– Bu mənim atımdı, mən bunnan hər yana gedirəm, bu olmasa, mən gedəmmərəm.

Su işdi, bi az otdu, bu durdu minə gedə, dedi:

– Qardaş, mən sənnən əl çəkən döyrəm.

Dedi:

– Mənnən gedisən?

Dedi:

– Hə.

Dedi:

– Gə, min qarqunu gedək.

Dedi:

– Yox, baba, onun nəyin, bü cür gedirəm da, onu da minsəm yeriyəcəm da.

Dedi:

– Gördün səndə iman yoxdu, sən kafər məmləkətinnən gəlifsən.

Dedi:

– Sənün nə işüə, mən qarqunu minmirəm day, gedək day.

Dedi:

– Xob, gə, gedək.

Bu qarqunun minib tozlur, bu da piyada bınnan. Getdilə yetişdilə, şəhrun kanarında bi dənən cəngələ yeţişdilə, gördü, qarqudan özünə bi dənə dam düzəldip, həmən o qarqunu minən. Bi dənə qaraqudan özü için poru düzəldib, genə o qarqunu bağladı geşdi, elə bi nəfərün yeridi. Dedi:

– Bıra mənim saxtumanımdı.

Dedi:

– Lap yaxçı.

Heş zad da yoxdu. Oldu axşam, dedi:

– Yoldaş.

Dedi:

– Bəli.

Dedi:

– İndi sən qal bırda, mən forən minim atımı gedim, şəhrimizdən şam alım gətirim, yeyək.

Dedi:

– Get da.

Ağa, geşdi ginə qarqusun mindi, "düpşş, düpşş" getdi. Bi sahat çəkmədi, gördü bu iki nəfərün şamun aldı, gətdi. Gətdi, dedi:

– Yoldaş, aldım şammızı.

Dedi:

– Lap qəşəg.

Dedi:

– Yoldaş, getdün şəhərə çıxdun, gələn naharun da aleydun bi diblicə.

Dedi:

– Ə, indi gör, səndə iman yoxdu, kişi. Necə ki, gələn naharun aleydun!? Bə, sən kafər məmləkətinnən gəlifsən, sən müsəlman döysən. Kişi, gərəh hər vaxtun, hər vaxda qazasın alam. Bizim şəhrimiz imam Zaman məmləkətidi, salavatadı hər nə.

Dedi:

– Necə salavata?

Dedi:

– Bizim yeyib, işməyi, hamısı salavat.

– Necə salavat!

Dedi:

– Bəli, salavatdı. Biz əgər çox alsağ, salavatımız qutarar, acınnan öllük.

Dedi:

– Belə iş olar?

Dedi:

– Bəli.

Dedi: "Səhər mən bınnan gedim şəhərə görüm, şəhər necə salavattı. " Səhər bınnan getdilə. Dedi:

– Gə, min atı.

Dedi:

– Yox, elə mən bü cür…

Dedi:

– Ay bədbax, səndə iman yoxdu.

Bu qarqunu mindi, bu da bınnan piyada getdilə, yetişdilə şəhərə. Getdilə, bınun gözün oğurradı, dedi "hələ mən gedim çörəhxanaya, ya bi qəhvəxanaya, görüm bu, salavatadı, nə cür salavatadı bu". Bu bınun gözün oğurradı, getdi bi dənə qəhvəxanaya, bi dənə çay işdi, çıxartdı pul verdi. Dedi:

– Ağa, o nəmənədi?

Dedilər:

– Diyəsən, sən kafər məmləkətinnən gəlifsən. Bıra salavatadı, İmam Zamanın öz məmləkətidi bırda elə bi yol salavat çöyür, qutarsın.

Gördü, bu diyən düzdü. Getdi çörəhxanaya, bi dənə çörəy aldı, çıxartdı pul verə, dedilə:

– Kişi, o nəmənədi, iman yoxdu səndə, sən hardan gəlifsən, sən bu məmləkətün adamına oxşamısan, salavatadı bıra.

Çörəyi də salavata yedi. Gördü, baba, bu diyən düzdü, hamısı, nə yeyib-işmə salavat. Dedi: "Elə mənim yerim bıradı". Gəldi:

– Qardaş.

Dedi:

– Bəli.

Dedi:

– Day mənnən narahat olma, mən elə bırda qalacağam, sən get.

Dedi:

– Lap qəşəg.

Bu mindi qarqunu getdi. Getdi, bu gəzirdi xıyabanda, bı yannan-o yana. Bi dənə culfacı şal toxurdu orda, gördü, bi nəfər elə gəzir bı yana, o yana, seylan-veylan gəzir, dedi:

– Ağa, bıra gə, görüm.

Gəldi, dedi:

– Sən bu məmləkətün adamına oxşamısan, hardan gəlməsən sən?

Dedi:

– Valla, mən qəribəm, mən bıra nabələtəm gəlmişəm, bilmirəm bıranun vəzi nə cürdi.

Dedi:

– Bıranun heş qəmi yoxdu, yeməh salavat, işməh salavat, otumax salavat, durmax salavat, hamısı salavat.

Dedi:

– Ağa, mən qəribəm, bi nəfərün damı yoxdu.

Dedi:

– Salavata verəllə.

– Bi nəfər arvadı yoxdu.

Dedi:
– O da salavatadı, hamısı salavat.
Dedi:
– Nə mod o arvadı alım?
Dedi:
– Bilmisən?
Dedi:
– Xeyir!
Dedi:
– Gedərsən, o xıyabanun başında oturarsan, orda bi dəbristan var, qızlar hamısı orda dərs oxur, olar ki, sahat birdə azad olulla, hamısı gəlif gedəcəh nahara, daldan yafışarsan onun ətəyinnən, olar da hamısı subaydı. Hər birinün ətəyinnən yapışdun, qız səni aparacaq. Salavata sənə onun dədəsi qızı verəcəy, dam verəcəy, hər nə verəcəy mifti-məccani. Dedi:
– Yox!
Dedi:
– Valla!
Dedi:
– Allahım düzəltdi ki.
Getdi, otdu xıyabanun başında, otdu, otdu, sahat oldu bir, gördü, bu qızlar dəbristannan hamısı azad oldu, nahara yedillə. Bu qız gəldi, geşdi, ürəy eliyəmmədi, o qız gəldi, geşdi ürəy eliyəmmədi. Bi dənə qız qalıb, daldan əlində kitab baxa-baxa gəlir, dedi: "Allaha təvəkkül, durum hələ bının yapışım, ətəyinnən". Qorxa-qorxa, elə qız souşanda, durdu, yavaşça daldan yapışdı bınun ətəyinnən. Baxdı, gördü bi nəfər, heş o məmləkətün adamınnan döy, yapişdı bınun ətəyinnən. Dedi:
– E, evün dağılsın, sən məni bədbax elədün ki… Sən kimsən mənim ətəyimnən yapışdun? Bıra İmam Zaman şəhridi, yapışdun gərəh səni aparam, eliyəmmərəm ki, onun qanunun ayaxlıyam.
Dedi:
– Valla, mən qəribəm, gəlmişəm bıra.
Dedi:
– Yazığ oldum, gə gedək.

Götdü bunu gəldi, yetişdilə, bi dənə qapını çaldı, gördü, bi dənə hacı çıxdı (qızun dədəsi). Çıxdi, gördü, qız, bi dənə də oğlan bınan gəlib, heş o məmləkətün adamına oxşamır. Dedi:

– Qız, bu kimdi?

Dedi:

– Valla, hacı, heş mən də tanımıram, deyir “qəribəm”, mən gəldim, keçəndə bu qafıldan durdu mənim ətəyimnən yapışdı.

Dedi:

– Çox qəşəg, ağa, keç içəri.

Geşdi, otdu. Dedi:

– Oğlum!

Dedi:

– Bəli!

– Hardan gəldün?

Dedi:

– Valla, mən bi dənə ayrı məmləkətdən gəlmişəm.

Dedi:

– Sən mənim qızımun ətəyinnən yapışdun, sən bunun salavatın verə biləcəhsən, bu qızı verəm sənə?

Dedi:

– Bəli!

Dedi:

– Çox qəşəng, bəs, du get qomşularımızı dəvət elə, gəl.

Dedi:

– Mən heş kimi tanımıram ki dəvət eliyəm.

Öz oğlun yolladı, filən ağaya denə gəlsin, bu qızı verirəm bına. Ağa, neçə dənə ağsaqqaldan gəldilə otdula. Dedi:

– Bu mənim qızımun ətəyinnən yapışıb, bınnan sual eliyün, görün, bu salavatı verə biləcək, ya verəmmiyəcək?

Dedilər:

– Ağa, sən bunun salavatın verə biləcəksən, bu qızı sənə əqd eliyək?

Dedi:

– Bəli, salavatun həmiyəti yoxdu ki. .

Dedi:
– Ə, evün dağılsın, necə həmiyəti yoxdu, salavatı verəm-mədün qutardı, necə həmiyəti yoxdu, salavatdı.
Dedi:
– Verrəm.
– Hətmən?
Dedi:
– Hətmən!
Qız dedi:
– Ağa, mən üş dənə şərt bağlıyacam, əgər o şərti yerinə yetirsə… Ağa, məsələm yüz dənə bunun şir-bahası salavat.
Dedi:
– İki yüz yazun.
Dedi:
– Evün dağılsın verəmməsən.
Dedi:
– Verrəm.
– Saxtumanunvar?
– Xeyir!
Ağa, bi dənə də saxtuman yazdırun buna, hacı verər, o da salavata. Qızı salavata verdilə, ama qız dedi:
– Üş dənə şərt eliyəcəm mınnan, əgər qabul eləsə, məni verün muna, eləməsə, vermiyün
– Nəmənədi, qız, şərtün?
Dedi:
– Şərtim odu ki, bu yalan danışmıya, bu bi şərtim.
Dedilə, lap qəşəg, şərtimun də biri odu ki, bu gündə gedə, elə nahar, nahar ala gətirə yeyəg, şamı, şam ala, qəla-naharı da iki vaxtı bi yol ala gətisə, mən bınnan yoxam, yanı salavatımız qutarar, bura İmam Zaman məmləkətidi.
Dedi:
– Baş üsdə, onu da elərəm.
Yazdılar.
– Üçümci nəmənədi sənün şərtün?
Dedi:

– Üçümcisi də bu kifir demiyə. Kifir desə, mən bınnan yoxam, salavatımız qutarar.

Dedi:

– Yo, deməөrəm.

Qızı verdilə bına, hacı bına qəşəg saxtuman verdi, fərş verdi, yeyib işməh verdi, yeyib işməyi də ki salavataydı. Qaldı, hay bir il, iki il, Allah buna bi dənə də evlad verdi, oğlan. Bunun şuğlu, faqat bir az gedərdi, qəlan-nahar alıf gətirərdi yeyərdilə, nahar alıf gətirərdi yeyərdilə, şam alıf gətirərdi yeyərdilə, pişdüşü də bu qız elərdi, nəzafəti qız elərdi. Bir gün gəldi bi dənə haxlı-subutlu, böyük yalan danışdı. Qız dedi, ba, salavatun biri qutardı, sən yalan danışdun, burda gərəy yalan danışmıyasan. İmam Zaman məmləkətidi bura. Dedi:

– Day danışmaram.

Dedi:

– İki dənə salavatun qaldı ya, iki dənə şərtimiz qaldı, olar da qutardı, day mən sənnən yoxam a. .

Dedi:

– Yox, day danışmaram.

Bir gün bu dedi: “Olan, p. . yeyir hacı qızı hacıynan, mən elə bıra eşşəg döyrəm ki elə hərdən gedəm qəlan-nahar…, elə gedərəm, iki günün xərcin bi yol alım aparım, oturax, yeyək da. Baba, elə gündə gəl al, hər vaxda al”. Getdi ağa, iki günün, üş günün xərcin bi yol aldı gətdi. Qız dedi:

– O nəmənədi? Evün dağılsın, salavatun, şərtün ikisi qutardı qaldı biri. O bi dənə də qurtarsa, sən da ot tutuf yanacaxsan. Day mən səni atacam çölə.

Dedi:

– Yo, iştiba eləmişəm, da eləmərəm.

Bi dənə bularun şərti qaldı. Vırdı, bir gün hava bir az çilələrdi, yağış yağırdı. Dedi:

– Evün dağılsın, elə oturufsan bırda, şah təmbəli döysən ki, bu uşağı al qucağuva, bi çıx çölə. Mən bıranı nəzafət eliyim.

Bu uşağı aldı qucağına, elə piləkənəənəndə bunu ayağı sürüşdü, yıxıldı, uşağı yıxdı, dedi: "Ə xaraba qalasan, bi belən də hava yağar?"

Dedi:

– Ə, evün dağılsın, salavat qutardı.

– Yeri, yeri, yeri, yeri, yeri, sənün odun (sən kafər məmləkətinnən gəlifsən) bizi də yandırar. Ya Allah, çıx, çıx, çıx!

Dedi:

– Çıx, çıx da, baba, gedərəm, sənnən yaxçısın salavata allam. Necə çıx?

– Çıx, çıx da!

Uşağı da aldı, dedi, ya Allah, xoş gəldün. Sənün alan otun ərşi-əlaya gedib, sənə halı döy, bırda gərəy kifir olmıya, yalan olmıya. Dört, beş vaxtun qazasın bi yol almıyasan, sən nə bilisən ki dört, beş gün ömür eliyəcəhsən, gedifsən dörd, beş günün qazasın alıf gətiribsən. Ya Allah, ağa, vırdı bını təpiginən, atdı çölə. Dedi, "baba, neyniyəg axı, gedərəm salavatadı hər nə, gedərəm allam. " Getti bi dənə çörəhxanaya:

– Ağa, bi dənə mənə çörəh ver.

Çörəhxana baxdı, dedi:

– Kişi, rəhmətdiy oğlu, sənün salavatun qutarıb. Sən kafər məmləkətinən gəlifsən, nə çörəy? Kişi, uzağ ol, bizi də sənün otun yandırar.

Ağa, vermədilə. Qəhviyə getdi, həmən söz, hər hana getdi, həmən söz. Şəhərdən çıxatdıla bını. Dedi, "eybi yoxdu, gedərəm, o yoldaşım ki ordadı, o cəngəldə, gedərəm onnan nahar allam, yeyərəm". Can bastı onun yaana. Getdi gördü o, nahar yeyir.

– Ay qardaş, yenə gəldim.

Dedi:

– Kişi, bu yana youx gəlmə.

Dedi:

– Niyə?

Dedi:

– Evün dağılsın, salavatı qutarıfsan, bədbax, sənü əlan alo-un ərşi-əladədi, gələrsən, mənim də evimi, özümü yandırarsan. Qəyit, qəyit, mən eliyəmmərəm sənə çörəh verəm.

– Baba, bu nə bildi, mənim salavatım qutarıb?

Dedi:

– Səni ant verirəm Allaha, acınnan ölürəm.

Bi para çörəy atdı uzağa, dedi, götü ye, çıx, çıx, ya Allah, sən bu yerün adamı döysən, səndə iman, axirət yoxdu. İman, axirətün yoxdu, salavatı da qutarıfsan. Ağa, ordan da çıxdı, gəldi, ginə həmən culda tüşdü. Gəldi ginə, arvat gördü kişi ginə gəldi, dedi, ay külü sənün başuva töküm, sən gedifsən, Allahun yetirib, ordan çıxıb gəlibsən. Da salavatı qutardı da, hamısınnan əli çıxdı, ginə gəldi həmən kasıblığa.

## ŞAH ABBAS VƏ PİNƏÇİ

Şah Abbasa elə ona görə cənnət-məkan deyəllə ki, o zaman deyər, gedərdi vəzirin götürərdi, gecələr dolanardı, mərdümün hal-əhvalın soruşardi. Görə mərdümün vəzi nə cürdü, nə cür geçinellə, neynellə. Bi zaman deyər, gecə bu gedər, vəzirin götürər gedər, görər sahat on iki zad keçipdi, bi dənə küçədən çox belə aşıx səsi gəlir, çalallar, oynulla bırda. Bılar geləllər, əlbətdə dərviş paltarında, deyəllər:

– Baba, bırda nə xəbərdi, nə hay-küydi? Ya Əli mədəd, mola Əli mədəd!

Ev yəsi deyər:

– Ağa, buyuruz, buyuruz.

Bular gələllər içəriyə.

– Ağa, sənün şuğlun nədi, nəçi-ķarəsən, neylərsən, bu kəsbüyi-hardan gətireysən, bu aşıqlari nəyçin çaleysan?

Deyər:

– Valla, mən pinəhçiyəm, ayaqqabıya-zada vaks vırram, ayaqqabı-mayaqqabı tikərəm. Gündə iki qıran qazannam (o zamanun pulu), onun bi qıranına düyüdən, ətdən, çörəhdən, bü cür

şeylərdən allam, bi qıranın da verrəm, gündə aşığ gətirrəm, elə çaldırram bırda sübey kimin.

Şah Abbas mına deyər:

– Baba, səhər birdən şayad bu ayaqqabı tikənnəri, zaddarı şah Abbas dəstür verdi, yığışdırdılar, sənün təklifün necə olar?

Deyər:

– Baba, Şah Abbasun ayaqqabı tikəndə nə işi var?

Deyər:

– Baba, xob, işdi də deməg olmaz ki. .

Elə bü cür oturella, danışella, xülasə bu aşığlar çalar, bular durella gedəllər. Saba Şah Abbas dəstür verər, "hər nə pinəçi var, ayaqqabı tikən var, vaks vıran var, tutuz buları. " Tutulla bıları, hay tutatut olar, bu görər elə tutallar bıları vaqeən. Bu qaçar. Qaçar, deyər: "Alla, neyləyim, mən çörəy için neyləyim axşama, zindəgimi neyləyim, hər gün aşıx çaldırmışam, neyləmişəm" Gedər, deyər, "gedərəm su paylaram. " Bi dənə cam götürər, öz dilimiz, o zaman da ki camınan su içərdilər. Bırda-orda mərdümə su verərmiş, hala, bi şayi aleymış, iki şayi aleymış. O gün vırar, bu üş qıran, dört qıran qazanar. Gecə gələr, ginə o bi qıranına xurdu-xurak, zad öziyçin alar gətirər. Bi səfər iki dəs də aşığ gətirər. Şah Abbas deyər vəzirinə:

– Baba, o kişini tutduğ, hələ gedək görək, bi gecə onun vəzi nə cür oldu?

Duralla, gedəllə gəzə-gəzə, görellə baba, bu aşıxların səsi, bi dəstə, iki dəstə işi döy, götürüb küçəni. Ginə gələr deyər:

– Ya Əli mədəd.

Deyər:

– Ay azar Əli mədəd, gə içəri, görək, dünən sənün dilün fal oldi, gəldün, danışdun bırda, gəldilə büyün pinəçiləri tutdular.

Deyər:

– Xob, büyürun, neylədün?

Deyər:

– Büyün getdim, bi dənə məşk kira elədim, getdim su payladım. Büyünnəri üş qıran qazanmışam, odu iki dəstə aşığ gətimişəm büyün.

Dedi:

– Xob, səhər Şah Abbas dəstür verdi, su paylıyannarı tutdular, saqqaları tutdular, onda sənin təfligin nə cür olar?

Dedi:

– Baba, Şah Abbas Yəzid döy ki, su paylıyanda Şah Abbasun nə işi? Mən xilaf iş görmərəm ki, su paylaram da.

Deyər:

– Baba, sözdi, danışerıx da.

Deyər:

– Baba, sən nə deyəsən fal olar, boşla, su paylıyannarı tutmaz.

Ginə bılar danışallar, eləllər. Səhər gedər, dəstür verər, deyər “su paylıyannarı tutuz. ” Tutulla, bu görər tutatutdu, elə hər tərəfdən gələlər, bu da məşgin-zadın atar, bı yan, o yanda qaçar, gizlənər, deyər, “Pərvərdigara, neynim, necə eləyim, qərib girə geşdim mən”. Gedər, bi dənə pasıban paltari kira elər. Pasıban paltarı kira elər, bi dənə gətirər yanınnan, ağaşdan şəmşir aslar. Gedər durar bi guşədə, görər bi nəfər ət alıb evinə aparar, bını çağırar:

– Ağa, nəmənə apareysan?

Deyər:

– Ətdi.

Deyər:

– Kimnən alıbsan?

Deyər:

– O filan qassabdan.

– Neçiyə alıpsan?

Deyər, məsələm, bi belə, deyər, o bi kilo döy, bi kilodan az veriblə sənə. Deyər:

– Yo baba, mənim yanımda çəkdi, bi kilodi.

Deyər:

– Azdı.

Əti alar, əlində ağurrar. Deyər:

– Az verib mını sənə.

Bu kişini götürər, aparar qəssabın tükanına, gedə-gedə bu ətdən bi zərrə götürər, salar cibinə, aparer orda çəkər, görər yüz girəm azdı.

– Ağa, mına əti niyə az veripsən?

Qəssab da benava, belə bilər bu pasıbandı da. Dədün yaxçi, nənün yaxçi, beş qıran qəssabdan alar, o ətün də azın düzəldər verər o tərəfə, gələr. Gəler, büyün gedər üş dəs aşığ gətirər. Şah Abbas deyər vəzirinə:

– Du, gedək görək, kişi necə oldu?

Gələllə görəllər, kişi üş dəs aşığ gətirib. Ginə bu gələr:

– Ya molla, Əli mədəd!

Deyər:

– Baba, gə içəri, evün dağılsın, sən hər nə deyəsən, sənün dilün fal olar.

Bular gələllər içəri, macəranı bular için danışar, deyər: “Valla, büyün bu cür elədim, getdim, pasıban libas kira elədim, bu cür, bi nəfərün ətin, filan…”

Deyər:

– Səhər pasıbannarı Şah Abbas yığdı sanadı, sənün təfligün nə cür ola?

Dedi:

– Baba, kim kimədi rəhmətdiy oğlu.

Şah Abbas durar gedər, səhər deyər: “Hər pasıban var, yığuz gətirüz şəhərdə, pasıbannarnan mənim işim var”. Yığılla pasıbannarı, gətirəllə, bu da bını gecə görmüşdü, tanıyedı da, bu qaçar gedər, bi xarabada gizlənər. Hay bı yan, o yan, deyər, pasıbannardan bi nəfər qalıp. Gədəllər, mını bi dənə xaraba yerdən tapella gətirəllə. Bu da mına tərif eləmişdi: “Mənim şəmşirim ağaşdandı, yanımnan aslamışam. ” Gələr, deyər:

– Ağa, bi dənə bırda mucrim var, qaraldi bi nəfər pasıbannardan gələ, bu mucrimin boynun vıra.

Deyəllə, kim gəlsin, kim gəlsin? Şah Abbas dəstür verər, deyər, o pasıban gəlsin. Gətirəllə bu benəvani, muun da şəmşiri ağaşdandı, yanınnan asleyip. Şah Abbas deyər:

– Pasıban, vır onun boynun, bu mucrimdi.

Deyər:

– Qıbleyi-aləm sağ olsun, bu seyitdi.

Mislin ki Şah Abbas da o zaman seyiddərə ehtiram elərmiş. Deyir:

– Elə seyid də olsa, gərəg boynun vırasan.

Bu bunun hey əlinnən itələr, deyər, bədbaxt oğlu, deynən "seyidəm". Bu deyər:

– Baba, mən seyid döyrəm, necə deyim axı seyidəm

Bu hey təkrar elər, bu demir. Sonra deyər, qibleyi-aləm sağ olsun, bu mucrim deyər "mən seyidəm". Deyər:

– O, seyid də olsa, gərəg boynun vırasan.

Dəsturdu da! Bu deyər, Şah Abbas da istər seyitdəri də öldürə, ədalətdən zaddan çıxıpdı, indi mənim gərək şəmşirim ağac ola da. Yanınnan çəkər şəmşiri (şəmşir ağac idi da): "Allahummə səlli-əla Məhəmməd". Şah Abbası gülmək tutar, dəsmalı qoyar ağzına, mını çağırar, deyər:

– Evün dağılsın, gə bıra, day sənin ruzin qabağın heş kəs kəsəmməz, mən sənə gündə beş qıran verəcəm. İndi özün pinəçiliy eliyəsən, su paylayasan, pasıbannığ eliyəsən, hər nəmənə eləyəsən, səən ruzun qabağın, mən hər nə cür elədim alammədim.

Sora gündə beş qıran Şah Abbas verərmiş mına, bu da gedərmiş o aşıxları gətirərmiş, xurdu-xurəyin də alarmış. İndi özü də ki nə kəsb eləmiş, kəsbin elərmiş.

## GÜLÜ-MOLA

Bi dənə söbət eliyək ağaların huzurunda, ağaların sağlığına. Günnərün bir günü, bir varıdı, biri yoxudu, Allahdan qeyr əz heş kəs yoxudu. Bi dənə patşah varıdı, müsəlmən patşahıdı. Müsəlmən patşahın iki dənə arvadı var ıdı. O arvatdardan heş birinnən övlatı yoxudu. Bir gün oldu, bi dənə dərbiş gəldi, buların qapısında qəsidə dedi. Şah dedi:

– Aparun dərbişin vəzifəsin verün.

Munun xanımının biri apardı munun vəzifəsin verə, dərbiş qayıtdi :

– Xanım, mənə bi gecə yər verəsüz, mənim vəzifə ehtiyacım dör. Fəqət mən gəlmişəm gəzməgə, dolanmağa, fəqət bi gecə mənə burda yer verəsüz.

Bu qayıtdı, getdi, şaha dedi. Şah dedi:

– Həlbət, azdı vəzifəsi, bir az çörəg apar ver.

Təzədən bir kasa qızıl yığdı apardı, dedi:

– Gülü-Mola, şah munu göndərdi, bəs, şayəd acımış.

Dedi:

– Xeyir ağa, mən vəzifə istəmərəm, mənə bi gecə bi dənə mənzil verəsüz, saba burdan çıxam, bi yerə gedəm.

Dərbiş gəldi, şah yer verdi. Dərbiş gəldi, şahınan otdu həmsöhbət oldu. Həmsöhbət olannan sonra bu dərbiş bu yan, o yana baxdı, gördü, munun iki dənə xanımı var, olardan deyəsən, heş birinnən övlat yoxdu. Dedi:

– Qibleyi-aləm sağ olsun, deyəsən, sənün bu xanımlarınnan heş birinnən övlat yoxdu.

Dedi:

– Xeyir. Gülü mola, övlatım olmer.

Dedi:

– Xob, sən nəmə verərsən, mən sənə bi dənə alma kəsəm verəm, buların ikisinnən də övlat ola, ikisinnən də oğul ola?

Dedi:

– Nəmə istəsün verrəm.

Bu cifinnən bi dənə alma çıxartdı, almanı aradan böldü, dedi:

– Parasın bu xanımunnan ye, parasın o xanımunnan, vəli bu şərti ha arada yazı qoyax, yengi il bu moqə sənün iki dənə övlatun olsa, ikisi də oğul övlatı, birin verəsən mənə.

Dedi:

– Gülüm-Mola, eybi yoxdu.

O, almanı böldü, parasın verdi, bu xanımıynan yedilə, parasın verdi, o xanımıynan yedi. Bu səfər dərbiş gecə yatdı, qaldı burda, səhər oldu, patşahdan xudafislig elədi, getdi. Getdi, il dolandı, ay dolandı, illər başa gəldi, moqeye bu xanımların barihəmli oldula, moqeyi bular istədilə bari-həmlin yerə qoyalar, dərbiş dolandı gəldi, genə həmun məmləkətə, həmun şəhrə. Dər-

biş genə gəldi həmun qapıya, gördü bəli, həmun şahın, deyəsən, hanımlarının ikisinin də uşağı olub, qəsidə dedi. Şah dedi:

– Xanım, get, dərbişi gəti evə.

Dərbişi gəldilə, apardıla evə, şam-mam yedilə, çay-may işdilə, həmsöhbət oldula, dərbiş gördü xanımların ikisinin də oğlu olub. Buların uşaqları da hədi-təklif olubla, mədrəsəyə gedəllər. Dedi:

– Xob, qıbleyi-aləm sağ olsun, deyəsən axı, xanımlarun ikisi də uşağı olub, ikisi də oğlandı.

Dedi:

– Bəli, ikisi də oğlandı Gülü-Mola.

Dedi:

– Xob, indi bizim şərtimiz nəmənədi?

Dedi:

– Xob, şərtimiz var da, indi hər birin bularun isdəsün apar da, mən sənnən şərt kəsmişəm, hər birin isdəsün apar.

Gecə yatdı, qaldı burda, səhər oldu, dedi:

– Xob, indi oğlannarun hər birin verəsən ver mənə.

Şah dedi:

– Qoy, mən gedim arvatdara məsləhət eleyim, görüm hası verey.

Bu durdu getdi içəri, o yankı otaxda xanımnara dedi:

– Xob, sən oğlun vereysən dərbiş apara, ya sən vereysən?

Dedi:

– Qibleyi-aləm sağ olsun, nə mən vereyrəm, nə o verər. Əlan neçə illərdi, sinnimiz, sağlığımız gəçifdi. Əlan iki dənə, adama bi dənə övlat tafmışıx, onu da verək dərbiş aparsın?

Şah dedi xanımına:

– Olmaz, biz şərt bağlamışığ, gərəh birin verəh apara.

Munun xanımının biri türküdü, biri gilək. Bu giləgə zor elədilə, Gilək oğlanı verdilə dərbişə, adı da Məhəmməd idi.

Dedi:

– Dərbiş, bu Məhəmmədi verərik, sən götü get.

Dedi:

– Eybi yoxdu.

Dərbiş Məhəmmədi götdü, yapışdı əlinnən, süb burdan xudafislig elədi, gəldi çıxdı. Bir müddət yol gəldi, çıxdı bir cəngəl arasına. Dedi:

– Oğul, Məhəmməd.

Dedi:

– Hə!

Dedi:

– Yavaş-yavaş yeri. Mən burda bir oturum, ayaqqabımın bağın bağleyım.

Məhəmməd məşqul oldu yeriməyə, dərbiş (yalannan ayaqqabısın bağlameydi), dərbiş atdan döndü gəldi, Məhəmmədin qabağına bi dənə şir şiklində çıxdı. Məhəmməd qışqırdı, Məhəmməd qışqırdı:

– Ay Gülü mola, şir məni dağıtdı, gəl, ay, ay Gülü-Mola! Şir məni dağıtdı gə.

Məhəmməd gördü, yo, Gülü-Mola hardeydi. Şir ənqərib oldu bu oğlanı didə, gördü oğlanın bağrı çatder, şir özü qayitdi. Şir özü qayitdi. Dərbiş idi da, vird oxumuşdu. Vird oxudu, genə oldu dərbiş, gəldi, dedi:

– Məhəmməd, niya qışqıreydun?

Dedi:

– Valla, bi dənə burdan şir çıxdı, Gülü-Mola, ənqərib idi məni yeə, oudu qışqırerdım.

Yapışdı Məhəmmədin qolunnan, qaytərdi, gətdi, verdi şaha. Dedi:

– Qibleyi-aləm sağ olsun, gəl ə bu oğlu, bu mənim karıma gəlməz, o birsin verginən.

Bular qaldıla sərgərdan. Bu oğlanı verdilə ona, o oğlanı təzədən verdilə dərbişə. O oğlan qayitdi:

– Dədə!

Dedi:

– Hə!

Dedi:

–Məni verəysüz dərbiş apara, amma bi dənə o əyrilərünnən, o qılışlarunnan mənim atdan kəmərlərimə bağla, üsdən mən kot şalvarımı geyim.

Munun adı İbrahim idi. Bi dənə əyri gətdilə, bağladıla atdan munun belinə, üstən munun kot şalvarın geydirdilər, yapışdıla munun qolunnan, verdilə dərbişə. Verdilə dərbişə, Dərbiş götdü gəldi. Dərbiş bi az gəldi, çox gəldi, genə həmun yerə gəldi. İsteydi genə, munu imtahan eliyə. Dedi:

– İbrahim, yeri, mən də əlan gəleyrəm.

İbrahim məşqul oldu yeriməyə. Dərbiş bu yannan döndü gəldi, vird oxudu, özün elədi şir, çıxdı İbrahimin qabağına, yumuldu İbrahimin üstünə, yumulanda İbrahim əyrini çəhdi (qılıncıdı da), yumuldu şirin üstünə:

– Köpöyüun malı, mən də Məhəmməd oldum, gələsən, məni dağıdasan?

Şiri qovdu, təpdi cəngələ. Şiri qovdu, təpdi cəngələ, qayitdi yola. Yola qayidəndə dərbiş genə vird oxudu, oldu həmun dərbiş. Gəldi, dedi:

– İbrahim!

Dedi:

– Bəli!

Dedi:

– Nəmeydi, səsün gəleydi?

Dedi:

– Valla, Gülü-Mola, burdan bi dənə şir çıxdı, istədi məni dağıda, mən munu təpmişəm aşağa.

– Xob! Eybi yoxdu, nəm olar?

Day bu dərbiş oğlanı qaytərmədi. Bu dərbiş oğlanı apardı. Az getdi, çox getdi, bir qədir yol getdi, getdi çıxdı bi dənə dağın başında qəlaçə varıdı, getdi, çıxdı qəlaçiyə, getdi, çıxdı qəlaçiyə. Bu oğlan gördü, dərbiş cifinnən bi dəstə açar çıxartdı, əvvəl bi dənə qapını aşdı, əvvəl bi dənə qapını aşdı, hoy bu qapını, hay o qapını, hay o qapını, hay o qapını, qırx dənə qapı aşdı. Qırx dənə qapı aşdı, geşdi içəri, bi dənə qapı aşdı, qırx birinci qapını, baxdı

gördü, bu otağun dörhadör hamısında şüş qızıl, mücəssəmə qızıl çinneyib vırıb duvarrara. Dedi:

– Gülü-Mola, bular nəmənədi?

Dedi:

– Sənə deyərəm, bular nəmənədi.

Dedi:

– Xob, qırx dənə otağun var, bu da qırx bir dənə, buları əvvəl de görüm, bular nəmənədi?

Dedi:

– Hələ buların sirrin sənə deməm, hələ sən uşağsan.

Qəyitdi dərbiş, oğlanı tutdu, qəyitdi, gəldi aşağıda bi dənə töyləsi varıdı, töylənin qapısın aşdı, gördü, hoo, iki dənə at var burda. Dedi:

– Gülü-Mola, bular nəmənədi?

Dedi:

– Bi dənə qırmızı at var, bi dənə qara at.

Dedi:

– İbrahim, bu atdarın tükünnən üş dənə yandırasan, hər birinin tükünnən üş dənə yandırasan, hər yerdə olsun, dadua yetişər.

Dedi:

– Eybi yoxdu.

Bu səfər oğlanı gətdi, çıxatdı, otağa. Gətdi, çıxatdı, otağa, geşdi, bi dənə aşpəzxanası varıdı, getdi aşpazxanaya. Oğlan baxdı, gördü, ə dədonan, bu böyüg aşpazxanadı, munun vəsətində bi dənə böyüg qazan var, doludu suunan, pıkır-pıkır qəynər, elə qəynər, şoşlaşır. İbrahim dedi:

– Gülü-Mola, bu nəmənədi?

Dedi:

– Əlan sənə deyərəm, nəmənədi.

Dedi:

– Xob!

Dedi:

– O kot şalvar nəmənədi?

Dedi:

– O kot şalvar da mənimdi, kot şalvarımdı, geyərsən, atdarun tükünnən qoyarsan cifüə, hər yana gessün, girdaba düşdün, atdarün tükünnən otdarsan, hər birin istədün gələr dadua.

Dedi:

– Xob!

Gəldilə yetişdilə bu mənzilə. Dedi:

– İbrahim!

Dedi:

– Hə!

Dedi:

– Oynamax bilərsən?

Dedi:

– Yox, Gülü-Mola, mən şahzadəyəm, mən şah balasıyam, mən oynamax bilməm ki. Mən dünənkü uşağam. Mən nə cür oyneyim. Sən oynagınan, qoy mən baxım örgənim.

Dedi:

– Yo, elə bu qazanın dörəsinə fırranasan.

Dedi:

– Axı, mən bilməm Gülü-Mola! Sən oyna, görüm, nə cür oynəsən, mən də onnan sonra mən oynaram.

Gülü-Mola durdu ayağa. Gülü-Mola durdu ayağa, bu qazanı döyr elədi, bi, iki yol fırrandı qazanın başına. Bu oğlan gördü hoo, bir də qəyidif gələndə oğlan təpiginən vırdı, Gülü-Mola düşdü qazana. Gülü-Mola düşdü, dərbiş düşdü qazanın içinə. Qazanın qəynəməyi yatdı, oldu sapsarı zəfəran su. Dərbişi yapışdı, çəhdi eşigə, gördü, dərbiş oldu xalıs şüş qızıl, şüş mücəssəmə qızıl. Keşdi, o içərdəki qızıllara baxdı, gördü, ə olan, bular elə hərəsi bi dənə adamdı, eyni dərbişin şəklindədi. Dərbiş ildə bir dənə, ya ayda bir dənə bü cür uşaq gedeymiş, tapeymiş, gətireymiş burda buları qızıl eleymiş, qoyeymı mücəssəmə elər. Dedi, xob, Allah mənə sarıydı, Allah yetirdi mən için. Bu oğlan bu dərbişi götdü, atdı həmun bu qızıllarun üssünə, götdü, atdı bu qızıllarun üssünə. Oğlan bir gecə burda zindigi elədi. Dedi, pərvərdigara, mən hayana gedim, hayana getmeyim, bü cür ki olmaz, mən burda daimi qalam. Oğlan durdu, gəldi atın hər ikisi-

nin də tükünnən bir az qopartdı ayrı-ayrı, gəldi, bi tüfəh varıdı kot şalvarın yanında, bu kot şalvarın bi dəstin geydi, tüfəngin birin götdü, saldı çiyninə, bu tükləri də ayrı-ayrı qoydu ciblərinə. Bu, qəlaçədən çıxdı. Az gəldi, çox gəldi, bir müddət yol gəldi. Gəldi çıxdı bi dənə biyabana, gördü bu biyabanda bi dənə davar var, çoban var, çoban davar otarər. Gəldi çıxdı çobannarın arasına. Çobannara dedi:

– Çoban qardaş, acam, bir az mənə çörəh-mörəh verəsüz.

Çobannar bir az süt-müt sağdı, bir az çörəh-mörəh zat verdilə, bu yedi. Yedi, işdi, neşə oldu. Dedi:

– Çoban!

Dedi:

– Bəli.

Dedi:

– Bi dənə bu keçilərüzdən mən için kəsəsüz, pulun verəm sizə, munun qarnın mən için çıxardasuz, bükəsüz, ovasuz, mən için burda dəri eliyəsüz.

Çobannar dedi, eybi yoxdu. Öz keçilərimizdən bi dənə verrik. Getdilə, bi dənə keçi gətdilə, kəsdilər, qarın-bağırsağın zadın sökdülər, bu keçinin qarnın çıxartdıla. İbrahim dedi:

– Bu keçinin qarnın mən için burda ovun.

Keçinin qarnın ovdula, ütdülə, ovdula, elədilə ağapağ dağarçıx. Elədilə ağapağ dağarçıx. Bını döyrə bişdi, börk əndazəsində bişdi, əlbəhəl bını tikdi, elədi bi dənə börk. Elədi bi dənə börk, oğlan geçirtdi başına, gördü, hə, elə başına qalıfdı. Çobannara dedi:

– Çoban qardaş.

Dedi:

– Bəli!

Dedi:

– İndi siz birüz libasuzu mənnən əvəz eliyəsüz.

Dedilə:

– Bizim libasımız kəsifdi. Sən şahzadəsən, sənün libasun heyfdi.

Dedi:

– Eybi yoxdu, sizün işüz olmasın, mən bu libaslarımı vereyrəm sizə, siz birüz libasuzu vərün mənə.

Bu libasların birinin, əvəz elədi buların birinən. Oların… çoban libasıydı, kəsafət idi, çoban… Öz libasların çıxartdı verdi olara, oların libaslarının bir dəstin aldı, geydi. Bu səfər bu börkü, həmən bu börkü geçirtdi başına. Börkü geçirtdi başına, çobannardan xudafislig elədi, çobanın, geçinin pulun verdi. Bir müddət yol gəldi, bir müddət yol gələnnən sonra gəldi çıxdı bi dənə arxın bəndinə. Gördü bu arxdanan xeyləh su gedər enişə. Dedi, xob, mən şayəd burdan getsəm, azam, kəndi tapa bilmiyəm. Mən bu arxın suun burdan uçurdum, bir yerdən, labud bu suun dalısıcağ bir nəfər gələcəeg. Yətişdi, bir yerdən bir uçux yer varıdı, burdan vırdı, sındırdı, arxın suun qət elədi. Soudu kənara, arx qaldı quru. Sən demə də bu su gedey bi dənə ayrı məmləkətdə ayrı patşahın bağına. Gedey ayrı patşahın bağına həmun bu su, munun da bağda nökəri var. Bu səfər bu gördü ho, sövə-sövə bi nəfər gələ, ay köpöyoğlu su salan! Bu qaşdı, gizləndi. Bu qaşdı, gizləndi, bala-bala, bala-bala gördü, bi dənə bel çiynində bir nəfər qoca kişi gəldi:

– Köpöyoğlu, su sən hardan salıfsan?

Yetişdi bu suvu bağlıya, bu gördü, bu suvu bağlıya bilmer qoca kişi, dedi:

– Ay qardaş, məni vırma, bu suvu mən soumuşam, qoy mən də gəlim sənnənköməhləşim, bı suvu bağlıyax.

Bəli, bu yetişdi, bu həmun kişinən bu suvu iki yannan başladıla su getdi arxa. Bu oğlan qəyitdi ki, ay qardaş, ay əmi, bu hara gedəy bu su?

Dedi:

– Gedər mənim bağıma.

Dedi:

– Məni aparısan?

Dedi:

– Gəl gedəh mənnən.

Bu düşdü munun dalına, munnan gəldi. Gəldi çıxdı bi dənə bağa, gördü ay oğlan, bu bağ bi dənə behişdi ki, day məmləkətdə belə bağ yoxtu. Dedi:

– Ay bərziyar qardaş, bu bağ kimin bağıdı?

Dedi:

– İsfahan patışahınun bağıdı. Onun (mən) nökəriyəm burda, bərziyarıyam.

Bağ bu tərəfi gül, o tərəfi çimən, o tərəfi səbzi, belə bağdı ki, nə qəşəhlihdə. Dedi:

– Xob, məni burda özvüə nökər saxlarsan, mən burda sənə köməg eliyəm?

Dedi:

– Niya saxlamam, saxlaram, ama örgənəsən ə!

Dedi:

– Örgətsün örgənərəm.

Bu kişi neynədi? Bu kişi muna örgətdi, bax belə suvarılla, elə suvarılla, elə bağlalla, elə eləllər, bi dənə də burda dam varıdı, çay-çörəh varıdı. Bu oğlanı örgətdi bu suvarmağı zadı. Bu oğlana dedi:

– Gecə sən burda bağda qal, mən gediyrəm, səhər genə gəlləm.

Bu, çıxdı getdi, şahın nökəri çıxdı getdi. Bu oğlan gecə qaldı bağda. Bir dəs kot şalvar ki, evdə qalmışdı, atın tükünnən yandırdı, o kot şalvarınan qara at gəldi. Kot şalvarınan qara at gəldi. Kot şalvarı asladı duvardan, çıxdı qara atın belinə. Çıxdı qara atın belinə, düşdü bu gül bağın bi tərəfinə, suvarmı gül bağdı, bu atınan düşdü munun bi tərəfinə, ənişə vırdı, yoqquşa vırdı, sağa vırdı, sola vırdı, bu gülləri tamam beyinnən apardı. Gülləri tamam beyinnən apardı, əndi atı yudu, təmizlədi, ata dedi, get, get genə həmun yerüva. At getdi genə həmun töyliyə. Bu gecə yatdı bu bağda, süb gördü bərziyar gələr. Bərziyar gələr, qaşdı gizləndi, həmun dəri börkü qoydu başına, kot şalvarı da gizlədib o yanda, dəri börkü qoydu başına. Olan, bu bərziyar gəldi, şahun nökəri gəldi, gördü, ay dədəm, nənəm vay, bağı, gül bağın bir qısmətin belə eləyib, belə eleyib veran.

– Ay İbrahim! Bura nə gəldi, bu nə ozahdı, bunı nəmə belə elədi, bu nə ahvalatdı? Şah gəlsə, görsə, mənim dədəmi yandırar!

Dedi:

– Ay bərziyar qardaş, bu gecə bi sürü douz gəldi. Douz gəldi, qəytərə bilmədim, qorxumnan geşdim, davar qapısın bərkitdim yatdım orda. Tamam douz buları bu cür veran eliyip.

Dedi:

– Evim yıxılıp da, şah məəm dədəmi yandıracax.

Dedi:

– Xob, mən nəmə eləyim?

Bu səfər yaman, müsibətinən bu güllədən bir qısmət qozadıla, suardıla, düzəltdilər. Biləxirə, qaldı saba geciyə. Saba gecə də bu səfər bağban getdi, bağban getdi. Dedi:

– İbrahim ba, day qoyma douz gələ buraya.

Dedi:

– Yox, qoymam.

Gecə oldu, genə bi səfər o biri atın tükünnən yandırdı, o biri at gəldi. Mindi atı, düşdü o tərəfə, düşdü o tərəfə, o tərəfi belə elədi veran. Atı yudu, təmizlədi, at genə getdi. Bu səfər səhər oldu genə bu adam gəldi, bağban gördü ə olan, bu səfər bu yanı veran eleyip. Dedi:

– Evün dağılsın İbrahim, bə bu neçə vaxtı niyə burda douz yoxudu. Sən niyə belə eleysən?

Dedi:

– Evun dağılmasın, mənim dədəmi yandırıfla ey, öldüreydilə məni. Mən qorxumnan çıxmışam damda yatmışam, day demə!

Dedi:

– Xob, da geçib də, şah gəlsə bura, dədəmizi yanıdıracax.

Bu səfər buları da təmizlədilə, düzəltdilər. Day bu bağban dedi:

– Evün dağılsın, day mən gedeyrəm, saba şahın qızları gələcəh bura, nava-nava, görüşəsən e.

Dedi:

– Eybi yoxdu.

Dedi:

– Bax, sən keçəlsən, başunnan göreysən keçəllərünnən, burdan yağ gələy burdan süzüley.

Keçinin dərisinin piyi əriey, bulardan gələy töküləy. Dedi:

– Saba şahın qızları gələcəh bura, qırx dənə kənizi var, kənizlərinən.

Bu bağban getdi. İbrahim çıxdı dama, damnan bu libasların geydi, börkün qoydu başına, on dört aylıx gecəsi, ayı özündə tamam elədi. Xob da başının bir tərəfi qızıl, bir tərəfi gümüş. Bu burda yavaş-yavaş gərdiş eleydi o yan bu yana. Şahın qızları (üş dənə şahın qızı varıdı), qırx dənə kənizlərinən bala-bala gəldilə bağa, gəldilə bağa. Bu qapılıxdan bular varıd olanda bağa, şahın böyük qızı dedi:

– Gəlün, bu tərəfdən gedək, o yannan belə gələk, bu ortancıl qızı dedi, gəlün bu tərəfdən gedək, o yannan belə gələk. Bular heş biri, heş birinin sözünə baxmadı. Şahun böyük qızı o yannan düşdü, kənizlər buların dalısıycax, ortancıl qız bu yannan düşdü, bu tərəfdən. Ortancıl qız bu yannan gəldi, gördü olan, bağın bu tərəfində bi dənə cavan var, yemə-işmə, xətdi-xalına, gül cəmalına tamaşa elə. Belə cavan İsfahanda yoxdu. Tez qəyitdi, tez qəyitdi, qaşdı qızların qabağına, kənizlərnən qızları qəytərdi, qoymadı gələlə muna sarı (o yannan belə gələcəg idi axı). Qəytərdi, o yannan çıxdıla, bağdan çıxdıla, getdilər, getdilər evə. Getdilər evə, bunun böyüg bacısı dedi:

– Axı, biz qərarıdı, o yannan belə gələg, sən bizi niyə qəytərdün?

Dedi:

– Da o yan xərəb idi, o yannan qoymadım sizi gedəsüz, o yannan sizi qəytərdim.

– Bular gəldilər, bular gəldilər evə, bağbanı çağırdılar. Bu qızlar bağbanı çağırdı, bağban gəldi bu qızların yanına. Dedilər:

– Bağbanbaşı!

Dedi:

– Bəli!

Dedi:

– Biz üş dənə qızıx, şahın qızları. Get biz için üş dənə xırça al, gəti, biri maya vırmış, biri çox yetişmiş, biri kal, o xırçaları biz için gəti bura.

Bağban getdi, üş dənə xırça gətdi. Qoydular üş dənə boşqaba, hərəsinin yanına bi dənə pıçax qoydula. Dedilə:

– Bağban, bu xırçaları apar qoy dədəmin qabağına.

Bağban bu xırçaları apardı qoydu şahın qabağına. Şah bu xırçalara baxdı, pıçaxlara baxdı, dedi:

– Bağban! Bu nəmənədi, bu nə hikayətdi?

Dedi:

– Bular qızların göndərip.

Şah qəyitdi vəzirə:

– Təbir tök, görüm bu nə cərəyandı, qızlar munu göndərip.

Vəzir götdü, baxdı, gördü, üş dənə xırçadı, biri kaldı, biri maya vırmışdı, biri çox yetişip. Dedi:

– Qibleyi-aləm sağ olsun, bu sənün, yetişən sənün böyüg qızundu, maya vırmış vəsət qızundu, kal xırda qızundu. Bular sənnən ər təvəqqi eleyip, derlə, biz həddi-təklif olmuşux, bizi ərə verəsən. Şah muna baxdı, o ona baxdı, o ona baxdı. Vəzir, vüzəra dedi:

– Xob, qıbleyi-aləm sağ olsun, gərəh evləndirəsən buları, verəsən ərə bular.

Dedi:

– Xob, eybi yoxtu. Bağban!

Dedi:

– Bəli!

Dedi:

– Get, qızlara deynən, saba zurna-balaban vırılacax, meydan sulanacax, miz-səndəl qoyulacax, İsfahanın nəmənə cavanı var, gəlip bu miz səndəllərdə əyləşəcəh rədif-rədif gələsüz, düşəsüz bu xıyabanlara, bu rədiflərə, hər kəs hər birin bəyənsə, əlin qoya onun üstünə.

Bəli, saba zurna-balaban vırıldı, meydan sulandı, miz səndəli qoyuldu, İsfahanın şəhrində day nəmə cavan varıdı, vəzir,

vüzəra, hamı gəldi, miz səndəlün üstündə əyləşdi, yığışdılar, otdular. Dedi:

– Bağban, get qızları çağır, gəlsin.

Bağban getdi, qızları çağırdı, gəldi. Qızlar gəldi, o başda dayandıla üçü də. Şah qəyitdi, dedi:

– Qızlarım!

Dedilə:

– Bəli!

Dedi:

– Xob! Siz mənnən ər təvəqqi eləmüşdüz, sizi mən ərə verərəm. Xiyaban-xiyaban girün bu camahatın içinə, hər birin pəsənd eləsüz, barmağun qoyun üssünə, hər birin pəsənd eləsüz.

Ağa, bu üş dənə qız düşdü rədifinən, bu rədifinən getdilər, o rədifinən, qabax rədifinən gedəndə böyük qız əlin qoydu vəzirin oğlunun çiyninə, getdilə, o vəsət qız əlin qoydu vəkilin oğlunun çiyninə, qaldı bu ortancıl qız. Ortancıl qız bu xıyabanı souşdu, o xıyabanı döndü, o xıyabanı döndü, o xıyabanı döndü, dörhədör bu camahatın için dolandı, getdi, durdu kənarda, dedi:

– Qibleyi-aləm sağ olsun, mən istəyən burdə döy.

Dedi:

– Genə İsfahanın şəhrində cavan qalıp?

Dedilə:

– Xeyir, qalmeyip.

Dedi:

– Əmərə baxun, görün, genə cavan qalıp.

Dedilər:

– Xeyr, qalmeyip, hamı gəlip.

Dedi:

– Qızım bu boyda camahatın içində, bu boyda cavanın içində bi nəfər sən istiyən olmadı?

Dedi:

– Xeyir, mən istiyən burda döy, mən istiyən hardeydı burda! Mən görən cavan burda dör.

Dedi:

– Bağban!

Dedi:

– Bəli!

Şah dedi:

– Bağban!

Dedi:

– Bəli!

Dedi:

– Qabağa gə.

Dedi:

– Bu qızlar dünən bağa getmişti, bağda sənün bərziyarun yoxtu, nökərün yoxdu ki?

Dedi:

– Xeyr ağa, yoxdu!

Dedi:

– Düzün de. Dünən bular bağa getmişdilə, bu qız bağda cavan görüp. Bu boyda cavanı bəyənmədi, bu qız bağda cavan görüp.

Bə bərziyar da Allah görsətməsin, qorxey, az qaley ölə şahın qorxusunnan. O da bağda kəçəldi, cındır libas geyip, gaday libası geyip, özü keçəl, dərinin yağı bulardan [yanaklarınadan] sözülüp gəley: axı mən gedim, onu nə cür gətirim! Ağa, bu bağban qəyitdi bağa. Bağban qəyitdi bağa, getdi, gördü, o keçəl bağda girip lap o zadın bucağında dayanıp. Yetişdi, dedi:

– Allah sənün tıfağın dağıtsın, sən mənim dədəmi yandırıpsan, şah səni isteyip, ölsən də şah səni öldürəcəh.

Yetişdi munu qarpaladı, atdı çiyninə, atdı çiyninə, sürüyə-sürüyə munu apardı camahatın içinə. Bulardan (yanaklarından) da dərinin yağı töküley, isdi dəyip, gətdi sürüyə-sürüyə, gətdi munu saldı camaatın içinə. Salanda qız o yannan dolandı, gəldi, barmağın qoydu munun üstünə:

– Ağa, mən munu isteyerəm.

Ə olan, camaatda ona baxdı, o ona baxdı, o ona baxdı. Şah qəyitdi dedi:

– Qızım, sən mənim başımı saldun aşağı, sən elə nelədün, bi dənə gədaya, bi dənə keçələ, bi dənə nifrinə, getdün barmağun qoydun onun üstünə.

Dedi:

– Qiblei-aləm sağ olsun, mən munu isteyerəm. Versün, mənu isteyrəm, verməsün də munu isteyrəm, rəddi-miras da eləsün, munu isteyrəm.

Ağa, şah götdü, öz dəsti-xəttinən rəddi-miras naməsi yazdı, imzaladı verdi qıza. Dedi:

– O sən, o da keçəl, götü hər yana gedeysən get, şəhərdən də çıxartacağam.

Bağbana qəyitdi:

– Apar munu kəndin ayağında bi dənə qarı var, qoy o qarının evində.

– Bəli!

Bu oğlanınan bu qızı sürüyə-sürüyə, bağban gətdi qoydu kəndin ayağında bi dənə qarı vardı, qarının evində. Bular qaldıla burda. Siz için hardan xəbər verim, bu qızların birin vəzirin oğluna qırx gün, qırx gecə toy çaldı verdi, birin vəkilin oğluna. Vəzirin oğluynan vəkilin oğlu oldu şahın damatdəri. Bu səfər bu da qaldı bu qarının yanında. Getdi günüzlər dolandı, gecələr gəldi qarının yanına. Günnərin bir günü oldu, şah məriz oldu. Şah məriz oldu, getdilər düktür gətdilə, düktür gəldi, baxdı, mayna elədi, baxdı, şaha qəyitdi dedi:

– Sən, gərəg ahu əti yeyəsən, diri ahu tutala, gətirələ, sən onu kəsəsən, yeyəsən, sənün mərizligün yaxçı ola.

Dedi:

– Xob, diri ahunu da tutmax olmaz ki.

Dedi:

– Da bilmeyrəm da, diri ahu gərəg tutasan, yəsən.

Biləxirə bu şah qəyitdi, dedi damatdarına:

– Saba gedəcəhsüz ovlağa dağa. Gedəsüz, orda görəsüz, ahudan zatdan, ölüsünnən dirisinnən tafıp vırıp gətirə bilərsüz.

Bular dürbün götdülə, at götdülə, tüfəhləri götdülə, çıxdıla getdilə ovlağa, getdilə ovlağa. Bu qız gəldi, qəyitdi:

– İbrahım!

Dedi:

– Hə!

Dedi:

– Dədəm məriz olup. Düktür dədəmə deyip gərəh ahu əti yəsən, sən sağalasan. Kürəkənnərin göndərip ahu vırmağa. Gələsən, düşəsən oların dalına, gedəsən, olar o ahunu hər yerdə vırsalar, kəllə-paçasın kəsip atacaxlar, oları sən gətirəsən, bədənin də olar apara.

Bu dedi:

– Mən gedə bilməm. Mən bi dənə keçəl oğlan, ölüvay oğlan, mən gedə bilməm.

Dedi:

– Yo, gərəg gedəsən, qeyri-mümkündü.

Dedi:

– Xob, indi get, dədünnən bi dənə at al gəti (dədəsinən arası yoxudu ya), get, nənünnən bi dənə at al gəti, mən minim, gedim.

Bular gedif. Bu səfər bu neynədi, bu qız getdi, nənəsinnən bir dənə ölü maydan at aldı, gətdi, palanlax, verdi Məhəmməd İbrahimə. İbrahim mindi, getdi, o üzdə bir dərə varıdı, dərədə atı yıxdı yerə, atın qol-qışın yığdı bi yerə, möykəm səncir tənəfinən bağladı, atı qoydu dərədə. Qırmızı atın tükün yandırdı, tüfənginən, libasınan gəldi. Həmun tüfənginən libas, qırmızı at gəldi. İbrahim libası geydi, tüfəngi saldı çiyninə, atı mindi, getdi ölağa, getdi şikargaha. Getdi, bi dənə dağın qulləsində bi çiməngah varıdı, getdi atın mıxın vırdı, bağladı orda. Bi dənə vird oxudu, nəmə şikarvan, nəmə ovla varıdı, nəmə ceyran var ıdı, hamısı yığıldı, gəldi munun yanına. Gəldi munun yanına, İbrahimin yanına. Bu şahın damatları gəldi, bu baxacaxdan, o baxacaxdan, o baxacaxdan dürbün saldıla, gördülə, ay oğlan, heş yerdə öv yoxtu, fəqət bi dənə çiməngahda at görükey, bi nəfər də atın yanında yatıp, tamam nəmə öv var, ordadı. Dedi, xub, gedək da, gedək ora, bu ki bizə…hər kəsə olsa, bizə nədəhm [verməm] deyə bilməz. O şikarının məsəli kimi nədəhm [verməm] deyər; tutar,

qol-qıçın bağlarıx, övlardan bi dənə apararıx. Bu iki damatdar gəldilər, gəldilər atdarınan yavaş-yavaş gəldilər, çıxdıla həmun buğlanın yanına, gördülə, ay oğlan, bu bir dənə cavandı, bi dənə cavandi yemə-işmə, xətti-xalına, gül camalına tamaşa elə, elə oğlandı. Dedi:

– Xob, bala, oğlannar, nəmə için gəlipsüz?

Bulara qəyitdi. Dedi:

– Valla, bizim qəynatamız mərizdi, özü də şahdı, məriz olupi, düktür gərimişik, düktür deyip, gərəg sən ceyran əti yeyəsən sağalasan. İndi biz də tamam şikargahları zadı dolanmışıx, ceyran tapa bilməmişik, fəqət ceyranı sənün yanunda görmüşük, indi gəlmişik bura. İndi bu ceyrannan bi dənə bizə pulunan verəsən aparax.

Deyir:

– Xob, eybi yoxtu. Bi dənə ceyran sizə verrəm, aparun.

Bu gətirər bi dənə ceyran tutar, verər bu iki damada. Bular çıxardır bulara pul verə, bu pulu almaz. Bu pulu almaz, şahın kürəkənnəri deyər:

– Siz niyə pul almeysuz?

Deyər:

– Valla, mən şikarı pula satmam.

Deyər:

– Xob, bə nəmiyə verərsən?

Deyər:

– İndi qəynatuz mərizdi, ordan gəlipsüz şikarıçın, mənim bi dənə möhrüm var, bu möhrü hərüzün boynuna bir basam, annan sizə bi dənə şikar verəm, day mən pul almam.

Deyəllə, xob, eybi yoxtu. Bu böyük kürəkəni gəlir, bu cifinnən möhrü çıxardır, basar bunun burasına [boynuna], bu səfər o birsi gəlir, möhrü genə basar onun burasına [boynuna], baxar, görər burda qul yazılıp. Möhürdə qul yazılıp “sənün damatdarun mənin qulumdu”. Bu bi dənə şikar verər bulara. Bular şikarın başın kəsər, əl-ayağın kəsər, verər həmin oğlana, bi səfər cəmdəyi götürüllə, gedəllə. Cəmdəyi götürüllə, gedəllə. Bu həmin oğlan başınan cənəyisslar bi dənə qaba, minər atın, gələr aşağı, gə-

lər çıxar qarının evinə. Əl-ayağınan başı verər qıza, cəmdəyi olar aparıp. Qız əl-ayağı, başı ütər, pişiri təmizlər. Qazançada pişiri təmizliyənnən sonra… Bular cəmdəyi aparıp verər aşpaza, aşpaz pişiri, gətirillə munun ətinnən bir az verələ şaha. Şah barmağın vırar, görər Allah görsətməsin, zəhr munun yanında yaxçıdı, bilə bil zəhr idi bu. Kürəkənnərinən dəyər:

– Bu nəmənədi? Bu ov ətdi, bu cəndəg douz ətidi, nəmənədi, bu niyə acıdı?

Deyər:

– Qibleyi-aləm sağ olsun, bu munu elə diri gətireydik, müntahası kəsmişig, baş-əl ayağın atmışıx. Özü də bu oğlan kəsmişdi, kəsəndə tüpürmüşdü: "dadı başuva, zəhri cəmdəgüvə (onun cəndəginə)".

Apardılar cəmdəgi pişirdilə şahıçın, acı oldu, şah yeyə bilmədi. Qız başı pişirdi, təmizlədi, kəllə-paçasının suvu belə oldu ki, day adam barmaxların yeyeydi. Bu səfər bu qız neynədi? Bileydi ki, o cəmdək yeməli olmuyacax, bir kəsə munun ətinnən suunnan töhdü, apardı verdi nənəsinə. Dedi:

– Munu apar ver dədəm yesin. Sənün damatdarun gedip bi dənə öv vırıp, baş-əl ayağın kəsip atıpla, keçəl gedip gətirip, onu da mən pişirmişəm.

Munu apardı, qoydu şahın qabağına, dedi:

– Munu qız göndərif, həmun o ovun kəllə-paçasıdı.

Şah götdü, dedi:

– Götü, at o yana ya, ov da nəmə dad varıdı ki, kəllə-paça da nəmə dad ola. Onun cəndəgi zəhr kimin idi, yeməli döydü, acıydı, tamam atdıx.

Dedi:

– Hələ munu götü ye, gör. Bu yaxçıdı, o yaxçıdı?

Şah munnan qorxa-qorxa bir az yedi, gördü olan, bu yeməlidi, götdü hamısın yedi. Hamısın yedi, bu səfər çağırdı o damatdarın. Dedi:

– Ay oğlan.

Dedi:

– Bəli!

Dedi:

– Ov ki kəsipsüz baş-əl ayağın filani aparıp cəmdəyi mən için gətiripsüz, niyə cəmdək yeməli olmadı, baş-əlayax yeməli oldu?

Dedi:

– Qibleyi-aləm sağ olsun, biz nə bilək, biz bilmeydik ki, o şəxs verdi bizə da.

Biləxirə, nə başuzu ağrıdım, bu başın, əl-ayağın, kəllə-pa-çanın suun, ətin yedi, şah sağaldı. Şah sağaldı, günnərin bir günü oldu, tuş ağarannan sonra nama gəldi, məsələm, Rum patşahı yazdı, nama göndərdi İsfahanın patşahına, saba cəngimizdi, filan dağa, sən də filan dağa, mən də filan dağa, cəngimizdi. Nama gətdilə verdilə, şah baxdı, gördü bəli, nama göndəriflə-"saba sən də həmun şikargaha, mən də həmun şikargaha… cəng eliyəcə-yig". Bəli, İsfahanın bu şahı dəstur verdi İsfahanın şəhrinə qo-şunnarına. Tamam atdandıla, tüfəg-müfəg, çıxdıla dağa. Çıxdıla dağa, o yannan da o qoşun gəldi dağa. Bular hər iki tərəfdən də qabax-qabax gəldilə, cəng eliyələr, bu qız genə gəldi, dedi:

– Ay oğlan, ay İbrahim!

Dedi:

– Bəli.

Dedi:

– Ba, amandı İbrahim! Məni xıss eləməyə, indiyə kimi xıss olmamışam, dədəmnən filan şahın davasıdı, saba çıxacaxla filan dağa, davasıdı, gələsən, gedəsən bulara sarı.

Dedi:

– Rəhmətdiyin qızı, mən keçəl adam, mən nifir adam, cən-gə gədənəm?

Dedi:

– Əh balayi-qeyrət İbrahim!

Dedi:

– Xob, eybi yoxtu.

Bu yannan bu şah həmlə elədi, o yannan o şah həmlə elədi. Bular ki hər iki tərəfdən bir-birinə həmlə elədilə, İbrahim ney-nədi? İbrahim genə qırmızı atın tükünnən yandırdı, at gəldi, tüfək

gəldi, atıldı. Mindi atın belinə, tüfəngi saldı çiynınə, şəmşiri aldı əlinə, şəmşiri aldı əlinə, yumuldu başuna sarı. Yumuldu başuna sarı. Şah gördü, ay oğlan, aşağıdan bi dənə tütün gəley, bi dənə tütün gəley, da başa yələn tütün döy. Qəyitdi, bu qoşuna dedi:

– Bilmeyrəm bu gələn tütün bizə sarə gəley, ya o yana gedey? Əgər o yana getsə, bizdən qoymuyqcağ bi dənə "Allahu əkbər" deyən qala, bizə sarı gəlsə o yannan qoymuyacağ "Allahu əkbər" deyən qala.

Baba, güddülə, gördülə ay oğlan, bu gəldi, qırmızı at gəldi, getdi, düşdü o tərəfə, düşmanın içinə. A bu bileydi, bu munun qəynatasıdı. Getdi, düşdü düşmanın içinə, üzüzdən ırağ, sağdan vırdı, soldan çıxdı, sağdan vırdı soldan çıxdı, sağa vırdı, sola vırdı, sağa vırdı sola vırdı. Bular da bu yannan baxey a. O tərəfdən qoymadı bi dənə canlı qala; qıranı qırdı, qırmayan, qaçan qəyitdi qaşdı. Qaçan qəyitdi qaşdı, bi nəfər qalmadı. Şah qəyitdi, aman, bələyi-qeyrət munu tutun, öz qoşuna qəyitdi. Munu tutun, görəh bu kimdi? Amandı, munu tutun. Bu yan o yannan dairə vırdıla, zəncir aşdıla, bu atdarnan zəncir aşdıla bu yan o yannan, qoymadıla, bu İbrahim qaça. İbrahimi tutdula. İbrahimi tutdular, dedilər:

– Sən kimsən, bizə sarı gəldün, bizə köməg gəldün?

Dedi:

– Hələ mən deməm.

Şah bunu götdü, gətdilə yavaş-yavaş, yavaş-yavaş gətdilə çıxdıla payın-təxtə. Gətdilə çıxartdıla payın-təxtə, payın-təxtə gətirənnən sonra bu şah gördü olan, bu nəmənədi, buun kürəkənnəri nəmənədi, bu nəmənədi, bının cavannığında İsfahanda adam yoxdu, cavan yoxdu. Şah qəyitdi muna:

– Cavan, adun de görüm, sən kimsən? Sən hası şahzadəsən? Sən bizə gəldün köməy elədün, olar bizi qıracağıdı, sən olardan bi nəfər qoymadun qala. Sən de görüm, sən kimsən?

Dedi:

– Mənən xəbər alma, kürəkənnərünnən xəbər al.

Dedi:

– Baba, kürəkənnərim səni tanımey.

Dedi:

– Kürəkənnərün boynuna bax.

Şah çağırdı kürəkənnəri, bu yana gəlün görüm. Getdilə qabağa, şah buların boynuna baxdı gördü, e olan, bu bi dənə möhr vırıb bunun boynuna "Bu mənim qulumdu". Bi dənə möhr vırıb onun boynuna-"Bu mənim qulumdu".

Dedi:

– Qıbleyi-aləm sağ olsun, olar mənim qulumdu, qulum olar. Ov için göndərmişdün oları, ov için göndərmişdün, olar mənə pul verdilə, mənnən ceyran alala, mən pul almadım, mən oları özümə qul elədim. Həmun möhrü vırmışam oların boynuna, olar mənim qulumdu.

– E genə mən səni bilmeyrəm kimsən? Sən kimsən, bular qul elədün özüə?

Dedi:

– Qibleyi-aləm sağ olsun, get qızun gəti, qızunnan xəbər al.

Getdilə, həmun qarının evində qızı gətdilər. Dedi:

– Qızım de görüm, bu kimdi?

Dedi:

– Qibleyi-aləm sağ olsun, bu həmun oğlandı ki, burda mən əlimi qoydum üstünə, dedim, mən muna gedeyrəm, bu həmun kəçəldi.

Dedi:

– Ə bu keçəldi.

Dedi:

– Bəli, bu həmun keçəldi, məni, sən rəddi-miras elədün, uçurdun aşağıya, bu həmun keçəldi, həmi sənə köməhlig elədi, sənün tərəfuu qırdı qutardı, həmi sənə köməhlig elədi, şikargahdan sənə şikar verdi, kürəkənnərün özünə qul elədi, bu səfər sənün tərəfün də qırdı; bu həmun keçəldi.

Dedi:

– Yox, odu?

Dedi:

– Bəli.

Dedi:

– Məni istiyən buna ənam.

Biləxirə, məni istiyən muna ənam, muna çox ənamnar verdilər. Onnan sonra şah özü qırx gün, qırx gecə toy çaldırdı, təzədən bu qızın verdi bına. Qırx gün, qırx gecə toy çaldırdı, təzədən munu verdi muna, bu da oldu munun kürəkəni. Olar orda yedilə, işdilə, şad oldula, siz də şad olasuz.

## İŞIQLI DÜNYA

Biri varıdı, biri yoxıdı, Allahdan qeyrəz heş kəs yoxdı. Cənni-cənni cəlalətə qarışər, iki heyva görər bir narə qarışər. Haralardan ərz eləyim, ağanın qulluğunnan, xanımın buyurduğunan. Bi dənə İbrahim varıdı. İbarahım varıdı, günnərün bir günü oler, İbrahim durar ayağı, gedər şikara. Görir bi dənə o yannan cavan gələr. Deyər:

– Hara gedesən İbrahim?

Deyər:

– Mən gedərəm şikara.

Deyər:

– Məni də özüə yoldaş elə.

Deyər:

– Sənün adun nədi?

Deyər:

– Mənim adım İbrahim.

Deyər:

– Mənim adım Beyrəhim.

Deyər:

– Yaxçi.

Bəli, bular gedəllə, az gedəllə, çox gedəllə, dərə-təpə düz gedellə, iki kəl qarpuz bir-birinnən tez gedellə, görəllə bi dən də o yannan cavan gəldi. Deyər:

– Qardaş, hara gedesüz?

Deyər:

– Biz gedərik şikara.

Deyər:

– Məni də özüzə yoldaş eleyün.
Deyər:
– Adun nədi?
Deyər:
– Mənim adım İbrahim, onun adı Beyrəhim.
Deyər:
– Mənim adım Rəhim.
Rəhim, İbrahim, Beyrəhim üç qardaş oldular. Bəli, bular getdilər. Getdilər bi dənə bir qəlaçiyə. Getdilər gördülər qalaçədə belə hər nəmənə istisən var. Bəli, bular bir middət burda qaldılar, bi middətdən sonra İbrahim dedi:
– Rəhim!
Dedi:
– Ha!
Dedi:
– Beyrəhim.
Dedi:
– Ha!
Dedi:
– Süz qalun, mən gederəm şikara büyün, süz qəza pişirün.
Bəli, bular ikisi qalmadılar, biri qaldı. Bu Rəhimnən İbrahim getdi. Beyrəhim qaldı qəza pişirdi. Gördü bəli, tarap turpbunan bi dənə qarı qoca gəldi, özü bi qarış, səqqəli qırx qarış. Qoca gəldi, dedi:
– Afəli İbirahim qardaş, sən hara, bura hara? Quş qənət salmaz, qatır dırnax salmaz, sən bura gəlipsən!
Dedi:
– Xob, qoca əmi için bi kəfgir tök, o qəzadan yesin.
Bəli, bi kəfgir tökdü, qoca əmi yedi, dedi:
– Bi kəfgir də tökginən.
Bi kəfgir də tökəndə gördü yoo, bu qoca əmi çox yeyəcək, qardaşlara bu gəlip cavap verənmiyəcək. Dedi:
– Da yoxdu.
Yoxdu deyəndə bu bi dənə səqqəlinnən çəkdi, bunun qolun-qıçın bağladı, qəzanın hamısın yedi. Bəli, bu dedi, xob, indi

neynim? Qardaşlar gələr, mənnən dava elər, durdu azcıx xəşil-dən-xuşuldən çıqqıra pişrdi, qardaşlar gəldi. Qardaşlar gəldi, bu İbrahim ustadıdı, baxdı gördü bu qəza o qəzadan dör. Dedi:

– Bu cür niya pişiripsən?

Dedi:

– Sancılanmışdım.

Dedi:

– Eybi yox.

Day bilmer ki, o qoca gəlip, məsələm bunun əl-ayağın bağleyıb. Bəli, saba oldi, Rəhim dedi:

– Mən qaleram.

Bəli, saba Rəhim qaldı, İbrahiminən, Beyrəhim getdi. İbrahiminən Beyrəhim getdi. Saba vırdı dedi, gör nə qəşəg qəza pişirdim. Pişirdi, düşüdü, hazır qoydı, yığdı ora. Gördü genə bələ tıp-tıpınan bi nəfər gəldi:

– Ay Rəhim qardaş, sən hara, bura hara? Quş qənət salmaz, qatır dırnax salmaz, sən bura gəlipsən, bi kəfgir tök o qazadan qoca əmi yesin.

Bəli, birin tökdi, bunun yadına düşdü: "Ay dədəlli, bəs o qardaşun da dünənnəri gəlip, bu başına oyun verip". Bi dənə səqqəlinnən çəkdi, qoca əmi genə bunun əlin, ayağın bağladı, ta bu vurana o bunun əl ayağın bağladì. Bağladı, yeyəni yedi, yemiyəni dağıtdi, xüləsər qarət elədi. Bu qarət elədi, bəli, bu genə bir cürnən bu sapı aşdı. Tələkə pəsər pişirdi, genə qardaşlar gəldi. O qardaş ki, bileydi məsələm bunun başına oyun gəlip, o qardaş da bildi bunun başına oyun gəlip. İbrahim dedi:

– Səhər süz iküz gedün, mən qaza pişirəcəm.

İbrahim səhər Beyrəhiminən Rəhimi yolladı. İbrahim qaldı, İbrahim qəşəg pişirdi, gətdi bi dənə qəməni ititdi qoydı taxtu altına. İtitdi qoydı taxtu altına İbrahim. Bəli, pişirdi elədi, gördü qapı açıldi, bi dənə qoca əmi gəldi, özü bi qarış, səqqəli qırx qarış. Qoca əmi gəldi:

– Ay İbrahim qardaş, sən hara, bura hara? Quş qənət salmaz, qatır dırnax salmaz, sən bura gəlipsən, bi kəfkir tök, qoca əmi yesin.

Elə bi kəfkir tökdü, qoca əmi ta qutarana bi dənə qəmeynən vurdu, bunun başın şaqqaladı. Bunun özü qaldı burda, bədəni qaldu burda, bunun kəlləsi getdi tıp-tıpbınan. Kəllə getdi tıp-tıpbınan, belə Beyrəhim gəldi, qəza gördü, yoo, gəşəg qazadi. Dedi:

– Sizi Allah, indi mənnən ki yoldaş düşüpsüz, süz başuzdan geşdigüzü danış, görüm başuza nə gəlmişdi?

Dedi:

– Hes zad!

Dedi:

– Yalan demeyün!

Dedi:

– Valla!

Dedi, and işməyün, gəlün süzə cəmdəgi görsədim, kəllə ki gedip cəmdək qalıp. Bəli, görsətdi. Dedi, hə, bizim başımıza bu oyun gəlip. Dedi, indi durun, qapını kilitdiyəĸ, biz gedək görək bu evün mədənində nəmənə var? İndiyəncək gəlmişik bu evün mədəninə əl aparmaşıx. Bəli, gederlə bir qədri, məsələm gederlə indi, beş metir, on metir gederlə, gedənnən sonrasına görəllə bi dənə burda quyu var. İbrahim deyər ki, Birəhimə:

– Gə səni salım, sən getginən.

Bu bir metir ənər, deyər, mən yandım, məni çəkün. Birəhimi çəkər. Rəhim deyər:

– Məni sal.

Rəhimi saler. Rəhim də elə bir metir, ya metir yarım geder, deyər, mən yandım, məni çıxart. Bu da çıxər. İbrahim deyər:

– Məni salun, mən nəqqədə dedim "mən yandım" məni salleyun gedim.

Bəli, elə bu deyər, yaneram bunu sallella, yandım salla, yandım salla. Xüləsə, bunu sallella, yedi metir bunu sallella quuya. Yəddi metiri salella, bu gedər görər bi dənə nazənin sənəm xanım oturup bunun dizinün üsdündə bi dənə div yatıp. Deyər:

– Ay İbrahim, sən hara, bura hara? Quş qənət salmaz, qatır dırnax salmaz, sən bura gəlipsən, indi div bilsə, sənün hər tiküyi bir min tikə elər.

Deyər:

– Səs eləmə, onun nəfəs yerisin mənə deginən.

Deyər ki, indi bəs, səs eləmə, sən onun nəfəs yerisin mənə de, hayanda onun nəfəsi var? Deyər, şikafda qoymuşam, şüşədədi onun nəfəsi. Bu gedər bu şikafdan bu şüşəni götürəndə bu bi ləzgə verər div. Ləzgə verəndə bi dənə bu arvadun üzünə şapalax vırer. Arvad üzünə şapalax vurcağın bu şüşəni yerə vırer, məsələm kişini öldürər. Kişini öldürər, dəər:

– Xob, de görüm, sənnən sonra genə bacun var?

Deyer:

– Hə, biz üç bacıyığ, üçümüzdə bu cür giriftarıx. Üçümüz də bu cür giriftarıx.

Deyər:

– Xob, o harda?

Deyər, məsələm o da o mənzildədi. Gedər görer, bəli bu da başın qoyup arvadun dizinün üsdündə yatıp, deyər:

– Ay İbrahim, sən hara, bura hara? Quş qənət salmaz, qatır dırnax salmaz.

Bu kişi bi ləzgələnər, ləzgələndə dəər:

– Onun nəfəsin mənə de.

Dəər:

– Odey qoymuşam, taxçadadı.

Gedər munu taxçadan götürər, bu taxçadan götürən bu tərpənər, tərpənəndə bi dənə şapalax vůrər bu arvadun üzünə, şapalağı vurcağın bu şüşəni vurer, genə bunu öldürər. Bu da ölər. Bu da ölər, qalər bi nəfər. Bəli, bu genə gedər. Genə geder, genə görər burda bi nəfər bunun diznün üsdündə yatıp, deyər:

– Sən hara İbarahim, bura hara, indi dursalar, sənün hər tiküyi bin tikə eləllə.

Deyər:

– Səs eləmə, sən onu nəfəs yerisin mənə deginən.

Deyər:

– Onun nəfəsi qoymuşam taxtu altında şüşədi.

Bu səfər genə bu taxtun altında, şüşədən munu götürəndə, bu genə şapalağınan vurer bu arvadun üzünə, dəər:

– Çəpəlin biri çəpəl, sənə demerəm, mənim nəfəsimə əl vırmagınan.

Elə nəfəsimə əl vırma, bu da bunu vurer öldürər. Deyər, xob, indi biz üş bacıyıx, üçümüz də malımız çoxdı, hamısın yığər bu qoyunun başına. Bu da dəər, mən də üş qardaşam. İndi üş qardaşlar neyniyəcəĸ? Qardaş qardaşnan dost olmer axı! Bu hamsın yığər, gətirər quyunun başına, bu arvatdarı da gətirər quyunun başına. Deyər:

– Bura ba İbrahim!

Deyər:

– Hə!

Deyər:

– Sən ikimizi bağla çıxağ, qalsın birimiz, sən çıx. Sən çıx, biz özümüz, mən ipi bağlaram özüm öz belimə, sən məni çəkərsən, qardaşlar bizi cavan görərlə, səni salalla quyuya genə. Səni quuya salacaxla, amma əylən bu yeddi metirdi, yeddi metir də bunnan sora gedəcəksən.

Arvatdar buna deer, indi yeddi metir də bunnan sora getsün, şayəd ki, qardaşlar əgər səni çıxartdı, genə çıxardıpla, çıxartmadıla, yeddi metrün içində üş dənə qoş gələcək, ikisi ağdı, biri qara. Sən himmət elərsən özüü atasan ağ qoçun üssünə, qara qoçun üssünə assun, yeddi metir də qara qoş səni verəcək aşağı gedəsən. Xob! Bəli, bular gətirər, şey-meyi yığər, bəli Beyrəhim qardaş şey-meyi çəkər, hay çək, hay çək, hay çək, qalər bu səfər arvatdar. Arvatdarın ikisin də çəkələr, qalər biri, deyər, yox, sən yalannan deyesən, sən gəlmərsən. Bunu da bağler. Üçü də getdi, quyudan çıxdı, qaldı İbrahim. İpi bağlella, İbrahim də özün bağlər, çıxanda yarı beldə ipi qırella, İbrahim də gedər yeddi metir də quyuya. Yeddi metir quyuya, görər üş dənə qoş gəldi ikisi ağ, biri qara. İstər özün ata ağ qoçun üsdünə, atər qara qoçun üsdünə, qara qoş bunu yeddi metir də verər gedər. Yeddi metir də gedər, gedənnən sorasına buna (üzünnən ırax) susuzlux əsər elər, bi dənə bi qarandulux yerə, bi dənə bərə taper gedər. Gedər görər bi dənə qari arvad oturup orda cəhrə əyirər. Salam-məlik elər. Qarı nənə dər:

– Bəli!

Dəər:
– Qarı nənə, mənə bir qurtum su ver içim.
Deyər:
– A İbrahim, sən bura niyə gəlipsən?
Deyər:
– Valla, qarı nənə gəlmişəm də.
Buna bir qurtum su gətirər, gedər (bağışləyun), zerəb elər, gətirər buna su verər, da su yoxumuş. Bu içənnən sonra deyər:
– Qarı nənə!
Deyər:
– Bəli!
Deyər:
– Süzün suyuz həm istidi, həm şor.
Deyər:
– İndi İbrahim, sən ki ö cür dedün məni bağışla, suyumuz yoxdu bizim. Bi dənə şirdi yatıpdi, indi neçə metir çaydi, o çayi tutup bu tay, o tay. Əjdəhadı yatıpdi, vəli biz gündə üş məjmə təam verrik(qəza deməli), bi dənə qız. O ta onu yeənə biz gedərik, onun altınun irin, çirkinün suyun götürrüg içərik. Məsələm, da biz bu cür su götürəmmərik.
Bəli bu gedər, deyər:
– Qarı nənə!
Deyər:
– Hə!
Deyər:
– Səhər kimün nobasıdı?
Deyər:
– Dəri-dünyada bi dənə şah var, şahun dəri-dünyada da bi dənə qızı var, indi saba, o bi dənə qızun nobasıdı.
Deyər:
– Sən gedip deyə bilərsən ki, o qəzanı verələ mən yeem, mən o şirün ağzına gedəm, əjdəhanun.
Deyər:
– Yaxçi!

Amma, oqqədə bu cür, məsələm, adamlar gəlip öldürəmməyib e. Bu gedər bi dənə iki başlı özü çün (xənçər deyərlər də) qılıncı qəyitdirər iki baş. Gələr durər yolun ağzında, görər məsələm bu qəddəki cəmiyyət, bu qəddə kəndün cəmiyyəti bi dənə qızı alıpla arıya, ona gəlinnik paltarı geyindiriplə, üş dənə də təam bularun başında. Bu qarı nənə gedər qabağa, deyər ki, sən, bu qəzani verün bu cavan yesin, qızuzu da saxleyun. Qızuzu saxleyun ki, bu ağa deyər "mən, məsələm bunu öldürrəm". Üş-dördü dəər, yalannan deyər. Üş-dördü dəər, yo, yalannan demər. Bəli, buları, buları yəər bu qəzanı, bu qəzanı yəər. Bu kişi bu cür (qılıcı iki əliylə yatay bir şəkildə tutarak) tutə iki baş, gedər bu əjdəhanu ağzına. Elə bu başdan gidey əjdəhanu ağzına (bağışleyun) bunun ... çıxər. Sorasına ki bu çıxər, (üzünnən ırağ) xob bu ölü olər da o qəddə əjdəha (elə bil ki, Hacı Məybi qapısınnan, məsələm, burenca, nə qəddə yoldi, bir kilomətrəyə civarında). Bu durer orda, bu qız gələr, bu qana əlin vurər, vurər bunun köynəginün dalına. Sən gedəsən deyəsən, mən öldürdüm. O gedər, dəər, mən öldürdüm. Dəərlər:

– Kimin nobasidi?

Dəər:

– Büyünnəri şahun qızının nobasıydi.

Şahın qızına dərlər:

– Kim öldürdü?

Dəər:

– Valla, o uşax, o oğlan ki öldürüp, cavan öldürüp onun mən köynəginün dalına qan vırmışam.

Gəlellə, baxella görəllə o oğlan ki, öldürüp bunu heş bu (üzünnən irağ) çayın qırağınnan getmeyip, qalıp burda. Bəli, gəlellə, bunu aparella, bir middət bu burda qaler. Deyər:

– Xob, sən nə istesən? Dünyanın malınnan sən sırab eliyək.

Deyər:

– Mən hes zad, mən dünyada faqat işıxlı dünyani istərəm.

– İşıxlı dünyanı istesən?

Deyər:

– Hə!

Deyər:

– Xob.

Bu durər ayağa, deyər, mən işıxlı dünyanı sənə vərrəm, bu qızınan da yeddi dənə dəvə yük sənə verəcəm, qızıl. Deyər, "hələ mən üş dənə özüm elə almışam, səgərdan qalmışam" öz-özünə deyər. Bəli, bu durər ayaği, deyər, eybi yo. Qarı nənə deyər, valla, bi dənə Sumuruğ gəlip, elə (üzünnən ırax) qarnı doludu, yanı boş bilməg olmer, onun balasın nəmənə yəər. Bu gedər, onu güdər, görər bi dənə heyvandi, iki başlıdi, dimdigi uzun, gələr dimdigin vırer-vırer, bunun məsələm başların dəlellər, bunu yəəllər. İndi hər heyvandi, onu bilmerəm. Bəli, bunu da vurer öldürər. Bu heyvanı da öldürər, Sumuruğ deyər:

– Sən nə istəsən, mən səni dünya malınnan sirab eleyim.

Dəər:

– Mən sənnən işıxlı dünyanı istərəm.

Dedi:

– Onda get, yeddi putdux su algınan, yeddi put su, yeddi put ət, mən səni aparram işıxlı dünyaya. Hər vədə dedim "yandım", mənə su verginə, hər vədə dedim "acıxdım", mənə ət verginə".

Bəli, bu gedər yeddi put su gətirər, yeddi put ət gətirər bunun bi tərəfinə bağlər, suyu bunun bi tərəfinə bağlər, özü də minər Sumuruğun boynuna. Sumuruğ bunu elə hər çıxardanda, deyər, yandım. Muna su verər. Hər çıxardanda, deyər, acıxdım, muna ət verər. Bi dənə bud ət qalanda, məsəəm da istər çıxa lap yuxari, bu ət düşər bunun ağzınnan. Bu, ağzınnan düşcəyin, budunnan kəsər verər buna. Day qoymer ki, məsələm bu zad ola. Bunu yemər. Yemer, çıxarder bunu, işıxlı dünyada deyər oğlana:

– İndi sən du yeri, mən gedim.

Deyər:

– Sən get, mən gedərəm.

Deyər:

– Yox, sən dur ayağı yeri.

Deyər:

– Valla, sənün ətün düşdü, mən budumnan kəsdim, sənü ağzua atdım.

Bu ağzınnan tipircəgin götürər, vurər bunun məsələm qıçına, bu əti yapıştırər bunun qıçına, bu durer yeriyər. Yeriyər gələr, görər qardaşlar elə həmun quyunun başındadı, qardaşlar heş bu yan o yana dönmeyip, elə qalıpla quyunun başında. Bi kə bularınan dava elər, bu məsələm arvadun genə birin özü için götürər, ikisin genə olara verər. İkisin olara verər, bu malı bölər bi kə olara verər, bi kə özü için götürər. Elə bu böləndə gördü, bəli yeddi dənə dəvənün yükü gəldi, bi dən də xanım onu üstündə gəldi. Bəli, buları da götürər, bunun olər iki dənə arvadi, olarun olər bi dənə arvadi, malın, mülkün yığər, götürər gələr. Gələr görər bi dənə kişi cüh sürər, bunun cütü qara, öküzü qara, zəmi də qara. Deyər:

– Qardaş, sənün öküzlərün qara, özün qara libas geyipsən bu nəmənədi?

Deyər:

– Valla, bi dənə şahımızu oğlu dəri-dünyada varıdı, o baş götürüp, çıxıp gedip, indi onnan bu yana biz nə ağ libas geyə billik, nə məsələm öküzlərimiz ağ eliyə billik. Deyər, mənim oğlum baş götürüp gedip, siz də gərə görək qara geyəsüz.

Deyər:

– Sən ona gedip deyə bilərsən ki sənün oğlun gəler?

Deyer:

– Yox, mən gədip deyəmməm.

Deyər:

– Get dənə sənü oğlun gəler.

Deyər:

– O gözünnən kor olup.

O tüpircəkdən, (indi bunun qıçında qalıp, nəyində qalıp, onu Allah bilər) o tipircəkdən dıqqıla bu cür əlinə sürtər, əlin vurər bi dənə kağaza, verər buna. Deyər, sən apar bunu, sürt onun gözünə, qoy onun gözü işığ olsun. Gətirər o tipircəgin vurer onun gözünə, munun gözü işıxlanər. Görər bəli, bunun oğlıdı, gəldi. O yedi, işdi məkana geşdi, biz də burda qaldıq.

## XORUZ-U NƏQƏLXU

Günnərün bir günü bi dənə patşa varıdı, mının qıx dənə xanımı varıdı. Mının qıx dənə xanımı var ıdı, bu qıx dənə xanımnan heç birinin evlatı yoxudu. Şah bi gün dəstür verdi vəzir vəkilə:

– Gedün, dolanın bi dənə mən için xanım tapun, ya çoban ola, ya kasıb ola, biləxirə buların qızlarınnan ola.

Vəzirnən vəkil düşdülə kətdərə, bu yana, o yana, o yana, bu yana, gəldilə, dedilə:

– Bi dənə çoban var, çobanın bi dənə qızı var, yaxçı əsil qızdı.

Gəldilə bu çobanın qapısına. Gördülə, bəle, çobanın bi dənə qızı var, dedilə:

– Çoban qardaş.

Dedi:

– Bəle.

Dedi:

– Şah bizi göndərip, qızuvu verəsən.

Dedi:

– Mənim qızım şahın layağı döy. Siz mənə məsķərə eleysüz, Şah mənim qızımı almaz, şahın qıx dənə xanımı var.

Dedilə:

– Var, var da, qıx dənə xanımnan heş birinnən evlat olmey, bəlkə sənün qızunnan ėvlat oldu.

Dedi:

– Eybi yoxdu, gedün şaha deyün, hər moqey aparey, gəlsin aparsın.

Günnərün bir günü oldu, gəldilə, şaha dedilə, şah dedi:

– Gedün, çobana nəmə vərəcəhsüz vərün, nəmə alacax verün, alun qızı, gətirün.

Gəldilə, çobanın qarar-dadın, amalın, filanın verdilər, qızı bəzədilə, götdülə, getdilə apardıla, təhvil verdilə şaha. Bu bir müddət bu çobanın qızıynan zindigi elədi. Allah bu çobanın qızınnan muna ėvlat verdi. Bu bari-həmli oldu, bala-bala bu istədi

bari-həmlisin yerə qoya. Şah dedi, bəs gedün, mənim xanımım ister bari-həmlisin yerə qoya, gedün (vəzir, vəkilə dedi) şəhərrəri dolanun, görün yaxçı mama, yaxçı qabilə harda var, tapun gətirün. Bular getdillər. Bu şahın bi dənə qəynənəsi vardı, böyüg arvadınun nənəsi dureydi, dedi:

– Bəs, gedəyrih biz, şah bizi göndərip bi dənə mameyçin gətirəh, bu arvadı doğuzdura.

Dedi, gedün, şaha deyün (şahın qəynənəsi dedi yə), biz qıx nəfər, qıx dənə xanımundu, bi dənə mən, qıx bir nəfər belə bi layaqəti, bi dənə arvadı doğuzdura bilmerih, gedəsüz kətdərə. Şaha munu dedilə. Şah dedi:

– Xob, eybi yoxdu, qəlblərinə gələr, gedün təhvil verün bunu doğuzdursunna.

Gətdilə bu şahın həmun qəynənəsinən munun öz qızın. Bu arvadın öz qızı, özüynən getdi, bu çobanın qızın bəysəb doğuzdura. Getdilə çobanın qızının yanına, bala-bala, bala-bala. Şah da külafirəngidə dolaney, bolqunda-na vaxt muştuluqçu gələ, mənə muşulux verə. Bəle, bu arvat doğuzdu, çobanın qızı doğuzdu bir oğlan, bir qız, oğlanın da bir üzün də xal var, qızın da bir üzündə xal var, bir oğlan, bir qız. Bu şahın qəynənəsi gördü ay oğlan, bu şah oğlanan qızı görəcəg, çoban qızı ki doğup buları, bu qıx dənə arvadın hamısın bıraxacax. Neyniyəh, qızına dedi:

– Neyniyəh?

Qız dedi:

– Nənə, mən nə bilim, mən bilmerəm, sən gör neyniyəcəhsən.

Geşdi, tabaxdan bir büküm çörəh götdü, çıxdı xıyabana, təngəyə, bir “Alabaş”, “Alabaş”, “Qarabaş”, “Qarabaş” dedi, bi dənə (bağışleyun) qancığ it gəldi bu arvadın yaana, bu çörəyi atdı bu qancığ itə. Bu qancığ it bu çörəyi götdü, qəyitdi. Bu arvat düşdü munun dalına, gördü, ho bu it getdi, girdi bi kalavıya, gördü burda balaleyip üç-dört dənə. Bu küçühlərinnən iki dənə götdü (sözüm o hilədədi yə), munun küçühlərinnən iki dənə götdü, gətdi. Arvadın burda uşağın-muşağın bələdi, apardı, gizlətdi, arvadı apardı ayrı mənzilə. Bu küçühləri bələdi bu arvat doğan ye-

rə, villədi bura. Şah da ordan dolaney, gözley ki xəbər gedə munun nəyi oldu. Vəzir gəldi, dedi:

– Ay xala, ay bacı, şahın nəyi oldu?

Dedi:

– Nəyi olacağ, çoban qızınnan nəmə olar? İki dənə it küçügü.

Dedi:

– Yox belə yə. Arvat da it küçügü doğar?

Dedi:

– Çoban qızınnan it küçügünnən sovay nəmə olar, həmişə gedər bayıra çoban. Qəyitdi, getdi, şaha dedi, valla, hali-qəziyə budu. Şah dedi:

– Gedün, hamun arvadı aparun, filan yerdə bi dənə quyu var, təpəsi üsdə salun quuya, çobanın qızın. İt küçügü doğup.

Bu səfər bu çobanın qızının da xəbəri yoxtu, bu getdi, it küçügü gətdi qoydu munu yerinə, uşaxların yerinə. Gəldilər, bu çobanın qızın apardılar bi dənə quyu varıdı, təpəsi üsdə saldıla, getdi quuya, güpbültinən, quyunun əlli mətir dərinliyi. Getdi quuya, bu arvat neynədi? Bu arvat bu uşaxları bələdi, getdi, iki dənə gecəynən beşig yondurdu, gətdi, ikisin də qoydu bi dənə cebiyə, cebəni muşampaladı bərkitdi, bu yan o yanın bərkitdi, düzətdi, gecəynən apardı, körpüdən tünnədi çaya. Tünnədi çaya, bu uşaxları çay götdü, getdi. Uşaxları çay götdü, getdi.

Günnərün bir günü bi dənə tacır gedeydi xəridə, gəldi çayın qırağında bəsab geçə gedə xəridə dəvəynən. Gördü, bi dənə cebə gəlib adada dayanıp bi dənə kötügə, getmeyib. Çırmandı, geşdi getdi, cəbəni çəhdi, gətdi quruluğa. Cəbəni çəhdi, gördü ho, cebə ağurdu. Cəbəni gətdi, day xəridə getmədi, cebəni qoydu dəvələrün üsdünə, gətdi cəbəni evə. Cəbəni gətdi evə, dedi:

– Arvad.

Dedi:

– Hə.

Dedi:

– Şansımız durup.

Dedi:

– Nəmənədi?

Dedi:

– Bi dənə cəbə tapmışam, bizim döylətimiz yoxtu, açacıyıx, şərt eliyək, döylət olsa bu cəbədə sənün (arvada dedi), əvlat olsa, mənim.

Arvat dedi:

– Xob, sənün də əvladun yoxtu, mənim də əvlat olsa, şərik, döylət də olsa şərik.

Cəbəni aşdıla, gördülə bir oğlan bir qız, bu barmağın salıb onun ağzına, o barmağın salıb onun ağzına, qəşəh sorella bir-birin. Uşaxları cəbədən çıxartdıla. Uşaxları gətdilə mənzilə. Mənzildə hay bir gün, iki gün, hay bir ay üç ay, il dolandı ay başa gəldi, ay dolandı il başa gəldi, uşaxlar rəsidə oldu, uşaxlara ad qoydula, oğlana qoydula Məhəmməd, qıza da qoydula Zərintac. Bu səfər neynədi? Bu uşaxları qoydu mədrəsiyə. Uşaxlar getdi mədrəsiyə gəldi, getdi mədrəsiyə gəldi, getdi mədrəsiyə gəldi, yekəldilər, həddi-təflih oldula, anladıla. Gördülər, bu mədrəsədə bu uşaxlar bulara deyellə: "Ay dədəsiz, ay nənəsiz, siz dədəsizsüz, siz nənəsizsüz, siz tapbasuz, sizün dədənənüz yoxtu". Bu uşaxları belə ayığ elədilə bu uşaxları, mədrəsə uşağı, bu uşaxlar gəldi axşam evə, qaş-qabağın salladıla. Qaş-qabaxların salladıla, bunun dədəsinən nənəsi gəldi, dedi:

– Bala, niyə qaş-qabağuzu salleyıbsuz, hər gün bu cür döydüz? Niya qabağuzu salleyıbsuz?

Dedi:

– Nənə.

Dedi:

– Bəle.

Dedi:

– Sizə bir and verəcik, biz əylan həddi-təflih olmuşuğ, bizim zəhmətimizi çəkibsüz, bizi həddi-təflih eleyibsüz, mədrəsiyə qoyubsuz. Bizə axı mədrəsə uşağı öcəşey, deey, sizün dədüz yoxdu, nənüz yoxdu, siz tapbasuz.

Arvad qəyirdi, ərinə dedi:

– Kişi, demədim, özgə övlat sənə övlat olmaz, anladıla, göreysən. Hər yerdən xəbər gəldi, eşitdilər, özgə övlat adama övlat olmaz.

Bu kişi qəyitdi:

– Xob, Məhəmməd.

Dedi:

– Bəli.

Dedi:

– Düz, siz tapbasuz, mən sizi tapbışam, siz bizim belimizdən gəlmeyibsüz. Sizi mən tapbışam, əlan neçə illərdi, sizi böyütmüşəm, yekəltmişəm, mədrəsiyə qoymuşam, əylan anleyıbsuz, əylan heyifdi, mən sizi rədd eliyəm gedəsüz, uşağsuz, gedə bilməsüz.

– Yox ata! Sən çörəyi bizə halal elə, villə, qoy, biz gedək. Gedək, bəlkə, nənə-dədəmizi tafdıx.

Dedi:

– Xob, eybi yoxdu, qalsın sabıya.

Bular qaldı sabıya, saba day bular mədrəsiyə getmədi. Dedilə:

– Atacan, gələsən, çörəyün bizə halal eliyəsən, bizi villiyəsən.

Dedi:

– Xob, eybi yoxdu Məhəmməd, gedəysüz, amma mən sizə vəsiyət eleyim, bu qırmızı atı sən min, o qərə atı bu minsin, bacıqardaş iküz də mərdanə libası geyün, qız atdan zənanə libası geysin, üsdən mərdanə libası, sən də mərdanə libası gey, bu tüfəngi də salun çiynuza. Gedün, Allaha təvəkkül, bəlkə dədə-nənüzü tapduz, vəli mən sizə vəsiyət eleyrəm, bu at hər yerdə əlin vırdı yerə, orda ənün, orda qalun, getmeyün, atın sözünə baxun a. Az gedəsüz, çox gedəsüz, hər yerdə bu at əlin vırdı yerə, orda qalun.

Bular dədə-nənələrinnən xudafislig elədilər, mindilə atdarı, bala-bala gəldilə. Az gəldilə, çox gəldilə, bir qədri yol gəldilə. Gəldilə, çıxdıla, məsələm bizim Bərəndəyə gələcəg idilə, yuxarda Girvəsər var, çiməngah var, orda. Bu kət görükəndə bu at əlin vırır yerə. Əlin yerə vıranda bu Məhəmməd bi qəmçi vırdı ataköpoyun malı, odey kət, odey şəhər, at yatdı. At yatdı, qız dedi:

– Qardaş, niya vıreysan? Dədəmiz bizə nəmə dedi? Dedi, at hər yerdə əlin vırdı yerə, orda qalun.

Dedi:

– Xob, eybi yoxtu.

Çəkildilə bi kənar quşədə, burda qaldılar. Atdarın töylə mıxısın vırdıla yerə burda qaldılar. Bi oğlan tüfəngi saldı çiyninə, getdi, şikar ovladı, gətdi, bu qız burda pişirdi, burda yedilə, işdilər. Qız da beleydi, beleydi, nə göyçəhligdə. Bu Bərəndədən məsələm, cütçü gedeydi, axşam gedeydilə cütə, süb gedeydilə, göreydilə, burda bi qız var, qız belə qızdı ki yemə, işmə xətdixalinə, gül cəmalinə tamaşa elə. Qızın şöqunnan, göyçəhligin-nən cütə gedə bilmeydilə, qaleydıla, tamaşa eleydilə, axşam qəyideydilər kəndə. Gah damda gəzeydi, gördü olan bu cüççü süb gedəy, bəysəb cütə gedə, axşam gəley, genə toxumun gətirey. Səsləndi, kətxudaya dedi:

– Ay kətxuda, get bu cüççülərə deynən, gedeysüz, niyə toxumuzu gəytəreysüz, gətireysüz, niyə əkmeysüz?

Getdilə, bulara dedilə. Bular dedi:

– Get şaha deynən, bizik, gedeyrik, axşam qəyder gəleyrik, sən gessün, görsün heş gəlməsən.

Şah bir gün neynədi? Vəzirin götdü, vəkilin, dərbiş libası geydi, mindilə atdarı getdilə, həmun yerdə bu qızı gördülə. Həmun yerdə bu qızı gördülə, bi döyr elədilə, gəldilə bu qızın yaana. Şah qəyitdi:

– Qız!

Dedi:

– Bəle.

Dedi:

– Sən nəçi, karəsən burda?

Dedi:

– Valla, mən burda düşərgahdı, gəldim, düşdüm burda.

– Sənün adamın var, nəyin var?

Dedi:

– Hə, adamım var bir dənə.

– Hara gedip?

Dedi:

– Gedip bayıra, axşam gələcək.

Xeylək qaldıla, qalannan sonra bular qəyitdilər, gəldilər. Şəhrə gələndə, şah özün vırdı yerə lal oldu. Şah özün vırdı yerə lal oldu, hay düktür gətdilə, hay vəkil gətdilə, hay nəmə elədilə, şah danışmadı. Bi dənə düktür gətdilə, tapdıla, gətdilə, düktür munu muayna elədi. Dedi:

– Bu eşq vırıb munun başına, gərəg dayra zurna, tar, balaban vırasüz bu aynıya. Getdilə, aşıq gətdilə, sazəndeynən zadınan mını ayıxdırdıla, bu oyandı, dilə gəldi, dedilə:

– Qıblə-aləm sağ olsun, niyə beləsən?

Dedi:

– Valla, filan yerdə bir qız görmüşəm, əgər əri ola, əgər hər nəyi ola, onu mın için almasuz, mən ölləm, gərəg onu mən için alasuz.

Tamam hamı eşitdi bu hikayəti, cərəyanı, bu macaranı hamı eşitdi, bının bı arvatdarı da eşitdi, mının bı qəynənəsi də eşitdi, şah gedib orda bir qız görüb. Bir gün şah genə adam göndərdi, gördülə ho, bu qızın adamı yanındadı. Salam verdi, geşdi, əyləşdi. Dedi:

– Valla, məni şah göndərib bura, bilmeyrəm bu sənün bacundu, arvadundu, nəyundu, şah gəlip, burda munu görüp qəyidib, indi deey “gərəg onu mən için alasuz”.

Dedi:

– Get şaha deynən üş gün, dört gün mənə vax versin, onnan sonra cavab verrəm.

Bu həmun qasid qəyitdi. Qasid qəyitdi, gəldi. Bının bı qəynənəsi eşitdi bu sözü. Bının bı qəynənəsi bi dəs libas geydi, yavaş-yavaş getdi həmun bu qızın yaana. Getdi bu qızın yaana, oğlan bayıra getmişdi, qıza baxdı, gördü ho, bu həmun qızdı ki bələgə bələmişdi, cəbəyə qoyub, atmışdı dəyaya, bu həmun qızdı. Bu həmun qızdı, tapılıb gəlib, day bizi paymal eliyəcək. Dedi:

– Qızım!

Dedi:

– Bəli!

Dedi:

– Sənün ərün var, qardaşın var, nəün var?

Dedi:

– Bi dənə qardaşım var.

Bu barmağın dişlədi. Dedi:

– Onun da burasında xal var?

Dedi:

– Bəli, onun da burasında xal var.

Bala bi mənzil düzəltmişdilə, kələkdən yığmışdıla bu, bu yan, o yana baxdı dedi:

– Qızım.

Dedi:

– Bəli.

Dedi:

– Heyif sizün bu balaca mənzilüzə düzəldibsüz, burda oturubsuz.

Dedi:

– Nəmənədi, nəməsi heyif?

Dedi:

– Burda bi dənə bağ var, "Ağlar-Gülər" bağı deyəllə. Ol bağda bi dənə ağlar-gülər ağaç var, alma ağacı, biri ağlar, biri gülər. O almaları dərə qardaşun gətirə, birin bırda qoyasuz, birin orda. Bu ağlıya, o gülə bu ağlıya, o gülə sizün mənzil yaxçı təkmil ola.

Dedi:

– Ağlar-Gülər bağıdı?

Dedi:

– Bəli.

Sən demə, divlərin bağıdı, ister mını ölümə göndərə. Bu arvat qəyitdi. Oğlan axşam bayırdan gəldi, gördü bacısı bekefdi. Dedi:

– Bacı, niya bekefsən?

Dedi:

– Valla, bi dənə qarı gəldi bura, mənim yanıma büyün, mənnən həmsöbət oldu. Dedi, filan yerdə bi dənə bağ var, orda iki ağaç

alma var, biri ağley, biri güley, biri ağley, biri güley, onun almalarınnan iki dənə gətsüz, burda qoysuz, day mücəhhəs olarsuz.

Dedi:

– Eybi yoxdu, gedərəm gətirrəm.

Gecə yatdıla, səhər durdu, atın mindi genə getdi, yolda gördü ho, bi nəfər şəxs dayanıp yolda. Dedi:

– Məhəmməd!

Dedi:

– Bəli!

Dedi:

– Gedersən Ağlar-Gülər bağına?

Dedi:

– Bəli ağa, gedərəm Ağlar-Gülər bağına.

Dedi:

– İbarahim, axırundu ya, ölümə gedeysən ə!

Dedi:

– Bə ağa, nəmə eleyim?

Dedi:

– Ölümə gedeysən, məəm sözümə baxarsan?

Dedi:

– Bəli, niya baxmam.

Dedi:

– Qəyit bazara, qəyit bazara, ağaşdan bi dənə izgilət al, ağaşdan libas yap, gəl, ged o bağa, ağacına əy, dərginən. Əgər istiyəsən ö cür gedəsən, divlərin bağıdı, səni elə əlbəhəl paymal eləllə.

Bu gətirdi, gəldi, getdi bazara, bi dənə ağaşdan libas yondurdu, libas geydi ayağına. Bu səfər bi dənə izgilə aldı əlinə. Gəldi, mindi atı, gəldi həmun yerə gördü hə, həmun adam genə burda dayanıb, dedi:

– İbrahim!

Dedi:

– Hə

Dedi:

– Hə mücəhhəzsən, gedeysən. Gedərsən, alma ağacının dibində dayanısan, bağa geçməsən ə, dibində dayanısan, izgiləni

uzadısan almaya, əyərsən, dərərsən. Maba əlün görsədəsən ə, o bağda adam vardı, hay salalla, qırx haramılar səni daldan tutar.

Məhəmməd neynədi, Məhəmməd gəldi atınan, gəldi, baxdı, gördü, ay oğlan, iki ağaç alma var, biri belə ağley, biri elə güley. Bu səfər bu izgiləni uzatdı, əydi, birin dərə bi dənə uşax vardı, səsləndi:

– Ay ağa, ağac almanı dərdi.

Dedi:

– Ə çəpəlin biri çəpəl, ağaç da almanı dərər?

Dedi:

– Valla, ağac almanı dərdi.

Dedi:

– Çəpəlin biri çəpəl, fuzul danışma, ağac almanı dərməz.

Bu oların bəhəsinə əlin uzatdı bu səfər. Qolun çırmadı, əlin uzatdı, almanı dərdi. Dedi:

– Ay ağa, əl almanı dərdi bu səfər.

Əl almanı dərdi deyəndə atıldı atu üstünə, yuldu, qırx haramilər yumuldu munun üstünə…O oğlan almaları ki gətdi, qoydu o evdə, biri ağladı, biri güldü, bu səfər həmun qarı genə gəldi bura. Qarı gəldi bura, gördü e, "Ağlar-Gülər" bağın almaları gəlib, biri ağley, biri güley, bir az baxdı, onnan sonra dedi:

– Qızım!

Dedi:

– Bəli

Dedi:

– Həmun bağda genə bi dənə əl daşı var, o əldaşını da qardaşun gətsə, o əl daşı yerdə işliyəcəg, bir üzünə qızıl tökəcəg, bir üzünə gümüş, bir üzünə qızıl tökəcəg, bir üzünə gümüş.

Dedi:

– Eybi yoxdu, onu da gətirrik.

Mını dedi, getdi. Bu səfər şahın qasıdı gəldi oğlanın yaana, bəs, nəmə deysən, mənə beş gün vax vermişdün, əlan day beş gün souvub? Dedi:

– Get şaha deynən üş gün də mənə vax ver, üş dənə də səfərim qalıb, indi ya sənə verən Allahdı, ya bizə verən Allah.

Bu səfər oğlan neynədi, oğlan genə süb atı çıxartdı, mindi, sürdü. Sürdü, getdi, gördü ağa, həmun şəxsi genə durub orda, caddanın qırağında. Dedi:

– Məhəmməd!

Dedi:

– Bəli!

Dedi:

– Gedeysən?

Dedi:

– Bəli, gedeyrəm.

Dedi:

– Əldaşıyçın?

Dedi:

– Bəli!

Dedi:

– Gedərsən, izgiləni, atu üsdən, atdan ənməsən ə, izgiləni sallarsan, əldaşı orda işley, üsdən izgiləni sallarsan, əldaşının başınnan geçər aşağı. "Alla, Məhəmməd, ya Əli", çəkərsən, gətirisən, qorxma, tuta bilməzlə səni.

Məhəmməd getdi, gördü bəli, həmun bağda əldaşı işley. Əl daşı işley, bir üzünə qızıl tökey, bir üzünə gümüş, izgiləni saldı, getdi əldaşın boğazına. " Allah, Məhəmməd, ya Əli" çəkdi atın tərkinə, əldaşın da gətdi, qoydu o evin bucağında, bu səfər əldaşı işlədi, bir üzünə qızıl, bir üzünə gümüş. Səhər oldu, genə həmun qarı gəldi. Həmun qarı gəldi, gördü e, bını da gətirib. Dedi:

– Əy qızım, deyəsən mını da gətirib qardaşun?

Dedi:

– Hə, mını da gətirib.

Dedi:

– Day bi dənə də şeyüvüz qalıb, onu da gətisüz, day mücəhhəz olacaxsuz.

Sən demə, bu qarının bədbaxlığıdı, bu işlər hamısı qarının bədbaxlığıdı. Axşam oğlan gəldi, bacısı qəyitdi, dedi, valla, qarı gəldi, genə belə dedi. Dedi:

– Nəmə dedi?

Dedi:

– Həmun bağda genə bi dənə xoruzu-nəqəlxu var, o xoruzu-nəqəlxunu da gətisüz, eyni rədyol kimin, danışacax başuzadan geçəni, dünyadan gələni, geçəcəyi, gələcəyi danışacax, əlan mən nə cür danışeram ö cür danışacax.

Bu səfər oğlana dedi mını. Oğlan genə səhər atı mindi, getdi, gördü e, həmun şəxsi genə dayanıb orda. Sən demə, bu şəxs munu ağasıdı, molasıdı. Dedi:

– Məhəmməd!

Dedi:

– Hə!

Dedi:

– Xoruzu-nəqəlxu için gedesən?

Dedi:

– Bəle!

Dedi:

– Qəyit, get, tüfəngün götü, sal çiynüə, gəl get. Getginən, amma sənnən bir milyon adam gedib ora, hamısı mücəssəmə olub, houzun dörəsində hamısı muğabba olub. Gedərsən, qorxma ya, atı qoy houzun qırağında. O adamları, əlüü sal adamların ikisinin arasına, bu cür fişar ver, aralansınnar, olar da səni kimin gedib, orda… tilsimdi, o tilsimdi. Əgər gətir bildün xoruzu gətiribsən, gətirəmmədün sən də olar kimin tilisim olacaxsan.

Dedi:

– Nəmə eləyim?

Dedi:

– Gedərsən, əlüü salarsan, camaatı belə [əllərinlə ayırarsan] elərsən, üş dəfə deyərsən "xoruz nəqəl-xu, xoruz nəqəl-xu, xoruz nəqəl-xu" üçümcü dəfədə bu houzdan qalxacax yuxarı, getdi yuxarı, qəydip taponnan bi dənə dimdik vıracax, orda quruyacaxsan, amma cəhd elə, o yuxarı gedəndə vır tifənginən munun şapərrəri tökülsün. Day sənə dinmə, amma vırmasun, qəyidip təponnən bi dənə dimdik vıracax, orda muğabba olacaxsan.

Bəli, Məhəmməd getdi. Gəldi, getdi atın qoydu orda, bəli, adam belədi, elə bu qılıx houzun dörəsi. Bu əlin saldı camaatın

arasınnan bir az fişar verdi, tifəngin amadə tutdu: xoruz nəqəl-xu, xoruz nəqəl-xu, xoruz nəqəl-xu. Gördü houzdan xoruz şak-kılladı, qıyhadı yuxarı, yuxarı qıyhadı, qəyidəndə tűfənginən vırdı şəpərrəri töküldü, töküləndə xoruz gəldi, munu əlinin üsdə otdu. Atıldı, mindi atı, bağdan çıxdı. Qırx haramılar mının dalıy-cax… fayda vermədi, gəldi, həddi-səddən geşdi. Gətdi, xoruz nəqəl-xunu qoydu orda. Dedi:

– Bacı!

Dedi:

– Hə!

Dedi:

– Biz biyecə bu xoruz nəqəl-xunu danışdırax, görək, bizim macəramız nəmənədi, bizim dədə-nənəmizi tapsa, bu tapacax.

Bu xoruz-nəqəlxunun pişi vardı, pişin burdula, bu xoruz-nəqəlxu durdu söbət eləməyə. Dedi: Günnərin bir günü bi dənə patşah vardı, onun qırx dənə xanımı vardı, bi dənə qəynənəsi. Şah dəstür verdi, mənim qırx dənə xanımımnan olatım olmey, gedün, bi dənə men için təzədən arvat tapun. Getdilə, dolandıla bu yanı, o yanı gəldilə bi dənə çoban varıdı, çobanın qızın aldıla (bu uşaxlar qulağ asellə yə). Gəldilər çobanın qızın aldılar, apar-dılar, şah için toy elədilə. Ay dolandı, ay başa gəldi, il dolandı, ay başa yəldi, bının bir oğlu, bir qızı oldu. Şahın qəynənəsi bu oğlanınan qızı gizlətdi, getdi, it küçüyü gətdi, qoydu oğlanınan qızın yerinə. Bu qızınan oğlanı bələdi, apardı; bi dənə cəbə qə-yitdirdi, qoydu cəbəyə, atdı dəryaya. Atdı dəryaya, dəryada gün-nərün bir günü bi dənə tacır xəridə gedeydi, bi dənə tacır munu tutdu, gətdi. Gətdi bu, özünə övlat elədi. Bir gün, iki gün, üş gün bu uşaxlar əmələ gəldi, başa yəldilə, mədrəsiyə yetdilə, həddi-təflih odula, özlərin tanıdıla. Uşaxlar, bu uşaxlara öcəşdi, dedilə, sizün dədə-nənüz yoxdu, siz tapbasuz bu səfər bular gəldilə, neylədilə, həmun tacırdan xahiş elədilə, dedilə, sən bizi villiyə-sən, biz gedək, dədə-nənəmizi tapax. Tacir da qaldı sərgərdan. Tacir da bu qızınan bu oğlana hərsinə bi dənə at verdi, mindilər, bi səfər bulara vəsiyət elədi, dedilə, gedün, həmun yerdəki at

əlin vıracax yerə, mən deyən yerdə əlin vıracax yerə, orda qalun, geşməyün. Day bu xoruz-nəqəlxunun pişin qət elədi, dedi:

– Day danışma, eyni bizik, day macəranı uzatma, eyni bizik.

Peyqam elədi, dedi:

– Şaha, deynən, gəl xanımun apar.

Gəldilər, qəflə-qoşun, zad gəldilər, qızı bəzədilər. Qızı bəzədilər, götdülər, "ya Əli sənnən mədəd", xoruzu-nəqəlxunu da götdülə, hamısı yığışdıla, getdilə, dəsti-cəm getdilə şah hüzürünə. Getdilə şah hüzürünə gedənən sonra, day şam-mam yeyildi, çay-may içildi, söbət başlandı. Söbət başlandı, şahın vəzir, vəkili qəyitdi, oğlana dedi:

– Məhəmməd!

Dedi:

– Sən kimsən, sən nəçi karasan, sən hardan gəlib, hara gedənsən, sənün bu bacun, siz iküz kimin qızısuz, kimin oğlusuz?

Dedi:

– Valla, mən bilmeyrəm, icazə versüz, o dey, o xoruz var orda, o xoruzun pişin burax, o söbət eləsin, mən bilməm.

Bu səfər xorozun pişin burdula, xoruz eyni mən əvvəldən ki nə cür demişəm, ö cür macəranı başladı, gəldi, yetişdi yerinə. Şah dedi:

– E olan, bu mənim qızımnan mənim oğlumdu ki! Mən öz qızımı aleyram.

Qəyitdi, xoruza qəyitdi, dedi:

– O arvat ki quuya salmışıx, o quyuda durey, ya ölüp?

Dedi:

– Quyuda durey, sağdı, əvvəlkinnən də yaxçıdı, Allah ona pərəstar olup, pərəstar verip, nigəhban verip.

Dəstür verdi, getdilə, tənəf salladıla, quyudan arvadı çəkdilə, çıxdı eşigə, gördülə, arvat nə arvat, əvvəl çoban qızıydı, əlan lap şah balası olup. Arvadı gətdilə evə. Macəra burda hara çatdı, şah tamam vəzir, vəkili yığdı bir yerə, tamam xanımların hamısın yığdı gətdi otağa, həmun qəynənəsin də gətdi otağa. Dedi:

– Xob, mənim qəynənəm!

Dedi:

– Bəli.
– Mənim xanımım!
Dedi:
– Bəli.
– Bunun qızısan?
Dedi:
– Bəli.
Dedi:
– Siz bu çobanın qızın doğuzdurduz niyə gəlip mənnən muşduluğ almaduz, mən sizə bi dənə kət bağışlıyam, bi dənə şəhər bağışlıyam Getdüz it küçüyü gətdüz, qoyduz bu çoban qızının yerinə, munun uşaxların bələdüz, aparduz, cəbiyə qoyduz atduz dərya. Getdi tacıra qısmət oldu, tacırdan gəldi, eyni mənə qısmət oldu. Bəlkə bu xoruz-nəqəlxu olmeydi, bu macəranı bu danışmeydı, gərəh mən öz qızımı aleydim.
Dedi:
– Cəllatdar hazır.
Cəllatdar hazır oldu. Dedi:
– Mənim xanımlarım, hamı döyr eleyün məni.
Bi dənə, bi dənə hərəsinə bi dənə şəhr yazdı, verdi. Dedi:
– Filan şəhir sənün.
Talağın dedi. Buların hamısının talağın dedi. Dedi:
– Qəynənəmnən, bu qızın cəlatdar başın vırsın, bular baisdi mənə.
Əlbəhəl cəlatdar amada oldu, o qəynəneynən, öz qızının başın vırdıla. Şah burda həmun çoban qızıynan öz oğlu, öz qızı. Çobanın qızın özünə xanım elədi, oları ėvlat. Öz qızın qəyitdi, verdi həmun vəzirin oğluna, vəzirin qızın aldı öz oğluyçin. Bular burda yedilə, işdilə şad oldula, siz də hamuz şad olasuz inşalla.

## DƏRVİŞİN MÖCÜZƏSİ

Günlərin bir günində bir vəlayətdə bir dərviş yaşayırdı ki, bu dərviş çox Allahı tanıyan və utancaq və həyalı nurani bir dərviş idi ki, bu dərvişin bir dana ərə getməli bir qızı varıdı. Bir ge-

cə bir alahı ölkədən bir elçi gəlir, bu dərviş də bu vəsəltə “hə” deyər.

Qərar olur ki, bir aydan sonra bular toy eləsinlər, bular gedirlər və bir neçə gündən sonra bir gecə ginə bir alahı vəlayətdən bu qıza genə elçi gəlir. Bu dərviş burda öz əlahınan burda dərd-dəl elər ki, ay Allah, bə nə işdi, mənim bir qızım var, onu da bunnan qabaq ərə verdim. Bu nə müsibətdi ki, mənim başıma gəldi?

Bəlaxrə, buna ilham olur ki, sənin işin olmasın, sən “hə” de bu dərviş kişi elçilərinən xoş və beş eylər və qərar mədar toy qoyulur.

Bir neçə gündən sonra genə gecənin bir aləmi qapı döyülür, bu dərviş görür ki, genə bir alahı vəlayətdən bu qıza genə elçi gəliblər. Genə dərviş bulara “hə” deyər, qərar mədar toy qoyulur, əz qəza bu toyların hamısı bir vəqtdə düşür. Vəqti ki, qonaqlar gedirlər, dərvişin xanımı deyər:

– Ay xanə xərab, sən nə cür bir qızı üç dənə ərə verirsən, onı da bir gündə toy tutalar?

Burda dərviş deyər:

– Xanım, hətma burda bir hikmət vardı, nigəran olma, Allah böyükdi.

Bu dərvişin arvadı çox ürəyi təlatümdə idi. Yavaş-yavaş toyun vəqti yetişir, bir üç-dört gün qalırdı toy vaqtına, əz qəza dərvişin o zəman bir dana it tulası və bir dana eşşəg balası varıdı. Dərviş bir gün sübh durur, görür ki, evində üç dana qız vardı. Buların birinin birinnən fərqi yoxdı, təşəxxis vermaq olmur, dua eliyir və Allaha səcdə qılır və gedir həyətdə görür, eşşək və it balası yoxdı. Təəccüb eylər və genə Allaha dua və səcdə qılır və deyər:

– Allah, sən böyüksən, hər nə səlah bilirsən.

Ama toy gününin vaxtı yetişir, bu dərvişin yeznələri bə ittifaq hamısı qərara gəlirlər, toy tutullar, qızları aparırlar. Caleb burasındadır ki, dərviş təşəxxis vermirdi ki, hansı bunun vaqi qızıdı, hansı eşşəkdi ki, insan cildinə düşüb, hansı it?

Sonra dərvişin ürəyi qızınnan ötəri bir zərə olmüşdi, xanımınan qərar qoydular, gedilər qızdarın görsinlər. Qəzinin üstınnən bir yeddi-səkgiz ay geçirdi, bəlaxrə bular gedillər alahı vəlayətdə ki, qızın görsin, gedillər və yetişirlər qızın birinin evinə. Dərviş xoş və beşdən sonra qızının qayınatasınnan dərddəl eylər, deyər:

– De görüm, biz sizin yanızda üzı ağıq, ya üzı qara?

Qızın qayınatası deyər:

– Ağa dərviş, əlin ağrımasın, yaxçı qız büyüdmisən çox yaxşıdı, əma bir iradı vardı. Vəqti ki, çağırsan gec ayağa durur.

Dərviş burda barmağın dişlər və sonra duralar gedirlər o birisi qızın evinə. Bir alahı ölkədə gedilər və yetişirlər xoş və beşdən sonra yemək-içməkdən sonra bu dərviş soruşur ki, ağa, mənim qızıman razısız, ya yox? Aya iradı vardı, ya yox?

Qızın qayınatası deyər:

– Ağa dərviş, mənim gəlinim ki sənin qızın ola, çox yaxşıdı, biz hamımız razıyıq, amma bir iradı vardır, danışanda çox uca səsinən və dalbadal danışır. Alahı bir iradı yoxdı.

Burda dərviş hesab içəri verir və bilir. Bir neçə gündən sonra dərviş xanımınan o biri qızının evinə bir alahı vəlayətdə olan qızının evinə gedillər, yetişirlər. Qapı çalırlar, bəd əz öpüş-görüşdən, yeməkdən sonra genə ağa dərviş soruşur ki, deyin görax, aya, bu müddətdə bizim qızımızdan rəzayətiz vardı, ya yox? O zaman gəlinin qiyafəsindən məlum olurdu ki, bu qız boyludu, türkə məsəl, ağır ayaqdı. O zaman da qayınata deyər:

– Mənim yağçı gəlinim, ged üst mərtəbədən qarpız vardı, gətir yiyağ.

Dərviş qızı gedir o qarpızı gətirir, qayınatası deyər:

– Bu deyil, get o birisin gətir.

Bu qəziyə qırx dəfə döndərilir. Bu qız bu işi əncam verir və qayınatasına da etiraz olmur. Axırıncı dəfədə ki, qırx dəfədi qarpız kəsilir və yeyillər, genə ağa dərviş soruşur ki, ağa mənim qızımnan razısız, ya yox?

Qayınata deyər:

– Ağa dərviş, qəbrin nurınan dolsun, qızın çox yaxşıdı, əsla sözi yoxdı. Sənin qızın o qədər yaxşıdı ki, bizim bir dana qarpızımız varıdı, mən qırx dəfə dedim, qızın getdi həmanı gətirdi. Bir dəfə etiraz eləmədi, bu qızın sözı yoxdı.

Bəd dərviş xanımınnan gəlirlər öz evlərinə.

Dərvişin xanımı soruşur ki, ağa, bizim vaqi qızımız hansıdı, əsla bildin, ya yox?

Dərviş deyər:

– Ay xanım, məgər sən mətücə olmadın?

Dərvişin xanımı deyər:

– Ağa, mən hardan bilidım ki, hansı bizim qızımızdı? Oların hamısı bir-birinə oxşardı.

Burda dərviş deyər:

– O iki öydə geddix, qayınatası dedi "bu çox yaxşıdı və əma bir iradı var, sözi diyəndə əğır durur". O eşşək balasıdı ki, insan cildinə düşüb. Amma ikimcisi ki, geddix, qayınatası dedi ki, "çox uca səsinən danışır, dalbadal deyər" – o da itin balasıdır ki, insan cildinə düşüb. Axırıncı ki, həm boyludu ki, qırx dəfə getdi qarpızı gətirdi və etiraz eləmədi, o bizim vaqi qızımızdı.

## KEÇƏL VƏ MİRZƏ

Günlərin bir günində bir vəlayətdə bir Mirzə adında bir kişi yaşayırdı ki, bu Ağa Mirzə hər nə cür istirdi millətə və ahəl o vəlayətə çetin tuturdı, hər kimi gətirirdi ki, özinə nökər tuta, onnan şərt bağlardı və həqqini vermirdi. Əgər bir kəsi də etiraz eləsəydi, onun kürəyindən zual çıxardırdı. Bu vəlayətdə hamı bunun əlindən çox korrıx çəkirdilər və günbəgün də ahalı bu vəlayət fəqir olurdı, ya da ordan qaçırdılar. Bir alahı vəlayətdə ki, bir gün növbət geçə yetişir çünki, bu adam Keçəldi, ahəl vəlayət onu "Keçəl" səslirdilər, əma bu Keçəl çox zərnəg bir adamıdı.

Ahəl vilayət deylər ki, ay Keçəl qardaş, bu Mirzədən heç kim xeyir görmeyiblər, getmə. Keçəl qəbul eləmir, gedir Ağa Mirzəyə nökər olur. Ama Ağa Mirzə şərti ki, nökərinən qoyur,

budur ki, əgər biri-birindən incisə, onun belinən zol çıxardacaq və onun həqqin də verməceh. Keçəl qəbul eylər.

Bir müddət Keçəl Ağa Mirzə işlədir, həq vəqtinə gələndə Ağa Mirzənin bəhanələri şərü olur. Keçəl də bunu duyur, bu dəfə gəlirlər Ağa Mirzənin evinə ki, ev işlərin də görsin. Ağa Mirzənin arvadı soruşur ki, adın nədir?Keçəl fürsət ğənimət tapır, adını əştbahı deyər. Əz qəza Keçəl duyur ğəzanın isinən ki, kiftədi, qız suruşur:

– Adın nədir?

Kəftə axşam olur, şam gətirillər, şamı yiyəndən Keçəl qızın yanınan yerin salmışdılar. Gecə keçəl qızı əzət eylər, qız deyər:

– Ana, kiftə məni əzət eylər.

Anası deyər:

– Qız səs eyləmə, yorulubdu yatsın.

Amma Keçəl bu tərəfindən Ağa Mirzənin qızın belə sübh olur, Keçəl deyər:

– Ağa Mirzə, narahat ki deyilsən?

Deyər:

– Yox.

Ağa Mirzənin içəridə dişi boğazğın kəsirdi. Ağa Mirzə nəqəşə çəkir, Keçəl deyər ki, get ökizdəri gətir və tulanı də gətir.

Sonra Ağa Mirzə Keçələ bir kasa qatıx verir, bir də çörək və anbardakı ota da əl deymesin, qatıx da qaymaxı yaralanmasın, çörək də paralanmasın, tula da hara çıxdı, oranı əgərsən və fəlan zəmini əgərsən.

Keçəl xəş alatı alır, boynunun üstinə gedir, bir az gedənən sonra görür ki, tula getdi çıxdı qabanın başına. Keçəlin əlində yağçı gödək bir ağacı varıdı, möhkəm bir selbə vurur, tula gəlir düşir hamar yerə. Keçəl başlayır oranı əkir və sonra Keçəl acımışdı, çörəgin vəstin çıxardır, kasanın da altın də yiir, altından qatığı sümürür, əmir yeri də əgir. Gəlir aparır ökiz də rəsində başını kəsir, anbarda qoyur, otın içinə gəlir. Ağa Mirzə soruşar ki, bəs nə elədin? Kasanı göstərir və çörəgi də Ağa Mirzə görür ki,

qatıx yaralanmıb və çörək də paralanmıb, tula da hamar yerdə yatıb, olub bəs, Keçəl, ökizdər deyib.

– Qurban, ənbarda otın içində başlarını kəsmişəm ki, otı da yeməsinlər.

Ağa Mirzə cavab tapır, Keçəl deyər:

– Olmaya Ağa Mirzə incimisən?

Deyər:

– Yox, ağa.

Mirzə çox sınmışdı, keçəlin bu işlərinən. İstirdi ki, keçəl əlindən tez qurtarsın, bunların qul qərarları şanababa gələn vaxt olurdı. Mirzənin bir qoca anası varıdı, səsi şana babasinə bir az oxşardı, gecə Ağa Mirzə anasın çıxardır ağaca ki, sən burda şanababba kimin səs çıxard, ta mən köpək oğlanın əlindən qurtarım.

Keçəl bu qəziyni duyur. Keçəl bir pəs yerdə gizlənir, o ködək ağacda alınır əlinə, ta ki Mirzənin anası bir nazik şanababba səsi çıxardır, Keçəl möhkəm bir selbə bu qoca arvadın qabırğasının üstinə. Yazıx qoca arvad ordan gəlir, deyir yerə bir dəfə ağzın açır-yumur, ölur. Hay düşür. Ağa Mirzə deyər:

– Keçəl, şanababba gəldi, səsləndi bəs sən getməlisən.

Deyər:

– Yox, qurban, o şanababba deyildi, o sənin anandı, gəldi ağacdan düşdi yerə, öldi. Ağa Mirzə, olmaya mənən incimisən?

Deyər:

– Yox, Keçəl.

Day Keçəl olur bir bəla, salanır Mirzənin boynundan. Mirzə bir gün-iki gün fikirləşir ki, mən köçürəm gedəm alahı vilayətə. Qəsdi budur ki, aparsın keçəli bir yerdə itirsin, bə hər hal Ağa Mirzə köç vəsaylın bağlayr, çatır at-qatıra, gedir. Gecə olur, yetişir bir Araz addı böyük çayın qırağına. Ağa Mirzə deyər:

– Keçəl, gecəni burda oturaq eyliyaq, sabah tezdən gedax.

Keçəl deyər:

– Sahibi ixtiyarsan, Ağa Mirzə.

Gecə bir az çaydan və çörəkdən sonra yer açıllar ki, yatsınlar, Keçəlin yerin Arazın qırağına salırlar ki, gecə Ağa Mirzə

bir toqqa vırsın arvada, arvad bir toqqa vırsın kəçələ, Keçəl düşsün Araza boğulsun, ölsün. Keçəl genə bunu duyur, Ağa Mirzənin arvadı bir az yorqunıdılar. Keçəl bir az görür ki, Ağa Mirzənin arvadı xoruldayr, Ağa Mirzə keçib yuxuya. Tez durur Ağa Mirzənin arvadın çəkir öz yerinə, özu gəlir ortaya. Ağa Mirzə bir dəbərir, bir toqqa vırır Keçələ, Keçəl də bir toqqa vırır Ağa Mirzənin arvadına, Ağa Mirzənin yazıx arvadı düşür Araza, qəranlıqda suda boğulur. Ağa Mirzə deyər:

– Ay ərvad, du, bu köpək oğlanın əlindən rahat olduğ. Birdən Keçəl deyər:

– Ağa Mirzə, Allah eləməsin, bəlkə birdən mənnən incimisən?

Ağa Mirzə görür ki, öz arvadı düşüb suya. Durur ayağa, deyər:

– Day məni dıxlattın, nə istirsən mənnən, əl çək. Day sənin əlindən mən yoruldum. Keçəl deyər:

– Bəs sən incimisən.

Ağa Mirzənin belindən bir zol çıxarır və daha qərar olur ki, Ağa Mirzə millətə əziyyət eləməsin.

## SİYAVUŞ

Biri var idi, biri yox idi, Allahdan suvayı heç kim yox idi. Bir vilayətdə bir padşah var idi. Bu padşahın üç oğlu var idi ki, yekəlmişdilər. Əmma o zaman belə rəsm-rüsum var idi ki, oğlanlar böyüsə idi, onları evləndirərdilər. Xüsusən də padşahların sarayında vəzirlər, vəkillər və qoşun başçıları yığışardılar. Padşahın oğlanları hansı qızı istəsə idilər, o yana ox atardılar. Sonra məlum olardı ki, kimin qızını istəyirlər. Padşahın əmri ilə cəm olardılar. Padşahın oğlanları vəzirlərin, vəkillərin və qoşun başçılarının hüzurunda kamanlar amadə oldu. Padşahın oğlanları oxlarını atdılar. Padşahın əvvəlki oğlu vəzirin qapısına üç ox atdı. İkinçi oğlu vəkilin qapısına oxun atdı. Amma Siyavuş oxun naməlum bir yerə atdı. Yəni dağa, daşa atdı. Bu yığıncaqda hamı təəccüb elədilər və padşah da Siyavuşun bu işindən qəzəbləndi

və Siyavuşu saraydan saldılar eşigə. Siyavuş getdi şəhərin kənarında bir çadır qurdu və orada yaşayırdı. Bir gün fikirləşirdi, yadına düşər ki, getsin, ox atdığı yerə bir baxsın. Gedir görür ki, bunun oxu dəyib bir qara daşa, daş da cırılıb. Siyavuş oxunu oradan çıxardı və götürdü qayıtdı. Amma Siyavuş çox zirəng və mahir şikarçı idi. Amma bir sadə zindəgi dalısıncan idi. Amma bir gün eşikdən gəldi gördü ki, evi tər-təmiz mürəttəb və münəzzəmdi və bir yaxşı xoşməzə yemək də bişib amədədi. Mat qaldı və fikirləşdi bu qəziyə nə təqib eləsin. Bir gün, iki gün. Gördü ki, bir gözəl xanım gəldi, girdi bunun çadırına, evi həmişəki kimi sildi, süpürdü. Yaxşı bir təam da bişirdi. Sonra istədi ki çadırdan çıxsın, getsin. Siyavuş gəldi, bunu qabağını kəsdi. Getməginə mane olub soruşdu:

– Sən kimsən və burada nə qayırırsan?

Bu xanım deyir:

– Mən nə ins, nə də cinəm. Mən mələkəm. Allah tərəfindən sənə gözəl bir payam. Sən eliyə bilərsən ağ saqqal çağırıb evlənməgimizi eliyəsən.

Səyavuş bu işi görür, bunlar ər-arvad olurlar. Amma tasfilə verir, Siyavuşun atası məriz olur və yaxçı da olmur. Təbiblər deyirlər ki, padşah şikar əti geysin, şikar da mütləq ceyran olsun. O zaman ceyran şikarı çətin idi. Siyavuş təsmim tutur ki, ceyran ovuna getsin. Bunun xanımı Güləfirəngi deyir:

– Siyavuş, sarayda təsmim tutulub ki, çünki sən mahir bir şikarçısan, şikara gedəsən. Amma sənin qardaşların müxalif oldular ki, özləri getsinlər. Amma onların işi degil. Filan məntəqədə bir cüt aslan küçüyü vardı. Gedip onları gətirsən və aparsan, filan dağın yaxınlığında, filan qismətində biyabanda dağda aslanlar onları cəmləyip gətirərlər. Sən də onlardan bir neçəsini şikar edərsən, başların da kəsərsən. Sənin qardaşların onda səni tanımazlar. Gələrsən deyərsən ki, mən şikarçıyam. Şikar eləyərəm, sataram. Ceyranların bədənin kölə verərsən. Onlar da yadında olsun başların kəsəndə deyərsən "tüpürüm bunların bədəninə və məzəsin başlarına", başların gətirərsən evə.

Siyavuşun qardaşları ceyranların ətini apardılar saraya. Birinci gün bişirirlər, padşah yeyər, amma yaxşı olmaz. Amma Siyavuşun arvadı bu ceyranların başını bişirər, qoyar bir qazana, deyər:

– Siyavuş, dur gedək saraya, padşahın yanına.

O zaman ki, bunlar yetişdilər, padşaha xəbər verirlər. Qiblə-aləm sağ olsun, Siyavuş arvadilən ceyran kəlləsin gətiriblər ki, sən meyl eyliyəsən və yaxşı olasan. Amma padşah deyir: "O mənim oğlum deyil".

Sarayda vəzir, vəkil padşaha üz salırlar ki, padşah qəbul eylə. Padşah bu ceyran kəlləsin yeyir və yaxçı olur. Öz vilayətində bir neçə abadi və bir miqdar da pul ona padşah verir. Amma bu abadidən, pulda qabaq Siyavuşa ğeybdən bir böyük imarət tikilmişdi və onun vəz malisi çox yaxşı idi. Hamı da təəcüb eyləmişdi ki, bu haradan gətiribdi.

Amma Siyavuş arvadının işlərinə təəccüb olmuşdu ki, bu işlər nə cür və nə təhər olur ki, ğeybdən saray tikilir və pul haradan gəlir. O zaman Siyavuş deyir ki, Siyavuş bu sözü məndən soruşma, eşidən də olmasın. Qoy rahat zendeganlığımızı edək. Amma Siyavuş qəbul eləmir. Siyavuşun xanımı deyir:

– Siyavuş, mən bu razi sirri sənə açsam, daha bu dastanlar olmuyacaq, aradan gedəcək. O mövqedə mən daha olmayacağam. İsrar eləmə.

Amma Siyavuş qəbul eləmir. Siyavuşun arvadı sirrini açır və deyir:

– Siyavuş, mən bir mələkəyəm, Allahdan hər nə istəsəm, mənə verər.

Deyir və bir göyərçin olur, saraydan uçur, çıxıb gedir. Amma deyir ki, Siyavuş, istəsən, məni tapasan və mənim dalımcan gələsən. Gərək özüvə dəmir əsa, dəmir başmaq düzəltdirəsən. O qədər yol gələsən ki, ta onlar yetirələr. Ta gəlib məni tapasan. Uçur, gözdən itir. Sonradan bir Siyavuş qalır, bir sadə qara çadırı. Siyavuş gecə-gündüz ağlayır ki, mən niyə bu işi tutdum. Siyavuş arvadını çox istəyirdi. Gedir sifariş verir, dəmir xasa dəmir başmax düzəltdirir, arvadının dalınca yollanır, öz ana

vətənini tərk edir. Az gedir, çox gedir, neçə illər yol gedir. Çox əziyyətlər çəkir, taki dəmir başmaxları yırtılır, ayağyalın bir şəhərə yetişir. Bu şəhərdə sərgərdan o tərəf, bu tərəfə gedirdi ki, bir kənizi görür. Ondan bir içim su istəyir. Və bundan soruşur ki, aya, sən bu şəhərdə, filan zamandan bu tərəfə, bu qəddə, bu şəkildə xanım görmüsənmi, tanırsan? Bu kəniz gəlir saraya Gülafirəngi bu qəziyyəni deyir. Amma Gülafirəngi bu nam nişanı ki bu kəniz deyir, bilirlər ki, Siyavuş gəlib şəhərdədi. Öz xidmətkarlarından göndərir ki, gedin Siyavuşu tapın, gətirin. Onlar gedirlər, onu tapıb gətirirlər. O zaman Siyavuş arvadını görür, tanır. Arvadı deyir:

– Siyavuş bavur ilə mərdüm ki, gəlib məni tapasan. Məlumdur ki, çoxlu zecirlər, məşəqqətlər çəkib ta bura yetişmisən. Məlumdur ki, sən məni çox ürəkdən istəyirsən. Mən sənin şəhamətli və şücaətli eşqinə və məhəbətinə bir bağlı payidar görürəm. Mən səni təhsin eyliyip istirəm və qəbul elirəm.

Burda Gülafirəngi Siyavuşun əlindən tutur və aparır sarayına. Orada şad-xürrəm yaşayışlarına davam edirlər.

## QARAÇI QIZI

Biri var idi, biri yox idi, Allahdan savayı heç kim yox idi bir böyük şəhərdə bir padşah hökümət edirdi. Bir gün bu padşah əmr verdi ki, vəzir-vəkil hazırlaşsınlar ki, gedirik şikara. Əmr feyl fur icra olur, padşah və qoşunu yola düşürlər. Gedirlər, gedirlər bir vilayətə, bir bulaq yanından keçirdilər ki, padşah bulaqda bir qərəçi qızı görür. Əmma bu qız çox gözəl idi. Padşah bu qıza bir göyüldən min göyülə vurğun olur. Padşah vəzirini çağırır, deyir:

– Vəzir, amanın bir günüdü, qız əldən çıxar, tapmarıq. Görün bu qız haraya gedir, kimin qızıdır?

Vəzir gözətçi qoyur. Görürlər, bəli filan kənddə filan qərəçinin qızıdı. O gün padşah elçi göndərir. əmma qızın dədəsi qəbul eləmir. Vəzir-vəkil deyir ki, ay evi xərabın oğlu, bu padşahdı, sən nə dəlilə buna qızını vermirsən? Bu qərəçi kişi deyir:

– Ay vəzir, dilim lal, bəlkə sabah oldu, padşahlığı bundan aldılar. Onda bu padşah nə iş görəcək? Bəs buna xatir mən qızımı vermirəm. Getsin bir iş öyrənsin ki, ta eyləyə bilsin əhl-əyalının yemək içməgini qazansın. Və hötmən də gərək qərəçi şuxluq ögrəşsin ki, mən onu imtahan eyləyə bilim. Yoxsa mən qəbul eyləmərəm.

Bu qərəçi kişi şərt-şurt qoyur, vəzir də gedir padşaha deyir. Padşah ki, bu qıza minbir göyüldən min göyülə vurğun olmuşdu, qəbul eylər ki, qərəçi işin ögrəşsin. Padşah ortabab libas geyər, dərbardan çıxar eşigə. Bazarlarda, yollarda, şəhərdə, zəmilərdə gəzər, ta ki qərəçi işin ögrəşsin. Padşah bir müddət şahlığın buraxır, qərəçi işin ögrəşir. O günlərini keçirdir ki, bir gün padşahı səql basmışdı, geyim paltarları da cırım-cınta olmuşdu. Gedir hamama ki, bir yorğunluğunu bədənindən çıxartsın. Əmma padşahın boxçasında sabun yox idi. Padşahın da bədəni qəp-qərə olmuşdu. Və burda istir ki, adamlardan sabunu qərəçilik eləsin. Adamlara əl açır. Bağır və iltimas sabun istəyir. əmma o gün qızın atası hamama getmişdi. Padşahı da orda görür, tanır ki, bu padşahdı. Özünə gətirmir. Görür ki, padşah ondan-bundan bir dəfə sabın aldı, paltarlarını yudu və axırda ki, öz bədənini yusun, gəldi yetişdi qızın atasına. Buna da əl açdı, dililən yalvarmağına, sıdqamağına bu qərəçi qızını üzdən aparır. Axırda sabını bu qərəçidən alır. Bunlar hamısı yuyunurlar. Gəlirlər onda qızın dədəsi deyir:

– Qırx ili ildi ki, mən bu vilayətdə yaşayıram. İdiyəcən bir kəs məndən bir şey ala bilməmişdi. Amma bu padşah qərəçidir ki, qərəçidir. Bəs mən qızı buna verərəm.

Burada padşah çox xoşhal olur. Qərəçidən qızını alır. Qırx gün, qırx gecə buna ceçn tutur.

## KƏLLƏ VƏ ÇOBAN

Biri var idi, biri yox idi. Allahdan suvayı heç kim yox idi. Göylərin altında, yəni yer kürəsində bir kəllə var idi ki, bir gün bir naxırçı kəndin mallarını aparmışdı dağlar səmtinə otarmağa.

Qəfildən bir səs eşitdi ki, məni də özünilən apar. Çoban naxırçı çox höyürğandı. Çünki özündən suvayı bir kəs orda deyildi. Bir az fikrə keçdi, dedi:" bəlkə xəyalat oldum". Amma bir azdan yenə səs eşitdi ki, məni də apar özüilən evizə. Əmma bu dəfə çoban qorxdu. Və bu tərəfə, o tərəfə baxdı. Amma bir kəs genə görmədi. Vəli çoban çoxlu vəhşətə düşdü, uca səsilən qışqırdı. Malları cəmlədi və kəndə sarı yola saldı. Birdən gördü ki, bir adam kəlləsi bunun daliycan dığırlana-dığırlana gəlir deyir :

– Məni də özünilən apar evizə.

Çoban çox hirsləndi və huyurqandı. O ayağı göydə qaçırdı. Amma kəllə dalısıyca gəlirdi elə hey deyirdi: məni də özünilən apar evizə. Biçarə çoban qorxusundan mal-qərəni ötürdü, ayaq alıb qaçdı, amma heç təsiri olmadı. Kəllə öz işini görürdü sonra kəllə dedi:

– Ay çoban, məndən qorxma, məni özünlən apar, mən sənin karuva gəlləm.

Çoban qorxsa da dayandı dedi:

– Sən mənim nə dərdimə dəyərsən?

Kəllə dedi:

– Mən sənə bu fəlakətdən nicat verərəm.

Çoban bir az fikirləşdi, öz-özünə dedi: "–Şayəd düz deyir, yaxçıdır ki, ondan qorxmuyam". Kəllə dedi:

– Mən eliyə biləm ki, çox işlər görəm.

Çoban ondan soruşdu ki, nə iş? Dedi, mən eliyə biləm adam cildinə düşəm. Amma çoban inanmadı. Kəllə o işi gördü. Kəllə çobana dedi:

– İndi gözlərini yum, bəs indi gözlərini aç, gör nə görürsən?

Çoban bir az sonra gözlərini aşdı, gördü qabağında bir gözəl cavan oğlan durubdur. Çoban huyurqandı, ağzı açıla qaldı. Amma bu səhnədən sonra oğlan çobana dedi:

– İndi inandın, yoxsa yox?

Çoban dedi:

– Bəli, inandım.

Oğlan dedi:

– İndi mənə etimad eylə, mən nə deyirəm, qulaq as, məndən qorxma.

Çoban qəbul eylədi, dedi:

– Mən əlan bir Kəllə ollam və məni al qucağuva, apar evizə və bir yerdə məni gizlət.

Çünki çoban inanmışdı. Kəlləni götürdü, evə tərəf yola düşdü, evə getdi. Evdə kəlləni gizlətdi və tamamə cərəyanı yudı. Əmma sonra kəllə dedi ki, sizin bu şəhərdə bir padşah yaşayır ki, üç dənə qızı vardı və qızları da yekəliblər. Hər mövqe padşah istədi qızlarını ərə versin. Bu məmləkətdə bir rəsmdi qızlar kamanlarilən uclarını atsınlar, o oxlar hər kimin evinin üstünə düşsə, o qız gərək o ev yiyəsinin oğlu ilən evlənə. Və o qız məcburdu ki, bu işi görsün. Kəllə deyir, bunu deyim ki, padşahın axırda qızının oxu gəlib düşəcək sizin damızın üstünə. Onlar gələcək sizin dalızca. Amma sizin oğluz yoxdu ki, siz deyin bizim oğlumuz vardı. Çoban dedi ki, mənim oğlum yoxdu ki, bu dastanı bavər ilən bilmirəm. Oğlan dedi ki, tezlikdə sən o günü görərsən. Oğlan bunlara dedi ki, mənim adım da Məhəmməddi. Onda o qız mənimlə evlənəcək və o vaxtda siz dünya malından qəni olacaqsız. Əmma vəqdi ki, çoban bu sözləri eşitdi, çoban qəbul eylədi. Və kəllə də dedi:

– Tamam işlərdə də mən sənə kömək elərəm.

Çoban ki, istədi Kəlləni götürsün və gətirsin. Kəllə dedi:

– Lazım deyil, mən səninlə özüm gələrəm.

Kəllə dedi:

– Mən bu tərəfdən mal-qərəni cəmləyib gətirim, sən də o tərəfdən.

Çoban təəccüb eləmişdi ki, o nətəri iştir ki, kömək eləsin. Çoban bir də gördü ki, Kəllə dığırlana-dığırlana mal-qərəni hay-küyilən toplayıb gətirdi. Çoban bu işdən şoka olmuşdu və bir şey tapıb danışa bilmirdi, dili tutulurdu. Daha iş-işdən keçmişdi. Kəllə əsla macal vermirdi ki, çoban mal-qərə səmtinə getsin. Ta kəndin özünədək mal-qərəni cəmlədi, gətirdi. Özü də çobanın ardıyca evə gəldi. Və çobanın arvadıda ki, bu işlərdən xəbəri yox idi, bu sözləri eşidəndən sonra çobanın başına qışqırdı:

– Tez bunu bu evdən uzaqlaşdır, yoxsa bu işi özüm görəcəm.

Kəllə gördü ki, iş üzdən pisləşir, tez dilə gəldi, dedi:

– Anacan, məndən qorxma, mən bir oğlanam ki, bu kəllənin içində yaşayıram.

Arvad dedi:

– Əgər sən düz deyirsən nə təhəri kəllənin içində yaşayırsan? Bir kiçik kəllənin içində nə təhəri yerləşirsən?

Oğlan dedi:

– Mən bir cürə bu kəllədən eşigə çıxaram, siz gözlərizi yumun.

Arvad gözlərini yumdu. Bir an sonra oğlan onlara dedi:

– İndi gözlərizi açın.

Gözlərini açdılar ki, qabağlarında bir oğlan durub ki, indiyədək ömürlərində belə gözəl oğlan görməmişlər. Ər-arvad təəccübləndilər və Allahdan təşəkkür elədilər və şükr elədilər ki, sən bilirdin ki, bizim uşağımız yoxdu, ey Allah, sən bu oğlanı yollamısan. O zaman oğlan dedi:

– İndi inandız, ya yox?

Burada ər-arvad az qaldılar qanad çıxardıb uçalar, sonra oğlan dedi:

– İndi icazə verin, mən girim öz cildimə.

Arvad deyir:

– Oğlum, Allah səni bizə yetirib və mən bundan sonra qoymaram sən girəsən bu məsrəf kəllənin içinə.

Oğlan deyir, mən eyləyə bilmərəm onsuz yaşayam. Çünkü bu kəllə nəsilbənəsil bizim cildimizdi. Oğlan eyləyə bildi girə kəllənin içinə, bunların yanında da zendeganlıq eyləyə. Əmma sabah ki, sübh oldu, çobana deyir ki, bu gündən lazım deyil ki, sən gedəsən mal-qərənin dalinca. Mən özüm gedib mal-qərəni otarıp gətirim. Əmma çoban oğlanın işinin müxalif oldu və dedi ki, mən eyləyə bilmərəm ki, məhəllənin mal-qərəsini tapşıram sənə, itər mənə yaxşı olmaz, işimi əldən verəm. Əmma Kəllə deyir, sənin xəyalın çox rahat olsun. Sən əsla nigaran olma. Əvvəl güni Kəllə mal-qərəni aparır, çoban nigaran idi. Axı, o qorxurdu ki, başına müsibət gələ, yaxçı olmaz. O günü çoban səbr eylədi. Axşam çağı gördü Kəllə və mal – qərə səhih və səlləm gəlirlər.

Çobanın daha xəyalı rahat oldu. Əmma camaat təəccüblə baxırdılar ki, çoban bu gün mal-qərənini dalınca niyə getməyibdi. Çün eyləyə bilmirdi, o vağiəni desin. Onlara hamısını yalan danışırdı. Vəli, camaat şəkk eləmişdilər ki, bu çoban cadu-cənbəl eyləyir. Çünki onlar Kəllənin hüzurundan xəbərsiz idilər. Çünki Kəllə bir işləri görürdü ki, heç kəs onu görə bilmirdi. Bu vəziyyət dörd-beş ay zaman apardı. Günbəgün camahat bu işə çox şəkk eyləyirdi. Qəfildən o sözü ki, Kəllə çobana demişdi, yetişdi ki, carçılar hər yerə car çəkdilər. Filan gün padşahın qızları oxlarını atacaqlar. Qızlar hər kimi damının üstünə atsalar, o qız o evin oğlu ilə evlənəcək. Camahat günlərini sayırdılar ki, o gün yetişsin, ta görələr nə ittifaq düşür. O gün yetişdi. Camahatın hamısı o böyük səhnəni görmək üçün cəm oldular ki, nə olacaq? Sonradan gənə carçılar elan elədilər ki, padşahın böyük qızı oxunu atdı. Camahatın hamısı müntəzirdi ki, padşahın qızının oxu kimin damının üstünə düşəcək. Ox getdi, düşdü vəzirin damının üstünə. O vaxt ceşn bərgüzar oldu. Camahat şadlığ elədilər və növbət yetişdi padşahın ikinci qızına. O, da oxunu atdı. Ox getdi düşdü sarayda yaşayanların birinin damının üstünə. Genə ceşn bərgüzar oldu. Əmma, nöbə yetişdi üçüncü qıza. O da oxunu atdı, ox getdi çobanın damının üstünə düşdü. Əmma, o zaman dünya elə bil tirü tar oldu. Padşahın ğeyzi tutdu ki, bu qızına həvasın cəm eyləmədi bizim təxtimizin və tacımızın abrusu getdi. O zaman vəziri cağırdırdı, dedi:

– Vəzir, evin yıxılsın, bu nə müsibət idi ki, bizim başımıza gəldi.

Vəzir deyir:

– Bu əcdadımızın şərtidi. Onu aradan aparmaq olmaz, o qızın şansıdı.

Qız da istirdi ki, özünü öldürsün. Qoymadılar, tez qabağını aldılar və padşah da bir həftə əza elan elədi. Bir gün neçə dənə sarayda yaşayanlardan çobanın evinə getdilər, ta onun oğlunu gətirsinlər. Bunu da hamı bilirdi ki, çobanın oğlu yoxdur. Tez bir nəfəri saraya yolladılar ki, qiblə-aləm sağ olsun, çobanın oğlu yoxdu. Əmr olundu ki, çobanın özünü gətirin. Məmurlar get-

dilər, çobanının özünü gətirdilər. Və ondan soruşdular ki, aya, sənin oğlun vardı, ya yox?

Çoban dedi:

– Bəli, var.

Dedilər:

– Əgər yalan danışsan, özünü ölümə verəcəksən.

Ona dedilər ki, get oğlunu gətir. Çoban gəldi evə, dedi:

– Məhəmməd, səni istirlər ki, sarayda görsünlər.

Məhəmməd qəbul elədi. Atasilən saraya getdi. Hamı bunları gördü, təəccüb eylədi. Əmma Məhəmməd onlarinan saraya getdi, padşahın hüzurunda ərz ədəbə elədi. Padşah soruşdu:

– Aya, sən mənim qızımla evlənirsənmi?

Məhəmməd dedi:

– Qurban, əgər sən izn versən, mən qəbul eylərəm.

Əmma padşah dedi:

– Mən qəbul eyləmirəm.

O vaxt padşahın qızı içəri girdi, atasında dedi ki, oğlanı görmək istəyir. Padşah ona icazə verdi. Məhəmməd padşahın qızının hüzuruna gəldi. Padşahın qızı Məhəmmədi görəndə çox sevindi, gördü çox yaxşı, rəna, gözəl bir oğlandı və gedi atasının qəbuluna dedi ki, atacan, mən bu oğlanilən evlənirəm. Atasının gözləri yaşilən doldu, dedi ki, mən eylyə bilmərəm ki, bu sərneveştin qabağın alam. Amma bunu da deyim ki, bu evlənmək sənin şanında deyil. Padşahın qızı dedi:

– Atacan, bu oğlana aşiq olmuşam, and içirəm ki, bundan sonra mən heç kimilən evləmiyəm.

Atası dedi:

– Qızım, özün bilərsən, mənimki demək idi.

Bu söhbətdən sonra padşahın qızı istədi ki, oğlanla danışsın. Oğlan gəldi padşahın qızının hüzuruna, dedi ki, mən səninlə onda evlənərəm ki, mənim şərtimi qəbul eyləyəsən.

Qız dedi:

– Hər şərt olsa, qəbuldu.

O zaman oğlan sehr və caduynan dedi ki, kəllə orada hazır olsun. Sonra kəlləni qıza nişan verdi ki, mənim şərtim budur, əmma qız təəccüb halında dedi:

– Sənin şərtin budu?

Oğlan dedi:

– Bəli.

Qız dedi:

– Sən onunla nə iş görürsən?

Oğlan dedi:

– O mənim cildimdi. Mən onsuz yaşaya bilmirəm.

Qız dedi:

– Nə cürə o sənin cildindi?

Məhəmməd dedi:

– Bir neçə ləhzə səbr eylə. Mən sənə nişan verim.

Şahın qızı müntəzir oldu. Birdən gördü ki, Məhəmməd ğeyb oldu və onun yerinə bir kəllə qızla danışmaq istədi. Qız bu səhnəni gördü və haldan getdi, kəlləni ğeyb elədi. Məhəmməd o qədər qızın başının üstündə durdu ki, qız huşa gəldi. Qız bir daha Məhəmmədi başının üstündə gördü və xoşhal oldu. Qız dedi:

– Məhəmməd, bu nə oyundu?

Məhəmməd cavab verdi ki, bu kəllə nəsilbənəsil bizim əlimizdə dolanır və onsuz yaşaya bilmərik. Qız eyz və iltimas elədi ki, bunu atam bilməsin. Məhəmməd də söz verdi ki, bir kəsə deməsin və padşahın qızı da Məhəmməddən söz aldı və dedi eybi də yoxdu. Kəlləni evdə gizdədi və onun içinə girməyə. Əmma Məhəmməd dedi:

– Əgər bu kəlləyə bir asib yetişə və heç vəqt məni görməzsən və bu raz mənimlə sənin arandadır.

Evlənmək qərarını qoydular və Məhəmməd qızdan istədi ki, ata-anasına kömək olsun. Qız dedi:

– Heç nigaran olma.

Məhəmməd həman cür ki, atasına söz vermişdi, səni mal dünyadan qəni edəcəm və özü də padşahın qızıilən evləndi. Bunlar biri-birinin kənarında xoş-xuraman yaşayırdılar. Bir-birinə də çox əlaqələri var idi. Məhəmməd bir gün şikara getmişdi.

Qızın anası və bacıları gəlmişdilər qızın evinə ki, halını soruşsunlar. Əmma bir az xoş-beşdən sonra onların zendeqanlıqlarından soruşalar. Məhəmmədin xanımı deyir ki, mən Məhəmmədi çox istiyirəm. Onunla xoşbəxtəm, əmma bir şey var ki, mənə əziyyət edir. Onlar soruşdular ki, o nədir ki, sənə əziyyət edir. O zaman Məhəmmədin xanımı kəllədən söz açdı. Bunlar çox narahat oldular və dedilər ki, sən bu adamla niyə evlənmisən? O dedi ki, mən Məhəmmədə aşiq olmuşam və onsuz yaşaya bilmirəm. Onun anası və carçıları dedi ki, əlan ki o kəllə sənin ixtiyarındadır, eyləyə bilərsən, onu aradan aparasan, xəyalını da rahat eyləsin. Məhəmməd haradan biləcək? O qədər dedilər-dedilər ki, onu razı elədilər. Məhəmmədin arvadı kəlləni gətirdi. Onlar kəlləni təndirdə yandırdılar və sonra getdilər. Sizə deyim, Məhəmməddən. Məhəmməd ki şikardan gəlirdi evlərinin yaxınlığında kəllənin yanıq iysi onun burnuna gəldi və ona da yəqin oldu ki, kəlləni yandırdılar. Və oradan qayıtdı getdi və daha evə gəlmədi. Əmma Məhəmmədin xanımı onun intizarında idi. Onun gec gəlməsindən nigaran idi və öz içərisində darıxırdı. Əmma daha faydası yox idi. O daha Məhəmmədi görə bilməzdi. Məhəmmədin xanımı sübhədək müntəzir oldu, əmma Məhəmməd gəlmədi. Getdi bacılarının və anasının yanına və cərəyanı dedi. Onlar dedi:

– Lap yaxşı oldu. Əsla o sənin şanında deyildi. Allaha şükür ki, onun əlindən xilas oldun.

Əmma Məhəmmədin arvadının aram-qərarı yox idi. Yeksərə ağlayırdı və əsəbani şəkildə anasının evindən çıxdı, gəldi və dedi ki, bu oyunu siz mənim başıma gətirdiz. Məhəmməd gedibsə, mən də gərək gedəm. Əmma qızın anası nə qədər dedisə, faydası olmadı. Əmma qız öz təsmimini tutmuşdu. Məhəmmədin xanımı o günün sabahı yola düşdü. Məhəmmədin ardınca ordan-burdan soruşdu və onun sorağını tutdu. Əmma faydası yox idi. Biçarə Məhəmmədin arvadı çox naümid nəhayət bir neçə ildən sonra bir alahı məmləkətə getdi ki, o məmləkətdə divlər yaşayırdı. Əmma Məhəmmədin arvadı çox risk eyləmişdi. Çünki bir kəs eyləyə bilməzdi, hətta onların yaxınlıqlarına getsin. Əmma ordan ki, Məhəmməd sehr bilirdi. Bildi ki, xanım ora gəlibdi

və onun ardıncadı. Onun dalınca gəldi və onu tapdı və ona dedi ki, sən niyə bura gəlmisən? Bura sənin yerin deyil. Əmma onun xanımı dedi:

– Harda sənin yerindi, mənim də yerim oradı.

Məhəmməd dedi:

– Mən bir div uşağıyam, mənim anam bir divdi. Mənə asib yetirməz. əmma səni görsə əsəbani olar, səni öldirər. Amma mənim atam insandı, o mövqedən ki, anam girinə düşüb, tabhal eyləyə bilməyib onun cəngindən xilas olsun.

Əmma Məhəmmədin xanımı deyir:

– Bəs nə iş görək?

O vaxt Məhəmməd deyir:

– Gəl mənimlə gedək. Şayəd bu gecə eyləyə billəm səni gizlədəm.

Məhəmmədin xanımı Məhəmmədlə gəldi evə. Əmma o vaxt Məhəmmədin anası eşigdən evə qayıtmamışdı. Məhəmmədin atası macəradan xəbərdar oldu və dedi:

– Sabah, əvvəl vaxt onu buradan apar, imkanı vardır ki, onu öldürə.

Əmma Məhəmmədin anası gecə gəldi evə və dedi:

– Məhəmməd, burda nə xəbər olubdu, ğəribə iysi gəlir.

Məhəmməd dedi:

– Anacan, burda ğəribənin nə işi vardı?

Anası dedi:

– Məhəmməd, mən bir divəm, sən mənim uşağımsan. Sən eyləyə bilməzsən ki, mənə kələk vurasan. Tez de görüm kimi burada gizlətmisən?

Məhəmməd gördü ki, anası bilib, xanımını gətirdi eşigə. O vaxt anası soruşdu ki, bu kimdi? Məhəmməd tamam macəranı açdı və dedi. Əmma Məhəmmədin anası padşahın qızını bir otaqda dustaq eylədi və Məhəmmədə də dedi:

– Bu, bundan sonra mənim əsirimdi.

O zaman Məhəmmədin atası hər nə qədər iltimas eylədi, qəbul eləmədi. Sabahlar ki, Məhəmmədin anası getdi eşigə. Məhəmməd otağın qapısını açdı və xanımını çıxardı eşigə, atası ilə

vidalaşdı, ayrıldı. Xanımını da götürdü, qaçdılar. Əmma o zaman ki, div gəldi, gördü, nə Məhəmməd vardı, nə də arvadı, qışqırdı ərinin başına və dedi, tez onların ardınca get. Harada olsalar qaytar gətir evə. Məhəmmədin atası onların ardınca yola düşdü. Məhəmməd gördü ki, atası gəlir. Tez sehr və cadu oxudu, qızı saldı bir qoyun cildinə, özün də saldı çoban cildinə. O vaxt ki, Məhəmmədin atası yetişdi, soruşdu:

– Ay çoban, sən bir cavan oğlan və bir cavan arvad gördün, ya yox?

Çoban cavab verdi:

– Yox, əmi can.

Axı, Məhəmmədin atası biçarə bir insan idi, sehr və cadudan başı çıxmırdı. Elə ki, çavab aldı, qayıtdı, gəldi evə. Div soruşdu ki, Məhəmməd o arvad hanı? Dedi:

– Tapmadım.

Div dedi ki, onlar bu tezlikdə buradan uzaqlaşa bilməzlər.

Dedi:

– Sən yolda bir şey görmədinmi?

Məhəmmədin atası dedi:

– Niyə yolda bir çoban və bir qoyun gördüm.

Onda div qışqırdı Məhəmmədin atasının başına və dedi:

– Kül sənin başına, o qoyun Məhəmmədin arvadı imiş və çoban da özü. Tez onların ardınca get, qaytar, gətir.

Məhəmmədin atası biçarə qorxusundan durdu, yola düşdü, getdi-getdi. Məhəmməd gördü atası gəlir, özünü sehr və cadu elədi. Bir at cildinə və arvadını da bir kişi cildinə saldı ki, atın üstündə oturmuşdu və Məhəmməddən soruşdu ki, aya, sən bu yaxınlıqda bir çoban və bir qoyun gördün, ya yox? O atlı kişi cavab verdi ki, qoyun, ya çoban görmədim. Məhəmmədin atası biçarə kişi genə qayıtdı evə. Genə div soruşdu ki, bu dəfə nə gördün? Dedi:

– Bir at, bir kişi gördüm.

Onda div əsəbani oldu və qışqırdı kişinin üstünə və onu kötəklədi və otaqda dustaq elədi və dedi:

– Kül sənin başıva, o at və kişi sənin oğlun və gəlinindi.

Və bu dəfə özü onun ardınca yola düşdü. Bu dəfə özü onların ardınca yola düşdü. Bir dəfə Məhəmməd mürtəce oldu ki, anası bunların dalıyca gəlir. Məhəmməd tez arvadını bir üzərrik kolu elədi və özünü də bir əjdəha ki, üzərrik kolunun dövrəsində dolaşıb kökələndi. Əmma Məhəmmədin anası ki, yetişdi, bildi ki, bu Məhəmmədin işidi. Məhəmmədin anası hər tərəfdən ki, istirdi üzərrik koluna sidimə vursun. Əjdəha da onu qoruyurdu. Əlini uzadırdı ki, bir kol o üzzərikdən qoparsın. Gördü ki, əjdəha onu çalacaq, tez qayıdırdı. Vəqti ki, div onlardan uzaxlaşdı. Məhəmməd tez xanımını öz cildinə qaytardı və tez xanımının əlindən tutub qaçdılar. O məmləkətdən həmişəlik uzaqlaşdılar və gəldilər xanımının atası padşahın məmləkətinə yetişdilər və orada həmişəlik xoş və xuraman yaşayışlarına davam etdilər.

## MAL VERMƏYƏNLƏ MALINDAN KEÇMƏYƏN

Biri var idi, biri yox idi. Allahdan savayı heç kim yox idi. Bir nəfər mal vermiyən var idi, bir malından keçməyən. Bir dunya bu yul malından iki qıran əl borcu verərdi mal verməyən şəxsə. Sonra bunu ala bilməz. Hey gedər, gələr. Çox uzun müddət tul çəkər. O qədər gedib gələr ki, bu mal verməyən bezərmiş. Bir gün görər ki, malından keçməyin gəlir. Deyər:

– Ay arvad, budur, o göyçək oğlu gəlir. Ama qapını vursa, deynən ki, mal vermeyen səndən bir saat qabaq öldü.

Ama malından keçmeyen yetişər qapını çalar. Ev arvadı deyir malından keçmeyen qardaş, mal vermiyen səndən bir saat qabaq öldü. Malından keçməyən deyir:

– Allah rəhmət eləsin. Amma bacı, mən Allahdan istəmişdim ki, nə vaxt mal verməyən ölsə, onu mən öz xərcim ilə dəfnkəfn eləyəm.

Ya Allah deyir, keçir içəri. Kişinin meyitin alır çiyninə. Qədim zamanlarda ölü gecə ölsəydi, məscidin ab içərisinə qoyardılar. Aparır qoyur məscidə və gedir minbərin dalısında gizlənir. Ama bunu mal verməyən mutucə olur. Bunların hər ikisi də qalırlar məsciddə. Sizə deyim bir dəstə oğrudan ki, Allahı bir

vilayətdən bir çoxlu qızıl, cəvahirat kəsib gətirmişdilər. Bunlar bu yul deyirlər ki, heç kim şək eləməz. Gəlin aparaq məscidə orda bölək. Gedirlər məscidə. Birdən görürlər bir insan cənazəsi vardı. Ama birdən oğrulardan biri deyir:

– Mən özümə əhd etmişdim ki, bir cənazəni doğram-doğram edəm. Allah bunu mənə yetirib çoxda xoş halam, siz qızıl-cəvahirat qismət eləyən, mən də bunun tərtibin verəm.

Amma mal verməyən görür ki, qədyə lap doğruldu. O şəmşir çəkəndə, birdən mal verməyən qəfildən qalxır ayağa deyir:

– Rəhmətliyin uşaqları, lap özlərini sarıyıplar, diriləri kəsib talayıblar, indi də ölüyə rəhm etmirlər. Bu nə oyundu, nə şəbədi?

O, bu sözləri deyəndə, oğrular qoyub qaçarlar ki, ay ədə, ölü xortlayıb, bizi yeyəcəkdi qaçın. Malı, sərvəti qoyub qaçırlar. Amma o tərəfdən malından keçməyən minbərin dalısından çıxır. Mal verməyən və malından keçməyən görürlər ki, çoxlu qızıl, cəvahirat vardı. Mal vermiyən deyir:

– Gəl indi bölüşək.

Malından keçməyən deyir ki, əvvəl bundan mənim o iki qıranımı ver, sonrası mən qəbul eləmərəm. Az-çox çəkiş-bərkişdən sonra sizə deyim oğrulardan. Az gedirlər çox gedirlər, dayanırlar. Birisi deyir:

– Ay bala, bu nə balaydı gəldi başımıza? Mən ömrümdə bir belə mal kəsməmişdim.

Biri deyir ki, qoyun mən gedim hal-qəzyə nətərdi. Gəlir məscidin pəncərəsinin dibində əgilip pusar. Eşidər ki, deyirlər ki, mənim iki qıranımı ver sonra. O hal qəziyədə oğrunun papağını mal vermiyən görürkən qəfildən əl atar, oğrunun papağını götürər, verər malından keçməyənə və deyər:

– Gəl, bu sənin iki qıranın.

Amma o vaxt oğru gənə qorxusundan qoyar qaçar. Gedər yetişər yoldaşlarına. Soruşarlar ki, ay adə, bəs nə oldu? Deyər, ayə, qaçın. Dünyada nə qədər ölü vardı yığışıb məscidə. Bir o qədər qızıl-cəvahiratı iki qıran-iki qıran bölüşürlər. Birinə də yetişməmişdi mənim papağımı götürdülər. Tu dabana qoyub qaçarlar. Onlar da bölüşərlər, gedərlər.

## ŞİKARÇI VƏ ZƏRGƏR

Qədim zamanlarda bir nəfər ürüşdə bir quyu qazar. Tələ qurar ki, heyvanat tutsun. Onların ətin və dərisin bazarda satsın, ailəsinin xərcini versin. Vurar bir dənə meymun, bir dənə şir, bir dənə ilan bir, dənə zərgər düşər quyuya. Qəzadan aradan bir nəfər şikarçı keçirmiş. Eşidər ki, bir nəfər ad imda düşüb, dad və bidad eylər. Kürəyində bir ipi vardı. Sallar quyuya ki, o adamı çəksin quyudan eşikə. Amma görər ki, şir yapışıb ipdən gəldi eşigə. Təzədən ipi, sallar quyuya. Dübarə görər meymun gəldi eşigə və gənə dübarə sallar ipi görər bir ilan gəldi eşigə. Sonrakı istər ipi sallasın quyuya. O adamı da çıxartsın. Bu şir, meymun və ilan gələrlər qabağa deyərlər:

– Ağa, xahiş edirik, sən bu adamı quyudan çıxartma.

Bu adam çox xayin və mərdimazardı. Pis niyyətli bir bəşərdi. Bu şikarçı qəbul eləməz ki, mən bu adamdan ötrü ip salladım ki, onu eşigə çəkim. Siz gəldiz eşigə. Heyvanlar daha bir söz deməzlər. Dayanarlar, baxarlar. Amma şikarçı ipi sallar zərgəri eşigə çəkər. Zərgər quyunun eşiginə çıxandan sonra salam-kəlamsız başını sallar aşağa qoyar, çıxar gedər. Amma sizə deyim heyvanlardan. Şir deyir:

– Ay yaxçı adam, mən o dağda oluram. Əlimdən gələni sənə xidmət eliyəcəm.

Meymun deyir:

– Mən də o meşədə yaşayıram. Sənə meyvə fəsli cəngəldə yaxçı, təzə meyvələr gətirəcəyəm.

İlanda deyir:

– Ay yaxçı adam, mənim də şəhərin filan küçəsində, filan divarda yuvam vardı. əlimdən gələn xidməti muzəygə eləmərəm.

Heyvanlar təşəkkürünü bildirib gedərlər. Sizə kimdən deyim, o kişidən. Kişi dolanırdı, görər şəhərin hökmdarının qızı bir neçə qız ilə dolanır. Gedər onu tutar boyundan qızıl gərdənini açar, gedər aparar verər o şikarçıya. Meymun da bir gün cəngəldə bir sələ toxuyar, içini doldurar təzə xoşməzə meyvələrlə, gətirər verər şikarçıya. Qəzadan bir gün bu şikarçıya yola niyazi olar. Bu gərdəni götürər, aparar şəhərə o zərgərin yanına. Deyər:

– Zərgər qardaş, bugərdənbədi götür, mənə pul ver, ehtiyacımdır.

Zərgər xəbis deyər:

– Alan pulum azdır, bir azın verim, bir miqdarında sonra verərəm.

Şikarçı qəbul edər, gedər evinə, bu zərgər o vaxt gərdərbəni götürər, gedər hökmdarın qəsrinə deyər:

– Qariban gərdənbərin oğrusunu tapmışam.

Hökmdar əmr eylər şikarçını məmurlar tutub gətirərlər. Hökmdar əmr eylər ki, aparın meydanda dara çəkin şikarçını. Onlar gəlib ilan olan küçədən keçəndə ilan şikarçıya deyər:

– Mən gedirəm hökmdarın oğlunu çalam. Onun davası bu iki yarpaqda. Sən meydanda deynən ki, məni öldürməyin, hökmdarın oğlunu sağaldım.

O vaxt ki, meydana yetişdilər, hay düşər ki, hökmdarın oğlunu ilan vurdu. Ölüm halındadır. O zaman şikarçı deyər:

– Ay qazi, məni öldürməyin. Mən hökmdarın oğlunu yaxçı eyliyərəm. əgər yaxçı eyləyə bilməsəm, o mövqe məni öldürün.

Hökmdara bu sözü məmurlar yetirərlər. Hökmdar əmr eyləyər ki, o şikarçını gətirin. Şikarçı gedər, yarpaqları gətirər. Onun suyun çıxardar, sonra vurar ilanın dişlərinin yerinə, oğlan sağalar. Hökmdar şikarçını çağırıb soruşar ki, sən nə cürət elədin ki, mənim qızımın gərdənbədin oğurladın. Şikarçı başına gələn qəza-qədəri açar hökmdara söhbət edər ki, sənin qızının gərdənbədinin oğrusu mən deyiləm, onu zərgər mənə gətiribdi. O vaxt hökmdar əmr eləyər zərgəri gətirib məhkəməyə. Soruşarlar və o da deyər və sonradan bunun pis əməlinə görə onu hökmdar dara çəkər.

## BÜRK GÖTÜRƏNİN NAĞILI

Günlərin bir günündə, bir böyük məmləkətin bir böyük vilayətində, bir şəhərdə bir pulçu hakim yaşayırdı. O şəhərin idarə etmə işlərini bütün öz yaxınlarına tapşırmışdı. Bir gün qohumlarının biri əslən məhkəmə işlərindən heç zad bacarmaz idi. O şəhərə qazi seçir. Qazi də o cürəsinə bütün qohum-əqrəbalarından özünə mavin və mavin də özünə məmur xidmə və sərbaz götü-

rür. Şəhəri alırlar öz əllərinə və o vilayəti çapırlar və əziyyətlər verirlər. Bir gün o şəhərə bir naqulay bürgbaz gəlir. Çox palitikaçı idi. Qazi ilə dost olur və onun müavini və bütün qohum-əqrəbaları ilə dostlaşır ki, bir kələk ilə bunların pullarını qızıl və cəvahiratlarını yavaş-yavaş çəkir. Bir gün qazi və onun yaxınları başa düşərlər ki, hər nə qədər camahatdan çapıblarsa pultukçu dostları bunlardan alıbdı. Heç özləri də bilməyiblər və o zaman bir az müddət idi ki, bu bürkbaz işığa çıxmırdı. Qazi piyam yolladı ki, istəkli tanış, gəl bir səni görək. Bir müddət tul çəkir. Axırda qazi əsəbani olur. Müavini və bir də Allahı qahimini götürür, gedirlər bu bürkqapanın qapısına. Yetişəndə görürlər ki, onun qapısına qara parçamlar vurublar. Soruşarlar ki, burada nə xəbər var? Deyirlər ki, dostiz olubdur. Bunlar deyirlər, bəs haradadır, deyirlər ki, qara qəbiristanlıqda basdırılıb. Ama bunuda deyim ki, o, ölməmiş imiş. Hamısı kələk imiş. Onu belə basdırıblar ki, iz itirsinlər. Bürkbaz qəbirdən öznə bir baca qoydurmuş. Sizə kimdən deyim, qazidən və onun müavinindən və qohumundan. Bunlar deyirlər ki, biz gərək gedək qəbir üstə və qəbiri görək. Bunları aparıb qəbiristanlıqda o qəbiri görsədirlər. Orada qazi o yaxın adamına deyir:

– Başıvı o bacadan sal görək düzdü, ya yox?

Qahım başını salır ki, baxsın bürkqapan tez xəncərin çəkir, o kişinin burnun sivirir. Bu kişi tez qalxır burnun tutur deyir:

– Ah-ah, əcəb pis bir iyi gəlir.

Sonra müavin qulağını qoyur qəbirin bacasına ki, eşidsin ki, nə xəbərdi. Gənə bürk qapan kişi xəncərin çəkir müavinin qulağını dibdən sıyırır. Müavin durur ayağa, əlin qoyur qulaqının üstünə deyir:

– Burada nə görərlər saz-qaval səsi gəlir. Adamın lap qulağını partladır.

O zaman qazi əsbani olur istir ki, bacadan girsin, sallansın qəbirin içinə. O vaxtı ki, bir az girir qəbirə, bürkbaz kişi tez xəncərin çəkib qazinin şeyini dibdən sıyırır. Qazi ağrıdan sancılanır, bədəni göynəyir. Eşigə qışqırır deyir, küçük oğlanları, bir yol deyin ki, elə qazinin sünnət toyudur və bu oyunlar mənə de...

## VAXSEY NAĞILI

Biri var idi, biri yox idi, Allahdan sonra heç kim yox idi. Bir kişinin üç qızı var idi. Günlərin bir günü kişi istirdi şəhərə getsin. Uşaqlarına üz tutub dedi:

– Balalarım, nə istəyirsiz sizlərə alım?

Qızların biri dedi:

– Mənə qazaq al.

Biri də dedi:

– Mənə daraq al.

Biri də "mənə sırqa al" dedi. Kişi şəhərə gedib və vəsaili-ni aldı. Qayıdanda yolda yadına düşür ki, sırqa almayıb. Deyir, "vaxsey", sırqalar yadımdan çıxdı, bu söz ağzından çıxan kimi böyük bir qaya aralanır. Bir nəfər çıxır deyir:

– Məndən nə istiyirsən?

Kişi deyir:

– Mən heç səni tanımıram.

– Bəs elə isə məni niyə çağırdın?

– Vaxsey, mən səni heç tanımıram ki, çağıram.

Zahir olan kişi dedi:

– Bax əlanda mən çağırdın. De görüm, hardan gəlib hara gedirsən?

Dedi:

– Getmişdim şəhərə ayın-oyun alım. Qızlarım da tapşır-mışdılar. Ancaq birinə sırqa almağı unutmuşam. Bura yetişən-də yadıma düşdü. Sırqa almamışam. Birdən dedim vaxsey ki, sən üzə çıxdın.

Vaxsey dedi:

– Yaxşı, mən sənin qızın üçün bir cüt sırqa verərəm. Sən də onun yerinə qızını verərsən.

Kişi fikirləşdi ki, mən bir sırqaya qızımı verəcəyəm? Öz-özünə fikirləşdi ki, bu hardan gəlib məni tapacaq.

Eybi yox, qızı verərəm dedi, get bir cüt sırğanı gətir. Vaxsey dedi:

– Arxava baxma.

Qeyb olub, təzədən zahir oldu. Kişi sırğanı aldı. Vaxsey də dedi:

– Yeddi gündən sonra elçiliyə gələcəm.

Əcəm kişi "inşallah", deyib getdi. Evinə çatanda başına gələn qəz-qədəri tərif elədi. Qızlara aldıqlarını verdi. O biri qızın sırqasını verəndə dedi:

– Qızım, yeddi gündən sonra Vaxseyə söz vermişəm, elçiliyə gələcək.

Arvad dedi:

– Ay kişi, sən ağlını əlindən vermisən. Adam bir sırqaya qızını verər?

Kişi dedi:

– Ay arvad, narahat olma, o hardan gəlib bizim evimizi tapacaq? Mən də elə-belə deyirəm.

Yeddi gündən sonra qapı çalındı. Kişi qapını açanda birdən gördü, Vaxsey bir neçə nəfər qəriynən durub qapıda. "Buyur" deməkdən ayrı bir yolu, alacağı yox idi. Xoş-beşdən sonra qonaqlar söz açıb dedilər ki, biz yeddi gündən sonra gəlib qızı aparacağıq. Üç dənə də badam başlıq verdilər. Arvadı dedi:

– Kişi, bax gör başımıza nələr açıbsan.

Kişi də dedi:

– Ay arvad, narahat olma, bir fikir çəkərik. Hələlik gətir badamları sındıraq.

Badamları sındıranda birindən bir cüt başmaq çıxdı. Başmaq da nə başmaq. Qıza yaraşan bir başmaq. O birisini sındıranda gördülər içindən bir gəlin paltarı çıxdı. Elə bil bu paltarı ancaq bu qıza tikmişdilər. Üçüncüsüdən on tümən pul çıxdı. Arvadı da dedi, bu qızın başlığı. Yeddi gündən sonra neçə nəfər faytonla gəldilər qızı aparmağa. Qızı geyindirib bəzəyib hazırladılar. Qız hamıyla xudahafizləşib, yola düşdü. Heç kəs də heç bir etiraz eləmədi. Gəlib-gəlib qayaya çatdılar. Qaya aralandı, içəri girdilər. Bir müddət keçər. Bir gün arvadı deyir:

– Kişi, qızı verdik apardılar. Bə heç bir xəbərimiz də yoxdu, qızın başına nə gəlib. Ölüb, qalıb get bir soraqlaş.

Kişi görür arvad da haqlıdır. Deyir, olsun gedərəm. Bir gün yola düşür gəlir həmin qayanın yaxınlığında durur. "Vaxsey" – deyə səslir. Vaxsey zahir olur. Deyir:

– Nə istəyirsən, kişi?

Kişi deyir:

– Gəlmişəm qızımı görəm.

Vaxsey deyir, heç bir maneə yoxdu. Qaya açılır, kişi içəri girir baxar görər, qız bir bağda oturmuş. Bu bağda hər cür meyvələr var. Ağacların sayı-hesabı yoxdur. Böyük bir alma ağacının dövrəsində şor-şoranın ətəyində bir çay axır. Bu ağacdan hərdən bir dənə alma çaya düşür, su aparır. Kişi qızına yaxınlaşır görüşür, hal-əhval eliyir. Bir az keçəndən sora deyir:

– Qızım, bəs sənin ərin hanı?

Qız deyir:

– Dədə, mən heç ərimi görməmişəm.

Kişi fikrə gedir. Heç nə demir. Evinə doğru yola düşmək istəyir. Qız da sudan dədəsinə dörd dənə alma tutur verir və deyir ki, adama bir dənədən artıq olmaz. Kişi xudafizləşib evinə gəlir. Arvad soruşur:

– Kişi, de görək, qızı gördün, görmədin? De görək, güzəranı necədir?

Kişi də deyir, kefi saz, damağı çağ. Hər şeyi var. Kişi gördüklərini birbəbir danışır. Qızlar deyirlər, onda bizi də apar görək. Arvad deyir, kişi, uşaqlar düz deyir. Bir gün biz də gedək görək. Bəlkə də elə sabah gedək. Kişi deyir, yox heç olmasa bir müddət keçsin sora gedərik. Uzun sözün qısası, bu məsələdən bir neçə ay keçir. Kişi də arvad-uşaqların əlindən bir gün təngə gəlib deyir, yaxşı, sabah səhər tezdən yola düşüb gedərik. Günortaya yaxın qayaya çatdılar. Kişi "Vaxsey" deyib səsləndi. Vaxsey zahir oldu. Kişi dedi, uşaqlar bacılarına, ana da qızına ürəyi darıxır. İcazə ver gedək görək. Vaxsey deyir, eybi yox. Qaya aralanar, onlar içəri girirlər. Dünyada görmədiklərini orda görürlər. Dünyada yemədiklərini orda yeyirlər. Bir az keçir, balaca qızdan soruşur:

– Bəs ərin hanı?

O deyir:

– Mən heç görməmişəm, bilmirəm.

– Necə görməmisən? Necə bilmirsən?

– Vallah, axşamlar bir armut yeyib yatıram. Heç nədən xəbərim olmur.

Balaca qız deyir yaxşı, biz gedəndən sonra sən o armudu yemə, gizlət. Gör nə görərsən. Qız da fikrə gedir. O da düşünür ki, mütləq bu işi görsün. Dədə-nənəsi, bir də bacılar gedəndən sonra axşam olur. Armudu gətirirlər, qız armudu yastığının altında gizlədir və özünü yuxuya vurur. Görür bir oğlan gəldi. Oğlan nə oğlan, adam deyir ki, göz baxıb tamaşa eyləyim. Amma gördü oğlanın boynundan açarlar asılıb. Qız bir az gözlədi. Oğlan yuxuya getdi. Qız da açarları götürüf qapıları açа-açа getdi. Görür hər otaqda bir kişi bir işnən məşğuldu. Axırıncı otaqda bir cavan oğlan və bir arvad var. Arvad durub onun başı üstündə. Oğlana deyir: "Məni alarsan?"

Oğlan deyir, "yox". "Yox" deyəndə arvad qaynar suyu tökür oğlanın başına, oğlan ölür. Təzədən o qarı oğlanı dirildir. Bir də deyir "məni alarsan"? Genə "yox" deyəndə suyu tökür, öldürür.

Qız təzədən qapıları bağlayıb ərinin yanına qayıdır. Hər nə eyləyirsə, açarları boynuna sala bilmir. Qız otaqdan çıxıb alma ağacının altında oturuf zar-zar ağlayır. Üç göyərçin gəlib ağacın budağında oturur. Göyərçinlərdən biri deyir:

– Ağlama, biz sənə kömək eylərik. Üç dənə buğda gətirib sənə verərik. Birini yeyərsən, birini suya salarsan, birini də un eləyib tozunu açarlara səpərsən.

Qız həmin işi gördü. Ancaq fayda vermədi. Oğlanın hər şeydən xəbər oldu. Vaxseyi çağırtdırdı, dedi:

– Bu qız bizim sirrimizdən xəbərdar olub. Bunu götür dədəsinin evinə apar.

Vaxsey dedi:

– Axı, qurban, bunun əyağı ağırdı, bu gün-sabah doğacaq.

Vaxsey qızı saraydan çıxardıb, amma dədəsigilə aparmadı. O yaxınlarda bir qarıya apardı. Dedi:

– Bu qız doğana qədər burda qalsın.

Bir də tapşırdı kimsənin bu məsələdən xəbəri olmasın və kimsəyə söz eyləməsin. Qarı qəbul elədi. Ancaq qarı hər gün səhər evdən gedib bir daşın üstündə durub axşama qədər ağlardı, axşamlar evinə qayıdardı. Bir gün qız dedi:

– Ay qarı nənə, niyə bu qədər ağlayırsan?

Qarı ürəyini açdı dedi:

– Dar dünyada bir dənə oğlum var. Günlərin bir günü bu qarşı dağlara getdi. Bir daha geri dönmədi. İndi mən hər gün səhər tezdən bu yolun ayrımında olan qayanın üstündə oturub yolunu gözdəyirəm.

Qız dedi:

– Qarı nənə, qəm yemə. Mən sənin oğlunun yerini bilirəm. O sarayda bir arvadın tilsimindədir. Əyər mənə saraya dönməyimə kömək etsən, onda sənin oğlunu azad edərəm.

Bir müddət keçəndən sonra qızın səfərisi olur. Bir oğlan dünyaya gəlir. Vaxsey də uşağı aparmağa gələndə qız yalvarır ki, onuda götürsün. Qarı nənə və qız saraya gedirlər. O, əri ilə barışır. Yeddi gün, yeddi gecə şadlıq olur. Arvadına deyir, nə arzu edərsən, de sənə eləyim. Qız qarı nənəyə baxır. Ərindən onun oğlunun tilsimdən azad olmağını istəyir. Beləliklə, hər şey xoşluqla qurtarır.

## HADI İLƏ HUDU

Hadı idi, Hudu idi, bir də məndim,
Getdik şikara.
Bir dənə şikar vurduq,
Dedim: – Hadı, bıçağın var?
Dedi – Yox.
Dedim: – Böyrüvə vurdum ox.
Dedim: – Hudu, bıçağın var?
Dedi: – Yox.
Dedim: Böyrüvə vurdum ox.
Əlimi saldım cibimə,
Gördüm bir bıçaq var.

Sapı var, tiyəsi yox,
Sapilən başın kəsdim.
Üç-dörd dağ aşandan sonra,
Dedim: – Bunu harda yuyum?
Gördüm üç arx var,
İkisi quru,
Birinin də suyu yox.
Suyu yoxda şikarın başın yudum.
Dedim: – Bunu harda bişirək?
Getdim gördüm üç dənə xaraba var,
İkisi uçuq,
Birinin də damı yox.
Damı yoxda gördüm üç nəfər adam,
İkisi ölü,
Birinin də canı yox.
Dedim: – Ey canı yox qardaş, bardağın var?
Dedi: – Üç bardağım var,
İkisi sınıqdır,
Birinin də dibi yox.
Dibi yoxda şikarı bişirdim,
Sümügü bişdi, əti yox,
Şikarı yeyəndən sonra,
Hamımız yağlı əlimizi yağlı başmağa,
Yavan əlimizi yavan başmağa çəkdik.
Yağlı başmaqlar yavan başmaqları
Qabaqlarına qatdı qovdu.
Savalana çıxdım görmədim,
Girdaga çıxdım görmədim,
Yaxamda bir dənə iynə vardı,
Sancdım yerə, çıxdım üstünə,
Gördüm cütçünün yanında gedirlər.
Dedim: – Ey cütçü qardas, başmaqların qabağını saxla.
Cütçü qardaş başmaqların qabağını saxladı,
Gördüm cütçü qardaşın gözü başmaqlarımdadır.
Dedi: – Başmaqları mənə sat!

Dedim: – Neçəyə?
Dedi: – Bir darıya, bir də darının yarısına.
Bu darını, darı parasını xarala,
Çuvala atdım tutmadı.
Yaxamda bir birə tapdım.
Başın üzdüm,
Doldurdum dərisinə.
Uzaqda bir yekə zəmi gördüm,
Biçinçiləri çağırdım.
Getdik,
Biçdik,
Qaladuq xirmənə.
Hamısı çatdı mənə.
Göydən üç alma düsdü,
Biri nağıl deyənin,
Biri də özümün,
Qabığıyla dənəsi
Nağılı eşidənin.

* * *

Hamam-hamam içində,
Xəlbir saman içində,
Dəvə dəlləklik edər,
Köhnə hamam içində.

Qarışqa şıllaq atdı,
Dəvənin qıçı sındı,
Gəldik dəvənin başın kəsək,
Hadı, bıçaq,
Hudu, bıçaq,
Dedilər, bizdə bıçaq yoxdur.
Dedim bizdə biri var,
Tiyəsi yox, sapı var,
Onnan dəvənin başın kəsdim,
Ətini doğradım,
Dərisinin üstündən

Tələdik,
Gəldik bunu bişirək,
Hadı, qazan,
Hudu, qazan,
Dedi, yoxdu qazan,
Dedim,
Bizdə bir qazan var,
Altı yoxdur, qırağı var.

Gətirdi ocağ asdıq bişirdik. Əti getdi, suyu qaldı. Suyunu yedik, əlimiz yağlı oldu. Sildik başmağın ücünə. Başmaq acığ elədi getdi Mərəd düzünə. Durdux Hadi, Hudu. Mən getdim başmağı gətirəm. Gördük başmaq oturub qəfəsdə. Dedik: atan yaxşı, anan yaxşı, başmaq gəl, gedək. Başmaq dedi, mən əkinçilik edirəm darı əkmişəm. Bizdə oturaq, olduq qaldıq. Bir gün qəfəsdə oturmuşduq, gəlif dedilər darıları yetişib. Durduq getdik gördük darı tutub, nə tutub. Zəmi doludur.

Hadı dedi, mən gəla (oraq),
Hudu, mən gəla,
Dedilər, yoxumuzdu,
Dedim bizim evdə,
Kuflanın altında,
Bir məngəla var,
Tiyəsi yox, sapı var,
Qaçıb getdi,
Darını biçdik.
Cələ qurduq

Yorğun oturmuşduq qəfəsdə. Gəlib dedilər donuz daraşıb cələni yeyir. Getdik gördük donuz daraşıb darıya.

Hadı, vur
Mənim işim deyil,
Hudu, vur,
Mənim işim deyil,
Əlimi atdım cibimə,
Bir bıçaq daşı,
Gəldi əlimə,

Vurdum donuzun dişinə.
Od qopdu,
Cələ odlandı,
Söndürdük,
Qalanlarını döydük,
Yığdıq təl
Eylədik,
Çuval gətirdik
Tutmadı,
Xaral gətirdik
Tutmadı
Mişov gətirdik
Tutmadı,
Dedim, bur cür olma,
Oturub
Bir fikir çəkdik,
Mənim bir
Kürküm var idi,
Onu sərdik yerə,
Gün vurdu
Bir birə çixdı eşiyə,
Birəni öldürdük
Darını yığdıq,
Birənin dərisinə,
At gətdik,
Beli sındı,
Qatır gətdik,
Beli sındı,
Kəl gətdik,
Beli sındı
Yenə biz
Asılı qaldıq.
Dedim,
Qoyun bir
fikir qılım,

Əlimi vurdum
Alnıma,
Fikrə daldım,
Kəmənd götürün,
Gedək
Yolun qırağına.
İndi atlıqarışqalar çıxar.

Kəməndi atdıq birini tutduq. Darını yüklədik ona. Mərənd yoxuşuna yetişəndə gün vurdu, birənin qabığı çatdadı. Darı töküldü yerə. Başladıq yığmağa. Gördük yığmağnan qurtarmaz. Getdik Mərəndə, bir qarının bir ağ toyuğu var idi. Onu gətirdik darını yığdı. Hadı dedi, mən atlı qarışqanı minəcəyəm. Hudu dedi, mən də minəcəyəm. Sıraynan mindik gəldik Horlan düzünə. Çıxdıq xərmənə. Küləşləri devirdik. İçindən bir palan çıxdı. Palanı sökdük. İçindən bir qulan çıxdı. Qulanın içindən bir kağız çıxdı. Kağızı oxuduq-oxuduq bu sözlərin hamısı yalan çıxdı.

## LƏTİFƏLƏR

### BİRİ ÖLMƏSƏ, BİRİ DİRİLMƏYƏCƏK

Günlərin bir günündə bir qoca kişi qızlarının dolanışığına baş vurmaq üçün dəsmalın bağlayb yola düşdü. Əzəl böyük qızın evinə gedib xoş-beşdən sonra keçinəcəklərindən soruşdu, qız dedi:

– Ata, yaşayşımız pis deyil, ancaq yaxşı yağış yağsa, əkinimiz dənli və bol olacaq, yağmasa, işimiz çətindir.

Ata: "yağış yağar, əkininiz də dənli olar, inşallah" – deyə sağollaşıb, kiçik qızın evinə yollandı. Yenə bir az danışıqdan sonra onların yaşayış əhvalatından soruşdu.

Kiçik qız dedi:

– Şükür olsun, pis deyil, çoxlu kuzə düzəltməyə başlamışıq, yağış yağmasa, yaxşı olacaq. Hərgah yağış yağsa, var-yoxumuz əldən gedəcək.

Qocakişi fikrə gedib astaca: "Yağmaz, inşallah" – deyib, evlərinə qayıtdı. Arvadı soruşdu:

– Kişi, nə var, nə yox? Qızlar necə dolanır?

Qoca dedi:

– Hələlik keçinirlər, ancaq biri ölməsə, biri dirilməyəcək .

### YAĞA DA, YAĞMAYA DA ELƏ QARAGÜNLÜ BİZİK

Bir ər-arvadın gözlərinin ağı-qarası iki qızları var imiş, onları ərə verib hərəsin bir vilayətə köçürtmüşdülər. Bir gün arvadın istəyi ilə kişi qızlarına baş çəkmək üçün qızları olan vilayətlərə getdi. Öncə böyük qızı olan vilayətə gedib onun əhvalatından soruşdu, qızı dedi:

– Atacan, hər nə mal-dövlətimiz var idi satıb küp-kuzə düzəltmişik. Əgər bu il hava yaxşı belə günəş olsa, yağmasa yaxşı olar. Küp-kuzələri götürüb satarıq, yaxşı olar.

Kişi neçə gün qızı evində qalıb başqa vilayətə kiçik qızına baş çəkmək üçün getdi. Kiçik qızı evində qonaq qalıb, onun əhvalatından soruşdu. Qızı dedi:

– Atacan, hər nə mal-dövlətimiz var idi, əkinə yatırmışıq, əgər bu il yaxşı yağsa, bizə yaxşı olar, yaxşı hasil götürüb, yaxşı sərmayə ələ salarıq.

Kişi neçə gün qonaq qalıb, öz evlərinə gəldi. Arvad qızlarının əhvalatını soruşdu. Kişi dedi:

– Arvad, yağa da, yağmaya da, elə qaragünlü bizik!

## YOXSA BUĞDANIN YARISI GETMİŞDİ

Bir gün bir kəndli on batmanlıq buğda tayını şəhərə aparmaq üçün ulağa çatırdı. O, yükün ağırlığı bir tərəfə düşməsin deyə, on batman torpağı boş bir təlisə doldurub, ulağın digər tərəfinə çatıb yola düşdü. Yolda bir kişiyə rast gəldi. Səlamlaşdıqdan sonra o kişi soruşdu:

– Ulağına nə yükü çatıbsan?

– Bir tayı buğdadır, bir tayı da torpaq. Çatmışam ki, ağırlıq bir tərəfə düşməsin.

Kişi gülərək dedi:

– Çox fikirsiz imişsən. Buğdanı bölüb, hər tərəfə beş batman çatsan, ulağın yükü ağır olmaz, özün də inciməzsən.

Kəndli o kişinin ağlına “sağ ol” deyib, teztorpağı boşaltdı, buğdanın yarısını ona doldurdu, sonra o kişidən soruşdu:

– Sən çox ağıllısan, gərək varlı adam olasan. Söylə görək, neçə kəndin, dəyirmanın, qoyun-quzun vardır?

Kişi dedi:

– Heç zad yoxumdur, belə nahar da yemədiyimə inanırsanmı?

Kəndli dedi:

– Onda sənin ağlın nə işə gələr, mən bu ağılsızlığımda iki bağ, beş yüz qoyun, iyirmi inəyim var. Dəyirmanın da yarısı mənimdir.

Kişi dedi:

– Ağıl ki, insana çörək gətirməz.

Kəndli dedi:

– Elə isə mən ağıllı olmaq istəmirəm.

Tələsik buğdanı bir taya doldurub, o birisinə torpaq yığaraq, kişiyə dedi:

– Tez gözümdən it! Özündən də, ağlından da zəhləm gedir.

Təsadüfən şəhərdə oğrular tayların birini oğurladılar, kəndli açıb gördü buğda yerindədir, torpağı aparıblar. Dedi:

– Allaha çox şükür, o ağıllı kişinin sözünə baxmadım, yoxsa buğdanın yarısı getmişdi!

## ELƏ BİL DARTILMAMIŞ DƏNİN VAR

Yeni üsul ilə idarə olan məktəblər açılmadan əvvəl axundlar məktəbxanalarda uşaqlara dərs verərmişlər. Bir gün axund o biri günlərkimi, gözəl anasında gözü olan şagirdin birinə dedi:

– Anandan soruş gör, bu gün, hə?

Bu qəziyədən yorulub cana gələn ana, uşağa tapşırdı, sabah axunda deyərsən, anam dedi, bu gecə“hə”.

Arvad kişisinə tapşırdı, axşam evdə ol, qonağımız var. Sabah axşam axund məktəbdən çıxandan sonra geyinib, uşağın əlindən yapışıb evə gəldi. Taza kürsü ətrafında oturmuşdular. Evin kişisi gəldi, axundu görən kimi sevinc ilə dedi:

– Arvad, elə bil qonağımız var?

– Hə, bir az buğdamız var idi, gördüm sənin də işin çoxdur, çağırmışam buğda dartsın.

Beləliklə, dəyirman daşın qoydular ağanın ixtiyarında, yazıq ağa ovuc-ovuc buğdadan töküb daşı dolandırdı. Elə ki, qurtardı, “astaqaçan namərddir”, deyə əkildi. Sabah ana uşağa tapşırdı:“Axunddan soruş gör, hə?”

Axund uşağa dedi:

– Oğul, get soruş gör yenə dartılmamış dəniniz var?

## YER YALANI DANIŞ, GÖY YALANI YOX

Bir kişi ilə bir dərviş yol yoldaşı oldular. Dərviş yalan sözlərlə xəlqi aldatmağa öyrənmişdi. O öz yoldaşından, getdikləri yerlərdə onun yalanını çıxartmaqdan qorxurdu. Ona görə də yoldaşını yavaş-yavaş bişirmək istəyirdi:

– Yeri gəldikdə, insan bəzi yalan sözləri də öz sözlərinə qatqı verməli olur. Hazır ol, mənim yalanlarıma heç yerdə etiraz etmə.

Onlar bir az gedəndən sonra bir kəndə yetişdilər. Kənd əhalisi onların başına toplandı. Dərviş oyandan-buyandan bir sözlər tapıb danışmağa başladı:

– Biz yolda gələndə göydə bir it gördük, ulayıb-sızlayırdı, inanmırsız, bu kişidən soruşun.

Onlar təəccüblənib dərvişin yoldaşından soruşdular:

– Doğrudanmı, göydə it ulayırdı?

O, başını aşağa salıb:"Yox, mən belə şey görmədim", – dedi.

Dərviş qızarıb-bozardı, daha bir söz deyə bilmədi. Onlar kənddən çıxıb uzaqlaşandan sonra dərviş dedi:

– Səninlə danışmadıq ki, mənim yalanımı çıxartmayasan?

Kişi cavab verdi:

– Danışdıq, amma dedim, yer yalanı danış, göy yalanı yox.

*(Şancan variantı)*

İki yalançı hərəsinin bir yalanyozanı varıydı, bir-birilə yalanlaşırdılar. Biri hər nə deyirdi, onun yozanı o yalana bir yol tapıb yozurdu. Yalançıların biri dedi:

– Biz indicə yolda gəlirdik, göydə bir tula səsi eşitdik.

O biri yalançı qəbul etməyib etiraza uğradı. Yalançının yalanyozanı dedi:

– Niyə, bu olan işdi, mümkündür bir qəcil bir tulanı göyə apara və tula da orada səslənə və bu eşidə.

Beləliklə, etirazı olan yalançı istər-istəməz bu yozanın sözünü qəbul etdi, bir-birindən ayrıldılar, bir azdan sonra yalanyozan yalançısına dedi:

– Qardaş, axı yalan da deyirsən, yer yalanı de da. Bəlkə bu söz mənim yadıma düşməyeydi, onda sən neylərdin?

## KİM-KİMƏDİ

Sərabda bir kişi "başmağıma pəncə saldırım", deyə pinəçi dükanına girdi. Pinəçi ayaqqabılar alıb, bir cüt pəncə salıb, müştəriyə verdi, müştəri neçə addım götürməmişdi ki, başı yerə gəl-

di. Qalxmaq istədi, yenə tazadan yerə dəydi. Başmağının altına diqqətlə baxanda, başı qızışdı, gözləri kəlləsinə çıxdı, ayaqqabıları əldə pinəçinin dükanına qayıdıb, uca səslə:

– Heç utanmadın, gön yerinə, qovun qabığı saldın?

Pinəçi saymaz, astaca dedi:

– Kişi, get keçin, kim-kimədir?!

Kişi bir az düşündü, gördü doğru deyir: "Kim-kimədi"

## GÖRÜNÜR, KİM SANCILANIR

Bir kişi qonaq getmişdi, ev sahibi yeməkdən doyub çəkilmişdi. Lakin qonaq hələ yeyirdi. Ev sahibi ki, narahat olmuşdu, dedi:

– Qonaq, bir az yavaş meyil elə, sancılanarsan.

– Sən sancılanmasan, mən sancılanmaram!

Bu məsəl ilə bağlı belə bir rəvayət də var:

Bir gün bir bağ sahibi bağa girdi, gördü, neçə boynuyoğun oğru şaftalıları dərib hey yeyirlər. Bağ sahibi gördü gücü bunlara çatmaz, acizliklə dedi:

– Ay qardaş, çox şaftalı yemək adamı sancıladar.

Oğrular dedilər:

– Görünür, kim sancılanır!

## ELƏ BAŞIN QATMAMIŞAM Kİ...

Bir kişi Qərəcədə (Bədostan kəndlərindən) pişiyi torbaya salıb şiddətlə döyürdü. Dedilər:

– Vurma, qarğış edər.

Kişi deyir:

– Elə başın qatmamışam ki, qarğış yadına düşsün.

## YEKAN BƏYİ

Əli həmişə belində olan Yekan bəyi bir gün tualet quyusuna düşdü. Kənd əhalisi yığışdılar, bəyi quyudan çıxarsınlar, ipi quyuya salladılar:

– Bəy, ipdən yapış, yuxarı çəkək.

Bəy quyunun təkindən haray saldı:
– Görməyirsiniz, əlim belimdədir, ipi salın boynuma!

## NÖKƏRİN ƏBDÜLKƏRİM

Hava xoş olandakeçi dağın başına çıxar, otlamağa girişər. Otlamaqda olan qoyunun başına daş dığırladar. Qoyun soruşanda: “bu kimdir daş atır?” –keçi deyər:

–Ağan Əbdülkərim.

Elə ki hava nəmişlik oldu, keçi üşüyən olar, başın qoyunun qarını altında gizlədər, qoyun soruşanda: “kimdir?” – keçi cavab verər:

– Nökərin Əbdülkərim!

## SAQQAL ƏLƏ VERMƏMİŞƏM

Bir kişi arvadı ilə savaşırdı, arvad ki qüdrətli idi, kişinin başın qoltuğa basıbbərk-bərk sıxırdı. Bir yoldan keçən onların hay-küyün görüb dedi:

– Bu səs-səda nədir? Niyə savaşırsınız?

Kişi dedi:

– Qorxma, baş qoltuğa versəm dəsaqqal ələ verməmişəm!

## MƏN BU İŞƏ MAT QALMIŞAM

İki oğru görüşdülər ki, bir cütçünün öküzlərin oğurlasınlar. Onların biri zəmidən azca qıraqlıqda durub öz-özünə dedi: “Mən bu işə mat qalmışam, mən bu işə mat qalmışam”.

Cütçü onun dərdinə yetişmək üçün zəmidən uzaqlaşanda oğrunun yoldaşı öküzlərin birin açıb aradan çıxdı. Cütçü soruşdu:

– Ay qardaş, nəyə mat qalıbsan?

Oğru dedi:

– Sənə mat qalmışam ki, bir öküzlə necə cüt sürürsən?

Yazıq cütçu baxanda gördü, öküzlərin biri yoxdur. Qaçdı öküzü axtarsın, qayıtdı gördü o biri öküz də yox olub, o da başına döyüb deyirdi:

– Mən bu işə mat qalmışam.

## MÜFTƏ YEYƏN İŞLƏMƏZ

Dilənçi gecə bir kəndliyə qonaq oldu. Onun dağarcığında olan quru çörəyi alıb piyə qoydular. Sabah dilənçini yola salanda kəndli getdi onun torbasın gətirsin, gördü öküz torbanı yırtıb, quru çörəkləri yeyibdir. Oğlanların çağırıb dedi:

– Bu öküzü tez öldürün, müftə yeməyə öyrəndi, daha işləməz!

## PULUM YOXDUR, YERƏ GEDİRƏM

Bir yoxsulun evinin qabağında zəngin birkişi çox uca bina saldırdı, bu bina günəşin işığının yoxsul evinə yetişməyində maneə törədib, pərdə kimi quzeydə qalmış evin önündə sallandı. Yoxsul qanuna şikayət apardı. Gəlindi, qanun pulluya tərəf çıxıb dedi:

– Bir söz demək olmaz, pulu var, göyə gedir.

Yoxsul çox fikirləşəndən sonra düşündü ki, qazma götürüb bu binanı başdan sökmək olmaz. Odur ki, onun təməlinə bir yol açıb ona su bağladı. Çox çəkmədi hündür bina yerindən oynadı. Varlı kişi qanuna xəbər verdi. Yoxsulu tutub məhkəməyə çəkdilər, yoxsul dedi: "Pulum yoxdur, yerə gedirəm!"

## HARAM VAR, HARA GEDƏM?

İki yoldaş danışa-danışa gedirdilər. Onların biri qəflətən quyuya düşər. Yoldaşı ayılıb deyər:

– Heç yerə getmə, gedim ip gətirim!

Quyudakı deyər:

– Ay oğlan, haram var, hara gedəm?

## NƏ QƏLƏT VARSA, KUZƏDƏKİ YAĞDADIR

Keçmiş zamanlarda bir kəndli bir kağız imzalatmaq üçün kədxudaya müraciət edir. Kədxuda görür, kəndli əliboş gəlib, başından atır. Kəndli kədərli evə qayıdır. Fikirləşir, axır bir gözəl nəqəşə çəkir, bir kuzə alıb, başına bir az qalanadək palçıq ilə doldurur. Bir az onun üstünə yağ töküb, kuzənin ağzın bağlayır.

Sabah kədxudanın evinə yollanır, kədxuda küzəni görcək çox sevinir, "indicə imzalaram" –deyir. Kağıza imza vurandan

sonra kəndlini yola salır. Kəndli sevincək otaqdan eşiyə çıxır, tamahkar kədxuda tələsik kuzənin ağzın açıb, yağı barmaqlayır. İşin nə olduğun duyur, tez ayağa durub dalıdan kəndlini çağırır:

– İmzası ğələt olub, gətir düzəldim !

Kəndli gülə-gülə deyər:

– Ay kədxuda, sən öl, sənəd imzası lap düzdür. Hər nə qələt varsa, kuzədəki yağdadır!

## AÇIQ AĞIZ BOŞ QALMAZ

Bir qadın məçiddə axundun sözlərini dinləyirdi, o, axundun o dünyada bütün bəhərləri kişilər üçün saydığını gördükdə, yerindən qalxıb ona "nə üçün axirətdə hər şey kişilərə verdin?" – deyə etiraz elədi. Axundbir az fikirə daldı, sonra dedi:

– Darıxma bacı, açıq ağız boş qalmaz.

## OLMASIN AZAR

Bir gün məktəb uşaqları mədrəsəni yerə vurmaq istəyirdilər. Qapıdan içəri girən axund ağaya "olmasın azar" deməyi məsləhət gördülər.

Axund hər içəri gələndən bu sözü eşitdikdə, "bəlkə azarlamışam" – deyə, məktəbi bağlayb evə getdi.

## ELƏ BELƏ EDİRSİZ Kİ, BU YANLARA DOLANAN OLMUR

İnkir, Minkir bir ölünün ilk gecəsində onun başı üstə gəlib soruşmağa başlayır. Birinci sorğunu verir. Ölü ağzını açır cavab versin, o biri gopun ölünun başına vurub ikinci sorğunu soruşmağa başlayır. Ölü deyir:

– Elə belə edirsiz ki, bu yanlara dolanan olmur.

## GƏL TÜPÜR MƏNİM ÜZÜMƏ

Bir nəfər İmam Zamanı çox sevərmiş. Bir gecə İmam Zaman onun yuxusuna gəlir, deyir:

– Eşitmişəm, məni çox sevirsən.
– Bəli, elədi.
– Dediyinə necə inanmaq olar?
– Hər nə desən, edərəm.
– Ən çox sevdiyin adamlar kimdir?
– Üç oğlum var, dünyada onları hamıdan və hər zaddan çox sevərəm.
– İndi ki belədir, get böyük oğlunun başını kəs gətir.
O kişi gedib, böyük oğlunun başını kəsib gətirir. İmam Zaman deyər:
– İstərsən sənin sözlərivə inanam, ortancıl oğlunun başını da kəs, gətir.
O gedib, ortancıl oğlunun da başını kəsib gətirir. İmam Zaman deyər:
– Sən məni sevirsən, amma istərsən məndə heç şübhə yeri qalmasın, kiçik oğlunun da başını kəs, gətir.
O kişi kiçik oğlunu daha artıq sevirdi, dedi:
– Heç eyib yoxdur, mən gedib onun da başını kəsib gətirirəm, amma sən bu kənddə İmam Zamanlıq eləyə bilsən, gəl tüpür mənim üzümə.

## ARŞIN GƏTİR BEZ GÖTÜR, ÇUVAL GƏTİR QOZ GÖTÜR

Günlərin bir günü hiyləçi bir tülkü tuzağa düşər. Özünü qurtarmaq üçün o yana-bu yana çırpındıqdan sonra çarəsiz qalıb deyər:
– Əgər buradan qurtulsam, bir çuval qoz və on arşın bezi Allah yolunda paylayacağam.
Təsadüfən tuzaq açılır, tülkü oradan çıxır. Ölümdən qurtulur, amma nəzirini yerinə gətirməyi yadına da salmır. Aylar, illər keçir. Günlərin bir günü tülkü yenə tələyə düşər. Özünü çarəsiz görəndə nəzirini xatırlayıb deyər: "Arşın gətir bez götür, çuval gətir qoz götür".

## AYI YELLƏNİR, QABAN OYNAYIR

Bir gün bir dəvə çox yeyin qaçırdı, onu görənlər təəccüblə baxırdılar. Onlardan biri dəvənin qabağını kəsib soruşur:

– Ay dəvə, nə olub belə qaçırsan?

Dəvə cavab verdi:

– Tülküləri tuturlar!

O adam daha artıq təəccüblənib soruşdu:

– Tülküləri tuturlarsa, sən niyə belə qaçırsan?

Dəvə dedi:

– Rəhmətliyin oğlu, ayının yelləndiyi, qabanın oynadığı zamanda tülkü olmadığımı sübut edincə mənim dərimi soyarlar.

## QABAQCA ÖLDÜRÜRLƏR, SONRA BAXIRLAR

Bir gün bir dovşan qaçırdı, ondan soruşdular:

– Ay dovşan, xeyir ola, hara belə qaçırsan?

Dovşan dedi:

– Üçxayalıları öldürürlər!

Dedilər:

– Eyləsə, sən niyə qaçırsan?

Dovşan dedi:

– Axı qabaqca öldürürlər, sonra baxırlar!

## ÇOX TAMAH ADAMI AZ YEMƏKDƏN DƏ QOYAR

Bir şahın oğlu itmişdi, hər yerə yayıldı ki, şah onu tapıb gətirən kimsəyə yüz tümən ödül verəcəkdir. Şahın oğlunu tapan tamahkar adam bu xəbəri duyunca, öz-özünə fikirləşdi ki, hələ bu gecə onu saxlasam, sabah daha artıq ödül alaram. Sabah onu götürüb şahın yanına getdi, amma şah onu heç saymayıb dedi:

– Mən o pulu verirdim ki, oğlum gecəni eşikdə qalmasın. Eşikdə qalandan sonradaha fərqi yoxdur, ya bir gecə, ya yüz gecə.

## ADIN DEMƏ, BAS BELİMƏ

Bir gün Şah Abbas vəziri ilə şəhərdən çıxıb dolanırkən, soyuğa düşdülər. Hər yanı axtarıb, sonunda bir boş karvansara tapıb, canlarını qurtardılar. Onlar öz canlarını qızdırmağa heç bir şey tapmadılar. Vəzir hər yeri axtarandan sonra bir yırtıq palan tapıb gətirdi. Şah Abbas vəzirdən soruşdu:

– Vəzir, nə oldu, bir şey tapa bildin, ya yox?

Vəzir utana-utana və qorxa-qorxa dedi:

– Qibleyi-aləm sağ olsun, bu yırtıq palandan başqa bir şey tapa bilmədim.

Soyuqdan dişləri biri-birinə dəyən şah vəzirə dedi:

– Vəzir, adın demə, bas belimə.

## ÜST-BAŞINDAN BƏLLİ OLUR

Bir gün bir dəvə sallana-sallana gəlirdi. Ondan soruşdular:

– Dəvə qardaş, haradan belə gəlirsən?

Dəvə dedi:

– Çin və Maçindən!

Dəvəyə yaraşmayan bu sözü eşidənlər ona gülüb dedilər:

– Dəvə qardaş, üst-başından bəlli olur.

## DƏVƏ UŞAQ İMİŞ

Bir gün dəvə, qoyun və inək birlikdə otlayırdılar. Gözəl bir otlağa yetişdilər. Onların hər birisi daha artıq otlamaq istəyirdilər. Söz çıxmasın deyə, aralarındakı ən yaşlının çox yeməsini qəbul etdilər.

Qoyun dedi:

– Mənimlə Həzrət İsmayılın qoyunu bir gündə doğulmuşuq!

İnək dedi:

– Mən behiştdə olduğum zaman Yer üzündə bir inək yoxudu. Allahin əmri ilə yeri sürmək üçün bu dünyaya gəldim.

Dəvə bu sözləri eşidincə, uzun boynunuuzadıb otlamağa başladı və dedi:

– Deyəsən, dəvə uşaq imiş!

## OYNADAN BELƏ OYNADAR

Çox acıqmış bir aslan ormanda yemək üçün bir heyvan axtarırdı. Çox arıyıb-axtarandan sonra bir dəvəyə tuş gəldi. Aslan dəvəyə, "hazırlan, mən səni yeyəcəyəm", dedi. Dəvə əl-ayağa düşüb, yalvarmağa başladı:

– Aslan qardaş, mən bir dəri, bir sümüyəm, qocalmışam, başqa bir heyvan tapsan, dahayaxşı olur.

Amma bu sözlər aslana heç əsər etmədi. Bunagörə dəvə fikirləşib dedi:

– Aslan qardaş, mən suyun o tərəfindən gəlmişəm, orada doğulmuşam, ömrümü orada keçirmişəm, indi də arzum öz torpağımda ölməkdir.

Aslan soruşdu:

– Mən səni suyun o tərəfinə necə götürə bilərəm?

Dəvə dedi:

– Olmasa sən mənim kürəyimə min, mən səni suyun o tayına keçirim.

Aslan dəvənin kürəyinə minib çaya girdilər. Çayın dərin yerində dəvə silkələnməyə başladı. Aslanın canına qorxu düşüb titrədi, qorxa-qorxa soruşdu:

– Dəvə qardaş, niyə belə silkələnirsən?

Dəvə cavab verdi:

– Çayın o tərəfində məni nə qədər oynatdığın yadına gəlirmi? Oynadan belə oynadar.

## HƏLƏ BİR YERƏ GÜMANIM GƏLİR

Kişi keçisini itirmişdi. Sevinə-sevinə onu axtarırdı, dedilər:

– Bu nə haldır, keçisini itirən rahatsız olar, qəmli olar, darıxar. Sən hələ gülüb – sevinirsən də.

Dedi:

– Hələ bir yerə gümanım gəlir. Orada olmazsa, onda gəl mənim hay-haraynan ağlamağımı gör.

## OLSA AŞIMIN SUYU OLMASA, BAŞIMIN SUYU

Bir arvad yuyunmaq üçün qazanı doldurub ocağın üstünə qoyar. Əri bazara çıxanda ona tapşırar ki, gələndə aş düyüsü alıb gətirsin. Əri gedəndən sonar, qonşunun qızı gəlib, qazanı görəndə soruşar:

– Qazanda nə pişirirsən?

Arvad deyər:

– Ocağın üstündəki sudur, qoymuşam qaynasın. Kişiyə düyü tapşırmışam, alıb gətirsə, aş pişirəcəyəm.

Qız deyər:

– Bəs gətirməsə?

Arvad cavab verər:

– Olsa aşımın suyu, olmasa başımın suyu.

## İNDİ DÜŞDÜN QUŞ HƏDDİNƏ

Bir gün bir kişi əlində ağac dolanırdı, birdən gözü daş üstündə oturan leylək quşunasataşdı. Onun uzun qıçların kiçiçik bədəninə uyğun görməyib, əlindəki ağacı var gücu ilə quşa sarı atdı. Ağac dəydi, leyək quşunun qıçları qırılıb yerə düşdü. Kişi ucadan gülərək dedi:

– Hə, indi düşdün quş həddinə.

Başqa bir söyləyən deyər:

Kəndlərin birində uşaqlar kənd içində oynayırdılar. Onların gözü daşın üstündə oturan bir leylək quşuna sataşır. İndiyədək belə bir quş görmədiklərinə görə, heyrətdə qalırlar. Oradan keçən bir kişini çağırıb, "bu nədir?"– deyə soruşurlar. O da təəccüblə bir az baxıb, deyər:

– Quşa bənzəməsinə bənzəyir, amma quş da deyil.

O, quşa yaxınlaşıb, onun qıçlarını sındırır, beləliklə, leyləyin boyu qısalır. Uşaqlar deyir:

– Əmi, bunun qanadları da çox uzundur.

O kişi leyləyin qanadlarını da sındırır. Quş daha eybəcər görünür. Uşaqlar hay salır:

– Əmi, bunun boynu çox uzundur.

O bu dəfə də quşun boynunu sındırıb atır. Leylək çabalayır, düşüb ölür. Uşaqlar deyir:

– Ağa, bu öldü ki…

O, çox qanısoyuqluqla deyir:

– Ölməsinin əhəmiyyəti yoxdur, indi düşdü quş həddinə!

## GÖZÜMDƏN PİSLİK GÖRMÜŞƏM, AMMA SİZDƏN YOX

Bir kişi gözünün əlacı üçün kənddən şəhərə həkimə gəldi və şəhərdəki dostu evində qonaq qaldı. Bir gün, iki gün, üç gün, bir həftə, iki həftə, üç həftə qonağın getməyi olmadı. Ev sahibi zara gəldi. Ər-arvad fel qoşdular ki, kişi arvaddan ev işlərində bahana tutub, dava-şava salsın, arvad da qonağa pənah aparıb soruşsun, "sən neçə həftədi burdasan, bu günü də gedirsən, məndən bir pislik görübsən?". Bəlkə qonaq da utanıb getsin. Kişi sabah eşikdən gələndə arvada üz tutub davaya başladı. Arvad da ağlar halda gəlib qonağa dedi:

– Sən neçə həftədi burdasan, bu günü də gedirsən, məndən bir pislik görübsən?

Göz ağrısı ki qonağı yeməkdən qoyurdu, cavab verdi:

– Mən neçə həftə burdayam və neçə həftə də qalacağam, gözümdən pislik görmüşəm, amma sizdən yox!

## MƏNƏ BİR ŞEY QALMIR

Bir qoca ilə bir gənc bərabər yemək yeyirdilər. Qoca coşub dedi:

– Bunun dişləri var, yeyib mənə bir şey saxlamır!

Gənc də dedi:

– Mən çeynəyincə, bunun dişi yoxdur, elə "lam" qoyub, "lum" da udur, mənə bir şey qalmır.

## LOTULAR QOYDULAR YATAM SƏNİ YUXUDA GÖRƏM

Bir kişi uzun müsafirətdən döndü. Arvadı ilə oturub söhbətləşəndə, özünü şirinlətmək üçün soruşdu:

– Arvad, heç məni yuxuda gördünmü?
Arvad dedi:
– Lotular qoydular yatam, səni də yuxuda görəm?!

## MƏN DƏ SÜMÜK XIRDASIN GÖRÜRDÜM

Bir qəssab həkimə gedir, həkim bir az məlhəm qoyur, deyir:
– Sabah gəl, məlhəmin dəyişim.

Neçə gün qəssab gedib-gəlir və həkim gözünün məlhəmin dəyişir. Qəssab hər gələndə bir batman ət gətirib, həkimə pay verirdi. Bir gün qəssab gələndə həkim olmur və həkimin şagirdi qəssabın gözünün məlhəmin dəyişəndə, narın sümük xırdasın görüb gözündən çıxarır. Sabah da qəssabdan xəbər olmur. Həkim şagirdə deyir:

– Ay balam, qəssabdan xəbər yox, daha gəlmir?

Şagird sevincək deyir:

– Qəssabın gözünə narın sümük xırdası düşmüşdü, mən görüb, çıxardım.

Həkim deyir:

– Axmaq, mən də sümük xırdasın görürdüm, amma naharın şorbasında görürdüm.

## MİSDİ, ODA QOYARSAN OLAR İSTİ

Oğlan misgər ustadı yanına şagird oldu. Səhər çağı gedib axşam dönərkən, “Mən hər şeyi öyrəndim, daha misgərçi yanına getməyəcəm!” – dedi.

Anası dedi:

– Niyə?

Oğlan dedi:

– Misdi, oda qoyarsan, olar isti, tapdarsan, olar yastı, qırağını qaytararsan, olar məcmə.

Neçə gün sonra oğlanın anası bazardan keçəndə oğlanın ustası soruşdu:

– Hacxanım, oğlan nə oldu, niyə gəlmir işə?

Arvad dedi:

– Vallah, deyir, misgərliyi öyrənmişəm.

Usta şaşırıb soruşdu:

– Nə cür?

Arvad dedi:

– Deyir, misdi, oda qoyarsan, olar isti, tapdalarsan olar yastı, qırağını qaytararsan, olar məcmə!

Arvad yola düzəldi. Ustanın digər şagirdi soruşdu:

– Usta, necə oldu?

Usta dedi:

– Namərdin oğlu, özü öyrənib ki heç? Filan-filan şüdə, nənəsinə də öyrədib.

## NƏ DİRİSİNDƏN XEYİR GÖRDÜK, NƏ ÖLÜSÜNDƏN

Birinin məfül qonşusu var idi. Gəlib-gedənə müştəri idi, ancaq qonşuya, qonşu olduğu üçün tutuq verməzdi. Bir gün bu məfül ölüm döşəyinə düşür. Qonşunu çağırıb ona deyir:

– Olsa, mən öləndən sonra boynuma bir ip salıb həyətdə sürüsən, bəlkə günahlarımdan bağışlanar.

Sadə qonşu onun sözlərinə inanıb, məfül qonşu öləndə boynuna ip salıb həyətdə sürütləyir. Başqa qonşu bu halı görüb sanır ki, onu boğub öldürüb. Şəhərə car salır. Kişini tutuqlayırlar. Beçara kişinin ürəyi dərdə gəlib deyir:

– G.... verənin nə dirisindən xeyir gördük, nə ölüsündən!

## YORĞANINA BAX, QIÇINI UZAT

Bir dərviş yol qırağında yorğanına qıvrılıb yatmışdı. Padşahın yolu dərviş yatan yerdən düşdü. Padşah əmr verdi, dərvişi bir niyaz edin, bəlkə küçə-bacada yatmasın.

Başqa bir dərviş bu macəranı eşidib göz-göz elədi, padşahın yolu düşən bir güzarda sərələnib qıç-qollarını da uzatdı, bəlkə padşahın gözü buna da sataşsın. Qəzadan bir bəndə oradan keçəndə dərvişin qıçları bunun qıçlarına ilişdi və yıxılıb qıçları sındı. Hakim gəlib çatan kimi bunların dad-həngamələrinə rast

gəldi, macəranı soruşdu. Padşah macəranı eşidəndən sonra dərvişi cəzaya məhkum etdi. Dərviş padşahdan iki dərvişlə fərqli davranışından şikayət elədi. Padşah dedi:

– Yorğanına bax, qıçını uzat.

## VERDİYİN BİR ABASI QARA PULDUR, XƏYALIN VAR HERİZ XALISI ÇIXSIN!

Kəllə-paçaxanada bir nəfər kəllə-paça yeyirdi, suya çörək doğrayıb tiltə elədi, qaşığı vuranda bir parça qab dəsmalı qaşığına gəldi, əsəbanı olub kallahpəzə dedi:

– Bu köhnə dəsmal tiltənin içində nə qayırır?

Kallahpəz cavabında dedi:

– Verdiyin bir abbası qara puldur, xəyalın var Heriz xalısı çıxsın?!

## BUNDAN SONRA ƏLİVİ ÖZ CİBİNDƏ QIZDIR!

Oğru birisinın cibin kəsəndə, cib sahibi əlindən yapışdı, dedi:

– Nə edirsən?

Oğru utanmadan dedi:

– Əlim üşüyürdü, sənin cibində qızdırmaq istirdim.

Cib sahibi ki onun həyasızlığın gördü, dedi:

– Bundan sonra əlivi öz cibində qızdır!

## NAHARI BURDA YE, AİLƏNİ EVDƏ DOLANDIR

Bir evdə nahar yeyirdilər, bir nəfər daxil oldu, bir tində oturdu. Nahar yeyənlər tərif etdilər ki, gəlib nahar yesin. Odedi:

– Evdə mən nahar yemişdim, indi ki israr edirsiniz, bir əl dolandırram.

Qabağa çəkilib yeməyə başladı, elədi ki, onlara macal vermədi. Axır onların biri dedi:

– Ay qardaş, bundan sonra naharı burda ye, ailəni evdə dolandır.

## BEKAR ADAMIQ, OTURMUŞUQ

Bir at ölüm halında idi. Qurd onu yemək üçün ölümünü gözləyirdi. At dedi:

– Özünü yorma, mən bu tezlikdə ölən deyiləm.

Qurd dedi:

– Sən özünu incitmə, bekar adamıq, oturmuşuq?

## AXI SİZ BİLMİRSİZ Kİ, MƏN ALTA NƏLƏR YIĞMIŞAM

Bir oğru, oğurluq üçün bağa girir, bağda kimsə yox idi. O, əlindəki torbanı doldurmağa başlayır. Torbanın aşağısına turp, yer alma, soğan kimi bərk şeylər, sonrameyvə və yuxarı gəldikcə bamadur kimi yumşaq bir zadlar doldurur. Bu halda bağ sahibi bir neçə nəfərlə yetişir. Onlar oğrunu döyməyə başlayırlar, torbada olanları çıxardıb, onun başına çırpırlar. Onlar vurduqca, oğru deyir:

– Allah sonrasından saxlasın.

Soruşurlar:

– Bu nə sözdür?

Oğru deyir:

– Axı, siz bilmirsiz ki, mən alta nələr yığmışam.

## DAY NƏ DEYİM

Bir nəfər Ayətullah Şəhidinin yanına gedib dedi:

– Hacağa, mənə deyirlər Həzrət Qasım şəbehi olum. Olum, ya yox?

O başı ilə işarə edib dedi:

-Yox.

O yenə soruşdu:

-Həzrət Əli Əkbər şəbihini də deyirlər.

Hacağa yenə başını qovzayıb dedi:

– Yox, olma.

O adam yenə soruşdu:

– Şümr şəbihini də deyirlər, olum, ya yox?

Ağayi Şəhidi onun üzünə baxıb dedi:
– Day nə deyim...

## YUDUM DA, DARADIM DA

Bir gün iki yoldaş birgə hamama getdilər, onların birisi keçəl idi, birisi saçlı. Saçlı yoldaş xəzinədə suyun altına girib islanınca, keçəl yuyunub çıxdı. Saçlı bu halı görərək, keçəldən soruşdu:
– Sən başıvı yudun?
Kəçəl cavab verdi:
– Yudum da, daradım da.

## TUTARSA – YOĞURT, TUTMAZSA – AYRAN

Bir kişi, bir qab yoğurt götürüb göl başına gedir. Gölün qırağında oturub, qaşıq-qaşıq yoğurdu gölə vurub, qarışdırmağa başlayır. Oradan keçən bir adam onun işini görüb təəccüblə soruşur:
– Yoğurdu niyə belə hədər edirsən, bir qab yoğurtdan bu boyda göl maya tutarmı?
O kişi öz işinə davam verərək, cavab verir:
– Tutarsa – yoğurt, tutmazsa – ayran.

## ORUCLUQDAN ÇOX RAZIYIQ, HƏLƏ PEŞVAZINA DA ÇIXAQ

Orucluq ayındabir molla minbərdə bu ayın bərəkətlərindən danışıb deyir:
– Hər kim orucluqdan altı gün qabaq orucluq ayını qarşılayıb, bu altı günü oruc tutsa, Allah ona üç yüz atmış gün savab yazar.
Məsciddə oturan, orucluqda xəstə bir adam ucadan deyər:
– Orucluqdan çox razıyıq, hələ peşvazına da çıxaq.

## SƏN ELƏYƏN FİKRİ MƏN DƏ ELƏDİM

Bir kişi ağır yük çiynində gedirdi. Bir atlı oradan keçirdi, kəndli kişi ona əl qaldırıb dedi:

– Mümkünsə, bu buğda tayını şəhərədək yetirəsiniz.

Atlı: "Bu at mənim özümu çətin aparır" – deyib uzaqlaşdı. Bir az getmişdi, fikirə düşdü ki, niyə buğda tayını o kişidən alammadım, alıb getseydim, hardan məni tapa bilərdi?

O yandan kəndli kişidə fikirləşdi: "Yaxşı, buğda tayını, o atlıya vermədim, alıb aparsa idi, hardan onu tapa bilərdim?"

Bu fikirdəykən gördü atlı dönüb gəlir. Atlı yaxınlaşıb dedi:

– Görürəm, çox yorulmusan. Ver yükünü şəhərədək yetirim.

Kəndli dedi:

– Çox sağ ol, istəməz. Sən eləyən fikri mən də elədim.

## CƏVAHİR KİMİ XALI APARIRSAN

Tələbkar gəlib borcludan pulun istəyirdi. Borclu ona belə dastan başladı:

– Yalıma demişəm çöldən çoxlu tikan dərib gətirsin, qapı qabağında onları yerə sərib, mal-davaroradan keçəndə yunları tikanlara ilişsin.

Tələbkar dedi:

– Bu iş mənə mərbüt deyil, mən pulumuistəyirəm, nə nağıl.

Borclu dedi:

– Elə sənə mərbütdir, bir qulaq ver.

Sonra belə ədamə verdi:

-Yunlar tikanlara dolaşandan sonra onları toplayıb, ayırıb bir fərş toxuyacağıq, onu sənə verib, hesabımızı qurtaracağıq.

Kişi ki bu səfeh sözlərdən gülməyi tutmuşdu, borclu onun gülməyin gördükdə deyir:

– Gülərsən, bəs neylərsən, cəvahir kimi xalı aparırsan!

## QURUTDUM, QURUTMAMIŞ OLUM

Keçmişlərdə karvan yolu Xocadan keçərmiş. Bir qış günü karvanın sərvanı qara bələnib islanmış pətavasın (qışda soyuqdan saxlamaq üçün ayağa bağlarlar) açıb qurutmaq üçün xocalı bir arvada verdi.

Arvad pətavanı qurutdu, sərvana qaytaranda pul istədi. Gördü ondan pul çıxaramayacaq, pətavanı suya basıb sahibinə verib dedi:

– Qurutdum, qurutmamış olum.

İndi xocalıların bu sözdən acığı tutar.

## SƏN VERİRSƏN ŞORDAN-MORDAN…

Bir kişi ev-eşiyin sökdürərək, yenidən düzəltməyə bənna gətirmişdi, ancaq onun yeməyinə yetişmirdi. Ağız alammanı-naharışur pənirilə sovurdu. Bənna da gündə beş-on kərpiç düzür, beləliklə, günün axşam eləyirdi. Bir gün ev yiyəsi bənnaya dedi:

– Ay qardaş, belə işləsən bu il qışı çöldə qalmalıyıq.

Bənna dedi:

– Sən verirsən şordan-mordan, mən düzürəm ordan-burdan. Sən mənə ver ətdən-mətdən, mən də düzüm bərkdən-bərkdən.

## ALÇAQKÖNÜL PEYĞƏMBƏR

Bir kişi peyğəmbərlik iddiası edirdi. Dedilər:

– Peyğəmbər olanın möcüzəsi olar, sənin də möcüzən varmı?

Peyğəmbər dedi:

– Var, hər nə istəyirsiniz, edə bilərəm.

Dedilər:

– İndiki gün qabağında əyləşibsiniz, buyurun o ağac yaxına gəlib sizə kölgə salsın.

Peyğəmbər üç yol ağaca buyurdu, ağac yerindən tərpəşmədi. Peyğəmbər yerindən durub palazın yığışdırıb dedi:

– Peyğəmbərlər alçaqkönül olar, o gəlməzsə, mən gedib orada oturaram.

## BU SƏN, BU DA DAYIVIN XARABASI

Bir kişi birinin qapısını döyüb: “Bu yerdə qəribəm, məni qonaq eləyin”, dedi. Məhəbbətlə qarşılayıb soruşdular:

– Sən kimsən?

Dedi:

– Mən Allahın bacısı oğluyam!

Qonaq üç gün, beş gün, bir həftə bu evdə düşdü. Ev iyiyəsi gördü, bu üzlü qonaq əl çəkən deyil, onun əlindən yapışıb, aparıb məçidə oturdub, dedi:

– Bu sən, bu da dayıvın xarabası.

## MƏNƏ SUYU YOXDUR, SƏNƏ Kİ ÇÖRƏYİ VAR

Hac Mirzə ağası quyuların birinin dərinliyindən və onun suya çatmasından xəbər tutmağa getmişdi, quyu qazan dedi:

– Hələlik suya çatmamışıq, bu quyuda inanmıram su damarı olsun.

Hacı, "işizı görün və usanmayın", dedi.

Neçə gün keçdi, yenə hac Mirzə ağası o quyunun sorağına gedib nəticəni soruşdu. Öz bildiyinə arxayın olan quyuqazan dedi:

– Qabaqca bu yerdə quyu qazmağımızın faydasız olduğunu demişdim, burada suya çatmayacayıq.

Hac Mirzə ağası onun sözlərinə fikir verməyib: "Yenə də qazın, ancaq suya çatacaqsız", dedi.

Üçüncü kərə hac Mirzə ağası o quyunu soruşmağa getmişdi, yenə baş qavzayıb dedi:

– Sədr-əzəm həzrətləri, mən yenə də deyirəm, bu quyudan su çıxmayacaq.

Bu işlərlə ürəkdən maraqlanan hac Mirzə ağası onun sözlərindən hirslənib çığırdı:

– Şər söz adam, sənə nə bu yerdə su var, ya yox! Mənə suyu yoxdur, sənə ki çörəyi var!

## BUNUN ƏLİNDƏN NƏLƏR ÇƏKİRƏM

Bir kişi atını bazara çıxartmışdı. At nanəciblikdən qabağa keçəni qapır, dala qalanı təpiklə vururdu. Dedilər:

– Bunu alan olmayacaq, nə üçün bazara çıxardıbsan?

Dedi:

– Satmağa çıxartmamışam. Gətirmişim, görəsiz mən bunun əlindən nələr çəkirəm.

## GƏTİRİB QOYMAYIBSAN

Bir kişi tanışlarının birindən neçə kərə borc aldı. Hər dəfə pulu qaytaranda pul iyiyəsi deyərdi "Döşəyin altına qoy". Yenə borca gələndə deyərdi: "Döşəyin altından götür".

Bir gün o kişi qabaqca aldığı borcunu ödəməmiş yenə tanışının evinə gedib borc istədi, o həmişəki kimi dedi:

– Döşəyin altından götür.

Borc almağa gələn kişi döşəyin altına baxıb, bir pul görmədi, dedi:

– Döşəyin altında yoxdur.

– Gətirib qoymayıbsan! Gətirsə idin, olardı!

## ÇƏK ÇƏNƏSİN, SƏFEHLƏDİ

Bir kişi can üstə vəsiyyət edirdi:

– Beş min tümən Abbaslıdan, on min tümən Məşədi Bəşir oğlu Bayramdan alacağım var.

Uşaqlar hərəsi bir qələm götürüb eşitdiklərini yazırdılar. Qoca kişi azca dayanıb yenə sözlərinin ardını tutaraq dedi:

– On üç min beş yüz tümən məğaza şərikimə, 8 min tümən bazarda Hac Əbülqasımaverəcəyim var. On bir min ...

Böyük oğlan üzünü atasının başı üstə oturan kiçik oğlana tutub dedi:

– Bəsdir, çək çənəsin, səfehlədi.

## BU GÜN ƏLİN BOŞ OLDUĞU ÜÇÜN ÜZÜVƏ BAXDIM

Qapı çalındı, arvad qapını açıb, kişisin gördü, hırt ilə bir az baxandan sonar: "Kişi, sənə nə olub, başın niyə belədi, gözün niyə belədi, üzün niyə çapılıb?" – dedi.

Kişi daha artıq təəccüb eləyib dedi:

– Arvad, sən iyirmi ildir mənlə yaşayırsan, indi deyirsən niyə başın keçəldir, gözün kordu, üzün çapıqdı? İndiyədək huşun harda idi?

– İndiyədək əlivə baxırdım, bu gün əlin boş olduğu üçün üzüvə baxdım.

## DENƏN, HACI ÖLÜB DA…

Bir kişi hər il müəyyən bir gündə əhsan verərdi. O gün qapını heç kimsənin üzünə bağlamazdı. Bir də hər kim neçə yol gəlirsə də, qabını doldurub, artıq bir söz deməzdi.

Hacı kişi oğlanlarına tapşırmışdı, mən öləndən sonrabu əhsanı kəsməyin və hər kim neçə kərə gəlirsə də, üzünə gətirməyin. Bu sözün üstündən bir vaxt keçər, hacı ölüb gedər, yenə əhsan günü gəlib çatar. Hacının oğluqazan asıb, yemək bişirər. Qablama-kasasın götürən gələr. Hacının oğlu bir kişinin üçüncu dəfə gəldiyini zənn edib deyir:

– Sən indi apardın axı!

O kişi ki hacının ölümündən xəbərsiz idi, dərindən ah çəkib, həsrətlə deyir:

– Denən, hacı ölüb da!

## XATA ELƏDİK, ŞƏRİK OLDUQ

Bir əkinçi əkinindən yaxşı bəhrə götürə bilmirdi, taxılının çoxu yanıb aradan gedirdi. Bu il buğda əkəndə, tanrı ilə şərik olmaq fikrinə düşdü. Biçin vaxtı yaxşı buğda götürüb, onu iki yerə bölmüşdü:

– Bu mənim, bu tanrının.

İki-üç gün keçdi, əkinçi öz-özünə dedi: "O nə buğda əkib, nə suya gedib, nə biçin biçib, hardan gəlib mənlə ortaq oldu?!"

Əkinçi belə düşünərək, yenə buğdaları qatıb bir elədi. Haman ləhzə göyün üzün bulud tutub, yağış yağmağa başladı. Çox çəkmədi, sel gəlib bütöv buğdaları apardı. Yağış şiddətləndikcə, sel güclü gəlirdi. Əkinçi selin qorxusundan dağa sarı qaçdı. İldırım şaxanda hər yana ağ işıq düşürdü. Əkinçi qorxusundan bir daşa sıxılmışdı, öz-özünə deyirdi "Xəta elədik, şərik olduq, deyəsən, əl çəkməyəcək. Hələ bu indi çıraq yandırıb, daşların dibin axtarır. "

## ÇAL ÇAXMAĞINI, TAPIM BAŞMAĞIMI

Deyir, bir əkinçi gecə-gündüz var gücu ilə işləyib çalışardı, amma taxıl götürəndə əlinə bir zad toxtamazdı. Bir il göyər-

məzdi, bir il dənsiz olardı, bir il quruyub yanardı, bir il sel apa-rardı. O, çox fikirləşəndən sonra bu qərara gəldi ki, tanrı ilə şə-rik olsun və bu fikir ilə yenə çalışmağabaşladı.

O il taxıl əkinçinin ürəyi istədiyi kimi bol gəldi. Əkinçi, əkini biçib, suvarıb yığmağa hazırladı. O öz-özünə hasili bölmə-yə düşünürdu. Ürəyindən keçdi ki, bu necə şərik olmaqdır? Nə əkin əkib, nə biçin biçib, nə su suvarıb, bir də ki, Tanrı taxılı neyləyir? Onun nəyinə gərəkdir, nə arvadı var, nə uşağı. Beləlik-lə, əkinçi fikirlərini edib, Tanrıya verdiyi sözü geri alıb, ilqarını pozub, hasili yığmağa qərar verdi. Bu anda göyün üzünu qara buludlar aldı, şaqqıltı qopub gurşad düşdü. Çox çəkmədi, sel gə-lib, bütün hasili yuyub apardı. Sel-su çoxaldıqca əkinçi canını götürüb qaçmağa məcbur oldu. O, qaranlıqdabaşmağının tayını itirib, sürünərək Tanrıya yalvarırdı:

– Barı, çal çaxmağını, tapım başmağımı.

## BU QAMANDER O QAMANDERLƏRDƏN DEYİL

Sərxab məhəlləsindəŞükür oğlu Abdi adında bir kişi var imiş. Abdi rus dilin yaxşı bilərmiş, o ruslar gələndə onlarla danı-şıb dolanarmış. Sonralar Şahsünlərdə gəlib fırtana salmışlar, on-lar kimsəyə rəhm etməyib hər yanı çalıb-çapırmışlar. Haman günlərin birində Abdi görürlər çay qırağı ilə Sahib Ələmir mey-danına sarı qaçır, soruşurlar:

– Abdi, hara qaçırsan?

Deyir:

– Oğlan, qaçın bu qamander o qamanderlərdən deyil!

## ŞƏHRDAR OLANDAN HESABA QOYMURSAN

Ormanda tülkü aslanın oğluna sataşır. Aslan bilib sataşanı axtarır. Tülkü qurda kələk vurub deyir:

– Aslan belə bir cəsarətlidən xoşu gəlib, onu şəhərimiz or-mana şəhrdar tikmək istir. Get boynuna al, bəlkə sən əmi oğlum şəhrdar ol!

Qurd aslanın yanına gedib işi boynuna alır. Aslan oğlunun başına gələn işi qurdun başına açır. Qurd sallan-bullan yola dü-

zəlir. Tülkü qurdu salamlayır. Qurd bikef-bedamaq eşitmir. Tülkü deyir:

– Hən, şəhrdar olandan hesaba qoymursan.

## ÖMRÜNÜN HAMISI HƏDƏRDİ

Bir dilçi alim gəmiyə minmişdi. Gəmiçidən soruşdu:

– Sən heç nəhv elmindən bir şey bilirsən?

Gəmiçi dedi:

– Yox.

Dilçi alim dedi:

– Elədə ömrünün yarısı hədərdi!

Bir azdan gəmi fırtınaya rast gəldi və qərq olmaq halına düşdü. Gəmiçi alimə dedi:

– Üzmək bacarırsan?

– Yox.

– Elədə ömrünün hamısı hədərdi.

## QƏND QURTARDI Kİ, QURTARDI, SƏFİ NİYƏ POZURSUZ?

Sərabda uşaqbaz bir kişi var idi. Bu kişi harda bir səf və yaraşıqlı oğlan uşağı görürdü, tez keçib uşağın dalında səfə qoşulurdu. Bir dəfə qənd paylayanda qənd qurtarır və səf dağılmaq halına düşür. Kişinin işi ki yarımçılıq qalmış imiş, deyir:

– Qənd qurtardı ki, qurtardı, səfi niyə pozursuz?

## GƏTİRMƏYİB, APARMAZ DA

Biri başqa kənd qohumlarına qonaq getmişdi. Gördü ev sahibi bunlar üçün bir tay kişmiş tədarük görüb, qırağa qoyub. Kişi utanıb üzün eşşəyə tutub dedi:

– Yeralma çuvalı çatıram, gətirmirsən, girdəkan tayı çatıram, gətirmirsən...

Ev sahibi belə görəndə, kişmiş tayın qapı arxasından götürüb, içəri apararaq, dedi:

– Danlama, gətirməyib aparmaz da.

## SƏN OXUYURSAN, MƏN ƏZBƏRƏM

Əntiqəçi kişinin yolu bir qədim evə düşdü. Evdə bir əski və köhnə tağara gözü sataşdı. Kişi tağarın bahalı və əski olmağın bilib, amma ev sahibi başa düşməsin deyə, kişinin pişiyin tərif edib, pişikdən xoşu gəlməyin bildirdi. Sonra pişiyi almaq istədi. Ev sahibi də pişiyi kişiyə satdı. Əntiqəçi kişi, tağarın yazılarını oxuyarkən tağar sahibinə dedi:

– Əmi, bu pişik yolda susarsa, mən neyləməliyəm? Bu tağarı da ver, bəlkə pişiyə su verim.

Tağar sahibi dedi:

– O şeyləri ki sən oxuyursan, mən əzbərəm, ay kişi. Bu tağar ilə 5 dana pişik satmışam, tağarı yerinə qoy. Xoş gəldin.

## SƏNİ BURA GƏTİRƏN ÖLSÜN

Biri dostunun toyuna aşıq aparır. Aşıq da kar imiş, toyu bir yerə yığanmır. Amma fikirləşir, bəlkə "Qarabağ şikəstəsi" oxusa, xalqı şura gətirir. Başlayır "Qarabağ şikəstəsi" oxumağa, amma onu da unudur, elə "ölləm-ölləm-ölləm" deyir.

Bəyin atası belə görəndə deyir:

– Niyə sən öləsən, səni bura gətirən ölsün.

## QOYUN YARSIN, ÖZÜNÜ ÖLDÜRSÜN

Deyirlər, bir pinəçi kişi qanlı köynək dəstəsinə qoşulub başın yarırdı. Qanlı köynək dəstəsi ilə dolanan ağac tutan adamlar bu kişidən qəməni almaq istəyirlər, amma kişiyə hər nə qədər zor salırlar, qəməsin ala bilmirmişlər. Ağsaqqallardan biri ucadan deyir:

– Day qardaş, bəsdir. Belə heç kəs, imam da bu işi bu qədər sevməz, axı bu nə işdir, nə gücdür, daha qəməni boşla, bəsdir!

Baş yaran kişi qəməni başına çırparaq, deyir:

– Yox, mən yenə də yaracağam, yox mənim hər nə varımdı bu təşkilatdan var, qoyun görüm, mən yenə də yaracağam!

Ancaq kişi qəməni boşlamır, dəstəyə tamaşa eləyən şeyx belə görəndə, yaxına keçib ucadan deyir:

– Bura bax, görüm axı sənin nəyin var ki, özün pinəçi bir babasan. Bir dana oğlun da hambaldı, yeri də yox, elə ki çərxinin üstündə yatır. Yar, yar, nə qədər yaracaqsan yar, qardaş boşlayın, qoyun yarsın, özünü öldürsün!

Şeyxın bu sözü ilə kişi bir azca fikrə cumub, qəməni boşlayır.

## SULAR YIĞIŞIB SEL OLDU, SÜRÜNÜ APARDI

Bir ərbab çobanı gətirən südə su qatıb bazara göndərirmiş. Çoban ərbabı bu işdən çəkindirir. Amma ərbab qulaq vermir. Bir gün sürü dağdaykən, göy tutulub bərk yağış tutur. O saat su-sel qoşub sürünü aparır.

Çobanın əlindən bir iş gəlmir kor-peşman kəndə dönür. Ərbab çobanı sürüsüz görüb, "bə sürü hanı?" soruşur. Çoban deyir:

– Ərbab, südə qatdığın sular yığışıb sel oldu, sürünü apardı.

## CİMBLİ CİMBÜ

Bir şəhərli kişinin kənddən qohum-əqrəbası şəhərə gələndə ona da baş vurarmışlar. Kişi də hər gələni şama qonaq saxlayırmış. Bir gün arvadı deyər:

– A kişi, mənə demədən hər gələni qonaq saxlayırsan. Şam da az olur, yaxşı düşmür. Ondan belə hər kimi qonaq saxlamaq istəyəndə, mənə bir rəmz kimi "arvad cimbü" deginən, məndə mətpaqda bilim, bəlkə şorbanın suyun bir adamlıq çoxaldım.

Bir gün evlərinə bir nəfər qonaq gələr və kişi onu şama saxlayıb, arvadını "arvad cimbü" deyib, andırar. Bir azdan başqa adam gəlib, onu da şama saxlayıb, arvada "arvad cimbü" deyib, yenə andırar. Elə o gün beş-altı adam gələr və hamısını şama saxlayıb, "arvadcimbü" deyib andırar. Bir azdan başqa bir adam gələndə, yenə "cimbü" deyib arvada bildirmək istəyəndə, arvad da ucadan deyir, "kişi, cimbli cimbü". Kişi bu sözü başa duşməyib, mətpağa keçib, arvaddan soruşar:

– Arvad, "cimbli cimbü", yanı nə? Bizim belə bir rəmzimiz yoxdu.

Arvad deyər:

– Kişi, daha qablamada su artırmağa yer qalmadı. "Kişi, cimbli cimbü", yanı cimbuya yer yoxdur və cimbü təkmildir, daha qonaq saxlama.

## HESAB VAR DİNAR-DİNAR, BƏXŞİŞ VAR TÜMƏN-TÜMƏN

Bir kişiyə pul lazım oldu. Kişi şəhərdə mötəbər və xeyir olan birisinin yanına getdi. Gördü, kişi hücrəsində bir dinar üstə bir alverçi ilə çəkiş-bərkişləri var. Kişi geri dönmək istədi. Xeyir işlərdə əli olan kişi onu çağırıb, hücrəyə qaytardı və məqsədin soruşdu. Kişi ona 100 tümən pul bağışladı. Pulsuz kişi xeyir işlərdə əli olan kişinin bir dinar üstə çəkiş-bərkişini görüb, sonra 100 tümən ona bağışlamasına təəccüb edib, işin səbəbin soruşdu. Kişi dedi:

– Oğul, hesab var, dinar-dinar, bəxşiş var tümən-tümən.

## XAN MƏNİ DİNDİRDİ

Oğlan sevincək qapıdan içəri gəldi. Atası onu sevincək görüb soruşdu:

– Oğul, nədən belə sevincək gəlirsən?

Oğlan dedi:

– Xan məni dindirdi!

Ata soruşdu:

– Nə dedi?

Oğul:

– Xan gedən zaman atının önündən keçdim, o da mənə dedi, "o yana s... "

## XEYR, NÖVBƏT BİZİMDİ

Oğlan atası ilə bağda işlərkən, kuzədən su içərək, atasından soruşdu:

– Bu cür ki işləyirik, deyəsən, bağ bizimdi.

Ata başını qaldırmadan alma ağacının qol-budağını kəsərək, dedi:

– Xeyr, növbət bizimdi.

## BİZ ÜÇÜMÜZÜ HARA APARIRSAN?

Pəhləvi dövründə təbrizli bir kişi siyasi mübariz olmaqdan qürur duyub, özünü siyasi göstərməyə çalışarmış. Ajan xiyavanda iki nəfəri tutub şəhrbaniyə aparanda, tez özünüonlara qoşub, deyirmiş:

– Biz üçumüzü hara aparırsan?

## ƏVVƏL YERİNİ QAZ, SONRA MİNARINI OĞURLA

Səbzvar şəhəri çevrəsində "Mil" adlı bir minar var imiş. Bu minara "xəsrü minarı" da deyərdilər. Sədəxəsrü adlı kəndin camaatı bu minarı oğurlamaq istərmişlər və at-qatır götürüb minarı oğurlamaq üçün yola düşürlər. Bunlar yol ortasında bir qocaman kövşənlilərinə rast gəlirlər. Qoca cərəyanı bilib bunlara deyir:

– Quyu qazın, sonra minarı oğurlayın, o boyda minarı harada gizlədəcəksiz?

## BAS DAŞA, İTİNKİ DUADAN KEÇDİ

Axund neçə kişi ilə yola çıxmışdılar. Qapançıl bir itə tuş gəlirlər. Axund deyir:

– İndi bir dua oxuram, it dönüb gedər.

Axund duaya başlır, amma it yügürür. Axundqorxub tələsik deyər:

– Bas daşa, itinki duadan keçib!

## ÖLÜ DURUB MÜRDƏŞOYU YUYUR

Birini ölü sanıb qəbristana götürdülər. Qəbristanda mürdəşoy ölünü yuyarkən, ölü dik qalxıb oturdu. Mürdəşoy ölünün qalxıb oturmağından qorxub, bağrı çatlaq oldu. Adam "savabdır" deyə mürdəşoyu yumağa başladı. Ölü sahiblərindən ölüyuyan otağa gəldi, xəbər bilsin. Belə görüb bağırdı:

– Gəlin, ölü durub, mürdəşoyu yuyur!

## BURA "İNŞAALLAH" YERİ DEYİL

Kişi bazardan ulağ almaq üçün yola düşür. Yolda Molla Nəsrəddinə rast gəlir. Molla onun hara getdiyini soruşur. Cavab verir:

– Gedirəm ulağ alam.

Molla deyir:

– Denən, "inşaallah".

Kişi deyir:

– Bura "inşaallah" yeri deyil, dirhəmlər cibimdə, ulağ da bazarda.

Ulağ alarkən, onun pullarını oğurlayırlar. Məyus qayıdır. Molla Nəsrəddin ona rast gəlib, soruşur:

– Nə elədin?

Kişi deyir:

– Dirhəmləri oğurladılar, inşaallah. Molla Nəsrəddin cavab verir:

– Bura "inşaallah" yeri deyil!

## ALMA SATAN QOCA VƏ BƏHLUL DANƏNDƏ

Günlərin bir günündə Bəhlul Danəndə minmişdi qarğıdan düzəltiyi atına, gedirdi. Bir qoca çərçi kişilən ki, bir eşşək yükü alma satırdı. Üzbəüz olur. Salam-əleyk, xoş-beşdən sonra Bəhlul Danəndə bu qoca kişidən alma istəyir. Qoca kişi də üç dənə yaxşı alma verir. Bəhlul Danəndə bu üç yaxşı almanın müqabilində üç nəsihətli söz ki, misli yoxdur, bu qoca kişiyə deyir. Biri budur ki, hər kimilən yoldaş oldun, ya dost oldun onun adını soruş, ikinci budur ki, əgər səndən bir şey istəmirlər, onu nişan vermə. Üçüncü budur ki, məclisdə yerini tanı. Deyirlər, vidalaşırlar və gedirlər. O fasilədə ki, Bəhlul bu qoca kişidən ayrıldı, qoca kişinin eşşəyi batır palçığa. Özünün də gücü çatmır. Qalır Allahın amanında. Hey çağırır, ay kişi, ay kişi. Bəhlul Danəndə buna cavab vermir. Bu kişi birdən deyir:

– Ay qarğı atı minən kişi, mənim eşşəgim palçığa batıb çıxarda da bilmirəm.

O zaman Bəhlul Danəndə gəlir, kişiyə kömək edir və eşşəgi palçığdan çıxardırlar. Bunu da deyim ki, o məntəqədə Bəhluldan savayı heç kəs qarğı atı minmirdi və sonra Bəhlul Danəndə deyir:

– Ay kişi, məgər mən sənə demədim ki, hər kəs ilən yoldaş oldun, onun adını soruş ki, bir gün dərdə dəyər.

Sonradan bu kişilən dost olur. Bəhlul Danəndə bunu evinə qonaq aparır. Zaman axşamçağı idi. Bəhlul Danəndənin qardaşı vəzir idi. Qəzadan o gecə vəzirin dərbarda qonaqlığı var idi. Gəlirlər Bəhlul Danəndəni dəvət edirlər. Əmma Bəhlul Danəndə dəvəti qəbul eləmir. Vəzirin elçisi qaytarır vəzirə deyir ki, Bəhlul Danəndə dedi, mən gəlmirəm. Vəzir bilir ki, hötmən Bəhlul Danəndənin qonağı vardır. Tazədən vəzir elçisini göndərir ki, Bəhlul Danəndəni qonağilən birgə gətirsinlər. Vəzirin evinə Bəhlul Danəndə qonağ ilə bərabər gedir vəzirin qonağlığına. Əmma bu qoca kişi gedir məclisin baş tərəfində oturur. Sonradan gələn qoşun başçıları, vəzirlər, vəkillər, qazilər gəldikcə yuxarı başda oturdular. Hey bu qoca kişini keçirdirdilər məclisin aşağa səmtinə. O qədər sərcidirdilər ki, Bəhlul Danəndə ki məclisin aşağa səmtində oturmuşdu, gəldi yetişdi Bəhlul Danəndəyə. Qonağ istirdi ki, Bəhlul aşağa sərcinləsin ki, Bəhlul deyir:

– Özün dur, aşağada otur, mənim yerim buradə.

Sonradan məclis kamil olur. Qonaqlığ başlanır. Oxuyan, çalan, içən hamı xoşhal, sərməst olurlar. Əmma qədim zamanlarda rəsm idi, məclislərdə ağır-yöngül iləməklə, məclisin hüzuruna sinidə böyük bir qarpız gətirirlər. Deyirlər ki, bıçaq gətirin, qarpızı kəssin. Acın birdən o zaman Bəhlul Danəndənin qonağı birdən cibindən ətiqə qızıl bıçaq çıxardır və qoyur sininin ortasına və deyir ki, buyurun kəsin. Əhli-məclis bıçağa nəzər salıb, baxırlar bir-birinin üzünə. Bəhlul Danəndə heç-zad demir. Əmma məclis başçısı yaxınlaşır və deyir:

– Bu bıçaq sənin yanında nə qayırır? Bunu sən haradan gətirmisən?

Bu qoca kişi tətəpiyə düşür və dili dolaşır və deyir, tapmışam. Məclisdə olan adamlar onun iddiasını qəbul eləmirlər. De-

yirlər ki, qədim zamanlar dərbara oğru girmişdi, bu bıçaq o zaman oğurlanmışdı.

Əmma məclisin sonu idi və gecənin yarısı idi, qonağı təhvil verdilər Bəhlul Danəndəyəvə ondan da istədilər ki, ta onu ögrətməsin, ta sabah o mühakimə olsun. O, oğurluq ittihamına görə dara çəkilsin. Və Bəhlul Danəndə də qol verir ki, ona bir söz deməsin. Bəhlul Danəndə qonaqla gəlirlər evə. Yatmaq mövqeyi Bəhlul Danəndə qonağın halını soruşar və deyər ki, sən niyə eşşəgə yetişənmirsən, arpa və saman vermirsən?

Qonaq deyər:

– Sabah ki məni öldürəcəklər, neyləyirəm. Daha ona ehtiyacım yoxdur.

Əmma Bəhlul Danəndə ona dildarlıq verir, deyir ki, günahdı get tövləyə, ona bir az su ver. Bu qoca kişi durur ayağa gedir. Əmma Bəhlul Danəndə də onunla gedir, Əmma burada Bəhlul Danəndə ağacı götürür, qonağın eşşəgi ilən başlıyır söhbətə. Deyir:

– Ay eşşəg, məgər mən sənin yükündən üç dənə alma almadım və sənə də üç dənə nəsihət demədim? Sən qulaq asmadın, sən müşkülata düşdün. Sabahları səni aparırlar mühakiməyə. Sən gərək deyəsən, bu bıçağı mən atamın cənazəsinin üstündə görüp götürmüşəm. Mən atamın qatilinin ardınca gəzirəm. Hal bu qəziyyədə düşündüm ki, mənim atamın qatili sizsiz və mən arzuma yetişmişəm və atamın qatilini tapdım.

Bəhlul bu sözləri deyirdi və eşşəgi ağacla vururdu və deyirdi:

– Ay Allahın heyvanı, yadından çıxmasın və bir kəs də bu sözləri sənə deməyib, mühakimədə qaziyə deyərsən.

Sonra gəlirlər yatırlar. Sabah gedirlər meydanda mühakimə olur və qəziyyədə qonaq yaxasın qurtarır.

## KƏNDLİNİN HAZIRCAVABLIĞI

Hakim Əlidən soruşulla:

– İndiyəcən özündən daha da hazırcavab birisinə rast gəlmisən?

Deyir:

– Hən, bir kətədini özümünnən də hazırcavab görürəm.

Hammı təəccüb elir, çünki şair Hakim Əli kətdilərin həciyində bəzi şeylər deyip, dillərə salmışdı. Həm də ki, kətdilər əmumə sadəlöhlüğə məşhurdurlar. Soruşulla:

– Təriflə görax, kətdi necə sənin qabağında hazırcavablıx eliyə bilmişdi?

Deyir:

– Bir gün Təbriz küçələrində yol gedirdim, gördüm kətdinin biri bir xeyli ulağı qatıp qabağına gəlir, ulaxlar qulaxlarını şəx tutub dih-dih yol gedirlər. Amma onların biri dalı qalıp başqulağın sallamış mayus halda gəlirdi. İstədim o getdiyi bənd olup bir söz yaraşdıram. Soruşdum:

– Kəblayı, bəs bu eşşəklərin hamısı qulaxların şuş tutub gedir, o bi danə dalıya qalan eşşəh bə niyə qulaxların sallıyıb, təh başına belə qəmli-qəmli yol gedir?

Kətdi macal vermədi sözümün qalanın deyim tez dedi:

– Bax, bu eşşəh o biri eşşəhlərin şairidi, şairin qafiyəsində məəttəl qalıb, anqıracağı bulmur.

## ALAN KİMDİ?

Şah qoşunu Azərbaycanı allanan sonra bir çoxlarını tutup, zindana salıla, olardan biri də rəhmətdix Mirbağır Hacızadə imiş. Görünürdən nəqil elilə ki, bizi tutub apardılar zindan həyətində səfa düzdülər. Bir afser də miz qoyup, bir-bir bizi çağırıp, addarımızı sorusup, yanındaki adam da dəftərə yazırdı. Sora da ittihamlarımızı təfhim elirdi. Nöbə Mirbağır Hacızadəyə yetişdi. Adın yazanan sora afser dedi:

– Yaz! Mirbağır Hacızadə cərm: vətən furuşi.

Hacızadə dedi:

– Cənab sərhəng, mən harada vətənimi satmışam. Həmişə sata da bilmərəm. Əsla tutax ki, satıram, alan kimdi?

Sora əlinən Aynalı dağın göstərdi dedi:

– Bu dağa elə bil vacibi qoyublar, bi dana ot bitmir. Suzuzundan ilan ləhlir... . Bax, bu dağı yerli-dibli satıram. Heş sən özün onu alasan?

## ƏBAÇI OĞLUNUN SİM MƏRSİYƏSİ

Rza şah zamanında Şex Tehrani adlı bir ruhani çıxmışdı. Minbərdə muazə və mərsiyə özünə əməlli mövzulardan danışıp, bir çoxlarını başına yığmışdı. Tehran radyosu da Qəmərəlməlik vəzirinin oxumalarını yapır və çox cavanları özünə tərəf çəkmişdi. Hər ikisi də adi mərsiyə xuvanların bazarın kasadlığı çıxartmışdılar. Bir gün Əbaçı oğlu bu vəzirdən gileylənip minbərdə demişdi:

– Daha axıralzaman olup, qocalarımızı Şəms apardı, cavanlarımızı Qəmər.

Həmin dövrdə minbərlərdə türkçə muayizəni qadağan elillə, Əbaçı oğlu da etiraz üçün çıxıb minbərdə elə farsca danışır ki, hamı gülməkdən meçitdə yan-yana yatır.

## QURD

Min üç yüz qırxlarda bir il qış betər şaxta-borannı keçdi. Elə o qışda aj qutdar kətdərə, bəzən də şəhərlərin haşiyəsinə həmlə elirdilər. Əhalidə çoxlu qorxu yaranmışdı. O cümlədən, bir qurd da Təbrizin Maralan məhəlləsinə yügürüp, bir arvadı yaralıyıb, bir kiçik uşağı özüynən götürüp, aparmışdı. Onnan sora Təbrizin məşhur vaizi olan "Nəsirzadə" minbərdə belə danışmışdı:

– Ay bala, diyillə qurd gəlip şəhərin bir məhəllərində camaatı qorxudup, xalxın arvad-uşağına dolaşıp... Mən də diyirəm, balam, da bu qurd olmadı, bu sərqurd (sərgərd) oldu.

## O YANA DÖNDƏR MƏNİ

Nəsirzadə minbər başında şah hökümətinin əleyhinə çox danışırdı. Dili diş durmazdı. Çox vaxlar onu tutup, oyana –buyana təbid elərdilər. Bir gün də Bəndər Abbasa təbid həkimi gəlincə məşhur oxumağı minbərdə oxumuşdu:

Oyana döndər məni,
Bu yana döndər məni.
Dilinnən yaralıyam,
Bəndər Abbasa göndər məni.

## NƏSİRZADƏ: BƏLİ!

Bir gün guya Ərtişin timsarlarından biri mərhum olmuşdu. Onun təziyəsində Nasihzadə minbərə çıxıp diyir:

– Ölüm haxdı, hamı bir gün öləcax, gəl nəfs zaeqəlməvt. Ölüm baxmaz ki, bu sərbazdı, ya əfsardı gələndə sərbazda gedir, ağa. Əfsar da gedir.

Sora üz tutur məclisdə oturan sərhənglərin birinə:

– O cənab Sərhəng diyir bə çiynində üç qupqası olsa, ölməz... Xeyir yanından atılan o xarast gəlsə də sərhəng də durduğu yerdə düşüb ölür...

Sərtip olanda nəvələri ki, üz tutub məclisdə oturan sərtiplərin yerinə:

– Ağa, çox da döşüvündəki medala qürrələnib fəxr eləmə! Elə sən də vaxdı gələndə gedəcaxsan, öləcaxsan. Necə ki, bu mərhum cənab Timsar da dünənə kimi sağ idi, amma bu gün qara torpaxlar altında yatıp.

– Ay camaat, siz di siz məmləkətin sərləşkəri ölməz, xeyir sərləşkərlər də ölər. Siz di siz məmləkətin vəziri ölməz! Vəziri də ölər, vəkili də...

– Siz di siz bə ki məmləkətin Sədr Əzmi (nəxsət vəziri) ölməz! Sədr Əzim də ölər.

– Siz di siz bə ki...

Nasihzadə burada bir az süküt eylər. Elə ki, hamı öz fikirlərində Sədr Əzimdən yuxarda olan şahın ölümünü düşündülər... Gözlərini qıyıb, başını tayıd əlaməti kimi aşağı apatayıp diyir:

– Bəli...

## SARI QULUXANIN BALACA OĞLU

Diyillə, Sarı Quluxanın bir oğlu olur, Təbrizin dübbələri yığılıp mırt üçün göz aydınnıx mahanasına Sarı Quluxanın evinə gedillə. Oğlanı da bələhdə gətirip qonaxlara görsədillə. Qonaxlardan bir-ikisi diyir:

– Xan ağa, sən özün belə şaqqavatdı, səsli-bəsli ola-ola bə bu oğlan niyə belə cürtühdü? (hədinnən artıx zəyifdi) Heş sənin oğluva bənzəmir.

Sarı Quluxan da diyir:

– Vallah da bənatı yağnan, tək əlinnən da munnan artıx düzəldəmmaxdıx.

## ÖZÜ TUTSUN, ÖZÜ DƏ YESİN

Kərimxana bir il quşu töhfə gətirillə, soruşur:

– Bu, nə iş görür?

Diyillə:

– Qurban, bu sizin üçün quş tutar gətirər.

Diyir:

– Özü nə yeyir?

Diyillə:

– Qurban, gündə dana, quş yeyir.

Kərimxan deyir:

– Ötürün getsin. Özü tutsun, özü yesin.

## HƏLƏ HARASIN DOLMUSAN?

Bir oğlanı evləndirmişdilə-qədim zamanlar evlənmaxdan əvvəl oğlanınnan qız bir-birin görməzdilə, ona görə də oğlan fikirləşir ki, qoy buna bir iş diyim, dursun ayağa, bir boyuna baxım, diyir:

– Ay xanım, dur mənə bir çay gətir!

Qız durup gedəndə oğlan görür ki, qızın bir ayağı axsıyır. Həm də boyu çox külədi. Hənnan-gəjdan qız pasıban görümüş bir çay süzüp çapcalıya-çapcalıya gətirir. Tutur oğlan götüsün, oğlan çayı götürəndə bir də baxıb görür ki, qızın bir əlinin altı barmağı var. Soruşur:

– Bəs bu nədi?

Qız cavab verir:

– Hələ halasın dolmusan?

## YA GƏRƏK KƏRƏ VERƏSİZ, YA GƏRƏK ƏRƏ VERƏSİZ

Birinin nənəsi çox qarıyıp qocalmışdı. Dişləri tökülüp, qulaxları tutulup yerimağa incarı yox idi. Xəstə düşüp evdə yatırdı. Oğlu gəlip bunu dalına alıp, aparır həkim yanına. Həkim bunu müayinə eliyənnən sora oğluna diyir:

– Bunun dərdinin iki dərmanı var: ya gərəh buna kərə verəsiz, ya da ərə verəsiz.

Nənəsi yaxçı eşitmədığı üçün oğlunnan xəbər alır.

– Hən, oğul, həkimə nə diyir mənim dərdimə?

Oğlu qulağına qışqırır:

– Nənə, həkim diyir ya gərəh kərə verəsiz, ya da ərə verəsiz.

– Hə elə diyir... oğul, axı məndə o diş hardaydı kərə yiyim?

## ARVAD YIĞIŞDIR BURDAN GEDAX

Bir qarı-qocanın evində bir pişih var imiş ki, oları təngə gətirmişdi. Kərdiyə girip küllərin şah budağın sındırdı. Ət oğurrurdu. Beləsinə pişdə dimax olmurdu. Qayıdıb adamı cırmaxlıyırdı. Bu pişiyi neçə dəfə aparıp uzax məhəllərində azdırılla. Sabahsı gün genə qayıdır gəlir. Başlır şuluxlux elamağa. Axırda bir gün evin kişisi pişiyi tutup bir torbıya salıp, bir səbətdə gətirip, minir atına gedir Araz qırağına, pişiyi torba içində qoyur. Səbətin üstünə səbti də qoyur Arazın axarıyan getsin. Sevinə-sevinə qayıdıp evinə gəlir.

Sən demə, bir az qabaxlıxda şah şikara gəlmişdi. Görür Arazın üstündə bir şey gedir. Durbun salır, görür əhuvuv səbət üstündə bağlı bir torbadı. Adamların göndərir ki, gedin o səbəti Arazdan tutun gətirin, görüm içindəki torbada nə var. Gətirip açıp görürlər ki, pişihdi. Şah şox cinnənir. Diyir:

– Gör, nə zalim adamlar var dünyada? Bu gözüllıxda Allahın heyvanın salıp torbıya, atıplar Araza.

Sora da bir amannamə fərmanı yazdırıb salır pişiyin boynuna. Pişiyi ötürür getsin.

Pişihdə gecələri ulduzlara baxa-baxa neçə günnən sora qayıdıp gəlir evlərinə. Kişi görür pişih gəlip, boynunda bir pitih var. Açıp oxur. Görür yazıp:

– Bundan sora hər kəs bu pişiyə toxunsa, şahınnan tərəfdi.

Arvadına səslənir:

– Arvad, du yığışdır biz gedax.

Arvad diyir:

– Niyə?

Diyir:

– O vaxtacan ki, bu pişiyin şahdan fərmanı yox idi, bu evdə başımıza itin oyunun gətirirdi. İndi ki, şahdan da fərman alıp da evi bizim başımıza yığmasa əl çəkən günü yoxdu.

## EŞŞƏK QAZİYƏSİ

Bir yoxsul ata-ana oğlannarın evləndirmağ istəyirdilər. Bir gecə oğlannan gizlin danışırdılar ki, neyniyyax neynəmiyyax. Anası diyir:

– Kişi, olmasa eşşəyimizi sat, o gedənin toy xərcin duzladax.

Atası da bunu boynuna alar. Sən demə, oğlan da duvarın dalından qulax asırmış. Örüyündə çox sevinir. Sabahısı gecə oğlan genə qulax yatırdar. Amma bir söz eşitməz. Bir neçə gün keçər, oğlan görür heş bir xəbər olmur. Axırda üz tutup anasınnan soruşar:

– Ana, bəs o eşşəh qaziyəsi necə oldu?

## HACI, SÜRTƏCAĞAM

Nayib Qaffar Tabaqçının yaxşı adətlərinin biri buymuş ki, hamama gedəndə hamam əsbabını (qitə, qətifə, lif, kisə, ayaq daşı və. ) evdən aparardı. Hamamın ümumi vəsayıldan istifadə etməzdi. Bir gün hamamda xəzinəyə girip, qitəni suyun içində belindən açıp öz kürəginə, boynuna sürtürmüş. Xəznədəkilərdən biri ona yaxınlaşıp diyir:

– Ay kişi, bu iş üçün hamamçıdan icazə almısan, ya yox? O qitəsini fəqət övrəti örtmaxdan ötür verip, bədnivi sürtmağa vermiyip.

Nayib Qaffar bu sözdən pərt olur. Buna görə o adam bu sözü diyip bir tərəfə çəkilənnən sora Nayib Qaffar qitəni bədəninə sürtə-sürtə ona yaxınlaşıp, qulağına yavaşdan diyir:

– Hacı, sürtəcağam. Yaxcı elirəm. Sürtəcağam, çox əcəb elirəm. Sürtəcağam.

Adam pərt olub sudan çıxır. Peşxanda kisə çəkdirmağa uzanır kisə çəkən başlır onu kisələməğa. Nayib Qaffar da öz kisəsin ələ alıp onun yaxınında oturub, kisəni bədninə çəkə-çəkə genə də diyir:

– Hacı, sürtəcağam. Sürtəcağam.

Hacı lap əsəbiləşib, sabın çəkdirip, tələsə-tələsə paltarrarını giyir ki, çıxsın. Nayib Qaffar da onun dalınca çıxıp paltarını ginə-ginə yavaşca qulağına diyir:

– Hacı, sürtəcağam.

Hacı tez hamamdan çıxıb evinə yollanır. Nayib Qaffarda düşür onun dalısına addım başı diyir:

– Hacı, sürtəcağam.

## ƏL-ƏYAĞIVI YIĞIŞDIR GETMƏLİSƏN

Bir gün uşaqlar şəhərdə bir sadə kişini ələ salmaq üçün bir qurbağa tutub, gətirirlə qoyarla qabağına diyillə:

– Nə verax bu qurbağanı yeəsən?

Kişi acılanar diyir:

– Bu nə sözdü, meyə mən qurbağa yiyənəm?

Uşaqlardan biri diyir:

– Yüz tümen versax, necədi?

Kişi dalın çövürür qurbağaya diyir:

– Xeyir, bu əsla olan iş deyil.

Biri diyir:

– İki yüz tümen verirem.

Kişi diyir:

– Yox, baba, mən bu işi necə görüm?

O birisi diyir:
– Üş yüz tümen.
Kişi dönür qurbağaya bir baxıp diyir:
– Meyə bur qurbağanın yimax rahat işdi?
O biri diyir. Kişi bir də qurbağıya baxır, heşnə diməz.
O biri diyir:
– Səkkiz yüz tümen.
Kişi bir ağzının suyun utar, daha diqqətinən gözlərini qurbağıya zillər. O biri min tümen dimax, haman kişi qurbağıya diyir:
– Heyvan, əl-əyağıvı yığışdır getməlisən!

## YA HƏZRƏT MƏRYƏM, MƏNİ ÜZƏ QOYMAYA

İki Məsihi cavan bir-birinin təzə evlənmişdilər. Bir gecə yatağ otağında qızınan bir kiçik məsələ üstündə sözləri çəp gəlir. Bir-birinnin küsəllə. Oğlan da təhr eylər, acığınan otaxdan çıxar eşiyə, neçə dəqiqə keçir, oğlan bu işdən peşman olar. Amma bu üzünnən gəlmirdi qeyitsin otağa. Öz-özünə diyir, qoy qapının açar yerinnən baxım görüm qız neynir.

Sən demə, qız da peşman olmuşmuş. Baxar, görür qız iki ovucun qoyup bir-biri üstünə diyip çənəsinin altına diyir:
– Ya Həzrəti-Məryəm, yalvarıram, onu hər yannan olup tap gəti otaxda mənim yanıma.

Bir azdan sonra oğlan qapını açar ilə bil bir adam onu itəliyən kimi girər içəri. Hey dönüp dalına tərəf baxıp diyir:
– Yox, Həzrəti-Məryəm. Məni üzə qoyma ha, mən barışan deyiləm.

## ONU MƏN GÖNDƏRMƏMİŞDİM

Bir nəfər Allahlıq ədası edirdi. Tutub apardılar şahın yanına. Şah dedi:
– Heş bilisan ki, bildir də ayrı bir ağılsız adam peyğəmbərrıx ədası eylərdi. Onu tutup dara çəkdıx.

O da hiç özünü o yola qoymayıb diyir:
– Yaxşı eləmisiz, onu mən göndərməmişdim.

## CÖZVƏ DİYİRƏM

Bir nəfər peyğəmbərrıx ədası eylərdi. Şəhərin böyüh başların yığar başına diyir:

– Mən bu günnən sizə peyğəmbər gəlmişəm.

Soruşulla:

– İndi ki, sən peyğəmbərsən kitabın hanı?

Diyir:

– Mənim kitabım yoxdu. Dəftər gətirin cözvə diyəcağam yazasız.

## ZİRHUSUNA DA YAĞ QOY

Bir gün bir yekəpər buğu burma kişi girər qəssab tükkanına. Üz tutar qəssaba. Diyir:

– Endir əti! Kəs şəqqəni! Ver mənə bir üş pənabətdıx bu ətdən.

Qəssab bir bunun boy-buxununa baxır. bir də istədiği üş pənabətdıx ətə fikir verir. Görür bunun heykəlinə heş yaraşmır. Əlin aşağıdan yuxarıya qovzayıb diyir:

– Zir hovuv.

Kişi də özün heş sındırmaz, diyir:

– Zirhu, zirhusuna da yağ qoy.

## ON DƏNƏ QONAĞIN ÖLDÜRRƏM

Bir gün birinin evinə bir qonaq gəlir. Bunu çox təhvil alallar. Bu da yiyir kəngəri, salar ləngəri. Üş gün, beş gün, on gün keçər. Qonaq bulardan çıxmax bilməz. Ev sahibi lap məəttəl neyləsin? Xülasə, gedir həmsayasına hal-qəziyyəni danışır, diyir:

– Da bu qonağın əlinnən canə gəlmişəm. Tutup, bizim qapını çıxıp getmir evlərinə. Qonşu diyir:

– Bu işi mən sənə düzəldərəm. Sabah tüfəngimi götürüp çıxaram dama yalannan onu nişanə gedərəm.

Xülasə, ev sahibinin oturup belə bir nəxşə çəkillər... Sabah səhər qonağın sabahxana oturmuşdular eyvanda çay-çörək yeyirdilər. Həmsaya tüfəngiyini çıxar daha. Qonaq bunu görüp diyir:

– Diyəsən, sizin bu qonşu çıxıp dama.

Diyir:

– Hən, o səfeh gədənin biri hərdən bir çıxar dama. Sən çayıvı iş suvamasın.

Diyir:

– Axı, əlində bi danə tüfəngi var.

Diyir:

– Hən, onun bi danə tüfəngi var. Hərdən çıxar dama tüfəng atar. Sənin işin olmasın çörəyivi ye.

Qonaq bir tikə qoyar ağızna baxar dama diyir:

– Ay bala, o diyəsən bizə tərəf nişanə gətirip ha!

Diyir:

– Sən niyaran olma, heş bir p... yiyəmmir. Sən çayıvı iş soyumasın.

Tikə qalar qonağın boğazında diyir:

– Vallah, o bizi nişanə gedip, qorxuram birdən ata ha.

Diyir:

– Allahınnandı atsın.

Diyir:

– Necə yani?

Diyir:

– Axı mən bilirəm bunun bir danə qonağın öldürmüşdüm. Bu da əhd eliyip bi danə mənim qonağımı öldürsün. Amma sənin işin olmasın. Qoy bir səni öldürsün. And ola bu yediğimiz duz çörəyə onun on danə qonağın öldürməsəm kişi deyirəm.

## ƏBAÇI OĞLU VƏ OĞRULAR

Əbaçı oğlu məhərrəm ayının rövzəsini oxuyandan sonra pullarını alıb şamdan sonra evlərinə gedirmiş. Oğrular bu işdən xəbər tutur. Əbaçı oğlunun qabağını kəsib diyillər:

–Pulları ver, soyun!

Əbaçı oğlu diyir:

–Siz qıraxda durun, mən özüm soyunaram.

Əbasını qabasını çıxardır. Sonra onları möhkəm bağlıyıb yaxında olan dama atır. Sonra oğrulara diyir, gəlin aparın.

Oğrular görürlər əlləri boşa çıxdı, gedirlər. Əbaçı oğlu qapını döyüb paltarlarını ev sahibindən alır.

## ƏSGƏR QİLİFƏTİ TEHRANDA

Əsgər Qilifti təzə Tehrana getmişdi. Bir gün yolda qarnı ağrıyır. İstər məstərha getsin. Bir yeri yaxşı tapmadığı üçün taksiyə minib "Məscid Şah" məstərgahına gedir. Orada aftafa alandan sonra məstərahda zör verir. Fəqət, yel çıxır, oradan qayıdır topxanaya çatanda yenə qarnı ağırır xəyal edər yenə yeldi. O yan, bu yana baxıb yel çıxardır. Bu dəfə şalvarını batırır. Yerə tökülməmək üçün şalvarının ayaqlarını bağlıyır. Əyri-üyrü yerimək ilə misafirxanaya getmək istəyir.

Daldan gələn üç nəfər tibb məhsilləri xəyal edirlər mərizdir. Biri diyir:"Romastısmı var", biri diyir "anadan olmadı" üçüncüsü diyir, "gedək özündən soruşaq". Gəlib soruşanda Əsgər cavab verir, "Sağlığıza s. . şam".

## MOLLASAN, YA AXUND

İki nəfər şahsın yol ilə keçəndə gördülər bir əmmaməli gəlir. Onlardan biri diyir:

– Bu molladı.

O biri diyir:

– Ədə yox, axitdi.

Sonra razılaşırlar özündən soruşurlar. İkisi də gəlir mollanın yanına biri soruşur:

– A kişi, sən mollasanya axit?

Molla görür məgər molla desə (axit deyin) döyəcək, əgər axund disə molla diyən döyəcək. Diyir:

– Nə axundam, nə molla. Camaata söz danışanam.

Şahsunlar mollanı aparırlar yaxın kəndə və deyirlər:

– Bizim üçün danış.

Molla başlayır təharətdən danışmağa və deyir ki:

– Təharət alanda məqadizi təmiz yumalısınız.

Şahsunlar məqadi başa düşməyirlər. Bir-birinə baxırılar sonra soruşurlar:

– Ay axit hey!. . Məqad nə olan şeydir?

Axund cavab verir:

–G... dir.

Şahsunlar bir-birinə baxıb diyirlər:

– Ay molla, sən nə dərin mollasan biz bu çağadək məqad adlı g... eşitməmişik.

Bir az sonra mollanı yola salırlar.

## DƏRVAZADAN KEÇMƏK

Bir gün kefli tiryaki və bir həşiş çəkən gecə yarı şəhərin darvazasına çatdılar. Kefli dedi:

– Gəlin darvazanı sındıraq keçək o üzə.

Həşiş çəkən dedi:

– O lazım deyil, kiçik olaq darvazanın deşigindən içəri girək.

Tiryaki dedi:

– Bunların heç biri lazım deyil, səbr eləmək, səhər darvazanı açsınlar.

## İKİ QRAN ARTIQ ALIB

Əbaçı oğlu bir gün minbərdə məşrubun zərərlərindən danışaraq deyir:

– Məlunlar içirlər, yeyirlər kababı dönürlər diyirlər mançı xoruruzna. Pullarını heyif edib şişəsi 4 qırana araq alıb zəhrimar edirlər.

Bu mövqedə Sarı Qulu xan yerindən səslənir:

– Ay ağa! Ay ağa! Nökər sənin başıva börək qoyub, 2 qıran artıq alıbdır.

## EŞŞƏYİN QOHUMLARI

Sarı Qulu xan bir gün eşitdiki, Əbaçı oğlunun eşşəyi mərəz olmuş. Bir neçə nəfəri yığıb gətirir Əbaçı oğlunun qapısına. Döyürlər, deyirlər gəlmişik eşşəyi görməyə.

Əbaçı oğlu nökərin çağırır:

– Ay Qulu! Ay Qulu! Tölənin qapısını aç, eşşəyin qohumları onu görməyə gəliblər.

## ƏBAÇI OĞLUNDAN VERGİ

Əbaçı oğlunu maliyə idarəsi çağırıb ondan sual edir:

– Sənin gəlirin ayda nə qədərdi?

Cavab verir:

– Ayda 20-25 tümən.

Soruşurlar:

– Sən bu az pul ilə necə dolanırsan?

– Sizin acanlar (ajanlar) kimi.

(O tarixdə ajanlar yeddi tümən haquq alıdılar).

## MƏNİ ÜZDƏN APAR

Əbaçı oğlu bir gün təzə nökər gətirir. Arvadına diyir:

– Təzə gələn nökərə çörək xırdası vermək, əgər xırda çörək olmasa xırdalayıb vermək lazımdı.

Nökər 5-10 gün çörək xırdasını yeyib danışmayır. Bir gün Əbaçı oğlu bazara gedəndə arvad-uşağından soruşur:

– Sizə nə alım?

Hər kəs bir söz diyir, bir şeyi istəyir. Sonra nökərindən soruşur sənə nə alım. Deyir:

– Mənə quş dimdiyi.

Əbaçı oğlu səbəbini soruşur. Nökər diyir:

– Ağa, siz verən çörəyi dimdik ilə yemək.

Əbaçı oğlu öz yanında xəcalət çəkib arvadına deyir, nökərə yaxşı çörək versin.

## RAHAT OLASAN

Sarı Qulu xan tərif edir ki, mən araq içməyi tövbə etmişdim. Bir gün xiyabanda araqçı dükkanı qabağından keçəndə ayaqlarım dayandı qüvvəm azaldı. Mən nəfsimə dedim, yox olmaz. Mən töbə etmişəm.

Bir az getmişdim ki, yenə gönlüm istədi, qayıtdım dükkana sarı orada yenə də nəfsimi təğyir edib dedim ki:

– Töbə eləmişəm, içməyəcəyəm. Dükkandan uzalaşdım.

Sonra nəfsimə dedim:

– Sən mənim sözümə baxdın, gəl gedək sənin üçün bir çətvəl araq alım. Rahat olasan.

## TƏPİK

Qara Qulu xan tərif edir ki, bir gün Tehrana təzə gəlmişdim. Cibimdə pulum yoxdu. Özüm də ac idim və araqda gönlüm istəyirdi. Qaldım məəttəl dedim, "nə olur olsun gedəcəyəm bir restorana". Gəldim oturdum lazım gələn əzanı dəstur verdim, içdim. Qurtarandan sonra qarsonu çağırıb dedim:

– Bir adamın pulu olmayanda siz nə edirsiz?

Qarsun dedi:

– Mən bilmirəm qoy ərbabı çağırım.

Restoran sahibi gəldi. Ona dedim, mən əza etmişəm, pulum da yoxdur nə etmək? Restoran sahibi mənə bir təpik vurub dedi:

– Belə bu cür etmək.

Qara Qulu xan gəlib Tehranda cəryanı Hacı Çələbi, Sarı Qulu xan və Hacı Mirzə Ələnqi Gəncəliyə deyir, qərara qoyularbərabər həman restorana getsinlər. Gəlib bir miz başında otururlar, istənilən əzanı dəstur verirlər. Yeyib qurtarandan sonra Hacı xan qarsonu çağırıb ərbabın gəlməsini istəyir. Ərbab gəlir, təpik məsələsi yadına düşür. Çələbi deyir:

– Biz də təpiyi yeməyə hazırıq.

Ərbab ilə şuxluq edirlər. Ərbab onlardan xoşu gəlib onları gecə də qonaq edir, dost olurlar.

## MİYALLAQ DURMAQ

Qara Qulu xan Təbrizdə maliyə idarəsində işlərdi. O tarixdə əmrinə maliyə müstəşarlarından Məstər Cunəs Təbrizdə maliyə rəisi idi. Bir gün müvəqqəti surətdə Qara Qulu xanı işdən salırlar ki, farsca malik etməyə mərufdur. O, gəlir rəisin yanına salamdan sonra başın qoyur yerə ayaqların qalxızır. Rəisin təəccüb edib mətrəcəmdən səbəbini soruşur. Qulu xan ana dilində mətrəcəmə diyir:

– Siz məni məluq etmişsiniz. Mən də mayaqllaq durub məluq olmağımı nişan verdim.

Tərcümədən sonra rəis dəstur verir, onun işini versinlər.

## DƏVƏYƏ MİNMƏK

Təbriz müstəşarı Məstər Cənusun suvarı maşını var idi. Təbrizdə ona minirdi. Bir gün maliyə idarəsi həyətində bir dəvə gördü ki, Qulu xan da onun yanında durub rəis maşına minəndə o da dəvəyə mindi. Rəis təəccüb edib soruşdu. Qulu xan dedi:

– Ağayi-rəis, sizin maşınız var, minib gedirsiz, pulu olmayanlar duruşkiyə (faytona) minirlər. Çün mənim pulum yoxdu. Dəvəçiyə on şahı verib dəvəyə minib gəlib gedir.

Rəisin Qulu xan sözündən xoşu gəlib dəstur verdi, gedəndə ona iki firan gəl-get pulu versinlər.

## HÜSEYİN FIŞKAÇI

Hüseyin Fışkaçı faytonçuluq və zurna çalmaq ilə işini keçirirdi. Bu il qurban bayramından qabaq Ərdəbilə gedir pul qazansın. Hər nə çalır kafi pul əlinə gəlmir. Qədir bayramı olur, ondan da yenə bir şey qazana bilmir. Məhərrəm ayı gələndə vavilası guya çıxır. 20 tümən qəhvəçiyə borclu olur. Pul üçün avara qalır. Pulsuz Təbrizdə evinə getməyə utanır. Aşura günü yaxın olanda dostlarından biri onu çox qəmli görür. Səbəbin soruşduqda o həqiqəti söyləyir. Dostu deyir:

– Gəl qətl günü şəbbə Şimir ol.

Hüseyin qəbul etmir, diyir:

– Mən Şimir ibn Səid olanmaram.

Dostu diyir:

– Mən Frat suyunun məmurluğunu düzəldərəm əlli tümən də pul alaram.

Hüseyin görür pul çoxdu razı olur ki, iyirmi tümen qəhvəçinin pulunu veririəm, on tümen yol xərci götürürəm və iyirmi tümən də arvad-uşağıma aparram. Pulu hazır edilər. Hüseyin qəhvəçinin pulun verir. Qətl günü iki nəfər məmur ilə çay qırağında şəbbə paltarlarında durur. Özü nəql edir:

– Birdən gördüm bir qoy heykəl şəmşir əlində uca boylu bir şəxs gəldi uca səslə dedi:

Suyu siz qoymayırsız?

– Qurban olum, mən qələt eliyirəm suyu qoymayıram. Mən ərəb deyiləm. Mənn Hüseyin fişkaçı Təbrizliyəm. Nə qədər su istəsəniz aparın. Mən borcumu verməyə və ayiləmin təmini üçün əlli tümən almışam. Ağa, başıva dönüm, mən ilə işin olmasın.

Təbiidir istənilən nəticə alınmayır. Deyir, yoldaşım və özgələri məni danladılar. Vəli, mən yoldaşıma dedim ki, gördün mən bacarmaram.

## EŞŞƏKDƏN AZAR İSDƏMƏK

Məstufi Təbrizdə hakim olan zaman Təbriz əhalisinin yeməyi üçün mərkəzdən arpa istəmişdi. Söz gələndə demişdi Təbrizlilərə arpa bəsdi. Söz təhqir edici olduğu üçün xalq ondan narazı oldu. Cürəbəcürə yollar ilə narazı olmaqlarını göstərdilər. Bir gün Məstufi bir dükkan qabağında durmuşdu. Ənfaqi olaraq Əsgər Qilifəti də orda imiş. Ordan bir neçə eşşək keçir. Əsgər Qilifti gedib eşşəklərin boynunu qucaqlayıb uca səslə deyir: Bizi bağışlayın ki, sizin ruzunuza şərik olub yeyirik.

## HÜNƏRİ VAR İKİ DƏNƏ SƏNGİK ALSIN

İkinci dünya davası zamanı Təbrizdə də çörək azaldı. Onu almaq üçün saatlarla vaxt lazım idi. Bu məsələni həl etmək üçün camaat şəhər darı salonunda cəm olurlar. Çörək haqqında danışanda bəziləri Hitlerin fəthindən danışırdı. Əsgər Qilifti danışmağa icazə istədi. Söz alandan sonra dedi:

– O qədər Hitlerin tərifin etməyin, əgər qeyrəti və qüdrəti var gəlib Təbrizdə iki səngik alsın.

## ƏSGƏRANLI VƏ BAŞ DOLANDIRMAQ

Əsgəranlı bir gün dik başında durmuşdu. Təbriz tacirlərindən biri ona kömək etmək məqsədiylə 5 tümən pul verir və deyir:

– Get başıvı dolandır.

Əsgəranlı da pulu alıb, başlır başını fırlatmağa, hər kəs soruşur:

– Əsgəranlı, nə eyləyirsən?

Cavab verir:

– Hacı ağa, pul verib və deyib başın dolandır. Mən də dolandıram.

* * *

Bir gün Sarı Qulu xan bazarda dolananda gördü ki, Hacı Hüseyin Bazaz bir dəstmal çənəsinə bağlayıb. Soruşur:

– Hacı ağa, niyə çənəvi bağlamısan?

Cavab verir:

– Dişimi qurd yiyib, əngim şişib.

Sarı Qulu xan diyir:

– Bir köpək boğuza bağlasaydın qurd qorxub gəlməzdi.

Hacı da fura diyir:

– Səni tapmadım.

Sarı Qulu xan diyir:

– Yaxşı olub tapmamısan. Mən qurddan qorxaram. Görən kimi ağzıvı batıraram.

* * *

Dəlixanada dəlinin biri ağacın altında şaqqanaq çəkib gülür. Dostu yaxınlaşıb soruşur:

– Nəyə gülürsən?

– Heç! Mən həmişə öz-özümə gülməcə deyib gülürəm. Ama bu birini heç eşitməmişdim.

* * *

Molla Nəsrəddinin oğlu yanına gəlib deyir:

– Ata yuxuda sən mənə bir dinar pul vermisən.

Mola Nəsrəddin cavab verir:

– Bir oğul kimi səndən çox razıyam, oğul, odur ki, verdiyim o dinarı geri almaq fikrində deyiləm.

* * *

Usda ösdədən soruşur:

– Oğul, nədən qışda günlər qısalır?

Ösdə usdaya belə dönür:

– İstidə hər nə uzanar, soyuğda qıssalar.

* * *

Qoşunda bir saldata, cürətinə görə ənam vermədə jenral sorur:

– Saldat, ənam olaraq bir midal istirsən, ya yüz dollar?

Saldat:

– Bazarda midal neçədir?

Jenral:

– Beş dollar.

Saldat:

– Onda, lütf edib bir midalla, qoxsan beş dolar nəğd verin.

* * *

Məçiddə bir oğlana deyilir: “Olan, bəs bu taykesik corablar nədir?”

– Vallah, özüm də matam, elə evdə də bir cüt beləsi varımdı.

* * *

İki çeri bir-birinə üzbəüz çıxırlar (ucraşarlar, raslaşarlar). Biri:

– Dadaş, qoy mən, Arazdan keçim.

O biri:

– Olsun, amma bir-bir.

* * *

Yenicə tanışlar:

– Əzizim, de görüm sənin ilk eşqin mənəm.

– Əlbətdə ki, sənsən. Amma qalmışam ki, nədən hammı kişilər bunu soruşurlar.

* * *

Dəlilər olur, boş hovuz. Həkim beş dənə dəliyə deyir:

– Yallah, beşiz də düşün hovuza, üzün.

Dəlilərdən dördü girib hovuzda çabalamağa başladılar. Həkim beşinci dəliyə dedi:

– Han, elə bil ki, sən düzəlmisən.

Dəli:

– Həkim bəy, yox bağışlayın, axı mən üzmək başarmıram.

* * *

Bir biləgən (alim) bir zalim xanın qulluğunda oturmuşdu. Xan:

– Ey biləgən, nədən susub danışmırsan?

– Vallah, nə deyim, düzün desəm, sizdən qorxuram, yalan desəm, Tarıdan, nə yaxcı ki, susub durum.

* * *

Deyirlər bir gün də Əbaçı oğlu Şəms Tehraninin acığına minbərə deyir:

Ağlardan xavahişd eliyiblər ki, minbərdə elmi danışax. Biz də elmi danışırux, burda söhbət simnnən gedir. Ağa, üç cürə simimiz var: bir o simdi ki, alasan əlivə, deyəsən qulağıva: kef-əhval, navar, nə yox? Gəl bizə gəlim sizə... həmən bu telefon simidi. Bu sim Müsəlmannanarın işinə yarar, şərədə cayizdi, heç işqalı da yoxdu. Bir o simdi ki, alasan əlivə dayıyasan döşüvə: zəlim-zimbuvu, dəlim-dimbuvu çalasan... . Bu ləhu və labidi qınadı. Bu tar simidi. Bu şərədə caizdi, çox da məsiyyəti var... . Bir də o simdi ki, alma əlivə... . əlivə almağ həman... inallah və inna ileyh raciun. Ağa, bu da bərk simdi.

* * *

Bir gün Əbaçı oğlunun öz eşşəginə minib xiyabandan keçəndə acan(ajan) qabağını kəsib dedi:

– Dayan.

Əbaçı oğlu etiraz edib dedi:

– Sənin məni saxlamağa haqqın yoxdur. Əgər xilaf etmişəm, eşşəyimin quyruğunu qalxız nömrəsini yaz.

# TƏBRİZ SARIMALARI

1. – {filankəs} ömrünü sənə verdi.
– Ömrü üzsəydi, özü yaşardı.

* * *

2. Görəsən {filankəs} niyə öldü?
– Çoxdan idi ölməmişdi.

* * *

– Çoxdandı görüşmurux?
– Hardan görüşəciyix, mən meçidə gəlmirəm, sən də ki meyxaniya.

* * *

– Sən urussan?
– Yox, urus mənim qardaşımdı. Mənim adım Məhərrəmdi.

* * *

– Çox yemə ha! Kəhliyin azar.
– Mən ilə azan kəhliyin özünü də deyir.

* * *

– Sən orucu tutanda neynəssən?
– Vallah, mən orucu tutmax həmin yeyir.

* * *

– Çox yedin ha!
– Mən hələ nəmnə yedim ki, yeyin o rəhmətdıx təkin olar.

* * *

– Orucu havax yemax olar?
– Acalanda.

* * *

– Sən də saz çalasan?
– Yox, mən bu il yuavrət çalıram. İşallah, gələn ildən başlıyacağam saz çalmağa.

* * *

– Çoxdandı yuvunmamısan, dur get hamama!
– Əl çək, baba, öləndə mirdəşir yuvacax.

* * *

– Bir az keyifsizəm, sizə gəlmərəm.
– Olmasa, keflən ge da!

* * *

– Bilmə soyux dəyib.
– Sən soyuğa dəyəydun da.

* * *

– Görsənnən yerlərivi soruşmuram!
– Saat neçədi?
– Satdıx day?

* * *

– Saat neçədi?
– Sərçədi.

* * *

– Nahara nə qalıp?
– Dünənin şamınnan.

* * *

– Saat neçədi?
– Düz dünənki vaxtdı.

* * *

– Buyur, bir çay içax.
– Çox sağ ol ilə indi çay qırağınnan gəlirəm.

* * *

– Mənim bir dənə bağım var.
– Hə mənim də iki dana tuman bağım var.

* * *

– {filankəs} xariciyə gedib.
– O xariciyə getsə, xarici hara gedər?
Dedi: {filankəsin} evində qonaqlıqdı.
Dedi: mənə nə?
Dedi: axı, səni də çağırıpla.
Dedi: bəs, sənə nə?

* * *

Dedi: dişimi qurt yiyip.
Dedi: dişivin dibinə bi danə it bağlıyaydın da!

# TOY ADƏTLƏRİ

## GÜNEY MAHALINDA YERLƏŞƏN NEMƏTULLA KƏNDİNİN ADƏT VƏ ƏNƏNƏLƏRİ

Bu kənd Sofyan və Şəbistərin arasında yerləşir. Kəndin tarixi çox qədimlərə getməsə də, burda xalçaçılıq sənəti çox inkişaf etmişdir. Bu sənət ilə yanaşı kənd təsərrüfatı mexaniki şəkildə işləyir. Buğdası, qovun və sarı qarpızı dillər əzbəridir. İnsanları qonaqsevər və mehribandır. Burda gedən toy adətləri təkcə bu kəndin yox, bütün Güney mahalının adət-ənənəsidir.

## EVLƏNMƏK

Əvvəlcə oğlan tərəfindən bir neçə qız-qadın qız evinə gedər. Bir az ordan-burdan danışandan sonra oğlanın anası deyər, gəlmişik oğlumuzu nökərliyə qəbul edəsiz. Qarşı tərəf isə cavab verər, yaxşı, gərək ki, böyüklərlə məsləhətləşək. Bir azdan sağollaşıb gedərlər. Qız adamları öz aralarında qohum-əğrabaynan məsləhətləşəndən sonra qızı verməli olsalar, öz razılıqlarını oğlanın evinə çatdırarlar. Bundan sonra bir geçə bir necə nəfər bir kəllə qənd və şirniyyatla qız evinə gedərlər. Danışıqlar, söz-söhbət böyüklərin arasında gedər. Kəbin və başlıq qərarını da verərlər. Qoyulan qərarlara hər iki tərəf razılaşandan sonra səlavat çörəllər. Gətirilən kəllə qəndi sındırallar. Şirniyyat yeyib, çay içib ayrıca söhbətlər edərlər. “Mübarək olsun”, “Allah xoşbəxt eləsin”, deyəndən sonra sağollaşıb gedərlər. Bu mərasimə “şirni içmə” deyərlər. Sabah, ya ayrı bir gündə qadınlar bir üzüklə qız evinə gedərlər, bir balaca şadlıq edib çalıb-oynamaqdan sonra üzügü qızın barmağına taxıb xeyir-dua verərlər. Bu günə də “üzük taxma” deyərlər. Bundan sonra müxtəlif bayramlarda çillə gecəsi və axır çərşənbə axşamı qız evinə hədiyyələr və şirniyyat aparárlar. Habelə Qurban bayramında bir kisə həna və qurbanlıq əti, bir donluq və çadralıq və digər parçalar apararlar. Həmçininçillə gecəsidə bir qarpızla

yanaşı, başqa hədiyyələrdə aparарlar. Oruc bayramında da həmçinin. Novruz bayramına bir neçə gün qalmış, yəni axır çərşənbə axşamı daha da təmtəraqlı və qiymətli hədiyyələr oğlan evindən qız evinə apararlar. Habelə, axır çərşənbə axşamı qız evindən oğlan evinə tabaxda şirniyyat və başqa qurudulmuş meyvələr, toxunmuş corab və dəsmal göndərəllər. Buna da "adaxlılıq" deyərlər. Hər aradan bir oğlanın yaxın adamlarını qız evinə və digər qohumları qonaq çağırar. Toya neçə gün qalmış qıza gəlin paltarı tikmək üçün bir sıra parçalar alıb bir qədər şirniyyat ilə qız evinə apararlar. Eləcə də qız evində o gün şənlik edib oxuyub, oynarlar. Gedənlərlə birlikdə bir dərzi olar. Gəlinin paltarını biçib tikəllər. Bu günə də "paltarbiçmə" deyərlər. Toy isə iki gecədən yeddi günə qədər olar. Əvvəl gecəsinə həna gecəsi deyərlər. Bu gecə oğlan evində iki nəfər yemək yeyəndən sonra oğlana ən yaxın adam sağ diş, sol diş durarlar. Yəni üç şam yandırıb birini oğlana, birini sağ yanında durana, birini də sol yanında durana verərlər. Burda oğlanın durmasına "bəy durma"deyərlər. Həmin mərasimin bənzəri də yəni sağ diş, sol diş mərasimi qız evində də olar. Orda da qız, yaxın qohumları oğlanın yanında duran kimi qızın yanında da durarlar. Sağ diş, sol diş duran zaman həm gəlin, kürəkən, həm də yanındakılar məclisin başında durarlar ki, ancaq üzlər qibliyə sarı olsun. Bu mərasimdə aşıqlar çalıb oxuyarlar. Bəy durduğu zaman aşıqlar bəyi tərif edib ənam alarlar. Bu mərasimə görə xüsusi oxumaqlar və oynamaqlar var. Digər qohumların tərəfindən aşıqlara nəmər verib bəyə tərif etdirərlər. Oğlanın sağ dişi gecə toyda olanlara sabah günorta çağı nahar verərlər. Qızın sağ dişi qıza yaxınarvadlara nahar verib gəlini bəzərlər. Oğlanın sol dişi oğlanı, qızın sol dişi qızın yanınca gedənləri hamama apararlar. İkinci gecə oğlan evindən qız evinə gəlin aparmağa gələrlər. Bu gələnlər oğlana ən yaxın qohum olan kişi və arvaddardan ibarət olar. Burda oğlanın atası və ya böyuk qardaşı onların tərəfindən ayrı bir kişi dəgəlinin belini bağlamağa arvadların içinə gələrlər. Xeyir-dua verib şalnan onun belini bağlarlar. Və deyərlər:

Anam, bacım qız gəlin,
Əli ayağı düz gəlin.
Yeddi oğan istərəm,
Bir dənə də qız gəlin.

Gəlinin belin bağlayanda qaynata papağını gəlinin başına qoyar. Belini bağlayandan sonra qaynata papağını tez götürməsə, digərlər götürüb oynayıb rəqs etmiyincə o papağı verməzlər. Buna görə qaynata tez papağını götürər. Bu mərasimə də gəlinin belini bağlamaq deyərlər. Qeyd etməliyik ki, bu mərasim bir neçə gün davam edər. Gəlini oğlan evinə aparmaq günü çatanda oğlanı gəlinin evinə dəvət edərlər. Gəlin əyağını qapıdan eşiyə qoyanda əyər gəlinin əyağını oğlan bassa, yaxud yadından çıxsa gəlin onunu əyağını basanda gəlin oğlana üstünlük qazanar. Belə deyərlər ki, gəlin diribaş olacaq. Nəhayət, gəlini evinə çıxardıqda qızın qardaşları və başqa yaxın qohumları gənclər və oğlanlar yolu kəsib gəlini aprmağa mane olarlar. Burda oğlan adamları bunların hər birinə bir kəllə qənd və ya başqa hədiyyələr verərlər, yol açarlar. Yolun yarısından oğlan sağ diş, sol diş ilə gəlinin qabağına gəlib ona alma atar. Buna da “alma atmaq” mərasimi deyərlər. Oğlan alma atandan sonra evinə dönüb bir ucu yerdə, ya dama çıxar gəlin qapıdan girəndə cibində ayarladığı şirniyyatı və pulları onun başına tökər. Nəhayət, sabah səhər hər iki tərəfə qohum olan arvadlar əllərində göz aydınlıqlarla gəlini görməyə gedərlər. Bu gün də axşama kimi çalıb-oynamaq davam edər. Bir gecə keçəndən sonra gəlinin ailəsi evində qonaqlıq verib bütün oğlan və qız adamlarını ora çağırarlar. Beləliklə, toy çal-çağırı sona çatar. Amma gəlin və elə kürəkənin yaxın qohumlarının hərdən biri yeni qurulmuş ailəni şama çağırar və bu yol ilə oğlan və qızın yeni qohumlarla tanışlığı olar. Bu çağırışada “ayaq açma” deyərlər.

## YENGƏ

Toy gününün səhəri oğlan evi ilə qız evi toy yerinə gələrlər. Yengə getməzdən qabaq gəlinə duvaq örtüb həyətə gətirər.

Bir oğlan uşağına oxluq verərlər. Uşaq oxluqla duvağı götürüb bir bar verən, yaxud meyvəli ağacın üstünə atar. Yengə ona pay verər. Sonradan iki ailənin qohumları yengəni xoşluqla, razılıqla yola salarlar. O günün axşamı isə bəyi üzə çıxarma mərasimi başlayar.

## BƏYİ ÜZƏ ÇIXARMA

Toy axşamının səhəri sağ diş, sol diş gəlib bəyi qonşu, yaxud qohumunun evinə aparıb çalıb-oynarlar. Bu şənlik axşama qədər davam edər. Axşam üstü bəyi öz evinə gətirərlər. Bu əsnada qohum-qonşu bəyin görüşünə gəlir. Yeyib-içib xoş söhbətlər edirlər. Bu görüşlərə "bəyin üzə çıxması" deyirlər.

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

Abid Əli Omcazı, Sancan, 78 yaşında, yazar. Söylədiyi mətn: "Yer yalanı danış, göy yalanı yox". Toplayan: H.M.Cəfərzadə.

Ağ Aşıq Qaraxanlı. Söylədiyi mətn: "Səni bura gətirən öl-sün". Toplayıb, yazıya alan: H.M.Cəfərzadə.

Aydın Qoca Vebəlaği. Söylədiyi mətn: "G.......ə sürtüş-mək". Toplayıb, yazıya alan: H.M.Cəfərzadə.

Baloğlan Cəmali, Xudafərin, Heydərəkanlı kəndi, 62 yaş. Söylədiyi mətn: "Alma satan qoca və Bəhlul Danəndə". Toplayıb, yazıya alan: Qənbər Seyfi.

Bətül Hacı İsmaili, Tufarqan, 60 yaşında, savadsız. Söylədiyi mətn: "Cimbli cimbü". Toplayıb, yazıya alan: H.M.Cəfərzadə.

Cəfərqulu Hüseynzadə, Ayvatlı eli, Qaranlıq dərəsi yaylası, 1934, təhsilsiz, çoban, Söylədiyi mətn: "Qurdun nağılı". Toplayıb, yazıya alan: Gülcan Gülməz.

Əli Müqəddəsi, Sarab, 28 yaş, savadlı. Söylədiyi mətn: "Qənd qurtardı ki, qurtardı səfi niyə pozursuz?" Toplayıb, yazıya alan: H.M. Cəfərzadə.

Əli M.Cəfərzadə, Tufarqanlı, Dipelm, 41 yaşında. Söylədiyi mətn: "Ölü durub mərdəşoyu yuyur". Toplayıb, yazıya alan H.M.Cəfərzadə.

Əli Cəfəri, Xudafərin Heçə kəndi, 75 yaşında. Söylədiyi mətn: "Börk götürənin nağılı". Toplayıb, yazıya alan: Qənbər Seyfi.

Əsfər Cəvandəl, Xudafərin, Cananlı kəndi, 58 yaş, Söylədiyi mətn: "Mal verməyənlə malından keçməyən". Toplayıb, yazıya alan: Qənbər Seyfi.

Əziz Falahtdust, Xudafərin, Darağzı kəndi, 53 yaşında. Söylədiyi mətn: "Ovçu Pirim və ilan padşahının nağılı". Toplayıb, yazıya alan: Qənbər Seyfi.

Gülüstan Təsəllizadə, Ərdəbil, Hımıs kəndi, 1951, təhsilsiz, ev xanımı, Söylədiyi mətn: "Dəri qızı", İşıqlı dünya" nağılları. Toplayıb, yazıya alan: Gülcan Gülməz.

Gülarə xanım Hacızadə, Darağzı kəndi, 65 yaşında. Söylədiyi mətn: "Kündə yeyən adam yeyən". Toplayıb, yazıya alan: Qənbər Seyfi.

Fərudun Behçət, Xuadafərin, Məfruzəli kəndi, 70 yaşında. Söylədiyi mətn: "İlanla atlının nağılı". Toplayıb, yazıya alan: Qənbər Seyfi.

Kəbra xanım Seyfi, Xudafərin, Heydərəkanlı kəndi, 45 yaşında. Söylədiyi mətn: " Donquzanqurdunun nağılı", Toplayıb, yazıya alan: Qənbər Seyfi.

Qiymət Aba, İskəmər, 78 yaş. Söylədiyi mətn: "Vaxseyin nağılı". Toplayıb, yazıya alan: Aqşin Ağkəmərli

Mərəd Əli Teymuri, Təbriz, 35 yaşında. Söylədiyi mətn: "Yağa da, yağmaya da elə qaragünlü bizik". Toplayıb, yazıya alan: H.M.Cəfərzadə.

Məcəlhi Həftəgi Nubhar. Söylədiyi mətn: "Əvvəl yerini qaz, sonra minarını oğurla". Toplayıb, yazıya alan: H.M.Cəfərzadə.

Məşədi Zeynal kişi, Xudafərin, Heydərakanlı kəndi, 86 yaşında, Söylədiyi mətn: "Siyavuş", Toplayıb, yazıya alan: Qənbər Seyfi.

Mübarəki Bəxtiyar, Təbriz, 35 yaşında, savadlı. Söylədiyi mətn: "Qoyun yarsın, özünü öldürsün". Toplayıb, yazıya alan: H.M.Cəfərzadə.

M.Cəfərzadə Əli Tufarqan, 41 yaşında, savadlı. Söylədiyi mətn: "Biz üçumüzü hara aparırsan?" Toplayıb, yazıya alan: H.M.Cəfərzadə.

M.Güneyli, Meşin. Söylədiyi mətn: "İskəmərdə uşaq oyunları" (bir hissə) Toplayıb, yazıya alan: Aqşin Ağkəmərli.

Nigar xanım Həsənxanlı, İskəmər kəndi, 85 yaşında. Söylədiyi mətn: "İskəmərdə uşaq oyunları" (bir hissə) Toplayıb, yazıya alan: Aqşin Ağkəmərli.

Nizam Rüstəmzadə, Ərdəbil, İlxıçı kəndi, 1939, ibtidai sinif təhsili alıb, çiftçi. Söylədiyi nağıllar: "İki qardaşın nağılı". Toplayıb, yazıya alan: Gülcan Gülməz.

Rəza Həmraz, Təbrizli, 45 yaşında. Söylədiyi mətn: "Beli qoy, bir az da külüngü götür". Toplayıb, yazıya alan H.M.Cəfərzadə.

Toy adətləri (Güney mahalında yerləşən Nemətulla kəndinin adət və ənənələri) Toplayıb, yazıya alan: Aqşin Ağkəmərli.

Səməd Behzadi, Ərdəbil, Bərəndə kəndi, 1937, təhsilsiz. Söylədiyi mətn: "Xoruz-Nəqəlxu", " Gülü-mola" nağılları. Toplayıb, yazıya alan: Gülcan Gülməz.

Vahab Əsgəri, Ərdəbil, Qızıl Dərə kəndi, 1942, ibtidai sinif təhsili alıb, əkinçi. Söylədiyi mətn: "Çobanın nağılı" Toplayıb, yazıya alan: Gülcan Gülməz.

Valeh əmi, Xudafərin, Kərdəzai kəndi, 55 yaşında. Söylədiyi mətn: "Zərgər və şikarçı". Toplayıb, yazıya alan: Qənbər Seyfi.

Şəmil Qəşəngi, Xudafərin, Xananəli kəndi, 55 yaşında. Söylədiyi mətn: "Qərəçi qızı və şahin". Toplayıb, yazıya alan: Qənbər Seyfi.

# LÜĞƏT

**A**

Abi-leysan (f) – bahar yağışı
Amadə (f) – hazır
Atağ (d) – qapının üst dirəyi

**B**

Bad (f) – külək yel
Badış (d) – xüsusi şəkildə toxunan corab
Bağrı-badaş (d) – aziq
Bahəm (f) – birgə, birliktə, bərabər
Bələk-püşə (d) – qundaq
Bərək (d) – şal
Bərgüzar (f) – yadigar verilən hədiyyə
Bimuzd (f) – muzdsuz,
Bir gərən (d) – bir müddət
Bitab (f) – yorğun, əzgin, qüvvətsiz
Börk (d) – papaq
Börk qoymaq (d) – aldatmaq
Böyüşə vermək (d) – özündən demək, mübaliğə etmək
Burqi (d) – qarın ağırısı, sancı, qulunc
Burqi (d) – qarın ağırısı, sancı

**C**

Cəbə (f) – zireh, dəmir
Cəngəl (f) – meşə
Cərdə (d) – yalançı, yolkəsən
Cəzirə (ə) – ada
Cida (f) – istək, iradə
Cöngə (d) – üçillik heyvan(inək)
Cum (d) – bütün

**Ç**

Çeşmə (f) – bulaq, qaynaq

**D**

Devikmək (d) – o yan, bu yana baxmaq
Dəbək (d) – səfeh, yüngül adam
Dəhmərləmək (d)-dümsükləmək, itələyə-itələyə bir yerə aparmaq
Dərban (f) – qapıçı
Dərbar (f) – şahın sarayı
Dəryabı (d) – su saxlamaq üçün qab
Dəstur (f) – vəzir
Dəvrikmək –(d) şübhəli davranmaq
Dızqıraxçı (d) – səfeh

**Ə**

Əcinnə (ə) – cinlər
Əkə (d) – böyük, yaşlı
Əqaqiyə – (beş ləçək)
Əlanə (ə) – indi, bu saat
Ənqərib (ə) – yaxın zamanda, tezliklə
Ərbab (ə) – yiyə, sahib
Əvədəmək (d) – minik heyvanın üzərində o tərəf-bu tərəfə hərəkət etmək
Əzəl (ə) – birinci, ilk, əvvəl

**F**

Fərik (d) – fərə
Fərş (ə) – döşəmə
Fırıldax (d) – hoqqabaz
Füzul (ə) – artıq, lazımsız söz və ifadə

**G**

Gəvəzələmək (d) – səfeh-səfeh danışmaq
Günələmək (d) – şikayət etmək

**H**

Hacət (ə) – ehtiyac, əşya
Helləşmək (d) – baş-başa verib, güc sınamaq
Həsinmək (d) – ehtiyat etmək

Hövül (d) – tələsik
Hövzək (d) – kürsünün altında kiçik təndir

**X**

Xəfləmək (d) – aldadıb tora salmaq
Xəzanə (f) – payız
Xir (d) – qorxu
Xof (ə) – qorxu, qorxma, təhlükə
Xudavənd (f) – rəis, başçı

**İ**

İdamə (ə) – davam etdirmə, davam, ard
İştibah (ə) – səhv, yanlışlıq

**K**

Kalafa (d) – böyük xarabalıq
Kirdə (d) – əkilməmiş yer, bağ
Köçün (d) – oynayan rəqqas
Köh (d) – durum, vəziyyət
Kuzə (f) – bardaq

**Q**

Qalqam südü (f) – kəngər
Qaramal (d) – nalsız at
Qecələ (d) – bir növ quş
Qəcir (d) – quş
Qəş eyləmək (ə) – özündən getmə
Qətrə (ə) – damcı
Qəvi (ə) – qüvvətli, güclü
Qəvi – heykəl (ə) – möhkəm heykəl
Qəza – yemək mənasında
Qıpığ (d) – xırda
Qıtmır (d) – paxıl, xəsis
Qocan (d) – yağışda geyinilən bir növ libas
Qocunmaq (d) – Yerindən oynamaq
Qövsi-qezeyh (ə) – göy qurşağı

**L**

Ləl (ə) – al rəngli qiymətli daş
Ləşkər (f) – qoşun, ordu
Lıqqa (d) – palçıq
Löpük (d) – nazik və saf daş
Löpük (d) – nazik, saf daş

**M**

Malağan (d) – buğda yığmaq üçün vəsait
Mədad (f) – karandaş, yazı mürəkkəbi
Məğz (ə) – əsas, gayə
Mərdüm (f) – insan, adam
Mərəs (d) – itin boynuna bağlanan zəncir
Məsanə (ə) – sidik kisəsi, sidiklik
Məsiyət (ə) – günah, təqsir
Məşəqqət (ə) – zəhmət, əziyyət
Mırtlaşmaq (d) – zarafat etmək
Muy (f) – saç, tük, tel
Mücəhhəz (ə) – təchiz edilmiş, əyər-əksikliyi düzəldilmiş
Mücəssəmə (ə) – heykəl, abidə
Müqəvva (ə) – möhkəmləndirilmiş, qüvvətləndirilmiş
Mürəttəb (ə) – tərtib olunmuş, sıralanmış
Müşkül (ə) – çətin, ağır
Müştaq (ə) – şövqü olan, arzulayan, bir şeyi çox istəyən

**N**

Nəcat (ə) – qurtulma, xilas olma, salamat qalma
Nədim (d) – məğrur adam
Nigəhban (f) – baxan, gözətçi, qarovulçu
Nırx (ə) – hökümət tərəfindən təyin edilmiş satış və ya xidmət qiyməti.

**Ö**

Övə (d) – üç illik qoyun

**P**

Pasıban (f) – gözətçi, qarovulçu

Paydar (f) – daima, həmişəlik,
Paymal (f) – ayaq altında qalan, təpikaltı
Pərvaz (f) – uçma, uçuş
Pərvərdigar (f) – ay Allah! İlahi! ya Rəbbi!
Piyalə (f) – qədəh, badə
Princ (d) – odun buxarısı

**R**

Rah (f) – yol, məslək
Rəna (ə) – gözəl, incə, lətif
Rəncbər (f) – zəhmətkeş, əməkçi
Rişxənd (f) – bığaltı gülüş, istehza
Rübənd (f) – üz örtüyü, üzə salınan pərdə

**S**

Sahibi – təcrübə, təcrübə sahibi
Sail (ə) – dilənçi, yolçu
Saleh (ə) – yaxşı, yararlı
Sarban (f) – karvanbaşı, dəvə saxlayan
Satır (d) – bıçaq itiləmək üçün vasitə, bilöv
Saytal (d) – iri, gözə gələn
Səhih (ə) – gərçək, doğru, düzgün
Səllim (d) – sərin yel
Səngək (f) – isti daş üzərində bişirilən yastı uzun çörək
Sərbaz (f) – əsgər
Sərbəsər (f) – başdan-başa, tamamilə
Sərgərdan (f) – boş-boşuna, işsiz-gücsüz, sərsəri
Sərinc (d) – böyük saxsı qab
Sincalmış (d) – saralmış, arıqlamış
Sıprıxmaq (d) – birdən-birə aradan çıxmaq
Sirab (f) – sudan doymuş, su içib doymuş
Sital (d) – nadinc
Suluq (d) – qabar

**Ş**

Şapba (d) – zərbə

Şəhamət (ə) – qoçaqlıq, igidlik
Şəmşir (f) – qılınc
Şərm (f) – həya, xəcalət, utanma
Şikar (f) – ov,

**T**

Təbdil (ə) – başqa şəklə salma, dəyişdirmə
Təhsin (ə) – yaxşılaşdırma, tərifləmə
Təkmil (ə) – kamala çatdırma, təkmiləşdirmə
Tələk (d) – toyuq tükü
Təlləmək (d) – aldatmaq
Təng (f) – dar, darısqal
Təşviq (ə) – şövqə gətirmə, şövqləndirmə
Tıxçılamaq (d) – silkələmək
Tovu çatmaq (d) – gücü çatmaq
Tumşuğ (d) – üzdə burun, ağız bölümü.

**Ü**

Ümman (ə) – böyük dəniz, dərya

**V**

Vəceh – yəni çox gözəl, göyçək
Vərək – gül, bitki
Vırıq (d) – çox danışan adam

**Y**

Yedək (d) – kiçik boşqab
Yordana – iş bilən, işin bilən

**Z**

Zəkavət (ə) – dərin düşüncə, zehin
Zəyəl (d) – kal
Zindəgi (f) – həyat, yaşayış
Ziyrik (d) – qaş-qabaq
Zülf (f) – saç, tel
Zülfüqar (ə) – ikiağızlı, ikitiyəli qılınc

# ƏDƏBİYYAT

1. Atalar sözü, elin gözü. (Toplayan: Həsən bəy Hadi), Təbriz, 2005.

2. Ata-bablar deyiblər. (Hazırlayan: Əli Zəfərxah), Təbriz, 1987.

3. Azərbaycan şifahi xalq ədəbiyyatı. (Toplayan: doktor Məmmədhəsən Pedram), Təbriz, 1963.

4. Azərbaycan nağılları. (Toplayıb, hazırlayan Qənbər Seyfi). Araz yayın evi, Tehran, 1397.

5. Azərbaycan nağılları. (Hazırlayan: Furuğ Xızırli (Xoy), Təbriz, 2013.

6. "Azərbaycan El bilimi" dərgisi, Baş redaktor: Əhəd Fərəhməndi.

7. Ənnəmlə mən. (Toplayıb hazırlayan: S.Nəvadeyi Rəzi). Tehran, 1393

8. Bayatılar. (Toplayan: Hüseyn Hüseyni Qara Ağac), Təbriz, 1991.

9. Deyimlər. Aralı-soralı sözlər. (Toplayıb hazırlayan: Həsən bəy Hadi), Təbriz, 2005.

10. Mir Hidayət Hesari. "Seyri dər folklor Azərbaycan bər əsas munuqrafi-e məntəq-e Yekanat", Tehran, Taban, 1969.

11. Şancanlı Xürrəm. Ədəb xəzinəsi. Tehran, 1980.

12. Zöhre Vəfai. Tapmacalar, Təbriz, 2004.

13. AzariEldili@yahoo. com ("Azəri" jurnalı, Baş redaktor: Behzad Behzadi)

14. www.Khudafarin.ir ("Xudafərin" dərgisi, Baş redaktor: Hüseyn Şərqidərəcik (Soytürk).

## MÜNDƏRİCAT


**ÖN SÖZ ........ 3**

**UŞAQ FOLKLORU ........ 12**
**NAZLAMALAR ........ 12**
**LAYLALAR ........ 18**
**MÜXTƏLİF UŞAQ ŞEİRLƏR ........ 20**
Say ........ 23

**İSKƏMƏRDƏ UŞAQ OYUNLARI ........ 24**
Çibbolik ........ 25
Uzun eşşək oyunu (hustana) ........ 27
Çiling ağac oyunu ........ 27
Ana-bala oyunu (1) ........ 28
Ana-bala oyunu (2) ........ 30
Əl-ələ ........ 31
Uşaq oyununun başqa bir növü ........ 31
Kökə oyunu ........ 32
Bir quşum var bu boyda ........ 32
Mizraq oyunu ........ 33

**YANILTMACLAR ........ 34**
**TAPMACALAR ........ 36**
**ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR ........ 61**
**İNAMLAR, SINAMALAR ........ 137**
**DEYİMLƏR ........ 151**
**DAŞLAR, MUNCUQLAR ........ 154**
**XALQ TƏBABƏTİ ........ 156**
**BAYATILAR ........ 163**
**NAĞILLAR ........ 178**
Fəndi ki sizdədir, tasması da məndədir ........ 178
Ovçu Pirim və ilan padşahı ........ 180
Qurdun nağılı ........ 181
İlanla atlı ........ 185
Donğuzanqurdının nağılı ........ 186

Birə bəyin bit xanımın nağılı ..................................... 188
Canavarla tülkünün nağılı ......................................... 189
Tülkü........................................................................190
Vərək qıranın nağılı ................................................ 192
Kündəyeyən, adamyeyən ........................................... 194
Ağıllı qız və tənbəl Əhməd ........................................ 201
Keçəl ......................................................................... 208
Çobanın oğlu ............................................................ 212
İki qardaş .................................................................. 231
Dərzi qızı .................................................................. 233
Qarqu......................................................................... 240
Şah Abbas və pinəçi.................................................. 249
Gülü-mola.................................................................. 253
İşıqlı dünya ............................................................... 275
Xoruz-u nəqəlxu ....................................................... 285
Dərvişin möcüzəsi..................................................... 299
Keçəl və Mirzə.......................................................... 302
Siyavuş ..................................................................... 305
Qaraçı qızı ................................................................ 308
Kəllə və çoban .......................................................... 309
Mal verməyənlə malından keçməyən ........................ 319
Şikarçı və zərgər ....................................................... 321
Bürk götürənin nağılı ............................................... 322
Vaxsey nağılı.............................................................324
Hadi ilə Hudu.............................................................329

**LƏTİFƏLƏR.................................................................334**

Biri ölməsə, biri dirilməyəcək .................................. 334
Yağa da, yağmaya da elə qaragünlü bizik.................. 334
Yoxsa buğdanın yarısı getmişdi ................................ 335
Elə bil dartılmamış dənin var .................................... 336
Yer yalanı danış, göy yalanı yox ............................... 336
Kim-kimədi ............................................................... 337
Görünür, kim sancılanır ............................................ 338
Elə başın qatmamışam ki .......................................... 338
Yekan bəyi................................................................ 338

Nökərin Əbdülkərim ................................................ 339
Saqqal ələ verməmişəm ............................................ 339
Mən bu işə mat qalmışam.......................................... 339
Müftə yeyən işləməz ................................................ 340
Pulum yoxdur, yerə gedirəm .................................... 340
Haram var, hara gedəm? ........................................... 340
Nə qələt varsa, kuzədəki yağdadır ............................ 340
Açıq ağız boş qalmaz ............................................... 341
Olmasın azar ............................................................ 341
Elə belə edirsiz ki, bu yanlara dolanan olmur ............ 341
Gəl tüpür mənim üzümə ........................................... 341
Arşin gətir bez götür, çuval gətir qoz götür ............... 342
Ayı yellənir, qaban oynayır ...................................... 343
Qabaqca öldürürlər, sonra baxırlar ........................... 343
Çox tamah adamı az yeməkdən də qoyar.................... 343
Adin demə, bas belimə ............................................. 344
Üst-başindan bəlli olur ............................................. 344
Dəvə uşaq imiş ......................................................... 344
Oynadan belə oynadar .............................................. 345
Hələ bir yerə gümanım gəlir ..................................... 345
Olsa aşımın suyu olmasa, başımın suyu..................... 346
İndi düşdün quş həddinə ........................................... 346
Gözümdən pislik görmüşəm, amma sizdən yox.......... 347
Mənə bir şey qalmır ................................................. 347
Lotular qoydular yatam səni yuxuda görəm................ 347
Mən də sümük xırdasın görürdüm ............................ 348
Misdi, oda qoyarsan olar isti .................................... 348
Nə dirisindən xeyir gördük, nə ölüsündən ................. 349
Yorğanına bax, qıçını uzat ........................................ 349
Verdiyin bir abası qara puldur, xəyalın var
heriz xalısı çıxsın! .................................................... 350
Bundan sonra əlivi öz cibində qızdır ......................... 350
Nahari burda ye, ailəni evdə dolandır ........................ 350
Bekar adamıq, oturmuşuq ........................................ 351
Axı siz bilmirsiz ki, mən alta nələr yığmışam............ 351

Day nə deyim........................................................... 351
Yudum da, daradım da............................................... 352
Tutarsa – yoğurt, tutmazsa – ayran............................ 352
Orucluqdan çox razıyıq, hələ peşvazına da çıxaq........ 352
Sən eləyən fikri mən də elədim ................................ 352
Cəvahir kimi xalı aparırsan ....................................... 353
Qurutdum, qurutmamış olum ..................................... 353
Sən verirsən şordan-mordan....................................... 354
Alçaqkönül peyğəmbər ............................................... 354
Bu sən, bu da dayıvın xarabası.................................. 354
Mənə suyu yoxdur, sənə ki çörəyi var ....................... 355
Bunun əlindən nələr çəkirəm..................................... 355
Gətirib qoymayıbsan.................................................. 356
Çək çənəsin, səfehlədi............................................... 356
Bu gün əlin boş olduğu üçün üzüvə baxdım .............. 356
Denən, hacı ölüb da .................................................. 357
Xata elədik, şərik olduq ............................................ 357
Çal çaxmağını, tapım başmağımı .............................. 357
Bu qamander o qamanderlərdən deyil ....................... 358
Şəhrdar olandan hesaba qoymursan........................... 358
Ömrünün hamisi hədərdi............................................ 359
Qənd qurtardı ki, qurtardı, səfi niyə pozursuz?.......... 359
Gətirməyib, aparmaz da ............................................ 359
Sən oxuyursan, mən əzbərəm.................................... 360
Səni bura gətirən ölsün.............................................. 360
Qoyun yarsın, özünü öldürsün................................... 360
Sular yığışıb sel oldu, sürünü apardı......................... 361
Cimbli cimbü ............................................................ 361
Hesab var dinar-dinar, bəxşiş var tümən-tümən.......... 362
Xan məni dindirdi...................................................... 362
Xeyr, növbət bizimdi ................................................ 362
Biz üçümüzü hara aparırsan? .................................... 363
Əvvəl yerini qaz, sonra minarını oğurla..................... 363
Bas daşa, itinki duadan keçdi .................................... 363
Ölü durub mürdəşoyu yuyur...................................... 363

Bura “inşaallah” yeri deyil .......................................... 364
Alma satan qoca və Bəhlul Danəndə .......................... 364
Kəndlinin hazırcavablığı .............................................. 366
Alan kimdi? ................................................................. 367
Əbaçı oğlunun sim mərsiyəsi ...................................... 368
Qurd ............................................................................ 368
O yana döndər məni .................................................... 368
Nəsirzadə: bəli! ........................................................... 369
Sarı Quluxanın balaca oğlu ......................................... 369
Özü tutsun, özü də yesin ............................................. 370
Hələ harasın dolmusan? .............................................. 370
Ya gərək kərə verəsiz, ya gərək ərə verəsiz ................ 371
Arvad yığışdır burdan gedax ...................................... 371
Eşşək qaziyəsi ............................................................. 372
Haci, sürtəcağam ......................................................... 372
Əl-əyağıvı yığışdır getməlisən .................................... 373
Ya həzrət məryəm, məni üzə qoymaya ........................ 374
Onu mən göndərməmişdim ......................................... 374
Cözvə diyirəm ............................................................ 375
Zirhusuna da yağ qoy .................................................. 375
On dənə qonağın öldürrəm .......................................... 375
Əbaçı oğlu və oğrular .................................................. 376
Əsgər Qilifəti Tehranda .............................................. 377
Mollasan, ya Axund ..................................................... 377
Dərvazadan keçmək .................................................... 378
İki qran artıq alıb ........................................................ 378
Eşşəyin qohumları ....................................................... 379
Əbaçı oğlundan vergi .................................................. 379
Məni üzdən apar .......................................................... 379
Rahat olasan ............................................................... 380
Təpik ........................................................................... 380
Miyallaq durmaq .......................................................... 381
Dəvəyə minmək ........................................................... 381
Hüseyin Fışkaçı ........................................................... 381
Eşşəkdən azar isdəmək ................................................ 382

Hünəri var iki dənə səngik alsın ..................................382
Əsgəranlı və baş dolandırmaq ....................................383

**TƏBRİZ SARIMALARI ..................................................386**
**TOY ADƏTLƏRİ ..............................................................388**
Güney mahalında yerləşən Nemətulla kəndinin
adət və ənənələri ........................................................388
Evlənmək.......................................................................388
Yengə ............................................................................390
Bəyi üzə çıxarma .........................................................391

**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT..................392**
**LÜĞƏT.............................................................................395**
**ƏDƏBİYYAT ................................................................. 401**

**Güney Azərbaycan folkloru,**
**VIII kitab.**
Bakı, Elm və təhsil, 2019.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığan:
**Lalə Rzayeva**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Səadət Əliyeva**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 408 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.